# ŞAHMƏMMƏD

# SEÇİLMİŞ ƏSƏRLƏR
# BEŞ CİLDDƏ

# ŞEİRLƏR

## CİLD III

«MBM» nəşriyyatı
Bakı - 2009

| | |
|---|---|
| **Redaktor:** | **Zülfiqar Şahsevənli** |
| **Naşir:** | **Rafiq Xan-Sayad oğlu** |
| | |
| **Tərtibatçılar:** | **Könül Abasova** |
| | **Fərqanə Məmmədova** |
| **Korrektorlar:** | **Ruhiyyə Rasimqızı** |
| | **Günel Idrisqızı** |
| **Dizaynerlər:** | **Ceyhun Əliyev** |
| | **Iradə Əhmədova** |
| **Operatorlar:** | **Aysel Həsənova** |
| | **Gülarə Hacıyeva** |

**Şahməmmədov Şahməmməd Gülməmməd oğlu,**
**«Seçilmiş əsərlər» beş cilddə, (şeirlər), cild III.**
**Bakı, «MBM» 2009, 400 səh.**

**ISBN: 978-9952-29-016-3**

**© Şahməmməd**
**«MBM»**

## SƏN YAŞIMI SORUŞURSAN...

Sən yaşımı soruşursan... Necə söyləyim?
Üfüqlərdə sən al Günəş, mən bir közərti.
Zirvələrdən uçub, keçib gənclik küləyim,
Ocağımdan yan düşməyib, fəqət, köz ətri.

Sən yaşımı soruşursan... Xərclənib illər...
Xəzinədə qəpiklərin sorağı qalıb.
Sən yaşımı soruşursan... Xərclənib nələr...
At belində bir igidin yarağı qalıb.

Sən nəğməsən, içir səni şərqi deyənlər,
Mən dişlərin daş əritmiş canlı bir daraq.
Məni yeyib qurtarıbdır adamyeyənlər,
Sənin isə saçlarına çəkilir sığal.

Varlığından bir hüceyrə uzaqlaşanda,
Əvəzində beş hüceyrən boylanır sənin.
Mənimləsə beş hüceyrə vidalaşanda,
Sən şöləsi qurban gəzən bəzəkli çıraq.

Saçlarımda yuva qurub qış fəlsəfəsi,
Sənin isə saçın qara, yaşın ağappaq.
Aramızdan sərhəd çəkib yaş fəlsəfəsi,
Ürəklərdən keçənlərə gəl nöqtə qoyaq...

Sən yaşımı soruşursan... Nəyinə gərək?
İstəməzdim istəklərin qala yarımçıq.
Duyğuların toplusudur, daş deyil ürək,
Gərək mən də daş olmayım danışım açıq.

Sən yaşımı soruşursan... Bax, budur yaşım,
Suallara kölgə salan cavab qaldımı?
Təpəlikdən gözlərimə baxır baş daşı,
Eh, bu yolun yolçusudur həyatda hamı...

Sən yaşımı soruşursan... Xərclənib illər...
Xəzinədə qəpiklərin sorağı qalıb.
Sən yaşımı soruşursan... Xərclənib nələr...
At belində bir igidin yarağı qalıb.

***2009***

## HƏLƏ DEMƏDİKLƏRİM

Sevirəm mən səni səndən xəbərsiz,
Eşqinin odunda yanır varlığım.
Varımı, yoxumu udub sən – dəniz,
Əzizim, qaralıb gözümün ağı.

Nə özün baxırsan, nə kölgən mənə,
Lalənin bağrında qara xalam mən.
Əllərim köksümdən uzanıb sənə,
Ruhum da, canım da sənsən, gülüm, sən.

Göylərə yazmışam adını, gülüm,
Üfüqdən boylanan Al Günəşimsən.
Nağılsan, nəğməsən bir də... Nə bilim...
Ümid sən, həsrət sən, ağ yollar da sən!...

***2009***

## ÇİSKİNLİ GECƏDƏ DÜŞÜNDÜKLƏRİM

Əzizim, boş yerə yemə içini,
Yerbəyer edəcək bizi bu həyat.
Unut birdəfəlik olub-keçəni,
Unut ki, köksündən güc alsın qanad.

Köksündə xallar yox, qoy mən yaşayım,
Qoy orda ev tikim özümə özüm.
Səni tütyə kimi öpüm, daşıyım,
Baxsın gözlərindən dünyaya gözüm.

Telini min telə dəyişmərəm mən,
Sən tayı olmayan bir dürr, bir gövhər...
Qopar ürəyindən gümanları sən,
Qoy lalələr bitsin qızıl, təzə, tər.

Gördünmü bu gecə xırda yağışı?
Gördünmü, yolları yuyurdu necə?
Çıxart, ürəyinə yük olan daşı,
Qoy sənə dərs olsun bu keçən gecə.

Sən idin, mən idim, bir də ağ yağış,
Qaranlıq gecədə hara baxırdıq?...
Baş-başa durmuşduq. Deyirdim: «Danış»,
Qoşulub yağışa biz də yağırdıq...

***2000***

## SƏNSİZ KEÇƏN BİR GÜNÜM

Sənsiz keçən bir günüm,
Dönüb yüz il olarmış.
Gündüzüm-gecəm, gülüm,
Alışarmış, yanarmış.

Ürəyini saxlayıb,
Ürəyimi apardın...
Qəmdən şələ bağlayıb,
Közdən həsrət qopardın.

Olub bir parça duman,
Yaladım izlərini.
Içimdə giley, güman,
«Sökdüm» əzizlərini...

Kölgən tutdu əlimdən,
Atəş qopdu içimdə.
Saçlarım oldu dən-dən,
Bax, bircə gün içində.

Axtardım yarı-dostu,
Ərimişdi qar kimi.
Telefonu da susdu,
Qara qayalar kimi.

Sənsiz keçən bir günüm,
Dönüb yüz il olarmış.
Gecəm-gündüzüm, gülüm,
Alışarmış, yanarmış...

***2000***

## DUZ SƏPDİN GECƏMƏ

Gecəmə duz səpdin bilə-bilə sən,
Gecəmin bir udum nəfəsi qalıb.
Sökdün ürəyimi ilmə-ilmə sən,
Canı yox, qanı yox, kölgəsi qalıb.

Sandım ki, bir anda saraldı bahar,
Sandım ki, qaralmış işığın mənəm.
Eh, sənə nə var ki, sən hökmdarsan,
Dünyanın dilbilməz uşağı mənəm.

Dinirəm gözümdə ildırım çaxır,
Susuram gen dünya dar gəlir mənə.
Saçıma göylərin ağ qarı yağır,
Dağları aşmamaq ar gəlir mənə.

Dili içmə deyir, gözü iç deyir,
Qalmışam dərmanlar arasında mən.
Içimdə qayalar baş-başa dəyir,
Uzanan çığırlar tutur əlimdən.

Mən kimə yalvarım, kimə deyim ki,
Dediyin o mələk, bəli, mənəm, mən.
Ya da ki, əynimə kəfən geyim ki,
Sən də bu dünyada qara geyəsən?

***2000***

## SƏNDƏN AYRI GECƏLƏR

Eh, səni məndən sorur,
Səndən ayrı gecələr.
Gözlərimdə tor qurur,
Səndən ayrı gecələr.

Əlimdə daraq qalır,
Bir mən, bir çıraq qalır.
Yatmır ki, oyaq qalır,
Səndən ayrı gecələr.

Kirpiklərdə nəm olur,
Kədər olur, qəm olur.
Mənə cəhənnəm olur,
Səndən ayrı gecələr.

Inan, təkliyim bezir,
Suala cavab gəzir.
Adına qurban kəsir,
Səndən ayrı gecələr.

Mən bir köklənmiş siməm,
Alışır, yanır sinəm.
Deyir günahkar mənəm,
Səndən ayrı gecələr.

Əsin küləklər, əsin,
Allah məni eşitsin.
Təki sona yetişsin,
Səndən ayrı gecələr.

***2000***

## SƏN MƏNƏ BU AXŞAM...

Yük olub qəlbinə qara şübhələr,
Gümanlar içində daş olmusan sən.
Çox görür dünyada məni sənə «şər»?
Iblislər tapşırıq alıb deyəsən...

Gizlicə, xəbərsiz getdin bu axşam,
Apardın gecəmi özünlə...Hara?
Söndü işığımız, alov tutdu şam,
Yox! Yox! Işıq oldu gülüm yar yara.

Yaman uzun çəkdi bu gecəm mənim,
Nə ulduzlar yatdı, nə mən, nə külək.
Asıldı gözümdən xəyalın sənin,
Çırpındı,göynədi bu gecə ürək.

Bu gecə, bir gecəm min gecə oldu,
Çıraqla mən qoşa yandım, əridim.
Sənə yalvarıram, de, necə oldu?
Bu axşam sən mənə «sağ ol»-demədin...

Qaranlıq gecələr içdi çırağı,
Yox, şərik küləklər qanadım oldu.
Yox, sən eləməzdin bu «şıltaqlığı»,
Səni sürükləyən inadın oldu.

Bu gecə qoşulub küləklərə mən,
Döydüm qapınızı səssiz-səmirsiz.
Çox şirin yatmışdın ağ yataqda sən,
Gecədən xəbərsiz, məndən xəbərsiz.

Bu gecə, bir gecəm min gecə oldu,
Çıraqla mən qoşa yandım, əridim.
Sənə yalvarıram, de, necə oldu?
Bu axşam sən mənə «sağ ol»- demədin.

***2000***

**DİDİR MƏNİ GECƏLƏR**

Gecə yata bilmirəm
Didir məni gecələr.
Didir məni necələr,
Elə donub qalıram.
Pəncərənin önündə,
Çırpınır gözlərimdə,
Çılın-çırpaq küçələr.
Bizim evə gələn yol.
Bizim evdən gedən yol,
Nə ondan bir xəbər var,
Nə mənim taleyimdən
«Dəli» olasıyam mən...
Siqar çəkə bilmirəm,
Siqar çəkməmişəm mən
Həsrət çəkən olmuşam.
Bəlkə insan deyiləm?
Bəlkə elə bir daşam?!
Nə mən görə bilirəm,
Nə də məni görürlər.
Mən gövhər yatağıyam,
Ürəyimi sökürlər.
Kədər, qəm olmuşam mən.
Bu dünyanın dərdinə,
Sanki tək olmuşam mən.
Gecə yata bilmirəm

Öpüşə həsrət qalır
Qara kirpiklərin də.
Öpüşə həsrət qalır,
Qapqara günlərim də.
Öpüşə həsrət qalıb
Buz bağlamış dodaqlar.
Nə donunu açan var,
Nə qapını döyən var
Nə bir məni «söyən» var,
Nə bir məni oxşayan...
Yanır qəlbim ay aman...
Boğur məni gecələr,
Boğur məni necələr...
Vallah, yata bilmirəm,
Bu sevginin əlindən
Allah, nə günahım var,
Yapışmırsan əlimdən?!
Qıfıl asıb dilimdən,
Yetişirəm səhərə.
Ölə-ölə içimdə,
Bilə-bilə içimdə
Bir atəş yaşadıram.
Gələn qara gecənin,
Qara baxışlarını
Gecə əritmək üçün.
Ey məni duymayanlar,
Məni udan sevgimin
Bircə giləsin için.
Yaşayın gecələrin
Qara səssizliyini.
Kimə deyim, kimə mən?
Hara gedim, hara mən?
Hara alıb aparım

Hara?
Sənsizliyimi...
Siqar çəkə bilmirəm,
Bələnim tüstüsünə.
Şərab içə bilmirəm,
Qarışım istisinə.
Gecə yata bilmirəm
Uzun olur gecələr...
Mənə həmdəm gecələr...
Eh... Sizlərə nə var ki,
Mənə qalır gecələr
Mənə qalır gecələr...

***2000***

## GECƏYARI

Gecəyarı yarın yarı yaş tökür,
Gecəyarı yarın qanı qaralıb.
Gecəyarı qara gözlər yol çəkir,
Gecəyarı cığırları qar alıb.

Gecə qara, qarışıbdır qar, qara,
Qar neyləsin, yar yarası yanarmış.
Gecə qara, qan da qara, qəlb qara,
Gecə qara, ağdan qara yaranmış.

Gecəyarı, yarım böldü yaramı,
Yarı yardan, vallah yara yar olmaz!
Yaralıdır, yar yandırıb yaranı,
Yarın yanır... Yar, yar belə yaramaz!..

«Yaramaz» da dedi dilim, ürək yox,
Dil deyəni ürəyimə tuş etmə.

Ürək varsa, ürək olsun külək yox,
Ürəyimi ürəyində qış etmə.

Gecə yarım, gecəyarı yağdı qar,
Gecəyarı bağrım başı yarıldı.
Gecə bildik, gecə yandı, gecə yar,
Qara gecəm, qara gəldi, qaraldı.

***2000***

## GECƏLƏR YAŞAMIRAM

Gecələr yaşamıram...
Sevənlər gecələr yaşamır,
Gecənin qaranlığına dözür.
Ürəyinin qapısını döyən
Işıqlı bir kölgənin sorağına dözür...
Gecələr yaşamıram...
Işıqlar yanır gecələr.
Ulduzlar boylanır gecələr,
Küləklər sızıldayır gecələr.
Mən qovruluram,
Yaralılar qovrulan kimi.
Buğdası döyülüb, döyülüb,
Samanı göylərə sovrulan kimi.
Gecələr yaşamıram...
Bütün yatmışlar arasında
Necə yaşayasan ki?...
Ürəyinin yükünü necə daşıyasan ki?...
Döyür qapımı kölgə donunda bir mələk,
Və deyir:
«Gərək gecə yaşayasan ki,
Gündüz də yaşayasan...»
Əzizim, çox asan düşünürsən, asan...

Gecələr yaşamıram...
Bir də ki,
Nəyimə lazımdır,
Gecələr yaşamaq?
Nəyimə lazımdır,
Gecənin dərinliyi?
Nəyimə lazımdır,
Çoxunun arzuladığı
Gecənin sərinliyi?
Mən yaşamaq istəyirəm,
Alışa-alışa!
Sənin külünə qarışa-qarışa!
Mən qatılmaq istəyirəm,
Sənin gözlərinə,
Gülən gözlərinə!...
Gecələr yaşamıram...
Asılır kirpiklərimdən
Səhərə kimi gecə!
Əzizim,
Sən necə keçirirsən,
Bu qaranlıq gecələri, necə?!...
***2000***

## GEDİRSƏN

Gedirsən gözlərin qalır arxada,
Gedirsən... Gedirsən ürəyi çılpaq.
Itirib odunu gözəl arxa da,
Göyərib yollarda daş qalaq-qalaq.

Gedirsən, boylanma, birdəfəlik get,
Xərclədin ömrünü qara pul kimi.
Eşit sözlərimi, sən də ey igid,
«Qadına» qul olma, qara pul kimi.

Qadının gözünün işığı ol sən,
Qadın gözlərinin olsa çırağı.
Görə bilməmişəm, kor olmuşam mən,
Görə bilməmişəm qaranı, ağı.

Şirin söz, odlu göz aldadıb məni,
Falçıdan xəbərsiz, məndən xəbərsiz.
Sənə tapşırıram bu gündən səni,
Tanrıdan xəbərsiz, səndən xəbərsiz.

Gedirsən adımı sil ürəyindən,
Olmaq istəmirəm xatirən belə.
Dünən «hə» demişdim, yanılmışam mən,
Bu gün «yox» deyirəm, «yox», bilə-bilə.

***2000***

## BİLMİRƏM

Pənahım sən idin, qibləm sən idin,
De, kimə yalvarım, kimə? Bilmirəm...
Içimi yandıran kəlməm sən idin,
De, kimə yalvarım, kimə? Bilmirəm...

Məhəbbət qanadlı quşa dönərmiş,
Məhəbbət bir damcı yaşa dönərmiş.
Yoxluğun əl boyda daşa dönərmiş,
De, kimə yalvarım, kimə? Bilmirəm...

Tökmə acığını sən acıq kimi,
Sən bir zalım kimi, mən yazıq kimi...
Sökülüb ürəyim alaçıq kimi,
De, kimə yalvarım, kimə? Bilmirəm...

Məni başa düşməz onlar, nə bunlar,
Qışqırır qayalar, qışqırır sular.
Didir ürəyimi, didir suallar,
De, kimə yalvarım, kimə? Bilmirəm...

Sənsiz nə ləzzəti yazın, baharın,
Sən mənim ağappaq ağaran qarım.
Dilənçi günündə yaşayır yarın,
De, kimə yalvarım, kimə? Bilmirəm...

Əllərim yetməyir, bəli uzaqsan,
Bir gün də bu yoldan qayıdacaqsan.
Deyirəm, bax onda uduzacaqsan...
De, kimə yalvarım, kimə? Bilmirəm...

***2000***

## AYRILDIQ DÜNYADA

Ayrıldıq dünyada... Sən sağ, mən də sağ,
Ayrıldıq dünyada səssiz-səmirsiz.
O şirin günlərdən uzağıq, uzaq,
Fəqət, o günləri yaşayırıq biz.

Qədrini bilmədim... Hər şey var ikən,
Sevgisi quzu tək bir qız «mələrdi».
Indi ilmə-ilmə qəlbimi sökən,
Söz dağı, göz dağı xatirələrdi.

Günaha batmışam, qəmə çatmışam,
Çiynimdə qapqara kölgələr yatır.
Sellər caynağında çırpınan daşam,
Nə əlləri çatır, nə əlim çatır.

Nə bir qarğış etdi, nə uğur dedi,
Nə mənim, nə onun üzü gülmədi.
Ölmüşəm, quzğunlar siz məni didin!
O məğrur gözəlin əli gəlmədi.

Bu düşən gecəmi, yoxsa dumanmı?
Ya mənim gözümün nuru tükənib?
Taleyim belədir, hökmü zamanmı?
Yox! Yox! Ağ işıqlar zirvədən enib...

Ayrıldıq dünyada... Sən sağ, mən də sağ,
Ayrıldıq dünyada səssiz-səmirsiz.
O şirin günlərdən uzağıq, uzaq,
Fəqət o günləri yaşayırıq biz...

***2000***

## DARIXMIŞAM SƏNİN ÜÇÜN

Hara getdin? Neyçün getdin?
Darıxmışam sənin üçün.
Gülüm, haradasan? Danış, din,
Darıxmışam sənin üçün.

Geri dönməz çaya dönmə,
Günə dönmə, aya dönmə.
Bulud üzlü Aya dönmə,
Darıxmışam sənin üçün.

Nə səsin var, nə sorağın,
Qəmə batıb od-ocağım.
Bircə sənsən umacağım,
Darıxmışam sənin üçün.

Alışmışam, sönmək tezdi,
Nə yaşım var?
                    Ölmək tezdi.
Xatirəyə dönmək tezdi,
Darıxmışam sənin üçün.

Qoyma yolda gözlərimi,
Nəzər kəsib sözlərimi.
Dəfn eləmə diri-diri,
Darıxmışam sənin üçün.

***2000***

## NƏ ŞİRİN ZƏNG İDİ

Nə şirin zəng idi, bu kədərli zəng,
Ən kövrək insanlar düşdü yadıma.
Ruhumun əlindən tutub ağ çiçək,
Mələk paltarında gəldi qapıma.
Insanlar səsimə yüklənib uçar,
Nə dağlar, nə sular yolunu kəsməz.
Ən şirin kəlmələr qəlbimi açar,
Vuran ürəyimin açarıdır səs.
Əzizim, səsinə qurban olum mən,
Varlığın günəş tək əridir məni.
Arzum da, hissim də, həsrətim də sən,
Qoy sıxım bağrımın başına səni.
Ildırım qüdrətli bu səs, bu səda,
Fikrimdə uca dağ, yaşıl bir ada...

***1999***

## GÜNAHKARAM, GÜNAHKARAM

Kimə deyim dərdimi mən,
Günahkaram, günahkaram.
Alnı açıq sənsən, sənsən!!
Günahkaram, günahkaram.

Dəniz qabarır üzümə,
Külək tuş gəlir gözümə.
Oxşamıram heç özümə,
Günahkaram, günahkaram.

Ocaq olub yanır içim,
Zəhər verin, alıb içim.
Niyə belə oldu, neyçün?
Günahkaram, günahkaram.

Mən sevmişdim, sən sevmişdin,
Hə demişdim, hə demişdin.
Soruşmayın, bu nə işdi?
Günahkaram, günahkaram.

Məni üfüqlərdən asın,
Yar gözündə düşdü yasım.
Allah özü çarə tapsın...
Günahkaram, günahkaram.

Gözəl doğub anan səni,
Sən əf elə, boğum qəmi.
Qısqanclığım yedi məni...
Günahkaram, günahkaram.

***2000***

## MƏNİM NƏ GÜNAHIM

Mənim nə günahım...Bağışla məni,
Günah od püskürən gözlərindədir.
Gedib nəzir payla, alqışla məni,
Bu gün bilirsənmi sevilmək nədir?

Səni bər-bəzəkli saxta gülüşlər,
Saxta göz yaşları aldada bilər.
Yandırar üzümü saxta öpüşlər,
Yandırar ömrümü, demirəm nələr...

Bu gün oxuduğun sevgi, məhəbbət,
Eh, dünən yazılan kitablardadı.
Bu gün bir meyar var, o da şan-şöhrət,
Gözləri gülənin gözü vardadı.

Mənimlə əl-ələ ev olacaqsan,
Səni qorxutmasın bu kasıb komam.
Qəlbimdə qalanmış tək bir ocaqsan,
Üstünə atılan alovam, odam.

Qismətdən uzağa qaçmaq çətindir,
Qisməti görməmək özü günahdı.
Sev məni əzizim, məni sevindir,
Sevəni sevməsən düzü günahdı.

Mənim nə günahım...Bağışla məni,
Günah od püskürən gözlərindədir.
Gedib nəzir payla, alqışla məni,
Bu gün bilirsənmi sevilmək nədir?

***2000***

## BİLİRƏM

Sən mənim başımın qızıl tacısan,
Yoxdu Yer üzündə səndən, bilirəm.
Sən elə şirinsən, elə acısan,
Dadını əzizim, tək mən bilirəm.

Od tökür gözlərin, köz istəmirəm,
Allahım, başqa bir göz istəmirəm.
Ürəyə toxunan söz istəmirəm,
Sən mənim bircəmsən, təksən bilirəm.

Eh... Səndən alıram odu, ocağı,
Yandır əllərinlə, yandır çırağı.
Yandır, sən qulaq as, mən deyim ağı,
Közərsin misralar dən-dən... Bilirəm...

Əllərim əlində zəncir kimidir,
Axır damarımdan Araz, dəli Kür.
Qəlbim qanad gərmiş ağ bir gəmidir,
Dəniz də, dərya da, sənsən bilirəm.

Bütöv bir ürəkdə saf niyyət olar,
Sevgi olan yerdə səadət olar.
Ay Allah, bu boyda məhəbbət olar?
Dəli olasısan ölsəm, bilirəm...

***2000***

## NƏ YAXŞI Kİ...

Uşaq idin, sevgi nədir bilməzdin,
Mən göz açıb seviləndə, sevəndə.
Həsrət düşüb qismətinə ta sənin,
Dözən olur hər sevilən, sevən də.

Dözməlisən, sən seçmisən bu yolu,
Göz yaşların göyəribdir odumda.
Yaşayırıq sən mən, mən sən qoxulu,
Ayrı-ayrı üfüqlərin odunda.

Bilirəm ki, əriyirsən mum kimi,
Əriməsən ürək yanmaz əzizim.
Itiribdir bu dünyada kim kimi?
Gözlərimiz yol çəkəcək eh, bizim...

Gözlərimiz günahıyla təkbətək,
Göz günahı, söz günahı ağırmış.
Gözlərimiz çəkdiyimi çəkəcək,
Saçımızın nə günahı? Ağarmış...

Nə yaxşı ki, həsrət də var, vüsal da,
Nə yaxşı ki, kədər də var, gülüş də.
Daş olardıq dərələrdə, dağlarda,
Daş olardı özü boyda Günəş də.

Uşaq idin, sevgi nədir bilməzdin,
Mən göz açıb seviləndə, sevəndə.
Həsrət düşüb qismətinə ta sənin,
Dözən olur hər sevilən, sevən də...

***2000***

## «O» DA...«O» DA...

Bir şəhərin mərkəzində yaşayırıq,
Bir şəhərdə nəfəs alır «O» da,«O» da...
Eşqimizi tütyə kimi köksümüzdə daşıyırıq,
Qalanarıq sevgi boyda qızıl oda.

Biri sənin nifrətinin kölgəsidi,
Biri mənə soyuq zaman, soyuq məkan.
Biri sənin ürəyinin daş səsidi,
Biri mənim yollarımda bitən tikan.

Bir şəhərdə yaşayırıq dördümüz də,
Nə «O» mənə yaraşıqdı, nə sən «O»na.
Qara kölgə yara kimi gözümüzdə,
Daş atını çapar sağa, çapar sola.

«Maska» taxıb dünyasına «O» da, «O» da...
Bizi bizdən qoparmağa çalışanlar.
Məqam gəzir, yerdə, göydə, orda-burda,
Məqam gəzir öz içində alışanlar.

Bu sevgini öldürməyə silahlanıb,
Heç bilmir ki, ölüb «O» da, ölüb «O» da.
Onun-bunun dərdin çəkmək bizə qalıb?
Yaşayırıq, dörd yanımız yaşıl ada...

***2000***

## GÖRÜŞƏ BİLMİRİK

Aramızdan pişik keçib əzizim,
Çırpınırıq ha... Görüşə bilmirik.
Yox! Yox! Bizi həsrət içib əzizim,
Saydığını say, görüşə bilmirik.

Dəli olar bu dünyada «dəli» də,
Daş olarmış sevənlərin dili də.
Kəndimizi iki bölən dərədə,
Aşıb-daşır çay, görüşə bilmirik.

Niyə bizdən üz döndərib ağ işıq?
Çal sazını, çal ağlayım ay aşıq...
Yəqin bizi qarğış kəsib... Olmuşuq,
Qayalara tay, görüşə bilmirik.

Hanı bir yol görüşək biz. Necə? De?
Heç olmasa soruş halım necədi...
Eh, bu gecə nə qaranlıq gecədi ,
Yoxa çıxıb Ay, görüşə bilmirik.

Nə istədim, gör bir gözəl nə yedim,
Nə demişdim, gör bir Tanrı nə dedi.
Çatmır gücüm, ocaq çatım, əl edim,
Yoxdu canda hay, görüşə bilmirik.

***2000***

## SƏNİN GÖZƏLLİYİN

Sənin gözəlliyin dumduru sudu,
Gedirsən baxıram, həsrət qəlbimdə.
Sənin gözəlliyin gözəl, arzudu,
Yetişmək də olar, yetişməmək də...

Sən qürur sahibi, qul sahibisən,
Yandıran da sənsən, yanan da sənsən.
Mən heç nə bilmirəm, özün bilirsən,
Hicransan, vüsalsan, qismətsən, nəsən...

Əlimdən tutursan əlim alışır,
Gözümə baxırsan titrəyir gözüm.
Kənara baxırsan aləm qarışır,
Qarışır közərən ocağım, közüm.

Kimə baxma deyim, kimə bax deyim,
Bu ki, günah deyil, cinayət deyil.
Hərə bir söz deyir, kimə «yox» deyim,
Göynəyir içimdə tonqal elə bil.

Sənin gözəlliyin dərd olub mənə.
Bilirəm bir zaman «ağlayacaqsan».
Illərin nimdaşın geydirsəm sənə,
Yenə də, yenə də parlayacaqsan.

Sənin gözəlliyin aylı bir gecə,
Sənin gözəlliyin bilmirəm nədi?
Sənin gözəlliyin sənə faciə,
Sənin gözəlliyin mənə kədərdi...

***2000***

## SEVGISİZ YAŞAMAQ OLMUR

Sevgisiz yaşamaq olmur,
Sevgi özü bir dünyadır.
Yar deyəndə gözüm dolur,
O, zirvədən baxan qardır.

Il bölünər qışa, yaza,
Tanrı gör nələr yaradır.
Allah, hər şey bir yanasa,
Məhəbbət də bir yanadır.

Çəkən bilir nədir həsrət,
Yanır könlüm puçur-puçur.
Nə dağ bilir, nə də sərhəd,
Alır məni uçur, uçur...

Onsuz ömür, ömür deyil,
Onsuz ömrüm viranədir.
Sil ey gözəl, yaşımı sil,
Sorma, gülüm dərdim nədir?

Yaşamağın dadı sevgi,
Həsrət, hicran ağ qanadı.
Bu dünyanın adı sevgi,
O dünyanın yoxdur adı...

***2000***

## İNCİMİŞƏM

Adımıza yaraşmayan,
Söz demisən incimişəm.
Indən belə sən alış, yan!
Heç kimimsən, incimişəm.

Üzdən süzən, üzdən gülən,
Deyirsən ki: - Nadir güləm.
Məni bir əyləncə bilən,
Bəli, sənsən incimişəm.

Yağış olub yağan da sən,
Taleyimə doğan da sən.
Mələk kimi baxanda sən,
Sussan da sən, incimişəm...

Sevib-seçmək nədir məyər?
Yar-yar üçün boyun əyər?
Kişi sözün açıq deyər,
Səndən, səndən incimişəm.

Heç soruşma nədən oldu,
Ayrılmazdım, səndən oldu!
Qara saçım dən-dən oldu,
Əzizim, mən incimişəm.

Eh, mən hara, eh hara sən,
Duz səpilmiş, bir yaram sən.
Çəkdiyimi çəkirəm mən,
Öz-özümdən incimişəm.

***2000***

## DİNƏN DEYİLƏM

Bu gün sığışmıram mən yerə, göyə,
Toxunma qəlbimə, dinən deyiləm.
Içimdən keçəni danışım deyə,
Özüm öz dilimlə dinən deyiləm.

Hamıdan xəbərsiz sənli bağrımı,
Kədərli bağrımı, qəmli bağrımı.
Kimsəsiz bağrımı, kimli bağrımı,
Söksən sən əlinlə dinən deyiləm.

Apar, əllərimdən yapışıb apar,
Bir gün, gün doğanda bir gün yağar qar.
Hər ömrün dünyada bir axarı var,
Desən öl mənimlə, dinən deyiləm.

Bir ağac kökündə calanmaq üçün,
Bir uca tonqala qalanmaq üçün.
Əl çatmaz dağları dolanmaq üçün,
Quş olsam səninlə, dinən deyiləm.

Üzümdən nur yağır, dünyam küləkdir,
Desəm mən deyiləm, sevən ürəkdir,
Bilsəm ki, bu ürək sənə gərəkdir,
Ver desən dilinlə, dinən deyiləm.

Xoşbəxt yaşayıram o gündən bəri,
Sən oldun eşqimin zəri, zərgəri.
Payıma düşmüsən götür xəncəri,
Qəlbimi dilimlə, dinən deyiləm.

***2000***

## DAĞ ÇƏKƏCƏM

Mənə dağ çəkmisən məhəbbətinlə,
Sənə dağ çəkəcəm, məhəbbət dağı.
Oyun oynamasın səadətimə,
Əriyib, qurtarıb qəlbimin yağı.

Sənə dağ çəkəcəm gözün görəsi,
Sevəcəm birini, sevəcək məni.
Sənə dağ çəkəcəm gözün giləsi,
Əriyib gedəcək ürəyim kimi.

Sənə dağ çəkəcəm məhəbbətimlə,
Üstünə göylərin qarı yağacaq.
Həsrətə verəcəm səni əlimlə,
Səni yox, özümü yaşım boğacaq.

Gecikmiş olsan da ayılacaqsan,
Döyəcək qapını Bakı küləyi.
Yetim uşaq kimi ağlayacaqsan,
Kədər göyərdəcək qəlbin, ürəyin.

Sənə dağ çəkəcəm yaşamağımla,
Bu bir qarğış deyil, intiqam deyil.
Gülüm, dəli olma, sızılda, ağla,
Bunu mən deyirəm, bəli, mən səfil...

***2000***

## SƏNİN ÜÇÜN YAŞAYIRAM

Nə qədər ki, sağam, varam,
Sənin üçün yaşayıram.
Özüm üçün yaşamıram,
Sənin üçün yaşayıram.

Al Günəşdir qəlbindəki,
Sönə bilməz qəlbimdəki.
Bir dünyasan.. Biləndə ki...
Sənin üçün yaşayıram.

Ürəyimin incisisən,
Laləsisən, nərgizisən.
Nər kişinin ər qızı sən,
Sənin üçün yaşayıram.

Sən bir dünya, mən bir dünya,
Sən sirr dünya, mən dürr dünya.
(O görməsə sən gör dünya!)
Sənin üçün yaşayıram...

Sevməsən də sevəsiyəm,
Deməsən də gələsiyəm.
Bu kəlməni deyəsiyəm,
Sənin üçün yaşayıram.

Ahım çatar, yerdən göyə,
Gəl əzizim, sorma niyə.
Həsrətini görə-görə,
Sənin üçün yaşayıram.

***2000***

## GÖZLƏRİMDƏN UZAQ DÜŞMƏ

Yalvarıram, gülə-gülə,
Gözlərimdən uzaq düşmə.
Rəhmin gəlsin... Bilə-bilə,
Gözlərimdən uzaq düşmə.

Mən bir parça daş deyiləm,
Göz yandıran yaş deyiləm.
Mələr qalmış neyəm, neyəm,
Gözlərimdən uzaq düşmə.

Ürək yanar közü mənəm,
Bir dəlin var, düzü mənəm.
O igidin özü mənəm,
Gözlərimdən uzaq düşmə.

Sev demişəm, sev demisən,
Hara uçsan mənimkisən.
Demirəm ki, hardasan sən?
Gözlərimdən uzaq düşmə.

Tale məni qaralayar,
Ağ yollara qar yağar qar.
Qoyma məni nigaran yar,
Gözlərimdən uzaq düşmə.

Quma basar dəniz məni,
Dalğa boğar sənsiz məni.
Itirərsən mənsiz məni,
Gözlərimdən uzaq düşmə.

***2000***

## SEVMİŞƏM

Olmuşam dərdindən dəli, divanə,
Səni sevən kəsə yazığın gəlmir.
Gözlərim közərib, yaş danə-danə,
Gözlərim bir gecə yatmır, dincəlmir.

Nə səsim yetişir, nə əlim çatır,
Dünyası dağılmış sevənin mənəm.
Səninçin nə fərqi Gün doğur, batır,
Torpaqdan boylanan, ölənin mənəm.

Sənin nə günahın, günah mənimdi,
Özünü sevdirən mən olmamışam?
Allah, çağırıram, pənah sənindi,
Nəfəsim üzülüb qara bir daşam...

Qoy öpüm saçından, tutum əlindən,
Qoy yansın dodağım, qoy yansın əlim.
Bu qədər yaxınkən uzaqdasan sən,
Göynəyir ürəyim, alışır qəmim.

Səni mən sevmişəm, sən başqasını,
Sən mənə «yox« söylə, yox olum gülüm.
Söndürə bilmirəm qasırğasını,
Bu yazıq könlümün, yazıq qəlbimin...

***2000***

## SAXTA BİR İNSANI SEVƏN DEYİLƏM

Sevirəm sözünü yalan deyirsən,
Sevənin dilindən od-alov yağar.
«Yox» desəm ağarar saçlarım dən-dən,
Gözündə Ay batar, buludlar doğar.

Sevirəm sözünü gətirmə dilə,
Günaha batarsan, qəmə batarsan.
Aldanma əzizim, sən bilə-bilə,
Qaralar üfüqlər, qara geyər dan...

Qara geyinərik mən də, həyat da,
Qarışar gözümün qarası, ağı.
Dönüb heç olarsan sən də, həyat da,
Sönər bir ürəyin yanar çırağı.

Sevirəm sözünü demə yalandan,
Bəli, müqəddəsdir, əzizdir bu söz.
Sən ki, başdan-başa yalansan yalan,
Qırsın o yollardan həsrətini göz.

Sevirəm sözünü yalandan demə,
Ləkələr götürmək gəlmir əlimdən.
Sənə yalvarıram gəl saxta gülmə,
Saxta bir insanı sevən deyiləm...

***2000***

## SƏN MƏNİ BİR DAHA...

Sən məni bir daha görməyəcəksən,
Səni sevən kəsin köçdü, keçindi.
Mənimlə ağlayıb, gülməyəcəksən,
Itmiş, itirilmiş dünyasan indi.

Əllərin saçımı gəzəcək mənim,
Gözün gözlərimdə od gəzəcəkdir.
Batıb ağ sulara gördüyün sənin,
Alışan, sayrışan eh, börböcəkdir.

Dənizlə üzbəüz tək qalacaqsan,
Dalğalar üstünə atılacaqdır.
Günbəgün, aybaay qocalacaqsan,
Günlərin, ayların satılacaqdır.

Küləklər saçından yapışıb sənin,
Sahil qumlarında sürüyəcəkdir.
Şirin kəlmələrim, öpüşüm mənim,
Şor dəniz suyunda çürüyəcəkdir.

Biri uzaqlarda balıq tutacaq,
Biri quzuların otaracaqdır.
Qağayı özünə yem axtaracaq,
Biri də kimisə axtaracaqdır.

Sən məni bir daha görməyəcəksən,
Səni sevən kəsin köçdü, keçindi.
Sən daha ağlayıb, gülməyəcəksən,
Itmiş, itirilmiş dünyasan indi.

***2000***

## AĞ ÇİÇƏYİM

Ay incə bel, şirin söz,
Ay gül yanaq, xurma göz.
Mənim «dəli» könlümdə,
Sən köz qalamısan, köz

Bu dünyamın nuru sən,
Mən Məcnunam, yarı sən.
Qəlbimdə bir ümid var,
Yarı mənəm, yarı sən.

Qar basıb izlərimi,
Məlhəm bil sözlərimi.
Gedişin can yandırar,
Gəlişin gözlərimi.

Bülbüləm sən bağça-bağ,
Mən nişangah, sən yaraq.
Ay gözümün işığı,
Gecənəm, yandır çıraq.

Dağların dağ çiçəyi,
Xal düşər, yığ çiçəyi.
Qurban de, qurban olum,
A mənim ağ çiçəyim.

***1999***

## MƏN VƏ SƏN

Duymusan qəlbimdən keçənləri sən,
Təkcə dilim gəlmir açam, danışam.
Gözü od püskürən, saçları dən-dən,
Sevirsən demisən, qorxub danmısan.

Danmışam gözümdən könlümə qədər,
Danmışam lal olmuş məhəbbətimi.
Yanmışam közümdən külümə qədər,
Sənə qaytarmışam səadətimi.

Qorxuram dünyanın göz yaşlarından,
Səni gözəlliyin əlimdən alar.
Qorxmuşam bir zaman uşaqlarımdan,
Işıqlı gözlərin kölgəmi çalar.

Qorxmuşam əlində bir dəstə çiçək,
Gedəsən bir yolun mənsizliyinə.
Qorxmuşam saçından yapışa külək,
Çırpa baş daşımın səssizliyinə.

Duymusan qəlbimdən keçənləri sən,
Duymuşam, qəlbini göynədən nədir.
Deyirəm, əzizim incimə məndən,
Mən və Sən «aktyor», həyat səhnədir.

***2000***

## GÖZƏL OLUR

Gözəl olur, dünyada gözəl.
Gözəl olur
Gecələrin qaranlığına boyanmış
Gözəllərin zülfü.
Könlümdə bir hiss yaşayır,
Təkrarsız, ülvi.
Gözəl olur
Gözlərin qarası
Gözlərin yandırdığı
Ürək yarası.
Gözəl olur
Qoşa saçın yaraşığı.
Qoşa gözün
Gözəl olur işığı.
Sevilmək, sevmək
Gözəl olur,
az-az,
tək-tək...

***1999***

## TELEFONUN NƏ GÜNAHI

Zəng vururam, zəng vururam, bir... İki...
Telefonun nə günahı sındırma.
Qapınıza gəlməmişəm hələki,
Telefonun nə günahı sındırma.

Zəng vururam... Batıb dəryada gəmim...
Zəng vururam, bəlkə dağıla qəmim.
Sevməyirsən, ürək sənin, can sənin,
Telefonun nə günahı, sındırma.

Demirəm ki «hə» de, məni sevindir,
Demirəm ki «yox» de... Bəli, çətindir...
Sındırılan telefon da sənindir,
Telefonun nə günahı, sındırma.

Zəng vururam, danışmıram, susuram,
Hey söyürsən, mən də qulaq asıram.
Salam deyib «tərs dünyanı» pozuram,
Telefonun nə günahı, sındırma.

Ürəyimə toxunubdur anan da,
Su çiləyər biri, biri yananda.
Boynu bükük oturmuşam yanında,
Telefonun nə günahı, sındırma.

Daş yağıbdır həsrət qalıb dil-dilə,
Məftillərdə kirpik döyər şəlalə.
Heç olmasa telefona rəhm elə,
Telefonun nə günahı, sındırma.

***1999***

## SƏN GÜLƏNDƏ

Sən güləndə dünya gülür gözümdə,
Gülüş sənə kəmər kimi yaraşır.
Sən güləndə çalxalanır sözümdə,
Balın yağa, yağın bala qarışır.

Bu gülüşün yandıracaq şəhəri,
Kösöv kimi tonqalında yanıram.
Qara kirpik, qara gözün çəpəri,
Üfüqlərdən Günəş doğur sanıram.

Sən taleyin işinə bax, işinə,
Od baxışda yaşayarmış ağ çiçək.
Gün yayılıb qayaların döşünə...
Daşa dönmüş mamırlar da güləcək.

Səssizliyin vurğunuyam həyatda,
Səssiz gülüş ürəyimə tuş oldu.
Eh... Yatmışdım, niyə məni oyatdın.
Gözlərimə daşdan heykəl qoyuldu.

Sən güləndə dünyam gülür, əzizim,
Sən güləndə unuduram özümü.
Yarağın yox, hamı bilir əzizim,
Bir gülüşlə ovlamısan gözümü.

***2000***

## MƏN SƏNİ SEVİRƏM

Mən səni sevirəm, sən məni sevmə,
Sevsən dolaşacaq sabahın sənin.
Nə mənə sual ver, nə də ki, nə... Nə...
Sənə dərd olacaq «günahın» sənin.

Mən səni sevirəm... kimsəsiz, yalqız,
Ürəyin sevəni sevməmək olmur.
Mən «kifir» bir oğlan, sən «ilahi» qız,
Sən hara, mən hara... Deməmək olmur.

Mən səni sevirəm, göz görə-görə,
Olmuşam bir eşqin yolunda səfil.
Sən mənə yox söylə... Yox! Gülə-gülə,
Qoy yansın birimiz bu günah deyil.

Mən səni sevirəm al Günəş qədər,
Sən məni əl boyda istəmə, nə qəm.
Mənim yetəcəyim olacaq kədər,
Sənin yetəcəyin... Onu bilmirəm...

***2000***

## İLAHİ QIZ

Gözlərimdə yurd salıb,
Günəş boyda bir ulduz.
Taleyimə yazılıb,
Gözəl qız, ilahi qız.

Sənsən hissim, həsrətim,
Muradım, məhəbbətim.
Bir dünya səadətim,
Gözəl qız, ilahi qız.

Mizrab dəymiş simim sən,
Hicran, həsrət, naləsən.
Mən yanmışam külüm sən,
Gözəl qız, ilahi qız.

Qara kirpik, qara göz,
Qəlbi ocaq, sözü köz.
Döz həsrətə, bir az döz,
Gözəl qız, ilahi qız.

***1999***

## BƏDNƏZƏRDƏN UZAQ OL

Qaşlarını kaman bil,
Bədnəzərdən uzaq ol,
Kirpiyini tikan bil,
Bədnəzərdən uzaq ol!

Tumar çəkmə gözünə,
Qılınc çəkər köz ünə.
Nəzər dəyər özünə,
Bədnəzərdən uzaq ol!

Tanrı sənə tel verib,
Od parçası dil verib,
Nə verib, gözəl verib,
Bədnəzərdən uzaq ol!

Ay hara, Günəş hara?
Bir bacısan bahara.
Qismət oldun mən yara,
Bədnəzərdən uzaq ol!

Tök odunu üstümə,
Qızın, qızın istimə.
Göynə mənim tüstümə,
Bədnəzərdən uzaq ol!

***2000***

## BU GÖZƏL ÖZÜ DƏ

Ay Allah, göylərdən nurunu yağdır,
Qoy ağ gün yaşasın bu bəyaz saçlar.
Gündüzüm mürgülü, gecəm oyaqdır,
Yox, sənin oduna dözməz yar, bu qar...

Təzə bir çiçək tək sevəcəm səni,
Yapışıb saçımdan yolsa da külək.
Sıxacam bağrıma, öpəcəm səni,
Gəncliyim ağ atla geri dönəcək.

Sən mənim qəlbimin gözündə işıq,
Sən mənim gözümdə işıq-bulaqsan.
Xeyir-duanı ver, sən də ay aşıq,
Yoxsa, gecikərsən bir dəvət umsan.

Demə sayıqlayır yenə bu şair,
Sevməsə yazması çətindir, çətin!
Yandıran, söndürən alov, su - şair,
Sevgidir açarı vallah zəhmətin...

Bir əlcə od baxış kədərə dərman,
Ilham da, sənət də gözlərdən doğur.
Yaman nigaranam aman, ay aman,
Bu gözəl özü də nigaran baxır...

Ay Allah, göylərdən nurunu yağdır,
Qoy ağ gün yaşasın bu bəyaz saçlar.
Gündüzüm mürgülü, gecəm oyaqdır,
Yox, sənin oduna dözməz yar, bu qar...

***2000***

## DÜNYAMIN YAŞIL ƏLİ

Alt-üst eləmisən dünyamı mənim,
Nə sual tapıram, nə cavab sənə.
Didir ürəyimi eh, sənin qəmin,
Didir işığını dərd gilə-gilə.

Həsrətəm, hicranam önündə lal, kar,
Soruşa bilmirsən bu alov nədir?
Mənim taleyimə qar yağacaq qar,
Sənin taleyinə...Allah kərimdir!

Bu «dəli« dünyanın işinə bax bir,
Nə Günəş Günəşdi, nə dəniz dəniz.
Yaxşı ki, deyiblər «dünya səhnədir»,
Ahı dağ oynadan aktyoru biz.

Nə mən danışıram, nə sən dinirsən,
Doğranır içimdə söz dilim-dilim.
Mənə dərd olanı gözəl bilirsən,
Nə fayda sənin də dolaşır dilin.

Bu qədər yaxınkən uzağıq niyə?
Deyirsən özümü saçımdan asım?
Qalmışam içimi mən yeyə-yeyə,
De, sənə nə olub buxovlanmısan?

Alt-üst eyləmisən dünyamı, gülüm,
Qalmışam yuxumla yar arasında.
Yapışıb əlimdən yaşıl əl mənim,
Boylanır yoxumla var arasında!

***2000***

## NƏ BİLİM BƏLKƏ DƏ...

Bir yağışlı gündə durduq göz-gözə,
Bir şirin payızda sevdim mən səni.
Calandı qəlbimdə gülüm, köz-közə,
Bir cüt ürək odu isitdi məni.

Sevdim ürək dolu, saçım ağ, qara,
Sevdim... Payız gəlib ağ yağış yağır...
Sən ki bir çiçəksən, gülüm mən hara?..
Eh... Sevgiyə nə var ki, o yaşa baxmır!...

De, hardan doğuldu bu əzab, bu nur?
De, niyə doğuldu sənsiz suallar?
Yox! Yox! Talelərin yazısı budur,
Yoxsa məhv olardı Günəş, yağış, qar.

Nə deyim ürəyə...Necə deyim ki,
Gəl odla oynama, yana bilərsən.
Gərək bir zirehli geyim geyim ki,
Sənin baxışına tab gətirim mən.

Gərək döyməyəydim sənin qapını,
Boğuram dərdimi dərd içində mən.
Nə bilim, bəlkə də atıb hamını,
Məni tutacaqsan bu dünyada sən.

***2000***

## GƏLDİK SAHİLƏ

Səninlə əl-ələ gəldik sahilə,
Ləpələr hardasa dua edirdi.
Gəldik payız günü biz gülə-gülə,
Içimdə suallar məni didirdi.

Sən məndən bir ovuc isti xatirə,
Dalğalar sahildən nə qoparırdı?
Gəldik, ağ dalğalar çırpınan yerə,
Gəldik...
Yox, yox bizi səs aparırdı.

Bizi aparırdı dənizin səsi,
Bir də ürəyimin çırpıntıları.
Bir də ki, sahilin yaşıl nəfəsi,
Bir də saçlarımın ağappaq qarı.

Səninlə əl-ələ gəldik dənizə,
Baxdıq ağ suların daş əllərinə.
Baxırdı dalğalar, baxırdı bizə,
Baxırdın, əzizim yaş əllərimə.

Sən məndən bir ovuc isti xatirə,
Dalğalar sahildən daş qoparırdı.
Əriyib gedirdim mən gilə-gilə,
Məni bu dünyada səs aparırdı.

***2000***

## DEYİRSƏN SƏNİNÇÜN ÇƏTİN OLACAQ

Deyirsən: «Səninçün çətin olacaq!»
De, bu qarlı dağın nəyi çətindi?
Sən ki bir ocaqsan, köz tutmuş ocaq.
Yanıb kül olmağın nəyi çətindi?

Nə deyim gözüylə məni çalana?
Qatmısan dünyamı ağ bir yalana.
Yaşı kirpiyində bulud olana,
Dolub, ağlamağın nəyi çətindi?

Yaman fikirliyəm bu gün mən nəsə,
Vallah, istəmərəm Allah «yox» desə.
Alın yazısısa, Allah əmrisə,
Yolub, yoğrulmağın nəyi çətindi?

Əriyər, bələnər gözümdə dünya,
Özünə yurd salar sözümdə dünya.
Əgər gül açırsa gözündə dünya,
Gülüb, çağlamağın nəyi çətindi?

Susuram, susursan. Susma, danış, din!
Bu dünya sənindir, bir də ki mənim.
Xəstəyə dərmansa de, sənin eşqin,
Içib sağalmağın nəyi çətindi?

***2000***

## İŞIĞI - MƏHƏBBƏT, MƏHƏBBƏTİ - NUR

Sən mənim qəlbimdə mənzil salmısan,
Işığı - məhəbbət, məhəbbəti-nur.
Əzizim, gözümdən elə çalmısan,
Qızıl ildırım da ağ bir yalandır.

Qayası qanadlı, dərəsi selli,
Bu qəribə dünya hara tələsir?
Çevirib dünyamı bir tuti dilli,
Içimdə yağışlı küləklər əsir...

Tutub yaxasından qoca dünyanın,
Zamanın çarxına zəncir vuracam.
Təzəcə gülübdür üzü dünyamın,
Işığı rəngbərəng dünya quracam.

Tutub əllərindən Günəşin, Ayın,
Qara bir gecəni qovasıyam mən.
Yamyaşıl səadət olacaq payım,
Ya da ki...Yox, dəli olasıyam mən!

Sökürsən, tikirsən bir memar kimi,
Bir insan ömrünün minarəsini.
Yağırsan saçıma bəyaz qar kimi,
Udursan əzizim, od nəfəsimi.

Işığı-məhəbbət, məhəbbəti-nur,
Önümdə kölgələr başını əyir.
Düşürsən, gedirsən gözlərim dolur,
Sürürəm, gedirəm, ürək getməyir...

Tutub yaxasından qoca dünyanın,
Zamanın çarxına zəncir vuracam.
Təzəcə gülübdür üzü dünyamın,
Gülməsən üzümə, dəli olacam...

***2000***

## CAVABSIZ ŞEİRLƏR

Cavabsız şeirlər yazıram sənə,
Yox olub, tükənib, gülüm sözlərin.
Qəlbimdə bir «qəbir» qazıram sənə,
Baş daşın, döş daşın mənim gözlərim!

Cavabsız yaşamaq o da bir ümid,
Deyirəm özümə çək, dərdini çək...
Tökür yarpağını üstümə söyüd,
Sarı məktublara, sarı cavab tək.

Sənin fəlsəfənin baxışı titrək,
Mənim məntiqimdən qalanıb ocaq.
Eh...Səni bilmirəm, mən dözüm gərək,
Sən çoxdan demisən «çətin olacaq».

Cavabsız şeirlər bəlkə cavabdı?
Cavabsız şeirlər yaşadır məni...
Köçüb ürəyimə bir qızın adı,
Dünya gözlərimdə qəlpə-qəlpədi.

Cavabsız şeirlər yazıram sənə,
Yox olub, tükənib, gülüm sözlərin.
Qəlbimdə bir «qəbir» qazıram sənə,
Baş daşın, döş daşın mənim gözlərim!

***2000***

## ŞEİR YAZMAYACAM SƏNƏ BİR DAHA

Şeirlər yazmışam sənə bir cahan,
Şeirlər yazmışam yağışlı, qarlı.
Şeirlər yazmışam gözümdə hicran,
Ürəyi qabarlı, dili qabarlı.

Gözüm gördüyünü yazıb əllərim,
Günah nə mənimdi, nə də ki, sənin.
Gözümün içində göynəyir yerin,
Gözünün içində gül açıb qəmim.

Səni sevməmişəm ilhama görə,
Sevgimin içindən doğulub ilham.
Bir yalan danışdım göz görə-görə,
Suallar içimdə batıb qalmışam.

«Şeir yazmayacam», - dedim mən sənə,
Dedin ki: «Sən bunu bacaracaqsan?»
Həsrət qalacaqsan gülüm, sən sənə,
Özünü şerimdə axtaracaqsan...

Dözəcəm əzaba, səni bilmirəm,
Acılı, şirinli taleyimdi bu.
Dağlara qar yağır, qar birəm-birəm.
Qopur ürəyimdə göy gurultusu.

Yazdığım şerlər bəsin olacaq,
Donacaq içimdə hissim, həsrətim.
Mənim tək təsəllim səsin olacaq.
Bükəcək boynunu saf məhəbbətim!..

***2000***

## HARDAN BİLƏSƏN?..

Sən mənim taleyim, mən sənin odun,
Bilirsən? Bilməzsən!...Hardan biləsən?
Çıxıb bu dünyada yadımdan adım,
Bilirsən? Bilməzsən!... Hardan biləsən?

Uzaqdan gəlirəm dərə, dağ aşıb,
Sevgimin çiskini, çəni dolaşıb.
Gözümün qarası, ağı qarışıb,
Bilirsən? Bilməzsən!...Hardan biləsən?

Üstümə göylərdən ildırım düşüb,
Dağımsan! Dağımdan dağmı sürüşüb?
Qaram qanad gərib, ağım sürüşüb...
Bilirsən? Bilməzsən!...Hardan biləsən?

Bircə Allah bilir nə çəkirəm mən,
Qəlbimdə dən kimi qəm əkirəm mən.
Dünyamı sökürəm, ya tikirəm mən,
Bilirsən?...Bilmirsən! Hardan biləsən?

Mən mələk-əjdaha, sən nur-mələksən,
Mən yaşıl Yer şarı, qızıl Günəş sən.
Sən mənim nəfəsim, sənin səsin mən,
Bilirsən?... Bilmirsən!.. Hardan biləsən...

***2000***

## YERLƏ GÖY ARASINDA

Mən bir məktub almışam,
Yerlə Göy arasında.
Bulud kimi dolmuşam,
Yerlə Göy arasında.

Bu məktub bir röyadır,
Oddur, nurdur, boyadır.
Eh... Bu sevgi dünyadır,
Yerlə Göy arasında.

Dirilmişəm, ölmüşəm,
Ölmüşəm, dirilmişəm.
Yarı deyib gəlmişəm,
Yerlə Göy arasında.

Göyün üzü işıq, nur,
Ürəyim hara uçur?
Qismətim puçur-puçur...
Yerlə Göy arasında.

Günah gəzmə sözümdə,
Alışırsan gözümdə.
Göynəyirəm gözündə.
Yerlə göy arasında...

***2000***

## MƏN QORXAQ DEYİLƏM

Mən qorxaq deyiləm, inanma, gülüm,
Tay ola bilmərəm qorxaqlara mən!
Uzana qalıbdır Allaha əlim,
Görürsən? Görmürsən? Mən necə bilim?...

Bircə baxışından qorxuram, gülüm,
Dünyada qorxduğum onun nurudu!
Qorxuram, nurunda, əriyim, ölüm,
Şəfəqi dumduru, odu dumduru.

Mən qorxaq olsaydım, sevməzdin məni,
Yandırıb yaxmağın acısan, gülüm!
Mən dünya bilirəm dünyada səni,
Şirinsən!! Kim deyir, acısan, gülüm!

Mənə yar demisən...Qorxaq olunca,
Bir əlcə baş daşı olsam yaxşıdır.
Gülüm, çevrilirsən hərdən qılınca,
Bu da taleyimin bir naxışıdır.

Sən mənim dalğalı yaşıl dənizim,
Gözümü göynədən yar baxışıdır.
Yox! Qorxaq deyiləm, qorxma əzizim,
Qorxaqlar dünyada tula payıdır.

Mən qorxaq deyiləm, inanma gülüm,
Tay ola bilmərəm qorxaqlara mən.
Uzana qalıbdır Allaha əlim,
Görürsən? Görmürsən? Mən necə bilim?...

***2000***

## SEVGİ NƏĞMƏSİ

Nə yaxşı ki, sevgi var,
Nə yaxşı ki, varıq biz.
Sən ağ çiçək, mən bahar,
Tonqal olub qəlbimiz.

Sev sevəni, sevil sən,
Sevgi-Günəş, sevgi-nur,
Dünya sevsin, sevilsin,
Sevgi böyük arzudur.

Az olar, ocaq desəm,
Dünya boyda qucaqsan.
Günəş sussa, gülüm sən,
Üfüqdən doğacaqsan.

Sən nəfəssən, səsəm mən,
Dünya sevənlərindi.
Bir söz keçir könlümdən:
«Çox xoşbəxtəm mən indi!»

Köçmüsən ürəyə sən,
O işıqlı saraydı.
Sevirsən...Sevirəm mən,
Yox! Yox! Bu hay-haraydı...

***2000***

## BİR AZDAN

Gecədir...Içibdir bizi küçələr...
Yox! Yanır sinəmdə Günəşim mənim.
Bir azdan düşəcək gülüm, gecələr,
Bir azdan dönəcək əhvalın sənin...

Bir azdan əlini üzüb əlimdən,
Gözümün odunu aparacaqsan.
Hardasa heykələ dönəsiyəm mən,
Hardasa içimdə dağılacaq dan!

Bir azdan əsəcək dəli küləklər,
Dünyanın telləri qırılacaqdır.
Çıxıb məhvərindən sevən ürəklər,
Bu daşdan o daşa çırpılacaqdır.

Bir azdan, əzizim, bu müdhiş gecə,
Səni evinizə aparacaqdır.
Sənin gəlişinə sevinən küçə,
Mənim gözlərimə qapanacaqdır.

Bir azdan suallar didəcək səni,
Mənim də yağışım, qarım yağacaq.
Bir azdan kölgələr öpəcək səni,
Bir azdan balıncım daş bağlayacaq.

Bir gecə gözümdən baxacaq mənim,
Yata bilməyəcəm, Allah, doyunca.
Içimdə eh, nələr dinəcək mənim,
Qızıl üfüqlərdən Günəş doğacaq.

Gecədir...Içibdir bizi küçələr,
Yox! Yanır sinəmdə alovun sənin.
Bir azdan düşəcək uzun gecələr,
Bir azdan dönəcək əhvalım mənim...
***2000***

## DANIŞ, ƏZİZİM DANIŞ

Ya yumruğu dəyib Allahın mənə,
Duymuram qəlbini didən hissləri.
Ya da ki, çatdıra bilmirəm sənə,
Içimdə köz olub, yanan səsləri.

Doğuluram bir gün, ölürəm bir gün,
Nə qədər doğulub ölmək olarmış?
Alıb vermədiyin gülünəm, gülüm!
Danış, ürəyinin gülünə danış!...

Danış kövrək danış, sərt danışma sən,
Asılsın boynundan sevmək arzusu.
Danış, saçlarında yuva qurum mən,
Səni qorxutmasın göy gurultusu.

Çıxart ürəyindən acı qorxunu,
Şirin kəlmələrin tutsun əlimdən.
Qoru gündüzümü, qoru yuxumu,
Axı bu dünyada mələyinəm mən!...

Bir səksəkə yatıb sənin içində,
Nə deyə bilirsən, nə mən duyuram.
Gecənin qarası çöküb içimdə,
Çətin məqamları gülüm, sayıram...

Ya yumruğu dəyib Allahın mənə,
Duymuram qəlbini didən hissləri.
Ya da ki, çatdıra bilmirəm sənə,
Içimdə köz olub yanan səsləri...

***2000***

## ŞILTAQ QIZ

Yandırır məni nazın,
Şıltaq qız, ədalı qız.
Dönüb qış olub yazım,
Şıltaq qız, ədalı qız.

Ürək dedin, vermişəm,
Gülək dedin, gülmüşəm,
Vallah, daha ölmüşəm,
Şıltaq qız, ədalı qız.

Boğur məni qəm, qəhər,
Sevincim olub kədər.
Daha niyə bu qədər?
Şıltaq qız, ədalı qız.

Sənsən mənə yaraşıq,
Mənəm sənə yaraşıq.
Nəyə möhtac qalmışıq?
Şıltaq qız, ədalı qız.

Nazsız sevgi nə sevgi?
Ikimiz gül çələngi...
Hay-harayımız «Cəngi»,
Şıltaq qız, ədalı qız.

***2000***

## SEVGİMİN SAÇI DƏN-DƏN

Yetib qövsü-quzeyə,
Rənglərə qatılmısan.
Dönüb altun üzüyə,
Gör hara taxılmısan?

Qəlbimin zirvəsində
Günəşin al boyası.
Səsimdə, nəfəsimdə,
Bir məhəbbət adası.

Yapışmışıq ikimiz,
Göy dənizin əlindən.
Nağıla dönmüşük biz,
Nağıllar aləmində.

Sevmək sonsuz səadət,
Sevgi-qaya, sevgi-nur.
Eh, bu boyda məhəbbət,
Hamıya qismət olmur...

Mələk geyimliyik biz,
Sevgimin saçı dən-dən.
Eşqə heykəl ikimiz,
Eşqə qanad mən və sən...

***2000***

## AYRILDIQ

Dəyişib həyatın üzü əzizim,
Vaxtında ayrıldıq bu dünyada biz.
Bəlkə də bəxtimiz gətirib bizim,
Çırpır qayalara özünü dəniz.

Nə mən gələcəkdim, nə sən görüşə,
Biz də dəniz kimi çırpınasıydıq.
Bu boyda dünyada işə bax, işə,
Biz də çırpasıydıq, çırpılasıydıq.

Vaxtında ayırdı getməyin bizi,
Vaxtında ayrıldı bu acı tale.
Indi kədər basıb, o göy dənizi,
Indi kükrəyibdir etiraz, giley.

Azı bircə dəfə görüşərdik biz,
Azı bircə dəfə şeir deyərdik.
Azı bircə dəfə «didişərdik» biz,
Ordan-ora kimi qoşa gedərdik.

Uçub dolanardıq dünyanı qoşa,
Içərdik dünyanı bir sən, bir də mən.
Nə isə, ayrıldıq... Get xoşbəxt yaşa,
Sənin də yerinə göynəyəsiyəm.

***2000***

## TÜRK GÖZƏLİ, TÜRK QIZI

Yandırar, yanar sönməz,
Türk gözəli, Türk qızı!
Sözündən geri dönməz,
Türk gözəli, Türk qızı!

Zirvənin ucasıdır,
Qranit parçasıdır,
Quş olub uçasıdır,
Türk gözəli, Türk qızı ...

Haçalıdır ürəyi,
Dağ uçurar küləyi.
Daş olubdur bələyi,
Türk gözəli, Türk qızı...

«Koroğlu»dur, «Cəngi»dir,
Göylərin fişəngidir.
Şerimin ahəngidir,
Türk gözəli, Türk qızı...

Başdan-başa sirr, düyün,
Mən demirəm, siz deyin,
Qızıl tacıdır bəyin...
Türk gözəli, Türk qızı!

***2000***

## NƏ YAXŞI Kİ, SEVMİŞƏM

Soyuq bir qış olardım,
Nə yaxşı ki, sevmişəm.
Bir parça daş olardım,
Nə yaxşı ki, sevmişəm.

Mən ağlaya bilməzdim,
Eh, çağlaya bilməzdim.
Çalxalaya bilməzdim,
Nə yaxşı ki, sevmişəm.

Nə dünyanı görərdim,
Nə xatirə hörərdim.
«Dəli» olub gülərdim,
Nə yaxşı ki, sevmişəm.

Qəlbim kükrəyib daşır,
Mənə hər şey yaraşır,
Yar mənimlə dağ aşır.
Nə yaxşı ki, sevmişəm.

Zər qədrini bilən mən,
Sevilən mən, sevən mən.
Öldürən mən, ölən mən,
Nə yaxşı ki, sevmişəm.

Hər günün bir hökmü var,
Üşüyürəm yağar qar.
Torpaq, demirəm apar,
Nə yaxşı ki, sevmişəm.

***2000***

## SƏNSİZ HƏYAT DARDI MƏNƏ

Nə soran var, nə soruşan,
Sənsiz həyat dardı mənə.
Bir yanan var, bir alışan,
Sənsiz həyat dardı mənə.

Bunu bircə Allah bilir,
Göz yaşımı gecə silir.
Özü də gör necə silir,
Sənsiz həyat dardı mənə.

Kim bilir nələr çəkirəm,
Ürəyim mələr, çəkirəm...
Deyirəm gələr... Çəkirəm,
Sənsiz həyat dardı mənə.

Verdiyin vədən də bitib,
Sənsizlik gözümdə bitib.
Deməyə sözüm də bitib,
Sənsiz həyat dardı mənə.

Nə bir zəng var, nə bir xəbər,
Daşmısanmı, a bixəbər?
Mənimçün açılmır səhər,
Sənsiz həyat dardı mənə.

Çəkdin məni imtahana,
Dünyam qaldı yana-yana.
Ayrılığım çatmır sona,
Sənsiz həyat dardı mənə.

Axtarıram, «sən» tapılmır,
Dərdimə həmdəm tapılmır.
Nə çalıram dəm tapılmır,
Sənsiz həyat dardı mənə.

Mən salmıram qalmaqalı,
Qəlbim qara, gözüm dolu.
Elə bir qar basıb yolu,
Sənsiz həyat dardı mənə.

Həsrət məni dara çəkib,
Ağ sinəmə yara çəkib.
Yarın yarı yara çəkib,
Sənsiz həyat dardı mənə.

Nəyim var çoxdan sənindir,
Yoxluğun qəlbimi didir.
Deyirəm Allah kərimdir,
Sənsiz həyat dardı mənə.

***2000***

## YAR YARA YAR DEYİB...

Mən əsgər olmuşam, silahlı əsgər,
Bəs kimlər bükübdür bu ağa məni?
Ey yar, boğazımda daş olub qəhər,
Çırpır daşa məni, torpağa məni.

Torpaq vermişəm, daş vermişəm,
Qanımı vermişəm, can vermişəm mən.
Bir salxım gülüş də... Eh dərməmişəm,
Yarı yar ağladır, yarın yarı qəm.

Yar, yar yar sinəsin yarını axtar,
Göz tutmuş yaranı gör kim qoparıb?
Yar, yara yananı-yarını axtar,
Bir əlçə daş olub çaylar aparıb...

Yox, onu əridib torpağın qəmi,
Yar yara yar deyib yad ola bilməz.
Yar, yarıb sinəmi dəf elə məni,
Yarın yar yarası sağala bilməz!

Bu torpaq, bu qılınc, demə, kim kimi?
Varsa bir günahım kəs başımı, yar.
Varsa bir günahım ağ yağış kimi,
Yağdır yar üstünə, yar daşını yar.

Mən əsgər olmuşam, silahlı əsgər,
Bəs kimlər bükübdür bu ağa məni?
Ey yar, boğazımda daş olub qəhər,
Çırpır daşa məni, torpağa məni.

***2000***

## SEVGİ SƏPDİK QOBUSTANA

Gəldim Qobustana götürüb səni,
«Qaya bağışlası»n – dedim yar-yara.
Qara qayalar da açdı qəlbini,
Ömrünü ömrünə calayanlara.

Oxuduq adları daşlarda bir-bir,
Yazdıq qayalara adımızı da,
Bu ulu qayalar hər şeyi bilir,
Səpdik qayalara odumuzu da.

Səpdik, sevgimizi torpağa, daşa,
Səpdik sevgimizi oda, işığa.
Səpdik sevgimizi Günəşli qışa,
Yazda gül çıxacaq burda qurşağa.

Hər qaya, hər ovuq olmuşdu göz-göz,
Sanki ağ atları minib çapırdıq.
Dünyanın ən şirin sözlərini biz,
Axtarıb-axtarıb burda tapırdıq.

Səssizlik, sükunət uzaqlarda dan,
Yovşan yarpaqları əllərimizdə.
Ayrıla bilmirdik boz qayalardan,
Ayrıla bilmirdik əllərimizdən.

***2000***

## SƏHƏR NURU

Mən səhər nurunu içəcəm bu gün,
Səhərin çırpınan əli əlimdə.
Başqa bir dünyaya köçəcəm bu gün,
Bir sevgi şərqisi göynər dilimdə.

Sıxacaq bağrına bizi göy Xəzər,
Udacaq izləri sahil qumları.
Əgər namərd bilsən məni söy, Xəzər!
Süpür sahilindən çürük anları.

Bu gün payız günü, al Günəş doğub,
Işıqlı cığırlar ağ kəpənəkdir.
Dünən arxamca ağ yağış yağıb,
Əkilən hər kəlmə cücərəcəkdir.

Bu tale, bu qismət, bu sən, bu da mən,
Tanrının hökmünü pozmaq çətindir.
Sən səhər nuruna qonaq gəlmisən,
Soruşma, soruşma bu nə səhnədir?

Al səhər nurunda batasıyıq biz,
Udacaq sevgimi suyun harayı.
Bizə əl çalacaq bu gün göy dəniz,
Bizə əl çalacaq sahil qumları...

***2000***

## OĞRUN BAXIŞLAR

Səni hər görəndə donub yerimdə,
Yapışır qəlbimdən gündüzüm, gecəm.
Bir Günəş doğulur, batır sinəmdə,
Bir oğrun baxışdan alışır gecəm.

Sənsən bu dünyada məğrur gözəlim,
Sənsən bu dünyada könlü əzəlim.
Ruhumun, eşqimin qızıl qarı sən,
Çırpınan sinəmin ilk baharı sən...

Səni dünya qədər sevən mənəm, mən,
Qəlbimdən qəlbinə yollar çəkirəm.
Tutub əllərimlə titrək əlindən,
Gözümün içində həsrət əkirəm.

Ağarıb saçlarım, ağarıb həsrət,
Alışan, əriyən yarın yarıdı.
Bu oğrun baxışlar, oğrun məhəbbət,
Bir oğrun sevginin qanadlarıdı.

***1999***

## MƏN SƏNİ GÖRMƏYƏNDƏ

Düyün-düyün oluram,
Mən səni görməyəndə.
Saralıram, soluram,
Mən səni görməyəndə.

Qəlbim gülmür, ağlayır,
Qəmdən şələ bağlayır.
Saat anları sayır,
Mən səni görməyəndə.

Yoxsan... Kimlər qol çəkir?
Daş əllərim daş əkir.
Eh... Gözlərim yol çəkir,
Mən səni görməyəndə.

Bir gün yüz il olarmış,
Könül səfil olarmış.
Için-için yanarmış,
Mən səni görməyəndə.

Sən bir günlük xəstəsən,
Mən dünyası xəstəyəm.
Bilmirəm kiməm, nəyəm?
Mən səni görməyəndə.

Bir əlçə daş oluram,
Qupquru yaş oluram.
Qar basmış qış oluram,
Mən səni görməyəndə.

Dünyamız köz-köz olur,
Gözlərin köz-köz olur,
Hər şey görünməz olur,
Mən səni görməyəndə.

Bilirəm nə çəkirsən,
Bilirsən nə çəkirəm.
Xəyalımı sökürəm,
Mən səni görməyəndə.

***2000***

## QORXURAM

Qorxuram səninlə danışmağa mən,
Qorxuram saçına toxunsun əlim.
Qorxuram xoş sözü xoş bilməyəsən,
Qorxuram ürəyim oxunsun mənim...

Təsəllim göz-gözə danışmaq olur,
Közərər ürəyim yarım köz desə.
Alovsuz, ocaqsız alışmaq olur?
Olar! Gözə dəyən əgər közdürsə...

Qorxuram alışıb yanasan, gözəl!
Ildırım əkmişəm gözlərimdə mən.
Qorxuram, tək-tənha qalasan gözəl!
Təftiş eyləyirsən sözlərimi sən.

Dünənim dünənin, bu günüm sənin,
Dünənim qara daş, bu günüm qızıl.
Dünənim dəlisov, dünənim səfil,
Mənim ürəyimə sən bu gün yazıl!

Nəyimə gərəkdir torpağım, tozum.
Çırpılıb, çırpılıb olmuşam sənin.
Sən mənim baharım, mən sənin yazın,
Necə də xoşbəxtəm gülüm bu axşam.

Qorxuram səninlə danışmağa mən,
Qorxuram saçına toxunsun əlim.
Qorxuram xoş sözü xoş bilməyəsən,
Qorxuram, ürəyim oxunsun mənim!..

***2000***

## ÖMRƏ BƏRABƏR AN

Azıyla, çoxuyla ölçülmür həyat,
Bəzən bircə anı yaddaşda qalır.
Bəzən təmtəraqlı evlər vahimə,
Bəzən cəngəllikdən Günəş boylanır.

Nə deyim insanın qüdrətinə mən,
Məhəbbət ürəkdə arı şanıdır!
Elə ki, toxundun yoxluğuna sən,
Görürsən dünyamız şana-şanadır.

Bir içim su olsun, bir udum hava,
Bir meşə kölgəsi bəs edər ona.
Məhəbbət- ürəkdən qopan səs, səda,
Məhəbbət- ürəkdə tikilmiş qala.

Gəl, tutum əlindən gedək dağlara,
Qayalar, meşələr duyacaq bizi.
Kədər də boğanda gülüm, ağlama,
Sehrli qanadlar udacaq bizi.

Azıyla, çoxuyla ölçülmür həyat,
Bəzən bircə anı yaddaşda qalır.
Bəzən təmtəraqlı evlər vahimə,
Bəzən cəngəllikdən Günəş boylanır.

***2001***

## BİRCƏ SAAT

Siz ey bu dünyada həyatı həyat,
Deməyin yoluma qaya sürünüb.
Sizin bəxtinizə iyirmi dörd saat,
Mənimsə bəxtimə bir saat düşüb.

Mənim bir saatım dünya boydadı,
Sizin çilçıraqlı saatlar cılız.
Bir əlim torpaqda, biri Aydadı,
Sığmır üfüqlərə sevgi payımız.

Alın yazısıdır bircə saat da,
Nə sonun görürəm, nə əvvəlini.
Eh, bilə bilsəydiz bircə saatda,
Hansı arzularım yaşadır məni.

Sizin bəxtinizə saatlar düşüb,
Bölürsüz, gündüzü, gecəni də siz.
Suallar yerini elə dəyişib,
Salıb ürəklərə necəni də biz...

Allahım, saatı çox görmə bizə,
Bir saat özü də, bəsimiz olar.
Yapışıb əl-ələ, duraq göz-gözə,
Səssiz görüşlər də səsimiz olar.

Siz ey bu dünyada həyatı həyat,
Deməyin yoluma qaya sürünüb.
Sizin bəxtinizə iyirmi dörd saat,
Mənimsə bəxtimə bir saat düşüb.

***2001***

## MƏN BİLMƏZDİM

Mən bilməzdim ömür ki var bir andı,
Bir gümanda doğularmış, itərmiş.
Telefonun qulağıma qapandı,
Məzar üstə qara tikan bitərmiş.

Barmaqlarım düymələri ha sıxdı,
Nə səs gəldi, nə bir nəfəs, nə güman.
Yay günündə bir dünyalıq qar yağdı,
Ürəyimdə yuva saldı boz duman.

Bu dünyada qəribəlik az imiş,
Bu sevgi də bir qəribə sevgidi.
Bir ürəyin dağı, daşı ərimiş,
Bir ürəyin qayaları sərgidi.

Yazdıqlarım bir gecəlik yuxudu,
Sevgimizin üfüqündən boylanır.
Yazdıqlarım bayatıdı, ağıdı,
Ürəyimdə ocaq çatıb ha yanır.

Telefonun qapanması yalanmış,
Bu bir sınaq, bu bir gülüş, bir kədər.
O nə bilsin od üstə od qalanmış,
O nə bilsin kül olubdur bir nəfər.

Mən bilməzdim ömür ki var bir andı,
Bir gümanda doğularmış, itərmiş.
Telefonun qulağıma qapandı,
Məzar üstə qara tikan bitərmiş.

***2001***

## DƏYİŞƏ BİLMİRİK

Dəyişə bilmirəm gülüm, özümü,
Dəyişə bilmirsən sən də büsbütün.
Yazıram qəlbinin qızıl sözünü,
Yazıla bilmirəm yenidən, çin-çin.

Bir dəstə laləyə dönürəm hərdən,
Saçından süzülən Gurşad oluram.
Bir də görürsən ki, tutub əlindən,
Çıxıram dağlara haray salıram.

Olmaq istəyirəm sən deyən kimi,
Olmaq istəyirsən arzuma qayıq.
Dənizdə bir sənsən, bir mən, bir gəmi,
Çırpılıb, çırpılıb qarışasıyıq.

Adi bir qınağa yoxdu haqqımız,
Sevgi hər ağrını daşıyasıdır.
Qoşa çinar kimi çıxıb adımız,
Qoşa çinar kimi yaşayasıdır.

Dəyişə bilmirik... Dəyişəsiyik!!.
Şeytanlar kəsibdir yolu, irizi.
Ikimiz bir qəlbin qaynar səsiyik,
Ayrılmaz edibdir bu dünya bizi.

***2001***

## SƏNSİZ GÜNLƏRİM

Demə ki, yaşadım... Yaşamaq olmur,
Sənsiz günlərim də səninlə keçib.
Gözün qarasına buludlar dolur,
Dünyanın ağappaq yağışın içib.

Demə ki, yaşadım...Sənsiz yalandı,
Sənsiz günlərimin ağ çiçəyi sən.
Sənsizlik içimdə tonqal qaladı,
Külü, qaraltısı, közərəni mən.

Demə ki, yaşadım sənsiz günləri,
Yox, günlər həsrətə boyandı sənsiz.
Ölüb qurtarmışdım mən diri-diri,
Səsini içinə çəkmişdi dəniz.

Sənsiz istəmirəm Günəşi, Ayı,
Sənsiz istəmirəm bu dünyanı da.
Sənsən mənim üçün Tanrının payı,
Sənsən əvvəli də, ömrün sonu da.

***2001***

## AĞ YAĞIŞ

Yarım məndən incidi də, küsdü də,
Dedi: – Artıq yorulmuşam əzizim...
Bu dünyadan o dünyaya köçdü də,
Ürəyimiz daşa dönübdür bizim?!

Nə yaxşı ki, yağdı, yağdı ağ yağış,
Ayrılığı selə büküb apardı.

Deyirəm ki, «sağ ol səni, ağ yağış»...
Kor gecələr ürəyimə hopardı.

Ürəyimin zirvəsindən doğdu dan,
O yağışın kəsilməsi gümandı...
Göy gurladı, nur çiləndi Tanrıdan,
Bir sevginin quru kökü oyandı.

O ağ yağış yudu sənin qəlbini,
Nə ağ yağış susasıdır, nə sevgim.
Döydü yağış boz dumanı, boz çəni,
Sən olmasan Allah olum...Kiməm? Kim?

Sevgim daşdan çıxasıdır, əzizim,
Ölçən, biçən, tərəzidə çəkən var!..
Yağış yağır...Yağasıdır əzizim,
Ağ nurunu başımızdan tökən var...

***2001***

## İŞİĞI ALLAHDAN, DUASI SİZDƏN

«Məhəbbət şeiri yaz» – söylədi bir qız,
Indiki zamanın çərçivəsində.
Yazaram, saçımdan tutsa da payız,
Bir bahar göyərib mənim səsimdə.

Indi bu sevgimin müdrik çağıdı,
Mayası qayadan, çiçəyi dizdən.
Mənim məhəbbətim közdü, ağıdı,
Işığı Allahdan, duası sizdən.

«Bir şeir yaz» dedi, Allah saxlamış,
Sevən bir qəlb üçün, sevən göz üçün.

Gəzdim ürəyimi mən qarış-qarış,
Qulaq eşitməyən təzə söz üçün.

Indiki zamanda sevmək, sevilmək,
Bir div möcüzəsi, bir div tilsimi.
Bəzən də rast gəlir, hardasa tək-tək,
Dağların dağlara dayağı kimi...

Indi bu sevgimin müdrik çağıdı,
Mayası qayadan, çiçəyi dizdən.
Mənim məhəbbətim közdü, ağıdı,
Işığı Allahdan, duası sizdən...

***2001***

## TANIYIRAM

Bu dünyaya səfər edib, köç edib,
Bu dünyanın ələyindən keçilib.
Gözəlliyi gözdən gözə içilib,
Tanıyıram, tanımazsan onu Sən.

Alov olub yandırıb da, yanıb da,
Üzün gülər, için ağlar sanıb da.
Ümid gəzib, ümid verən Tanrıda,
Tanıyıram, tanımazsan onu Sən!

Qəmbər olub qəmbərlərin içində,
Sarvan olub təmizlərin köçündə.
Dünya qurub səmaların küncündə,
Tanıyıram, tanımazsan onu Sən!

Gözlərində zəlzələlər yaşadı,
Ürəyində uçurumları daşıdı.

Gül axtardı, nişan gəldi daş adı,
Tanıyıram, tanımazsan onu Sən!

Çəkilibdir əqidədə xeyir-şər,
Ədalətmi zəfər çaldı? Xeyir, şər!..
Bu gün çatıb istəyinə birtəhər,
Tanıyıram, tanımazsan onu Sən!

***2001***

## NÖQTƏ...NÖQTƏ...

Bircə günlük bu yerlərə qonaq olduq,
Bircə günlük başqa cürə çıraq olduq,
Göy otlara, ağ sulara daraq olduq,
Osa... Osa... Nöqtə... Nöqtə, bir də nöqtə.

Dostlarıma qayaları bağışladım,
Burum-burum dolayları bağışladım.
Yaşıl-yaşıl laylaları bağışladım,
Osa... Osa... Nöqtə... Nöqtə, bir də nöqtə.

Daş xəyallar dünyasında daşa döndük,
Buludların şimşəyində yandıq, söndük.
Bu dağlara neyçün çıxdıq, niyə endik?
Osa... Osa... Nöqtə... Nöqtə, bir də nöqtə.

Xatirələr çırpdı bizi dağa, daşa,
Xatirələr atdı bizi yaza, qışa.
Xatirələr baxdı qoşa, durdu qoşa,
Osa... Osa... Nöqtə... Nöqtə, bir də nöqtə.

Dağlar aşdım birəm-birəm, addım-addım,
Itirmişdim kimliyimi, burda tapdım.

Ürəyimin dərəsində ocaq çatdım,
Osa... Osa... Nöqtə... Nöqtə, bir də nöqtə.

***2001***

## BU SEVGİ

Bu məhəbbət damlalardan göl olub,
Bu sevginin soyadı yox, adı yox!
Qaya dönüb çiçək olub, gül olub,
Köklər daşda, sözlər buta, səs budaq.

Bu sevginin nə Şərqi var, nə Qərbi,
Eh, içərmiş göz işığı, yar yarı...
Bu sevginin nə evi var, nə qəbri,
Nə yaşı var, nə yağışı, nə qarı.

Bu sevgiyə ad tapanlar tapılır,
Bu sevgiyə ad gəzirəm, tapıram!
Vicdan ki var, qara pula satılır,
Eh, o yatır... Ona nə var... Yatmıram...

Ona nə var? Sevgi nədir bilməz o,
Onun gözü tor içində böcəkdi.
Bu sevginin işığını görməz o.
Bu sevginin gözü gözə bəzəkdi...

Bu məhəbbət damlalardan göl olub,
Bu sevginin soyadı yox, adı yox!
Qaya dönüb çiçək olub, gül olub,
Köklər daşda, sözlər buta, səs budaq...

***2001***

**PARALEL YAŞANTILAR**

Paralel yaşamaq yaşamaqdımı?
Məzara boylanan ismətin sonu...
Paralel yaşamaq gülüm, yamaqdı,
Soruşsan səfil də deyəcək bunu.

Nə kişi işidir, nə qadın işi,
Üçünü, beşini, onunu «sevmək».
Qınama əzizim, sən mən dərvişi,
Gəl, tərəzi quraq, gəl ölçək, çəkək.

Çəkək çölümüzü, içimizi biz,
Çəkək dünyamızı, Allahımızı.
Əgər bir etməsək ikimizi biz,
Ölümə məhkumuq gözəl, ən azı.

Məhəbbət dünyada bir olmalıdır,
Bir başda yüz «sevgi» bir əyləncədir.
Məhəbbət dediyin həqiqət dadır,
Məhəbbət dediyin teldən incədir...

Paralel «gülüşlər», «şən» yaşantılar,
Paralel süzülən gözün ağ yaşı.
Biri yüzüzlünü yar çağırır, yar,
Birinin şərabda dincəlir başı.

Məhəbbət dünyada bir olmalıdır,
Bir başda yüz «sevgi» bir əyləncədir.
Məhəbbət dediyin həqiqət dadır,
Məhəbbət dediyin teldən incədir...

***2001***

## BİLİRƏM... BİLİRƏM...

Bilirəm, dünyanın qarası, ağı,
Bir qoşa qanadın iki rəngidi.
Mən təzə bir qoşma, sən qədim ağı,
Ağlama, ağlayan «Yallı», «Cəngidi».

Bilirəm, başımın bu ağır daşı,
Birinə gülllədi, birinə çiçək.
Bilirəm, dünyanın ən ağır qışı,
Əriyib, qovrulub axıb gedəcək.

Bilirəm, dünyada sözü söz çəkir,
Səni çəkə bilməz nə söz, nə söhbət.
Biri zəhər əkir, biri bal çəkir,
Birinin içində bitir cəsarət.

Bilirəm, bu dünya bizim olacaq,
Hardasa, hardasa biz bu dünyanın.
Hardasa göynəyir bir qoşa ocaq,
Alovu Günəşin, işığı Ayın.

Bilirəm, sən mənim gözümdə işıq,
Mən sənin gözündə düşmənə çəpər.
Köklə öz sazını, sən də ay aşıq,
Çal, çağır, əllərin donana qədər.

***2001***

## YAĞIŞ

Sən demə, o yağış bir də yağarmış,
Bir ucu göylərdə, biri şəhərdə.
Sən demə, ağ sular dizə çıxarmış,
Bir zaman dodaqlar çat verən yerdə.

Yağarmış o yağış səssiz-səmirsiz,
Yağarmış gecənin qaranlığına.
Bizim də dünyamız bizdən xəbərsiz.
Uçarmış xəyallar toranlığına.

Döyərmiş torpağı o yağan yağış,
Bir dünya xatirə pıçıltısında.
Demişdin «qayıtmaz», qayıtdı, danış,
Danış ürəyinin sızıltısında.

Demişdin o yağış yağmaz bir daha,
Demişdin könülsüz, dodağı titrək.
Bu yağış yağacaq hələ sabaha.
Gəl, yapış əlimdən, əzizim gedək.

Gəl, gedək əzizim, yar qoynunda yar,
Boylansın yağışdan məhəbbət izi.
Gedək, üstümüzə yağsın yağışlar,
Səadət selləri aparsın bizi...

***2001***

## VƏDƏ VERDİK...

Vədələşdik, görüşmədik bu gün biz,
Deyəcəyim sözlərimi demədim.
Toxunmadı bir-birinə əlimiz,
Nədən oldu? Nə susmusan? Danış, din!

Niyə qırdın ürəyimin telini,
Niyə bükdün gülüşümü qəmə sən.
Telefonda bir səs qırdı belimi,
Varlığımı yem elədin yelə sən!

Vədələşdik, tor quruldu görüşə,
Eh, görüş də tora düşərmiş demə.
Sən bir güllə, nişangahın mən şüşə,
Dəydin mənə, parçalandım min yerə.

Baş tutmayan bu görüş də bir andı,
Eh, nə bilim, bəlkə də boş bir təlaş...
Bir nəfərin ağı, qarası yandı,
Bir nəfərin dili daş, ürəyi daş...

Yox, günahkar sən deyilsən mənəm, mən,
Bir kəlmədə min bir yozum gəzirəm.
Ildırımlı, göy yandıran sənsən, sən,
Həzz alırsan, çırpınıram, dözürəm...

Vədələşdik, görüşmədik bu gün biz,
Deyəcəyim sözlərimi demədim.
Toxunmadı bir-birinə əlimiz,
Nədən oldu? Nə susmusan? Danış, din!..

***2001***

## SƏNDƏN XƏBƏRSİZ

Həsrətəm o ada, o gül soyada,
Sənə vurulmuşam səndən xəbərsiz.
Qum da göyərərmiş, daş da, qaya da,
Gülüm, daş olmuşam səndən xəbərsiz.

Köynəyi alovam, gülüm qor demə,
Gəl məni qınama, mənə «kor» demə.
Duzlu sözlərimə gülüm şor demə,
Sənə bağlanmışam, səndən xəbərsiz.

Açılıb göylərə ümidim, əlim,
Danışa bilmirəm, tutulub dilim.
Gözümdə yurd salıb yağışım, selim,
Dönüb yaş olmuşam, səndən xəbərsiz.

Ulduzlar başımın üstündən axır,
Gözümün içində şimşəklər çaxır.
Üstümə ağappaq soyuq qar yağır,
Qarlı qış olmuşam səndən xəbərsiz.

***2001***

## BİR PAYIZ GÜNÜNDƏ

Bir payız günündə üz-üzə gəldik,
Baharla payızın yol ayrıcında.
Bir payız günündə gözaltı güldük,
Güldü ağ saçım da, qara saçım da.

Qayıtdı payızım, qayıtdı yazım,
Fəsillər sən demə, qəlbdən doğurmuş.

Uzaqlardan gələn bu alın yazım,
Sən demə, bir qızdan sevgi umurmuş.

Bahar da, payız da dondu yerində,
Nə sən dinə bildin, nə mən danışdım.
Bizim eşqimizin kökü dərində,
Sənmi dağ aşmısan, mənmi dağ aşdım?

Bahar çiçəkləri, payız küləyi,
Qarışdı, dolaşdı içimdə mənim.
Qəm yemə, əzizim, dünya mələyi,
Zalımlıqda sənin, seçimdə mənim...

Bu bir yol ayrıcı gör nə yaratdı,
Nələr vəd elədi, bu gün yar yara.
Bir sevən-sevənə gülüb tor atdı,
Bir sevən özü də atıldı tora.

Bir payız günündə üz-üzə gəldik,
Baharla payızın yol ayrıcında.
Bir payız günündə gözaltı güldük,
Güldü ağ saçım da, qara saçım da.

***2001***

## XƏYALA DALARKƏN

Xəyala dalıram dalğın, nigaran,
Baxışım uzanır ağ çaylar kimi.
Xəyala dalıram-dörd yanım boran,
Xəyala dalıram-Bahar gül gəmim.

Tutub əllərimdən çəkirlər məni,
Bir toy gecəsinin işıqlarına.

Şirin bir nağıla hörürəm səni,
Bükürəm dünyanın bəyaz qarına.

Sökürəm dünyamı uçurum başında,
Mənə dayaq olur yaşıl ağaclar.
Sanıram alışır mənim başımda,
Qalanan ocaqlar, sönən ocaqlar.

Xəyala dalıram sevgimlə qoşa,
Uçuruq ulduzlar arasında biz.
Boz qumlar üstündə batıram yaşa,
Yaşa! Yaşa!-deyib qışqırır dəniz.

Xəyal-düşüncəmin başqa bir adı,
Çıxıbdır yadımdan bu gün adım da.
Fikirə dalmışam, sanki davadı,
Sevgimin xəyallar burulğanında.

***2001***

## SEVDALI ANLAR

Sayıram anları - bir, iki, üç, beş,
Sayıram anların əzizlərini.
Ürəyim dağ boyda, ürəyim geniş,
Sevdalı məqamlar yaşadır məni.

Birinə yumruğam, birinə tumar,
Birinə işığam, birinə gecə.
Eşidin, eşidin məni insanlar,
Sevdalı anlarım bir gün ölüncə.

Sevdalı anlarım qayadan qopub,
Qəlpəsi qəlbimin qəm karvanıdı.

Sevdalı anlarım gözümə hopub,
Bir insan ömrümün hay-harayıdı.

Eh, sizə nə var ki, sirsiz, düyünsüz,
Boğursuz ürəkdə şirin anları.
Döyün başınıza, indi döyün siz,
Məni yaşadacaq sevdamın varı.

Sayıram anları bir, iki, üç, beş,
Sayıram anların əzizlərini.
Ürəyim dağ boyda, ürəyim geniş,
Sevdalı məqamlar yaşadır məni.

***2001***

## BEZMƏK OLMUR

Qara gözə qara bulud dolanda,
Qara dərdə dözmək olmur, əzizim!
Sədaqətə sədaqətli olanda,
Sədaqətdən bezmək olmur, əzizim!

Deyirsən ki, mən olsaydım bezərdim,
Onda məni daşa çırpıb əzərdin.
Eh, sonra da qapı-qapı gəzərdin...
Məhəbbətdən bezmək olmur, əzizim!

Dəyişmisən, ürək deyən olmusan,
Sınmamısan, külək döyən olmusan.
Bir dünyasan dilək deyən olmusan,
Səadətdən bezmək olmur, əzizim!

Necə bezim mənim üçün gözəldən?
Bir əlimlə necə tutum yüz əldən?

Mən dəyanət sahibiyəm əzəldən,
Dəyanətdən bezmək olmur, əzizim!

Sən müqəddəs bir möcüzə, mən heyrət,
Kor doğulmur, kor edilir həqiqət.
Sudan keçir, oddan keçir saf niyyət,
Saf niyyətdən bezmək olmur, əzizim!

Deyirsən ki, mən olsaydım bezərdim,
Onda məni daşa çırpıb əzərdin.
Eh, sonra da qapı-qapı gəzərdin,
Məhəbbətdən bezmək olmur, əzizim!

***2001***

## HEYF Kİ, GECİKDİN...

Heyf ki, gecikdi gəlişin sənin,
Bu gəliş bir dünya tufan yaratdı.
Bir daş parçasıymış demə ürəyim...
Müqəddəs bir dalğıc nəyə tor atdı?

Çox heyf, az heyf deyə bilmirəm,
Bir onu bilirəm, bəli, gecikdin!..
Daha ağlamıram, daha gülmürəm,
Bilmirəm kimliyim hara köç etdi...

Bilmirəm varam mən, bilmirəm yoxam,
Heyf, doğulmağa tələsmədim mən.
Alpinist qalxmayan qarlı bir dağam,
Bu qarlı yolları keçməlisən sən...

Heyf ki, gecikdin! Yox, yox, yalandı!!.
Gecikən, göynəyən bəli, mənəm, mən!

Sən gəldin bir ürək alışdı, yandı,
«Heyf...» Söyləsəm də, qulaq asma sən.

Heyf ki, gecikdin... Uzandı illər,
Uzandı bir ömrə doğan fəsillər...
Uzandı, uzandı, eh, gör bir nələr...
«Heyf» deməyimə heyfim gəlir...

***2001***

## BAĞRI LALƏLİ GÜNLƏR

Bir dəstə lalədir ötən günlərim,
Sinəsi qapqara, sinəsi şan-şan.
Ey mənim hardasa itən günlərim,
Lalədir, ya sizsiz alışan, yanan?

Lalə bağrı qara, çəmən gülüdür,
Mən ürəyi xallı bir vətəndaşam.
Ey Vətən, ey torpağ,ey daşları dür,
Torpağdan boylanan ey sirli duman.

Qarışıb dünyada gülüşüm, naləm,
Deyən al güllərin rəngi itəcək.
Başbaşa veribdir dərədə laləm,
Bəlkə də sinəmdə lalə bitəcək ...

Laləsiz yaşamaq, yarsız yaşamaq,
Qara bir buludun kişnəməsidir.
Qardaş, bu dünyada arsız yaşamaq,
Mənim işim deyil, arsız işidir.

Əlimdə bir dəstə qırmızı lalə,
Üzümdə illərin ilk qırışları.
Sanıram ürəyim boş bir piyalə,
Sanıram çağırır dağ yoxuşları...

***1999***

## NƏ FAYDA

Lalə kimi bağrım yanıb, əzizim,
Açan güldən, solan güldən nə fayda?!
Qismətimiz nəhs gətirib, eh, bizim ...
Indən belə doğan gündən nə fayda?!

Yar demişdim, mən itirdim yarı da,
Məhəbbəti məkir kəsdi yarıda.
Yaşıl yarpaq düyün düşüb sarıda,
Sevgim ağlar, saçım dən-dən ... Nə fayda?!

Aşiq idik, aramızı vurdular,
Qar görməyən könüllərə yağdı qar,
Yar bağrımı, indən belə gəlib, yar,
Kədər sızmış bir ürəkdən nə fayda?!

Sanırdım ki, bahar elə bahardı,
Tufan gəlib ağ gülləri qopardı.
Sevgimizi hicran hara apardı?
Daha səndən, daha məndən nə fayda?!

***1999***

## HƏR ŞEYİ BİLİRSƏN

«Şeir yazmamısan mənə» - deyirsən,
Özümə müqəddəs Quranmı deyim ?
Hər şeyi məndən də yaxşı bilirsən,
Doğrumu danışım, yalanmı deyim?

Sən çıraq olmusan qara günlərə,
Məni qorumusan yağışdan, qardan.
Dözmüsən içini didən illərə,
Gedirsən mənimlə hayana, hardan?!

Gedirsən sevginin saçı ağappaq,
Bir bulaq başından məzar başına.
Gedirsən yenə də nigaran, qorxaq,
Gedirsən bələnib kövrək yaşına.

Nə kədərə dəyməz, nə acı hissə,
Gedirsən, əllərin mənim əlimdə.
Içmişəm sevgini mən hissə-hissə,
Qol-budaq atıbdır dəli könlümdə.

Gileyli sözlərin əridir məni,
Bu eşqi yaşadan bəlkə gileydi?
Qoy sıxım bağrımın başına səni,
Qapımızı döyən dəli küləydi.

Bir dəstə uşağın nənəsi sənsən,
Mənə baba deyir bu şən körpələr.
Qəm yemə, həmişə güləsisən sən,
Nələr görməmişik, dünyada nələr...

Kişi çöl adamı, çörək adamı,
Demə ki, gözlərim yorğun, soyuqdu.
Payızda çəkəsən gərək adamı,
Tez getdin, gec gəldin, bu xırdalıqdı.

Yoxdu sənin qədər istəyən yarı,
Sən mənim evimdə odsan, ocaqsan.
Bağışla, əzizim, günahlarımı,
Bilirəm, sən bunu bacaracaqsan.

«Şeir yazmamısan mənə» - deyirsən,
Özümə müqəddəs Quranımı deyim?
Hər şeyi məndən də yaxşı bilirsən,
Doğrumu danışım, yalanmı deyim?
***1997***

## BU SEVGİ GÖYƏRMƏZ

Isidə bilmirəm səni əzizim,
Qəlbimin elə bil odu sönübdür.
Yoxsa ayrılıbdır yolumuz bizim?
Yoxsa səadətin üzü dönübdür?

Sevgisiz bir ürək, odsuz bir baxış,
Günəşi boğulan üfüqdü, dandı.
Nə qədər yağırsan, yağ sən ey yağış,
Bu sevgi göyərməz, bu bir gümandı.

Şirin bir xatirə, acı həqiqət,
Bunun köklərini gəzməyə dəyməz.
Doğuldu məhəbbət, köçdü məhəbbət,
Daha bu dünyadan küsməyə dəyməz.

Doldurdun ürəyə dağın qarını,
Közərmək nə idi, soyumaq nədi?
Bir eşqin məhəbbət qapılarını,
Açdın və bağladın... Bu da səhnədi...

Taleyin yazısı yazılıb belə,
Isidə bilmirəm səni əzizim.
Yarğanlar, uçrumlar düşüb o yerə,
Görünməz olubdur yerimiz bizim.

***1993***

## NƏ BİLİM

Nə bilim, bəlkə də yara saydığım,
Bizi də özüylə aparacaqdır.
Bəlkə də ürəkdə yara saydığım,
Ürəkdə qalanmış göynər ocaqdır.

Mən kövrək, söz kövrək, o qız da kövrək,
Məhəbbət dediyin dönərmiş yaşa.
Sənə yalvarıram ürək, ay ürək,
Yaşa, bizim üçün, bir az da yaşa.

Nə qədər istərmiş Allah, yar yarı,
Məhəbbət qol-boyun qucaqlaşarmış.
Gün yarı, il yarı, ömür də yarı,
Ən yaxın adamlar uzaqlaşarmış...

Dayan! Uzaqlaşma, qoy öpüm səni,
Qoy içim gözünün nurunu bir də.
Dayan! Gözlərimə qoy təpim səni,
Bağışla, ey gözəl, yarını bir də.

Ömrə düyün düşür gənc yaşlarında,
Bir uçrum üstünü alıb deyirsən.
Bəzən boğulursan göz yaşlananda,
Təmiz bir ürəyi didib yeyirsən.

Nə bilim, ilanlar yatıb sinədə,
Nə bilim, bəlkə də günahkar mənəm.
Yox! Yox! sevirdi o, sevir yenə də,
Torpağı soyumuş yağış, qar mənəm.

***1998***

## NİŞANƏ

Səni kim çıxardı qarşıma mənim,
Yanaqda qurumuş göz yaşınam mən.
Dolaşdı, qarışdı ilk məhəbbətim,
Təəssüf... Dünyada çox naşıyam mən.

Nə dağda çay oldun, nə qəlbimdə Yaz,
Yaz, qara bəxtini, əllərinlə yaz !
Bəxşişin ağ duman, bir də sərt ayaz,
O qızın hardasa ağ qışıyam mən.

Qalmışam yox ilə var arasında,
Bir qış küləyində, qar arasında.
Alışıb yanmışam yar yarasında,
Susan gülüşünün başdaşıyam mən.

Sormursan ürəyim, gülüm, necədi?
Düz, dünya gözümdə indi gecədi.
Unutmaq səninçin bir əyləncədi...
O qara gölgənin yoldaşıyam mən.

***1997***

## ÇALINMIŞ BİR ÜRƏK

Yandırdı bir zaman yanaqlarımı,
O qızın öpüşü... Göynəyirəm mən.
Qurudub bir həsrət dodaqlarımı,
Dünyanın dadını duya bilmirəm.

Nə özün qayıtdın o sahillərə,
Nə də mən yetişdim səadətimə.
Təəssüf dünyadan köçən illərə,
Təəssüf «tilsimli» məhəbbətimə.

And içib, söz verdin aylı gecədə,
Dəniz də səsini içinə çəkdi.
Kəsdi eşqimizi qarğış necə də,
Yamyaşıl vədəmiz boz biçənəkdi.

Başqa bir gözəlin qaynar gözləri,
Qızıl şimşək kimi çalırdı məni.
Hərdən o gözəlin «dəli» sözləri,
Yanar bir ocağa qalardı məni.

Nə oda qalandın, nə ocağa sən,
Közərmiş gözlərin kimə kərəkdi.
Mən kimi sevmişdim, məni sevdi kim?
Çalınmış ürəyin nəyi ürəkdi?

Yandırdı bir zaman yanaqlarımı,
O qızın öpüşü... Göynəyirəm mən.
Qurudub bir həsrət dodaqlarımı,
Dünyanın dadını duya bilmirəm.

***1998***

## NAĞILA DÖNMÜŞÜK

Saçları ağappaq xatirələrdə,
Saçıma çəkilən sığal kimisən.
Mənə elə gəlir sirdə, sehrdə,
Ürəyi daş olmuş nağıl kimisən.

Nağıla çevrilib ömür də, gün də,
Nağıla çevrilib əllərin sənin.
Nağıla çevrilib toy da, düyün də,
Nağıla çevrilib illərin sənin.

Nə bilim, bəlkə də nağıl olmusan,
Nağıllar ardınca baş alasıyam.
Qara bulud kimi gülüm, dolmuşam,
Bir külək toxunsa, boşalasıyam!

Hardasa nağılam bəlkə özüm də,
Ağ və qara qoçun buynuzundayam.
Insan görməmişəm belə dözümdə,
Həsrətin ağarmış ağ buzundayam.

Uzaq bir nağılsan, qanadları ağ,
Kölgəsi qapqara budaq kimiyəm.
Sən mənim qəlbimdə közərən çıraq,
Mən sənin qəlbində ocaq kimiyəm...

***1998***

## SAHİL QAYASI

Qum sərin, Göy sərin, sular da sərin,
Dənizin içindən baxır qayalar.
Nə qədər məhəbbət səhnələrinin,
Şahidi olubdur məğrur qayalar.

Cürbəcür talelər, sevən, sevilən...
Qayalar özü də olur cürbəcür.
Bir qaya yumruq tək, biri əl edən,
Biri də dağların sinəsində pir.

Bir qaya üstündə oturmuşuq biz,
Yanğın kirpiklərdən dodağa düşür.
Çırpınır ürəklər... Çırpınır dəniz,
Ay doğub gözlərim işığa düşür.

Yazır səsimizi qızıl lentinə,
Qayalar xatirə muzeyidirmi?
Xoş sözlər, şor sular sızır lentinə,
Sahil qayaları nağıl deyirmi?

Ey sahil qayası, gördüyünü çək,
Yaz bu vədələri öz yaddaşına.
Bilirəm, bilirəm, bir gün gələcək,
Açar tapılacaq söz yaddaşına.

Ey sahil qayası - məhəbbət daşı,
Əlinlə nə qədər su çilənibdir.
Sahil qayaları - suyun daş yaşı,
Bu qara çiçəklər gül açıb nədir?

***1998***

## SEVİRDİ DƏ, SEVMİRDİ DƏ

Bir qız sevdim zümrüd gözlü,
Bilə-bilə düşdüm dərdə.
Bir qız sevdim ürkək sözlü,
Sevirdi də, sevmirdi də.

Əhdimizi kəsdi Xəzər,
Çağırardım onu Xəzər.
Daş olaydı gərək nəzər...
Sevirdi də, sevmirdi də.

Işıq gəzdim yad daşında,
Yaşayıram yaddaşında.
Heykəlləşib yaddaşım da,
Sevirdi də, sevmirdi də.

Sən bir uzaq gül adası,
Ürəyimdə göl adası.
Ləpələrin oyadası...
Sevirdi də, sevmirdi də.

Sonu yoxdu gözəlliyin,
Kimə qaldı gözəlliyin ?
Ağ ümidim, ağ çiçəyim,
Sevirdi də, sevmirdi də.

***1997***

## NECƏ DEYİM ÜNVANINI

Çox gördülər bizi, bizə,
Necə deyim ünvanını ?
Yox olmusan dözə - dözə,
Necə deyim ünvanını ?

Qarlı dağlar dilə tutur,
Ağ yağışlar selə tutur.
Sanki məni sillə tutur...
Necə deyim ünvanını ?

Ulduzumuz qoşa baxır,
Illərimiz qışa baxır.
Daş olmuşlar daşa baxır,
Necə deyim ünvanını ?

Xatirələr sonsuz dəniz,
Hanı o yaz, hanı o iz.
Sən xəbərsiz, mən xəbərsiz,
Necə deyim ünvanını ?

Ürək yerin, ürək yurdun,
Sən qəlbimdə qala qurdun.
Mən var idim, sən də vardın,
Necə deyim ünvanını ?

***1997***

## ONA

Işdi əyər ölsəm məhəbbətimlə,
Acgöz torpaqlara verməyin onu.
Yarın siz sinəmi, ovun köksümü,
Sevən varlığımla bələyin onu.

Sevirəm, sevmişdim tələbəlikdən,
O olub qəlbimi, yandıran, sökən.
Bir yol qəzasında döndük ölümdən,
Yaşadır Bəhruzun diləyi onu.

Kəhkəşan göylərdə Dan ulduzudu,
Qəlbimin torunda an ulduzudu.
Çörəyim də odu, duzum da odu,
Görürəm Günəşlə, Ayla tən onu.

Gör qara fikirlər necə dağıldı,
Istəkdi, ümüddi, sözdü, ağıldı.
Şirin fırtınadı, şirin nağıldı,
Yüzünə bəs edər küləyi onun.

***1997***

## ŞƏRİKLİ MƏHƏBBƏT

Onu da sevirdi, məni də o qız,
Kim idi günahkar? Qızmı, sevgimi?
Üstümə tökürdü işığı ulduz,
Isidə bilmirdi ılıq sevgimi.

Sıxırdı gözəli yol ayrıcları,
Kəsirdi yolları zənglər, salamlar.
Sevgi dənizində su dalğıcları,
Şərikli məhəbbət axtarırdılar.

O, ona Günəşi bağışlayırmış,
Mən ona qəlbimin od-ocağını.
Məhəbbət dediyin qızıl saraymış,
Gərək yandırasın çil-çırağını.

Şərikli məhəbbət, şərikli öpüş,
Burda yara kimdi, burda kimdi yar ?
Düşür yaddaşıma o kənd, o örüş,
Orda quzular da tapışardılar.

Omu şəriklidi, bizmi şərikli...
Məhəbbət dünyada bölünməz olub.
Oyun da olmasın gərək ikili,
Leylilər tarixdən silinməz olub.

Sənin nə günahın, məndə nə təqsir,
Göz gözdən xəbərsiz vurulur gözə.
Dolaşıb ümidlər, küləklər əsir,
Dolaşıb cığırlar, qar çıxıb dizə.

Ikili məhəbbət soyuq bir məzar,
Dodaqda düyündü, gözdə ləkədi.
Səni üşütməsin nə külək, nə qar,
Bu gələn o deyil, qara gölgədi.

Şərikli məhəbbət istəmirəm mən,
Şərikli məhəbbət istəmir o da.
Yapış qismətinin çılpaq əlindən,
Gözləyir yolunu uzaq bir ada...

***1997***

## GÖZƏL

Ay aman, bəxtimə bir gözəl çıxıb,
Od vurub qəlbimi yandırıb-yaxıb.
Bəlkə günəş çıxıb, bəlkə ay doğub?
Bəlkə də bir ulduz yağışı yağıb?
Belə bir çilçıraq dünyada varmı?
Ay Allah, bu qızdan doymaq olarmı?

Gözümün içində gül üstə jalə,
Boyu sərv ağacı, yanağı lalə.
Od baxış, ağ kəmər, dodaq piyalə,
Boynumda qolları qoşa şəlalə.
Belə bir çilçıraq dünyada varmı?
Ay Allah, bu qızdan doymaq olarmı?

Elə bir donmuşam, sehirlənmişəm,
Daş olub torpağa möhürlənmişəm.
Yox, qoca dünyaya təzə gəlmişəm,
Onun gözlərində çiçəklənmişəm ...
Belə bir çilçıraq dünyada varmı?
Ay Allah, bu qızdan doymaq olarmı?

Şirin bir nəğmədi, qanadlı səsdi,
Ömrümü isidən odlu nəfəsdi.
Hardasa tilsimli qızıl qəfəsdi,
Nə bilim ... Bəlkə də eşqimə qəsdi?
Belə bir çilçıraq dünyada varmı?
Ay Allah, bu qızdan doymaq olarmı?

***1999***

## SƏN MƏNİ GƏZİRSƏN

Sən məni gəzirsən dərviş donunda,
Kiminsə tapılmaz bir itiyiyəm.
Donub xatirəyə sənin qolunda,
Gözə görünməyən kölgə kimiyəm.

Sən məni gəzirsən, gülüm, çay boyu,
Açıb ürəyini ulu göylərə.
Acı göz yaşını, ağ sularda yu,
Bəlkə ürəklərin daşı göyərə.

Sən məni gəzirsən, ayağı yalın,
Sən laləyə həsrət, mən qızıl oda ..
Ömür başdan başa yalanmış, yalan,
Illər uçunarmış göz qırpımında.

Sən məni gəzirsən dərədə, dağda,
Gəzirsən gözünün işığında sən,
Saralıb solarmış yaşıl yarpaq da ...
Küləklər tutarmış mənim əlimdən.

Dağların zirvəsi ağappaq qardı,
Mənim də saçlarım ağappaq, dən-dən.
Yazdığım bu səhnə, gülüm, haraydı,
Qışqırır keçmişin pəncərəsindən.

***1999***

## SƏNİ HƏR GÖRƏNDƏ

Səni hər görəndə mən,
Qovruluram içimdə.
Yapışır əllərimdən,
Gündüzüm də, gecəm də.

Oğrun, oğrun baxırsan,
Göz altından sən gözəl.
Yandırırsan, yaxırsan,
Göz altında sən gözəl.

Qəlbimə köçüb adın,
Səni dünya sanıram.
«Kaş ki, mənim olaydın»-
Allaha yalvarıram.

Ağarıb qəmin saçı,
Ağarıb həsrətim də.
Eşqimin qızıl tacı,
Çırpınırsan sinəmdə.

Doymuram sözlərindən,
Laləm, nərgizim, gülüm.
Alışıb gözlərindən,
Dönüb olmuşam külün ...

***1999***

## SANIRAM Kİ, DÜNƏNDİ BU

Əlli ildir yol gəlirəm,
Məgər geri dönəndi bu?
Işığında dincəlirəm,
Sanıram ki, dünəndi bu.

Məktub yazır barmaqlarım,
Düyün düşüb dodaqlarım.
Quyu qazır ayaqlarım,
Sanıram ki, dünəndi bu.

Külək qopur, şimşək çaxır,
Pərən-pərən işıq yağır.
Uzaqlardan bir qız baxır,
Sanıram ki, dünəndi bu.

Ilk sevginin odu şirin,
Hanı Fərhad, hanı Şirin?
Gözlərimdə qalır yerin,
Sanıram ki, dünəndi bu.

Ürəyimdə azır dünyam,
Köhnəlibdir, sızır dünyam.
Yazdığını yazır dünyam,
Sanırım ki, dünəndi bu.

***1997***

# DÜŞÜB

Tanıyanlar danışır,
Ayrılıq bizə düşüb.
Xatirələr alışır,
Ətəyi gözə düşüb.

Yer də, göy də gileyli,
Mən Məcnun, sən də Leyli.
Gen dünyamız küləyli,
Şimşəklər səsə düşüb.

Həsrət ağlar apardı?
Kimi kimdən qopardı?
Onu dağlar apardı...
Ləpiri düzə düşüb.

Payız yoldu saçını,
Qürbət uddu Laçını.
Bu şirinmi, acımı?
Qismətlər... Nəhsə düşüb.

Na torpağıq, nə daşıq,
Qəmini boğ, ay aşıq.
Biz ki, ayrılmamışıq,
Yolumuz tərsə düşüb.

***1997***

## VURULMUŞAM

Bu şəhərdə doğulmusan,
Şəhərinə vurulmuşam.
Məhəbbətin ağ yolusan,
Ağ sehrinə vurulmuşam.

O xoş gündə görüşəndə,
Susdun sən də, susdu qəm də,
Susdu dünyam, susdum mən də,
Kədərinə vurulmuşam.

Eh ... lalələr yanır üzdə,
Yanaram mən, yanır göz də.
Göz yaşları donur gözdə...
Qəhərinə vurulmuşam.

Şirin sənsən, acı sənsən,
Sevgimizin acı sənsən.
Günəş nurlu səhər, sən-sən,
Səhərinə vurulmuşam.

Buz bağlayar yuvam sənsiz,
Bir ovçuya ovam sənsiz.
Sən dürr, gövhər, sən göy dəniz,
Gövhərinə vurulmuşam.

***1999***

## DƏYMƏZ

Demə ki, unudub bizi ürəklər,
Demə ki, bu dağı aşmağa dəyməz.
Bizə sillə çəkir soyuq küləklər,
Qaranlıq yollarda çaşmağa dəyməz.

Dünyanın özü də dolaşıb indi,
Yağacaq, üfüqlər boşalıb indi.
Dövlət sahibləri daş olub indi,
Bir dəli çay olub daşmağa dəyməz.

Deyirsən birinci çörək gərəkdi,
Deyirsən, beş başlı ürək gərəkdi.
Əyilmiş ağaca dirək gərəkdi,
Dünya pərdələnmə, yaşmağa dəyməz!

Hər şey köçəridir, hissə qapılma,
Bəxtimə düşübdür göydən üç alma.
Vəzifə veriblər... Get-gələ salma,
Dağ-dağa söykənər, dağ-dağa dəyməz.

***1997***

## BOZ DUMAN

Mənə soyuq baxdın, biganə baxdın,
Səninlə dalaşmaq istəyir, könül?
Gözəl, kövrəltməsin səni bu bəxtim,
Toruna dolaşmaq istəyir könül.

Sevgim o yazınla qoşa doğuldu,
Bir payız günü də nöqtə qoyuldu.
Mən ki, üz döndərdim sənə nə oldu,
Küsmüşəm, barışmaq istəyir könül.

Boz ömrüm, boz atla, boz cığır gedir,
Boz duman, boz güman doğulur, itir.
Ümidsiz dünyama sən ümid gətir,
Renginə qarışmaq istəyir könül.

Demə ki, dünyanın bozarıb üzü,
Dərdi qanadının altına düzdü.
Hərdən üfüqlərin qızarar üzü,
Zirvədə qaş olmaq istəyir könül.

Dörd yanım dumandı, üzü boz duman,
Doğma qayalarda Payız, Yaz duman.
Ona yazdığını mənə yaz, duman,
Səninlə danışmaq istəyir könül.

***1997***

## QƏLBİMDƏ DƏFN EDİN...

Mənim ağ qanadlı məhəbbətim var,
Şəkərdən şirindi, qardan təmizdi.
Səni tanımıram, bahar, ay bahar,
Bu bizim bir ovuc fəlsəfəmizdi.

Yay günü tufana bələyər məni,
Qış günü Günəşi özü yandırar.
Hərdən təkliyimdən diləyər məni,
Hərdən içər məni, hərdən yan durar.

Həyatda hər şeyi olmur danışmaq,
Ya dilin dolaşır, ya susur ürək.
Deməyin uşağam, sevən bir uşaq,
Sanıram içimdə çırpınır fələk.

Sevmirəm dünyada «torpaq oyunu»,
Bir də görürsən ki, dişin qamaşır.
Yerdə yox, qəlbimdə dəfn edin onu,
Mənim məhəbbətim mənə yaraşır.

Dağlara qar düşüb, işıqlı bir qar,
Bir az gec, bir az tez - sonu dənizdi.
Səni tanımıram, bahar, ay bahar,
Bu bizim bir ovuc fəlsəfəmizdi.

***1997***

## SƏHƏR OVÇUSU

Fikirli gəzirəm sahil boyunca,
Dənizin nə dalğın görkəmi varmış.
Yaşaya bilmirəm, ürək doyunca,
Sanırsan gəncliyi külək aparmış...

Əlindən isti əl yapışan zaman,
Elə bil ömrünü vərəqləyirsən.
Dəniz təklənibdir, aman, ay aman,
Səhər ovçusuna oxşayıram mən.

Səhər qapısını döyən tüfəngim,
Susub, barmağım da tətiyə çatmır.
Məni nişan alıb deyən tüfəngim,
Sahil quşlarını daha oyatmır.

Boğazda düyülən qəhərmi, sumu?
O ki, dönməz olub, gəzirəm...
Kimi?
Onun bu yerlərə dönmək arzusu,
Mənim o yerlərə getməyim kimi.

Bir iz axtarıram sahil qumunda,
Ağ sular dünyanı silib sahildən.
Səhər ovçusuyam dərviş donunda,
Yazımı, qışımı itirmişəm mən.

***1997***

## SƏNİN YOXLUĞUN...

Yoxsan, yaşayaram bir qonaq kimi,
Sağalmaz yaramdı sənin yoxluğun...
Gözümün nuruna bir qaynaq kimi,
Nur olub calandı sənin yoxluğun...

Uca dağ başında ağaran nədi?
Yaman üşüyürəm... Bu bir səhnədi?
Dünya da qədimdi, dərd də köhnədi,
Dərdə od vurandı sənin yoxluğun...

Dolaşmış bu simlər nəyin simidir?
Könlüm qasırğaya düşmüş gəmidir.
Qəlbim də ağappaq heykəl kimidir,
Uçulmaz qalamdı sənin yoxluğun...

Bəlkə məleykələr aparıb səni?
Bəlkə də şeytanlar yandırır məni?
Eh... Dolan deyildir yoxluğun yeri,
Boynuma dolandı sənin yoxluğun.

Buludlar qoynunda üzürəm, Allah,
Allahım - döz deyir... Dözürəm, Allah.
Özümə təsəlli gəzirəm, Allah,
Bəlkə də yalandı sənin yoxluğun?

***1998***

## DƏRİN OLUR

Dözmək olur hər ağrıya,
Diş ağrısı, baş ağrısı...
Gözlərini döyə-döyə,
Günlərini oğurlaya-oğurlaya
Gəlib çatır yaş ağrısı...
Aclığa da dözmək olur,
              kədərə də,
Demirsən ki, heyif-heyif.
Gəncliyini xərclədiyin
Boş yerə də,
        hədərə də...
Unudursan, ünvanına
Bir adamın acı sözün.
Düşünürsən, hər ağrıda
       günahkarsan özün,
                          özün.
Dözmək olur soyuğa da,
           istiyə də,
Qaraya da, yaşıla da
           süd ağa da,
Dəliyə də, şıltağa da,
           istəyə də.
Dözmək olur ...
Dözmək olmur,
Dərin olur
Nəfəsinə yetişdiyin,
Istisinə yetişdiyin
            yar yarası,
Dərin olur,
Bir sevginin gözlərində,
Dəfn edilmiş ümid yası.
Dərin olur...

*1997*

## SƏNƏ ZƏNG VURURAM

Sənə zəng vururam, titrəyir əlim,
- Alo, kim lazımdır?..
                    Danışmıram mən.
Itmisən dünyada eh, ilim-ilim,
Niyə götürmürsən telefonu sən?

Fikrimdə gör nələr doğulur, itir,
Taleyin alıbdır səni əlimdən?
Gülüm, telefonu sən özün götür,
Səninlə danışmaq istəyirəm mən.

Sən ki, telefonda lap yanımdasan,
Başqa bir səs, nəfəs qorxudur səni?
Səni telefona çağırmaq asan,
Kimisə çağırmaq səninçin çətin.

Dolaşır istəklər, dolaşır illər,
Döyür kirpiyini qızıl üfüq də.
Gör nələr, gör nələr danışır illər...
Daha yaşayıram xatirələrdə.

Gözlərim qalıbdır uzaq göylərdə,
Deyirəm qar olub yağa biləydin.
Sənsiz ayağımın altında yer də,
Qanadı qırılmış dəli küləydi.

Sənə zəng vururam, titrəyir əlim,
- Alo, kim lazımdır?..
                    Danışmıram mən.
Itmisən dünyada sən ilim-ilim,
Niyə götürmürsən telefonu sən?

***1997***

## İKİMİZ

Bəlkə də saymazdım rəngləri, inan,
Yazdım ki, biləsən duman, çən nədir.
Bizim sevgimizin yaşı qızıl dan,
Bizim istəyimiz bir əfsanədir.

Bu gözəl dünyanın bahar çağında,
Qızaran lalələr arasında biz...
Deyirəm bir ömrün yaşıl dağında,
Sevilən ikimiz, sevən ikimiz.

Girib qollarına aparmaq olmur,
Bir ömrü dərədən zirvəyə qədər.
Sevgini həsrətdən qoparmaq olmur,
Qılınc olub kəsir yolları kədər.

Bəzən bəzək olur, qar da, yağış da,
Yadında şirin bir xatirə qalır.
Elə də olur ki, ömür yağışda,
Çılpaq ağac kimi bəzən çırpılır.

Qismətin, yazının yeri var, yeri,
Rənglərin içində görünür həyat.
Sevgisin Günəşə bənzədir biri,
Birinin işığı dünyada boyad...

Bəlkə də saymazdım rəngləri, inan,
Yazdım ki biləsən duman, çən nədir.
Bizim sevgimizin yaşı qızıl dan,
Bizim istəyimiz bir əfsanədir.

***1997***

## QARŞIMA ÇIXAYDIN

Qarşıma çıxaydın eləcə gözəl,
Qarşıma çıxaydın xəfif gülüşlə.
Sən idin dünyada hər şeydən əzəl,
Doğursan, tüstümə doğan Günəşlə.

Nə doğan Günəşə, Aya əl çatır,
Nə zülmət gecədə tapıram səni.
Gözümdə bir gözəl dəryada batır,
Yapışıb əlimdən sürüyür məni.

Nə dərya, nə Günəş, nə Ay, nə Ulduz,
Bu ağ sevgimin ağ çaparıdı.
Odur ey, qapıdan əl eləyir qız,
Bu mən yetişməyən yar qatarıdı.

Nə qatar dayandı, nə mən yetişdim,
Zamanmı qopardı əli əlimdən?
Mən onu dünyada hər şey bilmişdim,
Bəlkə o yan keçib səadətindən?

Qarşıma çıxaydın eləcə gözəl,
Qarşıma çıxaydın xəfif gülüşlə,
Sən idin dünyada hər şeydən əzəl,
Doğursan, tüstümə doğan Günəşlə.

***1998***

## SƏN DÖNƏN DEYİLSƏN

Istərdim ki, qarşıma çıxasan
Eləcə əziz, eləcə sevimli.
Didir qəlbimi
Qara bir fikir.
Yollar necə dolaşıq.
Həyat necə ədalətsizdir.

Sən dönən deyilsən,
Görünür, qismət deyilmiş.
        bu doğan səhər.
Gözlərimdə həmişə,
Həsrət məşəlisən
Uzaqlaşsa da bizdən
O qəribə illər
Toxunmaq istəyirəm ağaclara,
Danışmaq istəyir
          şehli budaqlar,
Boş qalıb qucaqlar...
Kimi sıxım bağrıma?
Nəyi sıxım əllərimlə?
Günahkaram əməllərimlə...
Sən dönən deyilsən...
Ölən deyilsən
Mənim qəlbimdə.
Sən mənim Şərqimdə,
Mən sənin Qərbində.
Şərqin də unudulacaq,
            qəbrim də.
Bir də ki,
Biz tək deyilik həyatda,
Nə qəm...
Elə bizim kimidir
            həyat da.

***1997***

## SKRİPKA, GÖYNƏMƏ

Skripka, göynəmə,
Bu nə səs, bu nə sədadır?..
Unutmuşam özümü,
Yerim çılpaq adadır...
Sənin göz yaşlarına,
Birgə dəsmal çəkərdik.
Sənin səsin önündə,
Baş əyib, diz çökərdik.
Tutmusan Yeri, Göyü,
Dağ çəkirsən sinəmə.
Üşüdür məni nalən,
Skripka, göynəmə!
Bircə mən kədərliyəm,
Sən ki, özün bilirsən...
Sən niyə ağlayırsan?
Skripka, göynəmə.
Skripka, göynəmə!
Göynətmə, skripka!
Bu mənim qismətimdir...
Dayan, uzağa getmə,
Ağlama, skripka!
Belə arzu etmirəm,
Özün alış, özün yan!
Göynətmə, skripka,
Səsim gələndə dayan.
Bircə yol sus
söz demə!
Skripka, göynəmə!
Skripka, göynəmə!
Göynətmə!!.

*1997*

## SƏNSİZLİYİ GÖRƏ-GÖRƏ

Gecələr sənsiz düşür,
Işıqlar sənsiz yanır.
Küçələr sənsiz aparır məni,
Əlim çatmayan üfüqlərə.
Yaşayıram
Sənsizliyi görə-görə.
Ən acı,
Ən şirin anların
Həsrətidir sənsizlik.
Məni
Əridir sənsizlik.
Dönüb polad olacam.
Dönüb qaya olacam.
Sənsizliyin sonuna
Çatana kimi.
Ya da ki, özümü
Sənsizliyin yatağına
Atana kimi.
Nəyimə gərək Günəş,
Nəyimə gərək Ulduz,
Mən səni axtarıram.
Itirmişəm dünyamı,
Mən səni axtarıram.
Yox, dəli olmamışam,
Dəli axtarmaz səni.
Mənsizlik əzabından,
Saçları bəyaz səni.
Dağ da, çay da yerində,
Evimiz də yerində,
Bağımız da yerində,
Hilal Ay da yerində.

Bircə səni görmürəm,
Qulaqları qapanıb,
Qara telefonun da.
Səsli-küylü Yerin də...
Bircə səni görmürəm,
Görmək istəyirəm mən...
Gülmək istəyirəm mən...
Ancaq görə bilmirəm!
Bir də gülə bilmirəm!
Bilmirəm!

***1997***

## SEVƏNLƏR GÜNÜ

Sevənlər günündə şeir yazmamaq,
Sevən bir ürəkdə çovğundu, qışdı.
Sən məndən uzaqsan, uzaqdan uzaq,
Yenə xatirələr qarış-qarışdı.

Saçımda dinsə də ovsunlu yüz əl,
Ocaq yeri kimi görünür yerin.
Nə qədər insan var dünyada gözəl,
O qədər sevgi var acılı, şirin...

Bir dəstə qərənfil donub gözümdə,
Mən çiçək almıram, gülüm, o vaxtdan.
Qara bulud kimi dolub gözüm də,
Necə də qaş-qabaq töküb qızıl dan...

Bir sevgi yaşadır gözündə həsrət,
Bir sevgi yaşayır qulağı səsdə...
Odur ey, ulduzdan baxır məhəbbət,
Bir ümid yaşayır, varsa nəfəs də.

Sevənlər günüdür bu gün əzizim,
Sənə nə bəxş edim? Dinir həsrətim...
Yaş səni boğmasın, bir din əzizim,
Bilirəm kövrəldib zəng məhəbbəti...

Ayılıb əzizim, bu gün obaşdan,
Bir şeir yazıram, sənin adınla.
Deyirəm bəlkə də bizi yaşadan,
Bu ülvi sevgidir... Qalır yadımda...

***1998***

## YOLUM SİZƏ DÜŞƏNDƏ

Yolum sizə düşəndə,
Yandırardız işıqları,
Yandırardız kölgəmi.
Çay içməmiş,
      çörək kəsməmiş,
            buraxmazdız məni.
Yolum sizə düşəndə
Sıxardız əllərimi.
Gətirdiyim
        təbiətin
          vəhşi güllərini
Qatıb mənə öpərdiz.
Sevinərdi
     pəncərənizi döyən külək.
Mətbəxinizə boylanan
                  dəniz..
Sevinərdi çilçıraqlar.
Sabahını ölçən-biçən,
Dünyanı gözlərində
            aram-aram çəkən
                  uşaqlar.

Yolum sizə düşəndə
Çırpınardı,
Dünyasını
Heç kimin görmədiyi
            ürəklər.
Qaz plitəsində
Təmiz kənd yağında,
Ağ, sütül göbələklər
            qızardıqca,
Biz nələr yaşayırdıq.
Həsrətini çəkdiyimiz
    yaxın və ən uzaq
        bir sevgini,
Kirpiklərimizin
            gölgəsində daşardıq...
Bəs nə oldu,
Soyudu,
    sizə gedən yollar
Soyudu
Məni bağrına
        sıxan qolar.
Soyudu evinizin divarları.
Xəyallarda
      böyümüş,
         yaşamış
Sevginin damarları.
Soyudu...
Niyə?
Dünyamı soyudu?
Istəklərmi soyudu?
Saçlarımız
        rənginimi dəyişib?
Yox, əzizim yox,
Yaşamaq çətinləşib!...

***1998***

## HƏSRƏTİN SONU YETSƏ

Günəş doğar səhərdən,
Həsrətin sonu yetsə.
Gözüm dönər səfərdən,
Həsrətin sonu yetsə.

Gül içində qar mənəm,
Düşən yarpaq, yar, mənəm.
Sarı çiçək dərmərəm,
Həsrətin sonu yetsə.

Qışda baharım gələr,
Gözümün yaşı gülər.
Yatar, dincələr şəhər,
Həsrətin sonu yetsə.

Sel gələr, daş gətirər,
Ağ saçı yaş gətirər.
Yarı yaddaş gətirər,
Həsrətin sonu yetsə.

Hanı çapar, hanı at?
Tələsmə, dayan həyat!
Məni aldatmaz murad...
Həsrətin sonu yetsə.

Ömür aldadır, Allah,
Dərd, qəm bal dadır Allah.
Gözüm daldadır Allah...
Həsrətin sonu yetsə...

***1998***

## YAŞAYA BİLMƏZSƏN ...

Səni mənim qədər sevən tapılmaz,
Olmusan qəlbimin odu, ocağı.
Sən saçı yamyaşıl çiçəkli bir yaz,
Eşqin kainatın isti qucağı.

Dəniz sən, ulduz sən, çəmən sən, gül sən,
Bu gün ad günündür çırpınır ürək.
Unudub ötəni üzümə gülsən,
Kəsilər yağan qar, quruyar külək.

Söz-söhbət axtarma mənim sözümdə,
Məhəbbət dediyin azar dumanda.
Dünyanın işığı sönər gözümdə,
Əriyib gedərsən gülüm, gümanda.

Bu gün ad gününə hədiyyələr yox,
Yanar bir ürəyi gətirmişəm mən.
Göyərçin qanadlı arzularım ağ,
Göyərçin baxışlı seyr edənim sən.

Mənim taleyimin sənsən işığı,
Itirər odunu bu sevgi sənsiz.
Mənəm sən gözəlin yar-yaraşığı,
Yaşaya bilməzsən dünyada mənsiz!...

***1998***

## «MOBİL» TELEFONLAR

Səni çox sevirdim, sevirəm yenə,
Sevəcəm bir qarış kəfənə kimi.
Sökürdün bağrımı ağlaya-gülə,
Mən işdən yanına dönənə kimi.

Didirdi qəlbini saxta gümanlar,
Qısqanclıq içindən yeyirdi səni.
Döysə də qapını ən acı anlar,
Yenə də, yenə də sevirdin məni...

Deyirdin: «gözümdən uzağa getmə,
Kimlər bu dünyada çörək acıdır»?
«Qısqanclıq»-deyirdim, içimdə mən də –
«Böyük faciənin başlanğıcıdır».

Səni inandırmaq dərd idi, inan,
Hər kiçik məclisdə söz tapılardı.
Günah səndə deyil...
                    Daş arasından,
Ardımca boylanan göz tapılardı.

«Mobil» telefonlar tutub əlindən,
Qısqanclıq hissinin buxovu kimi.
Bu gün səngimisən...
          Səngimişəm mən...
Baxıraq ürəyin girovu kimi.

***1998***

## DAŞ OLUB ÜRƏKLƏR...

Sənmisən, ya mənəm deyib gülməyən?
Eh, qar da görmüşük, dəli külək də.
Ən qalın linzalar görə bilməyən,
Tikan da bitərmiş demə ürəkdə.

Bizi qorxutmadı, şər də, sınaq da,
Ən şirin günlərim qaldı səninlə.
Görünür dünyada qara da, ağ da,
Xatirən yaşayır bircə mənimlə.

Əzizim, səninlə ağlamışıq da,
Yoxsa görünməzdi həyatda yerin.
Sən yoxsan, yox olub sanki işıq da,
Deyirlər: «Qulağı vardır bu yerin»...

Başımda zəlzələ fırlanır mənim,
Bir uçrum gözləyir sanki yolumu.
Üzülüb dünyada dünyadan əlim,
Yağan ağ yağışmı, qarmı, dolumu?

Yerdəyəm, uçmuşam göyə bilmirəm,
Səni axtarıram ulduzda, ayda.
Dərdimi heç kimə deyə bilmirəm,
Daş olub ürəklər...
                              Deyim ?
                                          Nə fayda...

***1998***

## TƏSƏLLİ GƏZİRƏM

Təsəlli gəzirəm...
Qonağım olur,
Sanıram sularda çırpınır gəmim.
Hardasa öz ömrüm qınağım olur,
Yaşaya bilmirəm çoxları kimi...

Yaşaya bilmədim Günəşli, Aylı,
Tufanlar, gürşadlar yolumu kəsdi.
Yaşaya bilmirəm haylı-haraylı,
Deyib-deməməyim daha əbəsdi...

Var-dövlət üstümə yağdı yağış tək,
Gözucu baxmadım, içimi yedim.
Üz-üzə dayandı mənimlə külək,
Çəkib qılıncımı sözümü dedim.

Deyirəm sözümü elə bu gün də,
Demək mənə qalır, yaşamaq ona.
Kişi də yaşayar belə, bu gündə?
Bəs niyə doğmusan məni, ay ana?..

Yer salıb gözümdə dünya qəm kimi,
Itərmiş qəlbimdə neynim, necəm də...
Laləsi qurumuş bir çəmən kimi,
Təsəlli gəzirəm aylı gecəmdə...

***1999***

## ÖMRÜN TƏNHALIĞI

Bu onun taleyi, bu mənim ömrüm,
Ayrılıq donunu geydi tənhalıq.
Qurudu ürəkdə Arazım, Kürüm,
Yaşıl budaq kimi əydi tənhalıq.

Söz yara, köz yara, ürək də yara,
O hara, mən hara, bu həsrət hara,
Inana bilməzdim küləyə, qara,
Fırlanıb qəlbimə dəydi tənhalıq.

Onunla tikəni ayrı yeməzdim,
Ona güldən ağır kəlmə deməzdim,
Ayrılıq nədir ki, vallah bilməzdim,
Mənim də qapımı döydü tənhalıq.

Bu ad bu dünyada çox ağır addı,
Sağ ikən məni də bu torpaq uddu.
Gözə görünməyən alovdu, oddu,
Içimdə göynəyən neydi tənhalıq.

Yox, təslim olmadım güldüm, güləşdim,
Sənə ürəyimdə Allah demişdim.
Dəyirman daşının dişinə düşdüm,
Məni darı kimi üydü tənhalıq,
Yaşıl budaq kimi əydi tənhalıq.

***1998***

## DƏRMƏK İSTƏYİRƏM

Lalələr yuxumda qızarır mənim,
Qızıl gəncliyimdən uzaqlaşmışam.
Dərmək istəyirəm titrəyir əlim,
Lalələr içində çılpaq bir daşam.

Bir zaman dərərdim... Sıxıb «ağ südü»,
Əlimin üstünə xallar düzərdim.
Onda yaşadardı məni dağ südü,
Indisə yaşadır yaşamaq dərdi.

Lalədə gəzərdim gözün qarasın,
Daha o lalələr bir daha gülməz.
Qəlbimin içində lalə yarasın,
Çiçəkli bahar da sağalda bilməz.

Siz ey ekranlardan baxan lalələr...
Nə ünüm yetişir, nə əlim sizə.
Gəncliklə görüşə çıxan lalələr,
Mənli də, mənsiz də yaraşır düzə...

Dərmək istəyirəm, lalələr sizi,
Dərmək istəyirəm saçlarım dən-dən.
Dalğası qan kimi lalə dənizi,
Alıb gəncliyimi mənim əlimdən...

***1999***

## SƏN İNDİ UZAQSAN

Sən indi uzaqsan mənə əzizim,
Uzaqsan ən uzaq ulduzlar qədər.
Qar olub əriyib dağlarda izim,
Didir ürəyimi şirin bir kədər.

Gözümün içindən baxır suallar,
Niyə o günlərə çevrildi arxa?
Yuyub eşqimizi apardı sular,
Sapsarı yarpaqlar tökülür arxa...

Niyə o illərdə donub qalmadıq?
Itmişik ağ saçın kölgəsində biz.
Indi rəngi qaçmış quruca adıq,
Çırpınır qəfəsdə daha qəlbimiz.

Sən də o deyilsən, mən də əzizim,
Daşları ağaran qurumuş çayam?
Yox, yox, sən mizrabsan, mənsə sarı sim,
Dolmuşam, toxunsan ağlayasıyam.

Qalmışıq dağların arxasında biz,
Dağlardan o yana al bahar yatır.
Qışqıra-qışqıra qalıb laləmiz,
Nə əlimiz çatır, nə əli çatır.

***1999***

## EH, SƏNƏ NƏ VAR Kİ...

Eh, sənə nə var ki, ay sevilən qız,
Sənki bu dünyada sevmədin məni.
Ən çox acı-acı mənə gülən qız,
Acı bir mənsizlik udacaq səni.

Gün keçir, yaş ötür, soyuyur ürək,
Soyuyur ürəkdə qızıl qanım da.
Səni də, məni də didəcək külək,
Bir ömrün qar basmış dolaylarında.

Sən mənə şirinsən həsrətin qədər,
Lalə sən, nərgiz sən, sinəmdə yerin.
Üzümə gülürsən...
                        Çırpınır kədər,
Kar olur qulağı torpağın, Yerin.

Eh, sənə nə var ki...
                        «Ağ səadətin»,
Şimşəyi saçımda, qarı dizimdən.
Düşmüşəm oduna bir məhəbbətin,
Qalmışam bu eşqin çılpaq düzündə.

***1999***

## ÖZÜM DƏ BİLMİRƏM

Kimlərsə adımı qumlara yazdı,
Kimlərsə sevgimi boğdu gözündə.
Bu gün ağ yağışlı sarı payızdı,
Ömrün dərəsində, ömrün düzündə.

Birinə «hə» dedim, birinə «yox» mən,
Bu gün də gözəl qız, sual sənindi.
Birinə varamsa, birinə yox mən,
Sənin nə günahın, günah mənimdi.

Niyə gec doğuldun, niyə gecikdin?
Bir ılıq baxışla sağalmaz yara...
Ümid yaşayarmı? -
                              Özün danış, din,
Əgər qovuşmasa gözəl, yar-yara.

Lalənin qarası, gözün qarası,
Fırlanır, fırlanır, mənə tuş gəlir.
Qarşıda qalıbdır ömrün parası,
Qışqıra-qışqıra qarlı qış gəlir.

Ölçürəm, biçirəm qalan günləri,
«Yox» deyə bilmirəm,«hə» də demirəm.
Geyinib əynimə yalan günləri,
Özüm də bilmirəm hara gedirəm.

Kimlərsə adımı qumlara yazdı,
Kimlərsə sevgimi boğdu gözündə.
Bu gün ağ yağışlı sarı payızdı,
Ömrün dərəsində, ömrün düzündə.

***1999***

## SEVƏN ÜRƏK

Sevən ürək - dağ laləsi,
Sevən ürək - qızıl çıraq.
Sevən ürək ... Ah naləsi,
Yeri-göyü yandıracaq.

Dəiz kimi qasırğalı,
Layla kimi həzindi o.
Aparsalar gözü bağlı,
Bu həsrətə dözəndi o.

Sevən ürək - çırpıntısı,
Yer şarının zəlzələsi.
Sevən ürək - sızıltısı,
Əfsanələr əfsanəsi.

Kimə deyim dərdimi mən,
Kimə açım ürəyimi?
Qanım qaynar, saçım dən-dən,
Nəzər kəsib küləyimi.

Sevən ürək yaşa baxmaz,
«Yox» deyilsə tək qalacaq.
Oda baxmaz, daşa baxmaz,
Qovuşmasa məhv olacaq...

***1999***

## HƏR BAHAR GƏLƏNDƏ

Hər bahar gələndə ağaclar kimi,
Göynəyir sinəmdə yoxluğun sənin.
Dağların döşündə ağaclar kimi,
Gözümün içində görünür yerin.

Hər bahar gələndə eh... Nələr, nələr,
Qarışır, dolaşır saçlarım sənsiz.
Döyür gözlərini qızıl lalələr,
Döyür kipriyini bənövşə, nərgiz.

Hər bahar gələndə gəzirəm səni,
Ömrümün dumanlı sahillərində.
Yaxın bir keçmişə aparır məni,
Kövrək xatirələr tutub əlimdən.

Hər bahar gələndə danışa, gülə,
Şənlik bəxş edirsən mənə yuxumda.
Nə bilim, bəlkə də sən bilə-bilə,
Mənə sevdirirsən yoxluğunu da.

Hər bahar gələndə gəzirəm, gülüm,
Ulduzlar içində dan ulduzunu.
Ged! sənin arxanca gəlirəm, gülüm,
Gələcəm yol boyu, ömrüm uzunu...

***1999***

## BARMAQLARIM SAÇLARINA DƏYMƏMİŞ

Bu dünyada ya mələk ol, ya dərviş,
Sözdən şələ bağlanarmış adama.
Barmaqlarım saçlarına dəyməmiş,
Çıxarıblar səni mənim adıma.

Sən dünyanın ağ işığı, ağ qarı,
Yapışıbdır əlimizdən yaz, bahar.
Kəsə bilməz rüzgar ə  di, ilqarı,
Kəsə bilməz təmizliyi gümanlar.

Çin olaydı, gülüm, bu səs, bu səda,
Gözlərimdə qızıl heykəl qoyardım.
Qovuşsaydı iki ad bir soyada,
Yaş günümü həmin gündən sayardım.

Nə etməli, hələ ölçüb- biçirik,
Hislərimiz tərəziyə sığışmır.
Lalə kimi al günəşi içirik,
Ürəyimiz hələ, hələ alışmır.

Bu dünyada ya mələk ol, ya dərviş,
Sözdən şələ bağlanarmış adama.
Barmaqlarım saçlarına dəyməmiş,
Çıxarıblar səni mənim adıma.

***1999***

## HANI?

Mənim üçün nübar idin, bar idin,
Hanı sevgi, hanı nübar, hanı bar?
Tükənməyən dövlət idin, var idin,
Hanı qismət, hanı dövlət, hanı var?

Dəniz idin, dalğaları nəğməli,
Itib dünyam... İtirmişəm mən səni...
Öpüşlərə qərq edərdin eh... Məni,
Hanı sevinc, hanı gülüş, hanı yar?

Gəlişinlə vüsal qoşa gələrdi,
Lalə kimi yanaqların gülərdi.
Göylər bizi yağışına bələrdi,
Hanı bulud, hanı yağış, hanı qar?

Eh... Sən idin mənə uğur diləyən,
Gözlərinin giləsində bəsləyən.
Sözləriylə səadətə səsləyən,
Hanı səsin, hanı kaman, hanı tar...

***1999***

## UNUDA BİLMİRƏM BELƏ BİR ÖMRÜ

Unuda bilmirəm belə bir ömrü,
Dolaşıb əvvəli, dolaşıb sonu.
Isladır kökümü, Arazımı, Kürümü,
Unuda bilmirəm, unutsam onu...

Böyüdüm, buruldum bir ağac kimi,
Böyüdüm, buruldum ayağım suda.
Közərdim dağlarda bir ocaq kimi,
Demədim sirrimi yaxına, yada.

Sevgini bölüşmək çətindir, çətin,
Nə qədər xatirə yatır ürəkdə...
Bir ağac qoynunda sığınıb əNdim,
Beləcə çırpınır gülüm ürək də.

Çox şeyi anladım... Anlamadım da,
Təəssüf, sevgimi duya bilmədin.
Düyün-düyün ağac bitib qanımda,
Qara düyünləri saya, bilmədin.

Göyərdim, göynədim, göynədi qəlbim,
Budağa sarılmış budağa döndüm.
Dilsiz ağac kimi susma, danış-din,
Bəlkə düşünürsən alışdım, söndüm?

Yox, sönə bilmərəm, bu bir gümandı,
Sənin varlığına sarılmışam mən.
Sənin düşündüyün bir ağ dumandı,
Küləklər başlasa, sürünəcəksən.

Qəribə gəlməsin sənə bu sevgim,
Qəribə sanma gəl sinəmdə dağı.
Əzizdən-əzizdir mənə bu sevgim,
Unuda bilmirəm qaranı, ağı...

Unuda bilmirəm belə bir ömrü,
Dolaşıb əvvəli, dolaşıb sonu.
Isladır kökümü, Arazımı, Kürümü,
Unuda bilmirəm, unutsam onu...

***1972***

## EY QIZIL LALƏLƏR

Ey məni gözləyən qızıl lalələr,
Gəlmişəm, gözümdə xatirə, işıq.
Nələr danışacam sizə mən nələr...
Axı biz sizin, bacı-qardaşıq.

Öpüb oxşayacam xalınızı mən,
Xalınız qəlbimə köçüb, lalələr.
O yerlər tutaraq mənim əlimdən,
Səbirli olmağa səsləyəcəklər.

Ystümə suallar yağdıracaqsız,
Sormayın, ürəyim boz biçənəkdir.
Xəbər tutmayacaq bizlərdən o qız,
Bəlkə də gözləri yol çəkəcəkdir.

Nə bilim, nə bilim, sevimli güllər,
O xanımdan əzəl sizi sevmişəm.
Nə yaxşı dünyada varmış fəsillər,
Sizin üstünüzə oda gəlmişəm.

O xanım yandırıb qəlbimin odun,
Ocağın bir ovuc gözü də qalmıb.
Lalələr, könlümü alın, oyadın,
Deyən ürəyimin sözü də qalmıb.

Lalələr, ümidim sizədir ancaq,
Hanı uşaqlığım təmiz, ağappaq...
Bilirəm, bir gün də məni udacaq,
Lalələr bitirən bu ulu torpaq.

Qaytarın, lalələr, gülüşlərimi,
Qaytarın, lalələr, məni özümə.
Qaytarın lalələr görüşlərimi,
(Necə də oxşayır xallar gözümə).

Ey məni gözləyən qızıl lalələr,
Gəlmişəm gözümdə xatirə, işıq...
Nələr danışacam, sizə mən nələr...
Axı biz sizinlə bacı-qardaşıq.

***1972***

## BİR BAYRAM PAYI

Özün gətirmədin, o qız gətirdi,
Bayram süfrəsinin incilərindən.
O bayram payının görünür yeri,
Əriyi, fındığı, kişmişi dən-dən.

Özün gətirmədin, dedin görərlər,
Mən də bilirdim ki, bu mümkün deyil.
Xanım, gətirərsən sən gələn səfər,
Hələki bir mənəm, bir də ki, sahil.

O qızı yanıma gətirdi külək...
Nələr düşünürdüm yollar boyunca.
Oturduq üz-üzə mən tək, o qız tək,
Danışdıq doyunca, güldük doyunca.

Baxdım, yol çəkirdi onun gözləri,
Elə bil nədənsə nigaran idi.
Hələ görməmişdim o gündən bəri,
Bayram süfrəsini stola sərdi.

Bərəkət gətirdi yanıma mənim,
Duydum dünyamızdan yoxdur xəbəri...
Dualar edirdi halıma mənim,
Elə bil qovurdu otaqdan şəri.

Necə də, necə də mehriban idi,
Sənin sözlərindən duymuşdum bunu.
Sözü uzatmazdı, deyərdi qəti,
Bu imiş onun da həyat qanunu.

Mənim ürəyimdən nələr keçdiyin,
Eh... Necə duymuşdu deyə bilmərəm.
Mənə hey deyirdin, susma, danış-din,
Gözlərim önündə dayanmışdın sən.

Özün gətirmədin, o qız gətirdi,
Bayram süfrəsinin incilərindən.
O bayram payının görünür yeri,
Əriyi, fındığı, kişmişi dən-dən...

***1972***

## ÜRƏKDƏN SEVƏNLƏR

Sevgidir dünyada sevginin adı,
Yuya bilməz onu nə yağış, nə qar.
Hamını yandırmaz məhəbbət odu,
Leyli ola bilməz bütün xanımlar.

Hərənin bir cürə olur sevgisi,
Mən atəş bilirəm onu dünyada.
Deməyin duyulmur sevginin səsi,
Dinəcək, atsaz da ocağa, oda.

Mən sevgi yolçusu, sən gileylisən,
Bu geniş dünyada kiməsə tayıq!
Xanım, nə Məcnunam, nə sən Leylisən,
Dəli bir sevginin caynağındayıq.

Qoparar qayanı dağ zirvəsindən,
Sevgilim yanımda küsməsin deyə.
Qoparar küləyi yer kürəsindən,
Xanımın bir saçı düşməsin deyə.

Bir sevgi birinə oxşaya bilər,
Bir sevgi birinin təkrarı olmaz.
Biri ağlayanda, biri də gülər,
Ancaq ki, bu dünya heç kimə qalmaz.

Gedirəm, gedirsən yolu mənimlə,
Biz div döyüşünə atılasıyıq.
Zarafat edirəm, əzizim, gülmə,
Məhəbbət oduna qalanasıyıq.

Gedirəm, gedirsən, çoxdu suallar,
Yəqin cavablar da az olmayacaq.
Bircə təsəllim var, bir ümidim var,
Yrəkdən sevənlər qucaqlaşacaq.

Sevgidir dünyada sevginin adı,
Yuya bilməz onu nə yağış, nə qar.
Hamını yandırmaz məhəbbət odu,
Leyli ola bilməz bütün xanımlar.

## QƏLBİMDƏ OCAQ

Mən başa düşürəm səni əzəldən,
Yrəkdə deyirsən: - Bizimki tutmaz.
Tökürsən üstümə baxışı dən-dən,
Mən hardan bilim ki, nədir bu avaz?

Deyirəm, bəlkə də bir sınaqdı bu,
Bir gün unudacaq bu şirin günü.
Zəncir-zəncir olub qəlbimdə arzu,
Yzür dəryalarda bir gəmi kimi.

Nə qədər canım var dözəcəm, gözəl,
Abbas da sazını ölüncə çaldı.
Deyirəm, əlimi üzəcəm, gözəl?
Gülüm, gəl aldanma, bu bir xəyaldı.

Uşaqlar oyuncaq sevdiyi qədər,
Bəlkə də bir az çox sevirəm səni.
Məni ağlatsa da gülüm, qəm, kədər,
Görmək istəyirəm sevinən səni.

Bilirəm sevəni nə izləyir nə,
Əzaba, möhnətə hazıram, gülüm.
Mən əsgər gedirəm, yəqin gəlincə,
Məktublar gələcək adıma mənim.

Gecələr bir ulduz tapıb deyəcəm,
O qız uzaqdan axtarır məni.
Sevirəm, sevirəm, hər vaxt sevəcəm,
Ayla qoşa səni, bərabər səni.

Buludlar göylərdə tüğyan edəndə,
Gündüzüm itəcək, gecəm düşəcək.
Uçub gedəcəksən, harasa sən də,
Eh, əziz gecələr yenə dönəcək...

Nə bilim, qəlbimdə ocaq qurmusan,
Közərir, qızarır canı var kimi.
Məni ürəyimdən elə vurmusan...
Hələ ki, uzaqsan bir nübar kimi.

***1972***

## QOY SƏNİ SIXMASIN

Qoy səni sıxmasın nigarançılıq,
Duyuram könlündən keçənləri mən.
Yzmə ürəyini, nə qədər varıq...
Qəlbimdə bir heykəl yaratmısan sən.

Sevgidir heykəlin ünvanı, adı,
Ikicə turisti var bu heykəlin.
Həllik ikidir onun soyadı,
Deyə də bilmirəm daş olur dilim.

Hələ ki, sınaqlar gözləyir bizi,
Sevgi bu dünyada sınaqsız olmur.
Hələ ki, talelər izləyir bizi,
Dağdan gələn çaylar tezcə durulmur.

Biz ki yağan qardan təmizik, təmiz.
Axı bir fikirdə olmur adamlar,
Elə olmalıyıq, gülüm, gərək biz.
Ymidsiz olmasın gələn sədalar,

Məni qorxutmayır hər deyilən söz,
Haqqı-nahaqı da çəkəsidilər.
Bütün yer kürəsin gülüm, dolan gəz,
Görəcəksən vardır yaxşılar, pislər.

Məhəbbət heç zaman ləkə götürmür,
Girib daxilini uçursalar da.
Məhəbbət odundan təmiz süd əmir,
Məhəbbət boğulmaz çovğunda, qarda.

Onun gecələr də yoxdur yuxusu,
Onun nəfəsinin Günəşdir saçı.
Onun məhləsində bizik oyunçu,
Onun məhləsində bizik qapıçı.

Qoy səni sıxmasın nigarançılıq,
Duyuram könlündən keçənləri mən.
Yzmə ürəyini, nə qədər varıq...
Qəlbimdə bir heykəl yaratmısan sən.

***1972***

## SƏN MƏNİM QƏLBIMDƏ

Sən mənim qəlbimdə doğma bir ulduz,
Mən sənin qəlbində kiməm, nəçiyəm?
Incimə, başına qoy dolayım duz...
Məhəbbət yolçusu - bir pinəçiyəm.

Məhəbbət sözünü qoşa yazın siz,
Ondan ayrı düşsəm, heç olaram mən.
Gedib ulduzlara yetsə də bu iz,
Məhəbbət ardınca düşüb gələcək.

O mənə məhəbbət bağışlayıbdır,
Mən onu kiməsə verə bilmərəm.
O, sevgi yolunda dağlar aşıbdır,
Ulduza getsə də, getməliyəm mən.

Mələklər, deməyin yol azmışam mən,
Siz edən dualar bəsim olacaq.
Mələklər, deməyin qəlbi daşam mən,
Qoy qoşulum sizə hər yana uçaq.

Bilirəm, bilirsiz mən tək deyiləm,
O mənim qəlbimin bir parasıdır.
Mən dəli deyiləm deyinəm, deyinəm,
Məhəbbət-gözümün bir aynasıdır.

Bilirəm bir zaman yoldaş olacaq,
Sonsuz kainatın dolaylarında.
Bəlkə də o sizdə qonaq qalacaq,
Bir insan qəlbinin hay-harayında.

Mələklər, görürsüz sevgimizi siz,
Bizim adımızı verin Allaha.
O deyən yaxşıdır, axı kimik biz?
Axı o qol çəkir sevincə, aha.

Sən mənim qəlbimdə doğma bir ulduz,
Mən sənin qəlbində kiməm, nəçiyəm?
Incimə, başına qoy dolayım duz...
Məhəbbət yolçusu - bir pinəçiyəm.

***1972***

## QARA YARAŞMIR SƏNƏ

Qara yaraşmır sənə,
Qızılı don yaraşır.
Sən onu geyinəndə
Sevincim aşıb-daşır.

Gözəl geyərmi qara?
Axı sən bir incisən.
Sevginə kölgə salma,
Dünyamın sevincisən.

Sən qara geyinəndə...
(Qara mənə yaraşır)!
Səni elə görəndə,
Dağım-düzüm qarışır.

Qaradan uzaq olsun,
Gərək gənclik həvəsi.
Eh, nə bilim bəlkə də,
Fikrim azdırır məni...

Gəl, vurulma, gözəlim,
Qara geyənlərə sən.
Yuxarıda dedim ki,
Axı sən bir incisən.

Bax özünə güzgüdə,
O zil qara donunla.
Ölç-biç mən deyənləri,
Anla, sözümü anla.

Qaranlıq bir küçəni,
Xatırladır o libas.
Qovla dumanı, çəni,
Belə geyinmək olmaz!..

Qara yaraşmır sənə,
Qızılı don yaraşır.
Sən onu geyinəndə,
Sevincim aşıb-daşır.

***1972***

## SEVGİM PUÇUR-PUÇUR

Sevgim mənzil salıb ocağı köz-köz,
Qəlbimin məhəbbət planetində.
Sevgim puçur-puçur, baxışı göz-göz,
Fırlanır başına yer kürəsi də...

Sevgim mənzil salıb büllur çıraqlı,
Içir işığını gözlərim mənim.
Sevgim yar gözləyir, yarlı-yaraqlı,
Közərir, qızarır sözlərim mənim.

Fırlanır başıma kövrək mələklər,
Fırlanır başıma bayatı, ağı.
Süpürür torpağı dəli küləklər,
Alışır gözümün işığı, yağı.

Bilmirəm bu sevgi necə doğulub,
Uzaq ulduzlara uçubdu kədər.
Yox, bu sevgi deyil, bu bir nağıldı,
Sərhəddir üfüqdən üfüqə qədər.

Yox, yox üfüq dedim, azdı üfüqlər,
Gedirsən, üfüqdən heç bir iz qalır?
Üfüqdən o yana yeni bir səhər,
Üfüqdə sevgimiz yeni yol salır.

Bəlkə də eşqimiz ana payıdır,
Yağışı göylərdən, nuru Günəşdən.
Gəl sığın qəlbimə bahar ayıdır,
Gəl, uzaq dayanma, gələsiyəm mən.

Qismətin olacam, qismətim olsan,
Taledən o yana getmək möcüzə.
Nə qədər mən varam eh... sən də varsan,
Tanrı gətiribdir bizi üz-üzə.

Sevgim mənzil salıb ocağı köz-köz,
Qəlbimin məhəbbət planetində.
Sevgim puçur-puçur, baxışı köz-köz,
Fırlanır başıma Yer kürəsi də...

***1972***

## BAĞRIMA SIXACAM

Yanıma gəlmişdi göndərdiyin şəxs,
Baş əyib deyirəm, «çox sağ ol« xanım.
Şair gördüyünü, gülüm, ün etməz,
Məni yaşadacaq bu sığal, xanım.

Əllərim gəlməyir sənə yazmağa,
Kodlara deyirəm sözümü, gözəl.
Mənə sədaqətdir, sənin anmağın,
Atmışam dəryaya özümü gözəl.

Sənə yetməyimin sonu görünmür,
Bərəkət məndədir, qismət Allahdan.
Nə vaxtdır gün doğur, kölgəm sürünmür,
Nə vaxtdı, görmürəm bir işıqlı dan.

Içində çəkirsən gülüm, hər şeyi,
Deyirsən: - Üzünü görəydim barı.
Unutma, unutma, gülüm, heç nəyi,
Yandır, qoy alışsın bayram şamları.

Özünə bir şam seç bayram axşamı,
Biri də mən olum sizdə sevincək.
Mən qoşa qoyacam otaqda şamı,
Ikisi də birdən yanıb, sönəcək.

Bu mənim qəlbimdə bax bir arzudur,
Həyatın arzusu başqadır bəlkə.
Birimiz aş yeyir gözlərində nur,
Birimiz bürünüb otaqda kürkə.

Ötüb gedəsidir bu ağrı, kədər,
Dağa-daşa salma mənim fikrimi.
Bağrıma sıxacam səni, bir səhər,
Dünyada bir-birin sevənlər kimi.

Yanıma gəlmişdi göndərdiyin şəxs,
Baş əyib deyirəm, «çox sağ ol», xanım.
Şair gördüyünü, gülüm, ün etməz,
Məni yaşadacaq bu sığal xanım.

***1972***

## HİSSLƏRİMİ OYADAN QIZ

Taleyin ən ağır yükü boynunda,
Yaşamaq, yaşatmaq istəyir o qız.
Vuruşur həyatda başqa oynunda,
Hardasa bir tumar istəyir o qız.

Çöl qızı, bar qızı olmadı, bəli,
Eşqini mənini satmadı pula.
Göylərə boylandı, baxışı əli,
O, şöhrət gətirdi tutduğu yola.

Üzünün, gözünün boyası yoxdur,
Göyərib əlləri, gül dəstəsində.
Kimlərsə söz atır, səsini udur,
Çırpınır taleyin məngənəsində.

Oyatdın hissimi qaynar baxışla,
Indi də həsrətlə baxıram sənə.
Danışa bilmirəm məni bağışla,
Allah susmağı da öyrədib mənə.

Onun dünyasını çoxu görməyir,
Hərdən kəlmələrin davası düşür.
O qız quşların da dilini bilir,
Eh... Qızıl saatlar belə ötüşür.

Sevgisi içində o məğrur qızı,
Sevgisiz xanımlar suala tutur.
Unudub o gözəl baharı, yazı,
Hamıdan tez durur, eh... Gec də yatır.

Nə gecə yatıram, nə gündüz gülüm,
Mənim yatmağımın itibdir dadı.
Itən saatları ipə düz gülüm,
Gör mənə nə qaldı, sənə nə qaldı...

Taleyin ən ağır yükü boynunda,
Yaşamaq, yaşatmaq istəyir o qız.
Vuruşur həyatda başqa oyunda,
Hardasa bir tumar istəyir o qız.

***1972***

## BİR QIZIL QUŞ OLUB

Xoşuna gəlsəm də, gəlməsəmdə mən,
Artıq taleyinin bir parçasıyam.
Seçirsən, biçirsən gülüm, hələ sən,
Xəyal dünyamızın mən adasıyam.

Bir qızıl quş olub uçmuşam ora,
Qopara bilməzlər bu yerdən məni.
Qovuşa bu yerdə gərək yar-yara,
Yoxsa «canavar»lar yeyəcək səni.

Küsüb-barışıram özüm-özümlə,
Deyirəm? - görəsən nə çəkir başın?
Duz-çörək kəsirsən, gülüm, sözünlə,
Sən demə, dünyada ağırmış adım.

Varım çox olsaydı, olmazdı belə,
Varım çox olsaydı, söz deməzdilər.
Gülüm, mələklərlə verib əl-ələ...
Çox uzaq görünür mənə bu səfər.

Bilirəm atanın sözü qətidir,
Qoy o da bilsin ki, göydə Tanrı var.
Çoxları çəkənin yüzdən biridir,
Bir gün deyəcəklər onu udub qar.

Tələsmə, Tanrının hökmünü gözlə,
Bəzən dağdır, nökərin atı...
Nə qədər atandır, onu əzizlə,
Oxu qulağına ağı, bayatı.

Kim iki sevəni ikiyə bölsə,
Ikiyə bölənin bölünməsi var.
Kim Tanrı yolunu tutub gedirsə,
Onunçun həmişə bahardı, bahar.

Xoşuna gəlsəm də, gəlməsəm də mən,
Artıq taleyinin bir parçasıyam.
Məni tərəzidə hələ çəkirsən,
Bil ki, sevgimizin söz adasıyam.

***1972***

## ÖZÜMÜ YOLUNDA

Özümü yolunda qurban demişəm,
Kəs qutar, a zalım, dərd boğar səni.
Ölüb qurtarmışam, bəlkə də leşəm,
Qartallar, quzğunlar axtarır məni.

Yuxuna girəcəm güllə-çiçəklə,
Görəcəm fırlanır xəncər əlində.
Hələ ki, cavansan, gülüm, çiçəklə...
Qoy bir nəfəs dərim dünyada mən də.

Unuda bilmirəm o düyünləri,
Ağaclar, sözlər də düyün düşərmiş.
Unuda bilmirəm itən illəri,
Budaq budaqları burub bükərmiş.

Baxaram ağacın möcüzəsinə,
Yrəyin içinə bənzəyir, gülüm.
Baxıram səssiz bir səsin səsinə,
Səssiz bir insanı bəzəyir, gülüm.

Çalın-çarpaz yollar nə deyir, görən?..
Qovuşur, ayrılır, bir də qovuşur.
Atılır tüfəngdən dərd pərəm-pərəm,
Kimisi sürünür, kimisi yatır.

Ayaq izlərimiz qalıb o yerdə,
Dünyada ən böyük muzeydir, ora.
Bəxtim də səfərdə, mən də səfərdə,
Gedirəm, bilmirəm haradan hara.

Gedirəm yolları təsbeh əlimdə,
Yolların sonuna çata bilmirəm.
Gedirəm sevginin dadı dilimdə,
Nə gecə, nə də gündüz yata bilmirəm.

Özümü yolunda qurban demişəm,
Kəs qurtar a zalım, dərd boğar səni.
Ölüb qurtarmışam, bəlkə də leşəm,
Qartallar, quzğunlar axtarır məni...

***1972***

## HEYKƏL QOYACAM

Düşünmə ki, sənə qarşı,
Soyumuşam sənin kimi.
Mən bilmirəm kimdir naşı,
Ölmür, sevgim ölən kimi.

Axı neyçin, axı nədən,
Qaya-daşa rast gəlibdir?
Sənə vurulduğum gündən,
Bahar qışa rast gəlibdir.

Sən gecəsən, işığı mən,
Sönməmişəm, sönməmişəm.
Məhəbbət zirvəsindən,
Enməmişəm, enməmişəm.

Yox, yox, gülüm, dağ olmuşam,
Dərəm, düzüm yerindədir.
Bəs sən niyə yox olmusan?
Axı çox şey əlindədir.

Mənim olan bu dünyanı,
Axı niyə bölüşməyək?
O baxışlar hanı?.. Hanı?..
Deyirsən ki, görüşməyək?

Çətindir məni sındırmaq...
Sınmaq üçün doğulmuşam?
Olarmı eşqi yandırmaq?
Mən sevgidən yorulmuşam?

Fırladıram ha qayığı,
Sular sanki daşa dönür.
De, Allahın yaratdığı,
Məgər mənim odum sönür?

Yadda saxla, dünyada mən,
Öz sevgimin qayasıyam.
Sevməsən də, sevsən də sən,
Sənə heykəl qoyasıyam!..

***1972***

## UNUDA BİLMİRƏM

Sovurur gözümə külək qarını,
Əridir buzumu isti nəfəsin...
Unuda bilmirəm baxışlarını,
Unuda bilmirəm yazın laləsin.

Səmanın rəngini unutmaq olmur,
Yağır leysan kimi üstümə mənim.
Baxıram yollara gözlərim dolur,
Qara qayalardan boylanır qəmim.

Unuda bilmirəm əllərimizi,
Tutub bir-birindən zəncir olardı.
Tanrının şərqisi oxşardı bizi,
Ürək boşalardı, ürək dolardı.

Unuda bilmirəm şirin günləri,
Nağıla bənzərdi ağ işıqları.
Səpərdim üstünə vəhşi gülləri,
Çəkərdim üstündən qaranlıqları.

Qalır qulağımda pıçıltılar da,
Nələr danışardın, nələr deyərdin.
Baxır uzaqlardan yaşıl bahar da,
Baxır uzaqlardan qapqara dərdim.

Unudan deyiləm, unudsan da sən,
Qaratikan olub didirsən məni.
Qəlbimin nöqtəsi, nidası sənsən,
De necə unudum, de necə səni...

Məhəbbət yaşadır ürəyim axı,
Tanrı yazanları poza bilmərəm!!.
Beləca fırlanır həyatın çarxı,
Olub ötənləri yoza bilmirəm!

Üfürür gözümə külək qarını,
Əridir buzumu isti nəfəsin...
Unuda bilmirəm baxışlarını,
Unuda bilmirəm yazın laləsin.

***1972***

## GƏL BÖLÜŞƏK...

Mənim ürəyimdən nələr keçdiyin,
Aça bilməmişəm büsbütün, xanım.
Dön bir üzümə bax, sözümü deyim,
Axı kədərimə qarışır qanım.

Soruşsan deyəcəm, soruşmasan yox,
Qorxuram gec ola, niyə susuruq?...
Cavablar gözləyən suallarım çox.
Məndə can qalmayıb eh bircə qırıq...

Gizlədə bilmirəm səndən heç nəyi,
Dalğalar qoynunda çırpınıram mən.
Səni dilə tutur sahil küləyi,
Bölüşə bilmirsən ürəyini sən.

Gəl bölək, bölüşək nəyimiz qalıb,
Bölünə bilərik biz çilik-çilik.
Kimlər eşqimizə kölgələr salıb?
Arayaq, axtaraq nə qədər birik.

Bütün sevincimi məhəbbətinə,
Qəlbimin başında çıraq edirəm.
Çatıb, çatmasam da səadətinə,
Əlini saçımda daraq edirəm.

Bəlkə deyəcəyin çoxdur sinəndə,
Danış ulduzlara boy versin səsin.
Mən səni tapmışam sənin səsində,
Elə həmin gün də doğulub səsim.

Xanım, gəl bölüşək ürəkləri biz,
Tərəzi qurulsun gözlərimizdə.
De, necə yaşasın sevgimiz bizsiz?
Axı ağlasa o, ağlarıq biz də...

Mənim ürəyimdən nələr keçdiyin,
Açа bilməmişəm büsbütün, xanım.
Dön bir üzümə bax, sözümü deyim,
Axı kədərimə qarışır qanım.

***1972***

## ÇƏPƏR ÇƏKƏRDİM

Görüşə çıxardıq saat üçdə biz,
Bunu bir sən bilər, bir mən bilərdim.
Nələr danışardı əqrəblərimiz,
Gizli görüşlərə çəpər çəkərdim.

Çox da uzanmayan dəqiqələrdə,
Çox şeyi ikimiz söküb-tikərdik.
Beləcə, keçərdi ömür də, gün də,
Biz də sevgimizlə mətinləşərdik.

Asardıq, çəkərdik deyilənləri,
Iclas keçirərdik ikilikdə biz.
Suallar tapardıq iridən-iri,
Suallar süzərdi birgə qəlbimiz.

Dərin çaylar kimi axardı anlar,
Gözümüz gülərdi, dil dolaşardı.
Bizim aramıza girən gümanlar,
Yaşardı, yaşardı, dağlar aşardı.

Güləklər qovardı ah dumanları,
Içimiz bir ovuc ayazayırdı.
Küləklər qovardı küçədə qarı,
Könlümüz o yerdə günlər sayardı.

Hərdən yüklənirdik bulud sayağı,
Hərdən də dəli bir yağış yağardı.
Eşqin zirvəsində sevgi bayrağı,
Dalğalar sayağı dalğalanırdı.

Görüşdən görüşə yağılanları,
Yerbəyer, saf-çürük, təftiş edərdik.
Yrəklər içində doğulanları,
Yığıb tərəziyə bir-bir çəkərdik.

Görüşə çıxardıq saat üçdə biz,
Bunu bir sən bilər, bir mən bilərdim.
Nələr danışardı əqrəblərimiz,
Gizlin görüşlərə çəpər çəkərdim.

***1972***

## KƏDƏRLİ OLANDA SƏN

Qaş-qabaqlı oluram,
Kədərli olanda sən.
Çiçək kimi soluram,
Kədərli olanda sən.

Ürəyim daşa dönür,
Bütün işıqlar sönür.
Uçur dünyadan ömür,
Kədərli olanda sən.

Ağ qaraya qarışır,
Xoşbəxt günlər alışır...
Itlər baxır ulaşır,
Kədərli olanda sən.

Dəryalar çəkir məni,
Suallar sökür məni!
Mələklər tikir məni?
Kədərli olanda sən!

Gündüzüm gecə olur,
Olanlar necə olur?
Məhəmmət darda qalır,
Kədərli olanda sən.

Yaman kobudlaşıram,
Lap həddimi aşıram.
Içimdə dalaşıram,
Kədərli olanda sən.

Fikir aparır məni,
Külək qoparır məni.
Quşlar aparır dəni,
Kədərli olanda sən.

Bu durumdan qorxuram,
Görgör göynəyir yaram.
Yaşamaq olur haram,
Kədərli olanda sən,
Kədərli olanda sən.

***1972***

## ON İKİ SAAT

Silinmir yadımdan o görüş, o gün,
Birgə olduğumuz on iki saat.
Uçmuşdu göylərə qanadlı könlüm,
Başqa cür olmuşdu gözümdə həyat.

Nağıllar yurduna gəlmişdik qonaq,
Nağıla dönmüşdük özümüz də biz.
Deyirdin, əzizim, gəl burda qalaq,
Əl dəyməz yerlərə salaq cığır, iz.

Yaşıl ağacların arasında sən,
Yaşıl libasında itib-batmışdın.
O qoca dağların sırasında sən,
Yeni zirvə kimi lövbər salmışdın.

Tutmuşdu yamaclar ağ əllərini,
Sürüşüb yıxılmaq çıxmışdı yaddan.
Qayalar yayırdı kəlmələrini,
Mən xoşbəxt sayırdım özümü bu an.

Dönmüşdü səfərdən ağ günlərimiz,
Yerə qayıtmışdı Yer ulduzları.
Çatmışdıq ən şirin arzulara biz,
Əriyib getmişdi qəlblərin qarı.

Udmuşdu dərələr taybatay bizi,
Xəbəri yox idi bizdən heç kimin.
Çiçəklər qeyd etdi gəlişimizi,
Fəxri qarovulda, əsgərtək min-min.

Sanki görməmişdik nə dərə, nə dağ,
Hər şey bizim üçün təzələnirdi.
Naxışlı arılar «vız-vız» uçaraq,
Elə bil bizimlə məzələnirdi.

Getmir yaddaşımızdan o görüş, o gün,
Birgə olduğumuz on iki saat.
Uçmuşdu göylərə qanadlı könlüm,
Başqa cür olmuşdu gözümdə həyat.

***1972***

## MEŞƏDƏ

Şimşək çaxdı, yağış yağdı qəfildən,
Ağacların çətirinə sığındıq.
Çaşıb qaldıq bir anlığa sən və mən,
Əl qaldırıb dualarla calandıq...

Sığal çəkdi sevgimizə ağ yağış,
Buludların alqışını eşitdik.
Üstümüzdə dövrə vurdu qaranquş,
Dağ döşündə eşqimizi dağ etdik.

Bulud ötdü, üzü güldü göylərin,
Təbiətin ağ sevinci göründü.
Dinci çıxdı o torpağın, o yerin,
Gözlərimdən qəm karvanı süründü.

Məhəbbətin fəlsəfəsi böyüdü,
O görüşə su çilədi buludlar.
Zirvələr də sevgimizə baş əydi,
Öpdü bizi yanıb-sönən işıqlar.

Ürəklərdə birləşsə də soyadlar,
Çoxluq idi, gizli qaldı bu dilək.
Sevgimizə qanad gərdi ilk bahar,
Yaddaşlara xatirələr bələdik.

Tanrı sənə alqış olsun min alqış...
Şeytanların sürüləri qırıldı.
Qayaları yuyub silən bu yağış,
Sevgimizdə sabahlara nur oldu.

Möcüzələr şahidiyim səninlə,
Görməmişdik beləsini həyatda.
Yadda saxla, yol gedirsən mənimlə,
Sənə, mənə yoldaş olub həyat da.

Şimşək çaxdı, yağış yağdı qəfildən,
Ağacların çətirinə sığındıq.
Çaşıb qaldıq bir anlığa sən və mən,
Əl qaldırıb dualara calandıq...

***1972***

## MƏNİM GÖZLƏRİMDƏ

Mənə belə gəlir, bəlkə belədir,
Mənim hisslərimə soyuq olmusan.
Məhəbbət sənin üçün bir əyləncədir?
Bəlkə kimlərisə yada salmısan?

Inana bilmirəm, inanıram da,
Şeytan çıxa bilər sənin qarşına.
Əzizim, unutma, saxla yadında,
Ürəkdə vuranım çıxıb qarşıma.

Inana bilmirəm bu durğunluğa,
Yenidən çəkəsən, çəkiləsən sən...
Çevril yollara bax bircə anlığa.
Gör bir kim olmuşam, kim olmusan sən?

Döymüşəm qapını... Su istəmirəm,
Çörək istəmirəm... Eşqin bəsimdi.
Sən Əsli deyilsən, mən də ki, Kərəm,
Sevgimiz bəs kimə möhtacdır indi?

Bəlkə fırladırlar səni səhnədə,
Qalmısan boğmalar arasında sən.
Uçular, sökülər bil ki, səhnə də,
Hələ ki, doğmalar arasındasan.

Sənin gözlərində nəçiyəm, nəyəm?
Kimə oxşadırsan, əzizim, məni.
Yox, mən bir atımlıq barıd deyiləm,
Sevirəm, sevəcək ruhum da səni.

Mən nə danışıram, bu nə xəyaldı?
Hazıram çəkməyə hər əzabı mən.
Olanlar, keçənlər arxada qaldı,
Mərhəmət gözləmə, əzizim, məndən.

Günahım günaha qarışıb, nədir?
Elə bil olmuşuq kisəmə möhtac.
Sənin gözlərində sevgi səhnədir...
Mənim gözlərimdə işıq ehtiyac...

***1972***

## SU PƏRİSİ

Göy dənizdən bir nur çıxdı,
Su adamı, su pərisi.
Dönüb baxdım, dönüb baxdı,
Zərə batmışdı dərisi.

Donub qaldım yerimdəcə,
Belə gözəl gərməmişdim.
Səsi kövrək, beli incə,
Demişdilər... Deməmişdim.

Gözlərinin ağ işığı,
Sahillərə şölə saldı.
Gözlərimin yaraşığı,
Gözlərimi nişan aldı.

Qışqırdım mən yatağımda,
Titrəyiş tutdu dizimi.
Tər basmışdı bircə anda,
Gördüklərim, möcüzəmi?

Su pərisi, su pərisi...
Atmışdı sahilə dalğa.
Möcüzələr möcüzəsi,
Yan almışdı yatağıma.

Gülüm səni qaçırdım mən,
Demə şeytan əməlidir.
Yuxularda itmişdin sən,
Yuxularım, məni didir.

Dəyişmərəm ona səni,
Sən gözəllər gözəlisən.
Udmuşdu yuxular məni,
Danışıram, bilməlisən.

Su pərisi, deyim bil sən,
Daha yoxdur neyim, necəm.
Sevdiyimi sevəcəyəm,
Bu dünyadan köçənəcən.

***1972***

## MÜNƏCCİM OLSAYDIM...

Münəccim olsaydım, olmadım, bəli...
Əlinin içində nə var bilərdim.
Cizgilər qoynunda gizlənənləri,
Sən deməsən də, baxıb görərdim.

Münəccim olsaydım, taleyimizin,
Əvvəlin, axırın görmədim, xanım.
Münəccim olsaydım, mənim əzizim,
Bəlkə də bu başdan elə yanardım.

Görərdim ağ, qara qüvvələri mən,
Yollar çoxluğundan yollar seçərdim.
Gülüb, danışardım, dinləyərdin sən,
Bu sevgi yolunu ölçüb-biçərdim.

Göylərə qaldırıb əllərimi mən,
Tanrıdan bir ovuc qayğı umardım.
Taledən xəbərsiz mən yol gedirəm,
Taledən xəbərsiz yol gedir yarım.

Nəyəsə inanar, nəyəsə də yox,
Çarmıxa çəkərdi fikirlər bizi.
Çəkərdi o yana, bu yana cilov,
Vurardı daşlara eh, nələr bizi...

Münəccim olsaydım, olmazdı dərdim,
Indi yol gedirik kor-koranə biz.
Münəccim olsaydım, çox şey bilərdim,
Bizdən ayrılmazdı qara kölgəmiz.

Qara kölgə dedim, yadıma düşdü,
Hardasa çoxunun qapqara dərdi.
Qara kölgə dedim, ətim ürpəşdi,
Gördüm ki, alnımda düyülən tərdi.

Münəccim olsaydım, olmadım, bəli...
Əlinin içində nə var bilərdim.
Cizgilər qoynunda gizlənənləri,
Sən deməsən də, baxıb görərdim.

***1972***

## BİRİ SƏNƏ QARA DEDİ

Biri sənə qara dedi,
Tutdu məni onun sözü.
Heç o bilməyir qara nədi?
Qaraları görmür gözü?

Yandığından dedi onu,
Qəlbini soyutsun deyə.
Tükənibdir onun yolu,
Bir fikirləş... Sorma niyə?

Kəlmələrin fırlatdı o,
Güllə geri dönərmi heç?
Qara sözün bozartdı o,
Çox gec idi, gülüm, çox gec...

Sən nə bozsan, nə qarasan,
Çiçək rəngin səndən alıb.
Bərli-bəzəkli durnasan,
Göylərə uçmağın qalıb.

Uçub getmə! Uçub getsən,
Mənimlə dəlilər qalar.
Gedib uzaqlarda bitsən,
Məni də özünlə apar.

Deyə bilmədim sözümü,
Dedim, çoxu duyar məni.
Allahım verib dözümü,
Yoxsa kim qoruyar məni?

Ya al, yaşıl, ya qara ol,
Taleyimin qismətisən.
Necə varsan qız elə qal,
Yoxsa səndən küsərəm mən.

Biri sənə qara dedi,
Tutdu məni onun sözü.
Heç o bilməyir qara nədi?
Qaraları görmür gözü?

***1972***

## GETMƏK İSTƏMİRƏM

Getmək istəmirəm o dağlara tək,
Getmək istəmirəm dərəyə, düzə.
Xanım, gəl əl-ələ bir yerdə gedək,
Xeyir-dua versin qayalar bizə.

Sevincim dərədə dağ kəklikləri,
Vurğunam quşların duzlu səsinə.
Görənlər göstərsin gözəllikləri,
Mat qalaq dünyanın möcüzəsinə.

Çıxsın yolumuza qızıl lalələr,
Çıxsın yolumuza qədim ağaclar.
Çıxsın yolumuza nə bilim nələr...
Bir sevgi tonqalı yandırsın bahar.

Dağların zirvəsi ərşə dayansın,
Sıldırım qayalar çağırsın bizi.
Yatmış böcəklər də səsə oyansın,
Yalasın küləklər biz qoyan izi.

Arılar uçuşub salama gəlsin,
Gəlsin dərk olunmaz mahnı selində.
Zirvələr özü də başını əysin,
Bizim məhəbbətin bütövlüyündə.

«Yox« demə, gəl gedək gözlər yol çəkir,
Soruşma, əzizim, soruşma niyə?
Yaz gəlib torpağa gül-çiçək əkir,
Gözəllik önündə əriyək deyə.

Günəşin işığı tel-tel süzülsün,
Məğrur ağacların budaqlarından.
Əlimiz evlhrdhn bir gün üzülsün,
Əyilib su içək bulaqlarından.

Getmək istəmirəm o dağlara tək,
Getmək istəmirəm dərəyə, düzə.
Xanım, gəl əl-ələ bir yerdə gedək.
Xeyir-dua versin qayalar bizə.

***1972***

## SƏNƏ ZƏNG VURMAYANDA

Özümü tək bilirəm,
Sənə zəng vurmayanda.
Ölürəm, dirilirəm,
Sənə zəng vurmayanda.

Dünyam uçub dağılır,
Dəlilərim yığılır.
Yrəyim də sıxılır,
Sənə zəng vurmayanda.

Döyür məni küləklər,
Döyür məni eh nələr...
Yrək quzu tək mələr,
Sənə zəng vurmayanda.

Dünya mənə dar olur,
Səbirim dar-dar daralar.
Hirsim özümə qalar,
Sənə zəng vurmayanda.

Məftillərə pas düşər,
Qış gələr, hər yan üşər.
Fikirlərim güləşər,
Sənə zəng vurmayanda.

Telefonu çıxartma,
Bax, çıxarsan axırıma...
Sevgim çəkilər dara,
Sənə zəng vurmayanda.

Duman azdırar məni,
Radar axtarar səni.
Neynirəm fəlsəfəni?
Sənə zəng vurmayanda.

Sellər kükrəyər, daşar,
Hisslərim ağırlaşar.
Həsrətim dağlar aşar,
Sənə zəng vurmayanda.

***1972***

## GÖRÜŞ VERDİN, GECİKMƏ

Kor atına minər şər,
Görüş verdin, gecikmə!
Aramızda söz düşər,
Görüş verdin, gecikmə!

Görüş yeri də incər,
Ürəyimi qəm sökər.
Söz verdinmi sinə gər -
Görüş verdin, gecikmə.

Sorma - nə olub, nədir?
Ürəyim birtəhərdir,
Suallar məni didir,
Görüş verdin, gecikmə.

Ürək sınar, qəlb sınar,
Sözlərimiz də donar.
Könlüm səni gec anar,
Görüş verdin, gecikmə.

Sudan ayrılar balıq,
Qəfil düşər qaranlıq.
Üzər nigarançılıq,
Görüş verdin, gecikmə.

Dəqiqə saat olar,
Saat saçını yolar.
Gül də əlimdə solar,
Görüş verdin, gecikmə.

Rənglər dəyişər yerin,
Acı olar hər şirin.
Haqqın quyusu dərin...
Görüş verdin gecikmə!

Yağış töksə üstümə,
Su, nə edər tüstümə?
Demə sözünü belə!
Görüş verdin gecikmə!

***1972***

## SƏN MƏNİM GÖZÜMDƏ...

Sən mənim gözümdə ən gözəl xanım,
Sən mənim gözümdə nursan, mələksən.
Səninlə bağlıdır hər şirin anım,
Sən mənim ömrümə xoş gələcəksən.

Səbirsiz yolunu gözləyirəm mən,
Həyat yolumuzun görəcəyisən.
Səni kölgəm kimi izləyirəm mən,
Xanım, kainatın Günəşisən sən.

Bəlkə də çoxları daş deyir sənə,
Onların özləri daş fikirlidir.
Onlar sual versə bircə yol mənə,
Deyərəm kim kimdir, dərk etmək nədir.

Yar, bu sıxıntılar kədərə dəyməz,
Sən sevgi, məhəbbət dünyamsan mənim.
Nə qədər qar yağsa dağı əritməz,
Dağsan çəmənlikdir ətəyin sənin.

Nəyinə gərəkdir duymaq, duyulmaq,
Mənim ürək odum bəs edər sənə.
Kiminsə ömrünə bir yamaq olmaq...
Yox, belə yaşamaq yaraşmaz mənə.

Sən göylər qızısan, göylər ulduzu,
Günəşin yolu da göylərdən keçir.
Sıxmısan bağrına, baharı, yazı,
Çiçəklər gözündən gülüm su içir.

Sən lalə, mən sənin gözündə bir xal,
Nərgizsən, ətrindən torpağ məst olub.
Bizim aramızda doğulan vüsal,
Artıq ayrılığın saçını yolub.

Sən mənim gözümdə ən gözəl xanım,
Sən mənim gözümdə nursan, mələksən.
Səninlə bağlıdır, hər şirin anım,
Sən mənim ömrümə xoş gələcəksən.

***1972***

## XƏYALDA SƏYAHƏT

Pəncəmiz altında dağ düyün-düyün,
Məhəbbət ürəkdə bir yükdür Allah.
Sanki səyatətə çıxmışıq bu gün,
Kainat nə qədər böyükdür Allah...

Buludlar ağ-qara, buludlar seyrək,
Kiminsə qəribə taleyi, anı.
Gəzməyə çıxmışıq, gərək seyr edək,
Gözümüz görəni, ürək duyanı.

Danışır əqrəblər qol saatında,
Aysa bədirlənir, Günəş nur saçır.
Olsam da göylərin yeddi qatında,
Sevdiyim o xanım mənimlə uçur.

Olub qövsi-quzey gəlin paltarı,
Şimşəklər toy günü atılan fişəng.
Bağrının başına sıxıb yar-yarı,
Göz vurur ulduzlar sayrışır tək-tək.

Günəşdən asılıb sanki nənimiz,
Şəfəqi qırılmaz iplər kimidir.
Sanki dəryalardan gəlir səsimiz,
Gözümüzdə eynək, əllərdə çətir.

Bəzənir göylərin yağışı, qarı,
Uzanan yollara bənzəyir işıq.
Sevgidir ürəyin dövləti, varı,
Sevgidir göylərə min bir yaraşıq.

Bu yollar nə qədər çətindir, çətin,
Sən Ayın bənzəri, mən Yer kürəsi.
Uşaqtək doğulan bir məhəbbətin,
Dünyanı başına götürüb səsi.

Pəncəmiz altında dağ düyün-düyün,
Məhəbbət ürəkdə bir yükdür Allah.
Sanki səyahətə çıxmışıq bu gün,
Kainat nə qədər böyükdür, Allah.

***1972***

## DOĞUM GÜNÜN

Ən yaşıl baharımız,
Xanım, doğum günündür.
Dövlətimiz, varımız,
Xanım, doğum günündür.

Açıb deyə bilmirəm,
Doğulduğun günü mən.
Inciyib getmə gəl sən...
Xanım, doğum günündür.

Gözlərimin qarası,
Varlığımın parası.
Günlərimin hamısı,
Xanım, doğum günündür.

Tanrının nidası biz,
Açıqdır əllərimiz.
Gəl rəqs edək ikimiz...
Xanım, doğum günündür.

Olmasaydı məhəbbət,
Olardımı səadət?
Sevinc dolu zifayət...
Xanım, doğum günündür.

Mənim bostanım, bağım,
Mənim tarda çaldığım.
Gülüm səcdə qıldığım,
Xanım, doğum günündür.

Suala tutma məni,
Tanrı bəxş edib səni.
Ilin ən əziz günü,
Xanım, doğum günündür.

Anaların nəğməsi,
Kainatın nəfəsi.
Ürəyimin zirvəsi,
Xanım, doğum günündür.

***1972***

## SEVGİLİLƏR

Nə çoxalıb qalma-qal?
Neyçin... Neyçin? Niyə... Niyə?..
Baxıram mən... Fəlsəfəm lal...
Gözlərimi döyə-döyə...

Eh, sənə də yad deyildir,
Bu suallar mənim gülüm.
Nə bilirsən?.. Məni didir...
Didir günüm, ayım, ilim.

Bilirsənmi kökü yoxdur,
Iki başlı sualların?
Bu suallar qəfil oxdur,
Ürəyimi deşir yarım!..

Nəyi çəkim tərəzidə?
Bu kəlmələr dağdan ağır.
Çaşıb qalıb tərəzi də,
Gözlərinə baxır... Baxır...

Nəyi? Nəyi?.. Deyə-deyə,
Nəyi, nəyi... Yazıram mən.
Mənliyimi öyə-öyə,
Kimə qəbir qazıram mən?

Nəyi?.. Kimi?.. Bu suallar,
Mənim üçün qəribədir.
Mənim ciddi cavabım var,
Sənin üçün kim? Nə? Nədir?

Bu suallar veriləndə,

Insan oğlu daşa dönür.
Gəl unudaq sən də, mən də,
Axı qəhər yaşa dönür.

Bu suallar olmaya kaş,
Zəlzələlər baş qaldırar.
Selə-suya qarışar yaş,
Sevənlər də daş qaldırar.

***1972***

## SƏNİ XATIRLAYANDA

Ilk görüşü anıram,
Səni xatırlayanda.
Alışıram, yanıram,
Səni xatırlayanda.

Fevralın əvvəlləri...
Deyim?... Heç deyil yeri.
Xanım, dönürəm geri,
Səni xatırlayanda.

EN, dağlardan enirəm,
Külək döyür sönürəm.
Bir yumağa dönürəm,
Səni xatırlayanda.

Qayıdıram o yerə,
Min kərə, milyon kərə.
Baş vururam illərə,
Səni xatırlayanda.

Gözlərimə göz düşər,
Ürəyimə köz düşər.
Ünvanına söz düşür,
Səni xatırlayanda.

Yadıma düşür nələr...
Çırpınar xatirələr.
Sanaram doğur səhər,
Səni xatırlayanda.

Qaya uçur başıma,
Zəhər damar aşıma.
Uçurum çıxır qarşıma.,
Səni xatırlayanda.

Ürəyimi dərd deşər,
Caynaqlarım yer eşər.
Göydən üç alma düşər,
Səni xatırlayanda...

***1972***

## AXTARIR GÖZÜM SƏNİ

Sən ey mənə yaraşıq,
Axtarır gözüm səni.
Təzəcə ayrılmışıq,
Axtarır gözüm səni.

Çatmalıydın evə sən,
Bəs niyə gecikmisən?
Necə rahat olum mən?
Axtarır gözüm səni.

Hayana getmisən sən?
Ayamı uçmusan sən?
Nigaran qalmışam mən,
Axtarır gözüm səni.

Qəzayamı tuş gəldin?
Yolumu uçub kəndin?
Gülüm, könlüm daş, din.
Axtarır gözüm səni.

Bəlkə külək olmusan?
Bəlkə mələk olmusan?
Məni dərdə salmısan...
Axtarır gözüm səni.

Yox, belə sınaq olmaz!
Doğrayır məni ayaz.
Eh... Olsaydı güllü yaz...
Axtarır gözüm səni.

Bəlkə olmamısan sən?
Yuxumu görürəm mən?
Şeytan tutub əlimdən...
Axtarır gözüm səni.

Bu boyda yalan olmaz!
Mənimtək olan olmaz!
Səsini çıxar bir az...
Axtarır gözüm səni.

***1972***

## SƏNİ SEVƏN GÜNDƏN...

Səni sevən gündən qayğım çoxalıb,
Bir qədər dərindən duyan olmuşam.
Bəzi vərdişlərim bəli, yox olub,
Sənintək xanıma heyran olmuşam...

Qarışqa sürüsü keçib yanımdan,
Bilmişəm yaşamaq, yaşatmaq nədir.
Içimdən səs gəlib-aman, ay aman,
Məhəbbət özü də bir fəlsəfədir.

Gərək düyünləri aça biləsən,
Məhəbbət fəlsəfə bağlamasıdır.
Dərdi ürəyimdən gərək siləsən,
Yoxsa səndən küsüb ağlayasıdır.

Günəş axtarmışam dumanda, çəndə,
Işığı işıq tək anlamamışdım.
Üstümə sevgimiz, işıq tökəndə,
Elə bir dünyada heç olmamışdım.

Dəyişə bilərmiş sən demə, insan,
Dəyişə bilərmiş yollar, çığırlar.
Yazıram, pozuram sanma sən asan,
Həsrət çəkməyin də bir hikməti var.

Həsrətə hər adam qoşula bilmir,
Gərək yanmağa da olasan hazır.
Ürəyin doldumu, boşala bilmir,
Beyin fərman verir, ayaq yol azır...

Çox olur həyatda yaxın görüşlər,
Sevgi görüşləri başqa dünyadı.
Mən belə bilməzdim eh, nələr... Nələr...
Doğma bir xanıma çevirir yadı.

Səni sevən gündən qayğım çoxalıb,
Bir qədər dərindən duyan olmuşam.
Bəzi vərdişlərim bəli, yox olub,
Sənintək xanıma heyran olmuşam...
***1972***

## ÜRƏYİMDƏ

Kimlər bilir, birəm-birəm,
Hara qədər yol gedəcəm?
Sənə olan sevgimi mən,
Ürəyimdə dəfn edəcəm?..

Yox olacaq dərəm, dağım,
Söylədiyim gün gələcək.
Cənazəmin ağırlığın,
Amma heç kim bilməyəcək.

Qara torpaq yer verəcək,
Ürəyində sənə, mənə.
Daha üzüm gülməyəcək,
Susacaqsan bilə-bilə.

Bağlanacaq torpaq qapı,
Tükənəcək xatirələr.
Gəzəcəksən qapı-qapı?
Itəcəkdir nələr, nələr...

Sevənlərin sonu budur,
Udur topaq gülə-gülə.
Axı niyə qoşa udur?
Qaranlıqdı bu fəlsəfə.

Qalan kölgən olacaqdır,
Içi qara, özü qara.
Lalələr gül açacaqdır,
Rəngi qızıl, gözü qara...

Bu dünyanın ovucunda,
Sevənlər eh, daşa dönür...
Ayrı-ayrı doğulsa da,
Çıraq kimi qoşa sönür.

Eh, kim bilir, birəm-birəm,
Hara qədər yol gedəcəm?
Sənə olan sevgimi mən,
Ürəyimdə dəfn edəcəm?..

***1972***

## BİZİM GÖRÜŞ YERİMİZ

Məhəbbətin izidi,
Bizim görüş yerimiz.
Dünyanın mərkəzidi,
Bizim görüş yerimiz.

Sığışmayır gecəyə,
Mehir salıb küçəyə.
Körpüdür gələcəyə,
Bizim görüş yerimiz.

Büllur işıq selidi,
Səadətin əlidi.
Nağıllı, nəğməlidi,
Bizim görüş yerimiz.

Nələr danışmışıq biz,
Yaxşı ki, varsınız siz...
Ən yaxın şahidimiz,
Bizim görüş yerimiz.

Gül əkib, sevgi biçib,
Əlimizdən su içib.
Günahlardan da keçib,
Bizim görüş yerimiz.

Pənahımız olub o,
Necə vardı qalıb o.
Ürəyə od salıb o,
Bizim görüş yerimiz.

Təzə deyil, köhnədir,
Bir balaca səhnədir.
Gözümdə xatirədir,
Bizim görüş yerimiz.

Deməyin daş olacaq,
Sönə bilməz bu ocaq!
Yaddaşlarda qalacaq,
Bizim görüş yerimiz.

***1972***

## KÖNLÜMÜN ƏN DƏRİN...

Sənə yazdıqlarım bir-bir oxundu,
Açıldı beyninə gedən cığırlar.
Dedin ki: «Bu hisslər mənə yaxındı»,
Açıldı üzümə lay-lay qapılar.

Baxdı kol dibindən dağ bənövşəsi,
Açıldı ürəyə ürəydə ürək.
Açıldı sevgimin daş olmuş səsi!
Çəkildi pərdələr astaca, kövrək.

Güldün ürəyində alqış da dedin,
Güldün, gülüşünə boyandım mən də.
Çatdıq o nöqtəyə, ayrıldın, getdin,
Deyəcəyim sözlər dondu sinəmdə.

Yenə də görüşdük, söhbət açmadın,
Yazdığım şeirlər silsiləsindən.
Çıxdı yaddaşımdan, çıxdı öz adım,
Yer mənə pay verdi zəlzələsindən.

Susdun yamacların qayası kimi,
Qəlbin çırpıntısın eşitməz oldun.
Yandım qonşumuzun tayası kimi,
Bir əsim küləyin möhtacı oldum.

Gözlədim bir kəlmə sözünü sənin,
Açıb-ağartmadan məhəbbətini.
Səadət yumuşdu gözünü sənin,
Çatdıra bilmədim məhəbbətimi.

Şerlər oxudum su kimi duru,
Gözün göydə qaldı, qulağın məndə.
Qarışdı sözlərə gözümün nuru,
«Sağ ol» söyləmədi, xanım, dilin də.

Üzdün sevgimizi qovruldu könlüm,
Dedim ki, bir ürək parasıdı bu...
Bilirəm bilirsən, anırsan gülüm,
Könlümün ən dərin yarasıdı bu.

***1972***

## GÜLLÜ YAZ İDİN...

Işığı gecənin bağrını dələn,
Axtarıb tapdığım bir ulduz idin.
Həmişə Günəştək üzümə gülən,
Əlləri çiçəkli güllü yaz idin.

Gözümün içində alışan ocaq,
Günəşdən ayrılan parlaq nur da sən.
Bəlkə də dünyada ən böyük qucaq,
Bu şirin dünyada şirin yar da sən.

Bir şirin sözünlə dəydim xətirimə,
Işığım azaldı, baharmı soldu?
Zəhərmi çiləndi saçın ətrinə?
Doğan ilhamımı küləkmi yoldu?

Bilməzdim ki, ürək paralanarmış,
Daşlara çırpılan təzə nar kimi.
Səndə bir dünyanın gileyi varmış,
Bozaran, qaralan buludlar kimi.

Şirin bir sözünlə xətrimə dəydin,
Insan da bu qədər kövrək olarmı?
Bükülməz, əyilməz qəddimi əydin.
Dildə ilan olub belə çalarmı?

Belə hikkə olmaz, belə naz olmaz,
Insan söz udmağı bacarmalıdı.
Mənim indən belə dərdim azalmaz,
Sevən sevgisini borc almalıdı?

Mən belə bilməzdim ömrün gərdişin,
Nağıla dönərmiş sən demə həyat.
Mən bilə bilməzdim dünyanın işin,
Sən demə, dünyada varmış, nəhayət...

Işığı gecənin bağrını dələn,
Axtarıb tapdığım bir ulduz idin.
Həmişə Günəştək üzümə gülən,
Əlləri çiçəkli güllü yaz idin.

***1972***

## MƏNİ GÖRÜR, SƏNİ GÖRMÜR

Toz içində - xadimələr,
Məni görür, səni görmür.
Baş «sanitar» adı Gülər,
Məni görür, səni görmür.

Xəstəliyim görən, nədir?
Nə danışım, qəribədir.
Ikimizin həkimi bir,
Məni görür, səni görmür.

Harda olsa nur saçası,
Bu dağların ən ucası.
Ağ xalatlı tibb bacısı,
Məni görür, səni görmür.

Ya Göydə ol, ya da Yerdə,
Insan dözür gülüm, dərdə.
Yanımıza gələnlər də,
Məni görür, səni görmür.

Qulaqlarım qalıb səsdə,
«Palatam»da xəstələr də.
«Praktikant» dəstələr də,
Məni görür, səni görmür.

Qollarıma girirsən sən,
Ayrı qala bilmərəm mən.
Gözətçi də - saçı dən-dən,
Məni görür, səni görmür.

Lap yanaşı dayanmışıq,
Sən yaraşıq, mən yaraşıq.
Pəncərədən düşən işıq,
Məni görür, səni görmür.

Gücüm qalmıb Allah, canda...
Möcüzələr adasında -
Ay da, Gün də, asiman da,
Məni görür, səni görmür.

***1972***

## ŞEİRLƏR...

Şeirlər yazmışam adına sənin,
Dirəyi səadət, kəməri sevgim.
Sənin məhəbbətin kosmosdan dərin,
Uçmuşam göylərə, ulduz çələngim.

Şeirlər yazmışam, çənli, dumanlı,
Nə adın görünüb, nə özün sənin.
Şeirlər yazmışam qayğı amallı,
Şeirlər yazmışam bəzəkli gəlin.

Məxvi qriflərə bel bağlamışam,
Baxırıq sətirlər pəncərəsindən.
Günahlar ardınca çox ağlamışam,
Sən söylə, nə gəlir axı əlimdən?

Şeirlər yazmışam aylı gecədə,
Yazın yağışında, qışın qarında.
Günlər yaşamışam, gülüm, necə də,
Xoş anlar yaşayıb mənim yarım da.

Qəlbimin hökmünü yazmışam gülüm,
Çırpınıb şerlər ürəyim kimi.
Sənin işığında azmışam gülüm,
Baxmışam ardınca diləyim kimi.

Şeirimin oduna odlar qatmışam,
Günəş yalan olub, Ay yalan olub.
Ən böyük istəyə gəlib çatmışam,
Boş idi ürəyim, bax, indi dolub.

Dolub, elə bil ki, dolub dənizlər,
Yox, yox, məhəbbətin böyükdür yeri.
Bizi sevgi adlı külək əzizlər,
Sənə vurulduğum o gündən bəri.

Şeirlər yazmışam adına sənin,
Dirəyi səadət, kəməri sevgim.
Sənin məhəbbətin kosmosdan dərin,
Uçmuşam göylərə, ulduz çələngim.
***1972***

## GƏL YAPIŞ

Sən orda olanda ora gəlmişəm,
Nələr görməmişəm orada nələr...
Bəzən çox sözləri sillə bilmişəm,
Ərşə çəkilibdir yuxum gecələr.

Səhəri səninlə diri açmışam,
Çəkilib başımdan fikirlər bir-bir.
Gecələr ardınca necə qaçmışam,
Onu mən bilirəm, bir Allah bilir.

Səni gözlərimdən salsınlar deyə,
Uzanıb üstümə məkirli qollar.
Əzablar içindən dirənib göyə,
Allahın bizimçin açdığı yollar.

Demişəm ümidlər qismətə qalıb,
Dualar etmişəm ürəyimdə mən.
Pislər ilan kimi gözümdən çalıb,
Qopara bilmiblər səni əlimdən.

Sənə də, mənə də tor da atıblar,
Qırılıb torların ipək telləri.
Qara bir qəpiyə bizi satıblar,
Görünüb xeyirin, şərin də yeri.

Sevgi içimizdə fəqan qoparıb,
Onu güllələrə nişan alıblar.
Şeytanlar da bizi gəlib aparıb,
Müqəddəs kəlamlar dada çatıblar.

Ağır görünsə də daşımız bizim,
Maqnit dalğaları olubdur yalan.
Gəl yapış əlimdən gedək əzizim,
Göynəsin içində o filan-filan.

Sən orda olanda ora gəlmişəm,
Nələr görməmişəm orada nələr...
Bəzən çox sözləri sillə bilmişəm,
Ərşə çəkilibdir yuxum gecələr.

***1972***

## GÜNLƏRİM

Bir dünyanın sözüdür,
Xanım sənsiz günlərim.
Həsrətimin özüdür,
Xanım sənsiz günlərim.

Günlər boyun əyibdir,
Düşünürsən bu nədir?
Qəribədir, qəribdir,
Xanım sənsiz günlərim.

Qəm dadır, kədər dadır,
Nigaran baxışlıdır.
Qarlıdır, yağışlıdır,
Xanım sənsiz günlərim.

Özü-özündən bezir,
Sənin qoxunu sezir.
Iz gəzir, ləpir gəzir,
Xanım sənsiz günlərim.

Yuva qurur budaqda,
Düyün düşür dodaqda.
Qalır səsdə, soraqda,
Xanım sənsiz günlərim.

Küləyə qardaş olur,
Sızaq olur, qış olur.
Çaylar boyu daş olur,
Xanım sənsiz günlərim.

Şaxta olur yanağda,
Solur bağçada, bağda.
Külə dönür ocaqda
Xanım sənsiz günlərim.

Könlümü sanca-sanca,
Baş qoymayır balınca.
Qaçır sənin dalınca,
Xanım sənsiz günlərim.

***1972***

## BƏS NƏ EDİM MƏN?

Bir dəfə qəlbimi qırmamısan qız,
Sənə baş əyməyim, bəs nə edim mən?
Hislərim hissində əriyib yalnız,
Bunu söyləməyim, bəs nə edim mən?

Daşlarla danışan bir şəlalə sən,
Deməyim artıqdır özün bilirsən.
Çoxu bacarmayan bir yol gedirsən,
Uğur diləməyim, bəs nə edim mən?

Göz yatır, söz yatır xanım gülündə,
Iki qat olmağa dəyər önündə.
Səni ad günündə, görüş günündə,
Sözə bələməyim, bəs nə edim mən?

Allah fəlsəfəni başda göndərir,
Sevgi də göndərir, yaş da göndərir.
Çayların qoynunda daş da göndərir,
Axı ələməyim, bəs nə edim mən?

Yox rəvac vermirsən heç vaxt yalana,
Gərirsən sinəni qışa, borana.
Çınqıllar tökürlər bəzən yoluna,
De, bunu görməyim, bəs nə edim mən?

Su gəlir fırlanır dəyirman pəri,
Bilinir hamının ünvanı, yeri.
Altı-beş danışır adına biri,
Alıb sürəməyim, bəs nə edim mən?

Sənsən varlığımın baxışı, gözü,
Ayıra bilərmi bir nadan bizi?
Toxunur qəlbimə kimsənin sözü,
Qəlbinə dəyməyim, bəs nə edim mən?

Bir dəfə qəlbimi qırmamısan qız,
Sənə baş əyməyim, bəs nə edim mən?
Hislərim hissində əriyib yalnız,
Bunu söyləməyim, bəs nə edim mən?

***1972***

## SEVMƏK BİR ƏFSANƏDİ?

Sev məni, sevim səni,
Bilmirəm heç bu nədi?
Sızlayır qəlbin simi.
Sevmək bir əfsanədi?

Əfsanədi bu dünya?
Əfsanədi ömür, gün?
Gəlmirsə sevgin saya...
Əfsanədi ağrı, ün...

Əfsanədi, yalandı?
Şirin-şirin danışmaq.
Yrəyimdə borandı,
Gülüm olmur alışmaq.

Uzaq ol əfsanədən,
Dayaq ol harayıma.
Uzaq ol, uzağam mən,
Eşqi qara boyama.

Sevməmək günah deyil,
Yalan demək günahdır.
Sevirəm, sevəcəm bil,
O yolçuya pənahdır.

Tapılacaq sevdiyin,
Bir il gec, beş ay qabaq.
Nəyini çatışmır, nəyim?
Gülüm, gəl qoşa qalaq...

Yaşayırsan əzizim,
«Yox»la «hə» arasında.
Yaşayırsan, əzizim,
Gözümün qarasında.

Yrəyim sevir səni,
Bilmirəm heç bu nədi?
Sızlayır qəlbin simi,
Sevmək bir əfsanədi?

***1972***

## YOL GEDİRİK

Bir sevginin əvvəlindən xəbərli,
Bir sevginin sonluğundan xəbərsiz.
Nağıl dolu yol gedirik irəli,
Bu dünyanın xoşbəxtiyik bəli, biz!

Yaşayıram bir sevginin odunda,
Fevral ayı mənim üçün bahardı.
Eh, əzizim saxla bunu, yadında,
Bu dünyada əziz olan tək, yardı.

Inanmıram yol qırılsın yarıda,
Suallara cavab gəzək Tanrıdan.
Istəmərəm ürəyimin yarı da,
Uzaq olsun mən yarına uzaqdan.

Istəmirəm dan yerini, uzaqdır
Nə olsun ki, çoxlarına acıyam.
Su istədim, yar gətirdi, duz dadır,
Duzlu söhbət, duzlu nağıl acıyam.

Əriməyin ey sevənlər sonadək,
Kölgə hələ qalır gümanlar.
Ağ sularda üzüb qalsa sona tək,
Varlığını bürüməzmi tufanlar?

Günlər ötür, ağ qanadlı göyərçin,
Günlər ötür biz sayarıq yerində.
Mən bilirəm çin olacaq bu biçim,
Ev olacaq bu günlərin birində.

Tufanın da əsməyi var, sonu var,
Istəmirəm nöqtələrin nöqtəsin.
Qayıdacaq hər il torpağa bahar...
Istəyirəm bahar səsin, quş səsin...

Bir sevginin əvvəlindən xəbərli,
Bir sevginin sonluğundan xəbərsiz.
Nağıl dolu yol gedirik irəli,
Bu dünyanın xoşbəxtiyik bəli, biz!

***1972***

## TƏLƏSİK ADDIMLAR...

Eh nələr gözləyir bilmirik hələ,
Tələsik addımlar yandırar bizi.
Gedirik səninlə hələ dağ, dərə,
Bəlkə də yoxuşlar sındırar bizi.

Mən sınan deyiləm, tələsmirəm də,
Məni doğmayıblar kimsə sındıra.
Tələsik addımlar görürəm səndə,
Qorx ki, bu addımlar səni yandıra.

Ölçüyə sığmayan məqamlar durur,
Qırılar taleyin tarazlıq ipi.
Payız yağışımı bizi soyudur?
Hürər dalımızca hər küçə iti...

Udar səsimizi bir məkirli səs,
Gərək çaylardan da biz ayıq olaq.
Gəzir dalımızca gizli bir nəfis,
Razıyam birlikdə olaq daş-qalaq.

Gah səndə, gah məndə günah gəzirik,
Bezmişəm tələsik sözlər əlindən.
Ən ağır günlərə gülüm, dözürük,
Soraq gözləyirik sevgi evindən.

Biri-birimizə qismət olmasaq,
Yəqin ki, dünyanın çatacaq sonu.
Məhəbbət bizimçün olubdur yasaq,
Yağır üstümüzə göylərdən dolu.

Laləsi baş əyər qızıl çöllərin,
Ayaqlar altında əzilər çiçək.
Sinəmdə düyülmüş qalar əllərim...
Donar uzaqlardan gələn gələcək..

Eh, nələr gözləyir bilmirik hələ,
Tələsik addımlar yandırar bizi.
Gedirik səninlə hələ dağ, dərə,
Bəlkə də yoxuşlar sındırar bizi.

***1972***

## SƏN MƏNİM GÖZÜMÜN MÖCÜZƏSİSƏN

Dərənin, dağın da möcüzəsi var,
Sən mənim gözümün möcüzəsisən.
Möcüzədir yağış, möcüzədir qar,
Sən mənim gözümün möcüzəsisən.

Qalalar içində labirint, cığırlar,
Torpaqdan aralı boy atar bağlar?
Elə möcüzədir ən uca dağlar,
Sən mənim gözümün möcüzəsisən.

Dünyanı dolaşan küləklər də sirr,
Nədir yer şarını, fırladan nədir?
Kainat özü də bir möcüzədir,
Sən mənim gözümün möcüzəsisən.

Sərin su içindən isti bir bulaq,
Buğda dənəsinə bir nəzər salaq...
Sənin möcüzənlə gəl qoşa qalaq,
Sən mənim gözümün möcüzəsisən.

Qəribə görürəm çay daşlarını,
Tanrımı yaradıb naxışlarını?
Oxuya bilmirəm baxışlarını,
Sən mənim gözümün möcüzəsisən.

Dəyişir fəsillər bu da möcüzə,
Dəyişir nəsillər bu da möcüzə.
Yaz da çiçək çıxar, qışda qar dözə,
Sən mənim gözümün möcüzəsisən.

Yazıram, pozuram sanma sən asan,
Güllərdən don geymiş al baharımsan.
Qırata yaraşan bir «Nigar»ımsan,
Sən mənim gözümün möcüzəsisən.

Alışıb, kül olan tonqala bax sən,
Bir qarğa dilində danışa bilsən...
Əhsən möcüzəli dünyama, əhsən,
Sən mənim gözümün möcüzəsisən.

***1972***

## İÇİMDƏ

Içimdə közərən qızıl laləsən,
Içimdə deyilən alovlu şərqim.
Bilmirəm nəyimsən, nəçisən, nəsən,
Bir yanı «Qərb»imsən, bir yanı «Şərq»im.

Bəlkə də «Cənub»da, «Şimal»da sənsən,
Qitədən qitəyə yol gedirəm mən.
Bəlkə də dünyada tək bir mələksən,
Qitələr tutubdur sənin əlindən.

Halından gizlicə, səndən xəbərsiz,
Bir sevgi heykəli baxır içimdən.
Çırpınır içimdə bir dəli dəniz,
Dünyada çox şeyi gizlətmişəm mən...

Bircə Allah bilir, nədir ki dünya
Kim bilir nəyim var, nəyim yox mənim
Mənim qəlbimdəki gələrmi saya?
Əgər açıb desəm quruyar dilim.

Qorxuram könlümü açım, söyləyim,
Qorxuram dolaşa cığırlar, izlər.
Hərə birinindir mənim mələyim,
Hərəni dünyada biri əzizlər.

Qorxuram içimin titrəməsindən,
Qorxuram göylərdən asıla yolum.
Qorxuram kölgələr tuta əlimdən,
Odlu mərmilərə nişangah olum.

Yox, mənim bəxtimə sən düşmüsən, sən,
Taleyim səninlə verib əl-ələ.
Necə də, necə də bəxtəvərəm mən,
Qəlbin acısını vermişəm yelə.

Yox, yox bu kəlməni yanıldım dedim,
Birini mininin gözü axtarır.
Izin ver səninlə mən qoşa gedim,
Mənim də dünyada bir qismətim var...

***1972***

## YAŞAYIRAM

Heç bilmirəm necə oldu sevdim səni,
Heç bilmirəm necə oldu düşdüm oda.
Ya görməyim, ya da görüm xanım səni,
Bağlanmısan varlığıma bu dünyada.

Nə etməli? Kimsə kimi sevməlidir,
Kimsə kimin ürəyində ev qurmalı...
Eşitmədim, bərkdən danış, nədir?.. Nədir?
Allah mənə bəşx eləyib gül camalı.

Mən bir vücud, sən bir vücud, gen gəzsək də,
O gözlərin mənzilində yaşayırıq.
Biz hicrana dözməsək də, eh, dözsək də,
Bu günlərin ağrısını daşıyırıq.

Özün məndə, sözün məndə,. gözün məndə,
Uzaqdasan?.. Uzaqlığın getməz uzaq.
Buludlardan lap yuxarı qalx da, en də,
Unutma sən, ürəyimdə yanır çıraq.

Bəsim olar, ürəyimin o işığı,
Sən də, mən də, bəli, bəli yol gedirik.
Ey qəlbimin, ey dünyanın yaraşığı,
Bu dünyanın kölgəsində dincələrik.

Gecələr də yatmaq olmur, sənsiz, gülüm,
Yuxumda da danışanım sənsən, sənsən!!!
Heç bilmirəm necə keçir mənsiz günün,
Bəlkə sən də mənim kimi divanəsən...

Nə qalıb ki, payız gedir, gəlir bahar,
Mən səninlə dünyaları dolaşacam.
Darıxıram, darıxıram tez qayıt yar,
Bir tonqalda iki sevgi alışacaq.

Sən varsansa... Sevgim, eşqim, mən də varam,
Allah bilir bax beləcə ötür günüm.
Bir danış din, bəlkə mən heç yaşamıram,
Sən varsansa, boy atacam bil ki, gülüm.

***1972***

## TOXUNARDIM ƏLLƏRİNƏ

Toxunardım əllərinə,
Rəngim-ruhum da qaçardı.
Toxunardım əllərinə,
Ystümə göylər uçardı.

Durduğum yerdən keçəndə,
Şimşəyin vurardı məni.
Qalmışam neynim, necəmdə,
De, necə saxlardım səni?

Yer qaçardı ayağımdan,
Titrəyərdim bir yar kimi.
Alışardı qızaran dan,
Göy üzünə bir nar kimi.

Mən dayaq bilirəm səni,
Göy asiman çiynindədir.
Unutma! əzizim, məni,
Səadətin mənimlədir.

Toxunardım əllərinə,
Od tutardım əllərindən.
Gün düşərdi tellərinə,
Gün doğardı tellərindən.

Hanı o an, han o bəxt?
Köçüb gedibdir köçüm də.
Kövrəlmişəm, bir nəqarət,
Haray salıbdır içimdə.

Mən bir layla yazasıyam,
Bəlkə dünyanı oyadım.
Mən qoynunda azasıyam,
Yrəyimdə bitsin adın.

Toxunardım əllərinə,
Rəngim-ruhum da qaçardı.
Toxunardım əllərinə,
Ystümə göylər uçardı.

***1972***

## KARDIOQRAMA

Sevgimiz yol gedir ayağı yalın,
Nə qədər getsə də görünmür bahar.
Bizim qəlbimizin cığırlarının,
Kardioqramaya oxşarlığı var?

Bəli, sevgimiz də bax buna bənzər,
Dərəsi gen dərə, dağı uca dağ.
Eh, gileyə dəyməz ürək yan, közər,
Çox şeydən uzağıq, gözəlim, uzaq.

Sən özün çəkmisən öz yollarını,
Bu dalğalı xətlər nə deyir görən?
Boynuma dolasan sən qollarını,
Lalələr boylanar dağdan, dərədən...

Oyadar ürəyi bu qara xətlər,
Oynadar meydanda rəngli top kimi.
Oynadar heçlikdən gümana qədər,
Deyər itir kimi, deyər tap kimi...

Yox, yox... Tapdığını tapmasan, bir də -
Bu alın yazısı, Tanrı qisməti...
Çıxıb daş üstünə boylansa şər də,
Xeyir əldən verməz bu səadəti.

Doğulub xeyir, şər mübarizədə,
Çəkir bizi dağa, danışır nələr...
Kardioqramımız nə deyir sənə?
Sevgini bu yolla çəkməmişdilər.

Enişli, yoxuşlu olsa da yollar,
Bu dalğalı xətlər sabitləşəcək.
Ürəkdə olmasa dəli tufanlar,
Tumurcuq bağlamaz orda bir çiçək.

Sevgimiz yol gedir ayağı yalın,
Nə qədər getsə də görünmür bahar.
Bizim qəlbimizin cığırlarının,
Kardioqramaya oxşarlığı var...

***1972***

## MƏNİMKİSƏN

Düşün, mənim mehribanım,
Eşq qolumda qandal olub.
Qibləgahım, əhdim, andım.
Ürəyim də sözlə dolub.

Sən işığım, sən çırağım,
Sönsən, dünyam dağılar ki.
Sənsən gözlərimdə yağım,
Itsən, dünyam boğular ki.

Sözlərimin işığı sən,
Çök söyləsən, gərək çökəm.
Ağaran mən, qaralan mən,
Qara buludlara yükəm.

Qaralmışam bulud kimi,
Bir zənciyə tay olmuşam.
Zilə çıxma, unut kini,
Mən səninçin doğulmuşam.

Səni günəş bilirəm mən,
Sən olmasan, dünya donar.
Geri baxma gəlirəm mən,
Geriyə baxmaz sonalar.

Hər təmasdan yanmır üzün,
Bəlkə yanır mən bilmirəm?
Nağıllar danışır gözün,
Işığında dincəlirəm.

Qısqanıram kölgənə də,
Yapışanda əllərindən.,
Gözüm səni cüt görəndə,
Bu dünyadan köçürəm mən.

Nə sözün var, nə söhbətin,
Daş oluram önündə mən.
Ey işıqlı məhəbbətim,
Mənimkisən ölsən də sən...

***1972***

## HƏR SƏHƏR YOLUNU...

Hər səhər yolunu gözləyirəm mən,
O evin tinində bir salam üçün.
Içimdə dərdimi közləyirəm mən,
Bu dərd şirin dərddir, doldur ver içim...

Hər səhər yolunda dayanmasam mən,
Kimlərsə o yerdə gəlib duracaq.
Səhər salamını əgər verməsəm,
Ürəyim bilmirəm necə vuracaq.

Geciksən, göyərər nigarançılıq,
Geciksən, küləklər qurudar məni.
Mən yox, gəl sən düşün, gülüm, bir anlıq,
Fikirlər haraya aparar məni?

Geciksən donaram qışın qarında,
Payızın yağışı tökər başımdan.
Xəyalım dolaşar şeytan torunda,
Əllərim yapışar divar daşından.

Gecikmə! Geciksən! gecikər salam,
Tanrının qulağı səsdədir axı.
Sevməkdən qeyri şey yalandır, yalan,
Məhəbbət ürəkdə bir gözdür axı.

Gecikmə! Geciksən, qol saatımı,
Aparıb ustaya göstərəsiyəm.
Gecikmə, geciksən, minib atımı,
Səni yol boyunca axtaracam mən.

Gecikmə! Geciksən bataram yasa,
Qaralar gözümdə səhər qisməti.
Onsuzda ömür-gün qısadır, qısa,
Bir az da qısalar, gəl olaq qəti.

Hər səhər yolunu gözləyirəm mən,
O evin tinində bir salam üçün.
Içimdə dərdimi közləyirəm mən,
Bu dərd şirin dərddir, doldur ver içim...

***1972***

## YAPIŞACAM

Mənə demə axı kimsən?
Qapınızdan axan çayam.
Buludların kölgəsindən,
Sənə baxan bütöv Ayam.

Çıx gecələr eyvanına,
Ay adamı aydın edər.
Baxım sənin camalına,
Dünya sənə nəğmə deyər.

Deməki tutmuşam səndən,
Gözüm sənin gözündədi.
Mən yazığı dustaq edən,
Gülüm, sənin özündədi.

Vəfadan söz açmamışıq...
Əllərimdən gül gözləmə.
Hələ addım atmamışıq,
Eşqi mənə əzizləmə.

«Hə»lə «yox»un arasında,
Sizə gedən yol üstəyəm.
Gözlərinin qarasında,
Buruq-buruq bir tüstüyəm.

Səni necə sevməyim mən?
Yanır yanaq, yanır gözlər.
Su içməsən əllərindən,
Bağrım başı qana dönər.

Kimliyimi bilə-bilə,
Kötüyümü gəl arama.
Gəl calama ili-ilə,
Bir məlhəm çək bu yarama.

Eh sən hara, eh o hara?
Onu gözdən salmıram mən.
Bir bəzəksən sən bahara,
Yapışacam əllərindən.

***1972***

## VURĞUNUYAM

Xeyir deyin, xeyir olsun,
Mən o qızın vurğunuyam.
Danışmayın susun, susun,
Mən o qızın vurğunuyam.

Nida gəlib göydən mənə,
Başqasıyçın getmə hələ.
Gələcək imana, dinə,
Mən o qızın vurğunuyam.

Bir başqası çarə deyil,
Yollardayam eh... Neçə il.
Gətirməyin sübut, dəlil,
Mən o qızın vurğunuyam.

Odur mənim qibləgahım,
Odur ağım, odur ahım.
Düz deyirsiz, var günahım...
Mən o qızın vurğunuyam.

Ya məni göylərdən asın,
Ya da məni daşa basın.
Məni hamı xatırlasın,
Mən o qızın vurğunuyam.

Çəkməyin mələk adları,
Odur taleyimin yarı.
Tanrı bəxş edib baharı,
Mən o qızın vurğunuyam.

Əzrail çəksə qılıncın,
Ildırım tökər qığılcım.
Qapıları açın, açın,
Mən o qızın vurğunuyam.

Sormayın xəstədir, nəyim?
Ötüb keçib xəstəliyim...
Dumanı qovar küləyim,
Mən o qızın vurğunuyam.

***1972***

## EL-OBA DANIŞIR

Sən sədəfli kaman, mən sədəfli tar,
Səsimiz, sözümüz, ahəngimiz bir.
Mən təzəcə çəmən, sən də bir bahar,
Hələ ki, ömrümüz düyünsüz gedir.

Çürümüş ömürlər görməmisən sən,
Axarı qurumuş çaylara bənzər.
El-oba danışır səndən və məndən,
Üzərlik yandıraq, gen düşsün nəzər.

Hərənin qəlbindən bir niyət keçir,
Qarasıda olur, ağı da, gülüm.
Hərdən qara pişik yolumdan keçir,
Qorxuram kimisə ağlada, gülüm.

Ağrıya, acıya dözən olmuşam,
Qoy hər nə gəlirsə, sənə gəlməsin.
Buluddan boşalıb, yerdən doymuşam?
Şimşəkdən ayrılıb harayım, səsim?

Bizim yolumuzda dağ da, daş da var,
Onu toz etməyə Günəşimiz də.
Soyuğu baş kəsən qarlı qış da var,
Vulkanlar yaşayır ürəyimizdə.

Insanlarda nəfis, o da olmasın!
Dünyanı ağ günə çıxarırıq biz.
Şeytanlar insanı oda salmasın,
Çiçəklər qoynunda yatar qəlbimiz.

Dağlardan ucadır təmiz ad, soyad,
Nə qədər yaşın var qorumalısan.
Köksümdə yaşayır məhəbbət, murad,
Sevgi yaşamağı bilmə sən asan.

Sən sədəfli kaman, mən sədəfli tar,
Səsimiz, sözümüz, ahəngimiz bir.
Mən təzəcə çəmən, sən də bir bahar,
Hələ ki, ömrümüz düyünsüz gedir.

Çürümüş ömürlər görməmisən sən,
Axarı qurumuş çaylara bənzər.
El-oba danışır səndən və məndən,
Üzərlik yandıraq, gen düşsün nəzər.

***1972***

## KAMERALAR

Ey gözəl, gözünün qarası, ağı,
Nağıl ömrümüzü çəkir lentinə.
Bürünüb yaşla məhəbbət bağı,
Nələr yaşayacaq, ömür eh, demə.

Mən də gözlərimlə çəkirəm xanım,
Sənin də, mənim də gördüklərimi.

Dörd kamera çəkir hey aram-aram,
Dörd kamera çəkir gördüklərini.

Bizim xatirəmiz zəngin olacaq,
Dörd nöqtədən yazır görüntüləri.
Bizim arxivimiz gün-gün dolacaq,
Yığacaq qoynuna itən illəri.

Bizim kameralar çəkir nə varsa,
Ömrün bir anını buraxmır belə.
Mənim arxivim də lentlər yanasa,
Sənin arxivində gələcək dilə.

Bizim ömrümüzün qızıl anları,
Xatirə lentinə qoşa yazılar.
Taleyin ən dərin qaranlıqları,
Qayaya yazılır, daşa yazılır.

Lentimiz işıqdan qorxan da deyil,
Lentimiz ürəyin öz qanadıdır.
Yazar gördüyünü günbəgün, il-il,
Yazılar sevgimiz sanki canıdır.

Yazılar qalanıb ürəyimizdə,
Yazılar baş-başa cığılar tel-tel.
Yazılar yol gedir diləyimizdə,
Yazılar yol gedir... Qurtaran deyil.

Bizim ömrümüzün qızıl anları,
Xatirə lentinə qoşa yazılar.
Taleyin ən dərin qaranlıqları,
Qayaya yazılır, daşa yazılır.

***1972***

## ÜMİDİM VAR TƏK ALLAHA

Illər məni lal eyləyib,
O xanıma çatmır səsim.
Həsrət mənə əl eləyib,
Kimi tutum, kimi kəsim?

Inanmıram qardaş, daha,
Falçılara çəkmə məni.
Ümidim var tək Allaha,
Unutmuşam dərdi, qəmi.

O kəs mənim qismətimsə,
Qismətimdə olacaqdır.
Onu sevsə də bir kimsə,
Gözü yolda qalacaqdır.

Car etmirəm sevgimi mən,
Hələ yaşım o yaş deyil.
Hələ ki, yaşıl sünbüləm,
Il üstünə gələcək il.

O kəs üçün əsir ürək,
O da bilir sevirəm mən.
Vaxt yetişə bilsin gərək,
Nədir yağış, qar, bulud, çən.

Bəli, qəlbim yatıb ona,
Qəlbimdə şam yandırmışam.
Söz demişəm çatıb ona,
Hələ cavab almamışam.

Gözlərimin işığına,

Gözlərindən alov gəlir.
Gəlib qonşu qarğışına,
Sözlərini deyə bilmir.

Yox desə də, gözləyəcəm,
Nə söyləsə, qalasıyam.
Evlərinə baxır küçəm,
Bir məhəbbət adasıyam...

***1972***

## AD GÜNÜ KEÇİRDİ...

Ad günü keçirdi bir şəxs özünə,
Biz də bu məclisə dəvət almışdıq.
Sərhəd qoymayırdı o heç sözünə...
Sağlıqlar deyirdi hərə bir qırıq...

O gecə, o gecə nələr olmadı,
Mən həsrət çəkirdim düzü içimdə.
Mənim ürəyimdə bir arzu qaldı,
Köç etdi dünyadan olan köçüm də.

Sən isə susmuşdun sözü yox kimi,
Susmaq bu dünyada gülüm, qızıldı.
Batırdın gözümə polad ox kimi,
Keçirdi, qəlbimdən qərb sızıltısı.

Ildırım çaxırdı gözlərimizdə,
Axı göz neyləsin gördüklərimiz...
Qızarıb pörtmüşdü üzlərimiz də,
Gizlədə bilmirdik hissləri də biz.

Gecənin qoynunda dönürdün şama,
Əriyib gedirdik dünyamızla biz.
Necə yaraşırdıq o gün axşama?
Ad günü edirdik sanki ikimiz.

Mən səndən qeyrisin görə bilmirdim,
Mən səndən alırdım alacağımı.
Çoxları gülürdü, mənsə gülmürdüm,
Bilirdim, bilirdim dolacağımı.

Uzaqdan-uzağa rəqs eləyirdik,
Əl-ələ yapışmaq, olmazdı bizə.
Bizə də belə bir gün diləyirdik,
Baxırdıq uzaqdan baxan gündüzə.

Sirlər batsın deyə taxmışdıq eynək,
Qonaqlar bilmirdi nə çəkirik biz.
Qoşulub qaçaydıq biz ordan gərək,
Qaçmadıq, yaşadı qəmli gecəmiz.

***1972***

## MƏNİM SƏADƏTİM

Ad günün... Ad günün qalır yadımda...
Ən gözəl hədiyyən məhəbbət olub.
Sənin soyadın da, sənin adın da,
Mənimçin dünyada səadət olub.

Yanıb odumuzda qışın qarı da,
Küləkli havada tər boğub bizi.
Baş-başa qalmışıq güllü baharda,
Bəlkə də həyatda şir doğub bizi.

Içmişəm sözünün şirəsini mən,
Içmişəm ürəyim alovlananda.
Içmisən qəlbimdən keçənləri sən,
Şərqi köynəyində, nağıl donunda.

Içmisən qəlbimin döyüntüsünü,
Içmişəm qəlbinin çırpıntısını.
Götürüb başına dünyanı ünü,
Bayrağım etmisən qızaran danı.

Yapışıb əlindən sıxmışam bərk-bərk,
«Sevirəm» - kəlməsi dodaqlarımda.
Baxmısan gözümə sən ürkək-ürkək,
Titrəyir torpaqda ayaqların da.

Titrəyir səsin də, kəlmələrin də,
Əzizim, nə vaxtdan titrək olmusan?
Bu uzaq yerləri bu gün görəndə,
Yəqin ki, əzizim kövrək olmusan.

Beləcə bir dünya yaşamışıq biz,
Sevgimiz məşəldən, eşqimiz oddan.
Külək biz, yağış biz, Günəş, işıq biz,
Çıxarmaq olarmı eh, səni yaddan?

Ad günün... Ad günün qalır yadımda...
Ən gözəl hədiyyəm məhəbbət olub.
Sənin soyadın da, sənin adın da,
Mənimçin dünyada səadət olub.

***1972***

## İKİ ÖMÜR

Iki ömür bir taledə birləşə bilər,
Məhəbbətlə bir sırada yerimək üçün.
Bir ürəyin işığında görüşə gələr,
Bir ürəyin işığında ərimək üçün.

Iki tale bir olanda uzanır ömür,
Iki tale bir olanda, doğur məhəbbət.
Taleləri birləşəni Allahda sevir,
Ayağının pəncəsindən doğar səadət.

Iki ömür bir muğamın iki pərdəsi,
Sahilləri, zirvələri demirəm nədir...
Iki ömür bir taleyin nəfəsi, səsi,
Bu, taleyin ulduzu da sanki nəğmədir.

Iki tale bir taledə birləşən zaman,
O evin də zəif yanan işığı artır.
Onlar gəlsə, dərələrdən çəkilər duman,
Ağaclar da yaşıllığın qoynunda batar.

Mən bir tale istəyirəm... İstək itməsin!
Iki ömür arasında körpü salınsın.
Gecikməyin, siz məhəbbət lentini kəsin,
Şahidiniz gördüyünüz təbiət olsun.

Ay insanlar dəstək olun biz dostlara siz,
Dedi-qodu əkilməsin bu ürəklərə.
Qurumasın axar çaylar, çırpınan dəniz,
Qurumasın ağaclar da göz görə-görə.

Iki-iki taleləri bir-bir edin siz,
Allahında nəzərində nişan olarsız.
Yol taparsız, yol gedərsiz bəli, tər-təmiz,
Əl yetməyən zirvələri aşan olarsız.

Iki ömür bir taledə birləşə bilər,
Məhəbbətlə bir sırada yerimək üçün.
Bir ürəyin işığında görüşə gələr,
Bir ürəyin işığında ərimək üçün.

***1972***

## SƏNSİZ QONAQ OLDUM...

Sənsiz qonaq oldum... Düz-dünya qardır,
Cığırlar suala tutdular məni.
Qayalar sorurdu: - Bəs o hardadır?
Dağların gözü də gəzirdi səni...

Şivən qoparmışdı quşlar, böcəklər,
Arı vızıltısı qulaqlarımda.
Boynunu bükmüşdü sanki çiçəklər,
Ilişib qalmışdım tikan torunda.

Dərələr dumana basmışdı məni,
Ağaclar saralmış yarpaqlarına.
Çobanlar dilimdən asmışdı məni,
Bulaqlar baxırdı ayaqlarıma.

Məhkəmə qurmuşdu təbiət mənə,
Sıxmışdı yumruğun sanki qayalar.
Bir günüm dönmüşdü külüm yüz ilə,
Əymişdi qəddini mətanət, vüqar...

Peşiman olmuşdu, qoca çinar da,
Peşiman olmuşdu bütün qonaqlar.
Bircə mən bilirdim kim qalıb harda,
Bir də sirr verdiyim çılpaq budaqlar.

Peşiman olmuşdum yoxluğuna mən,
Olmayaq həyatda gərək səbirsiz.
Məni bu səfərdən saxlamadın sən,
Dedin: - «Qayıdanda danışarıq biz».

Eh, niyə getmədin mənimlə o gün,
Eh... Qoşun yeritdi üstümə fikir.
Yox, yox, bu səfərə gedə bilməzdin...
Suallar səni də, məni də didir...

Sənsiz qonaq oldum... Düz-dünya qardır...
Cığırlar suala tutdular məni.
Qayalar sorurdu: - «Bəs o hardadır?»
Dağların gözü də gəzirdi səni...

***1972***

## MƏNİMLƏ

Adımla öyünmək sənə çətindir,
Barı ürəyində danış mənimlə.
Sevgimi car etmək mənə çətindir,
Qayna muncuq-muncuq, qarış mənimlə.

Yersiz bir söz dedim, deməməliydim,
Sənin hüzurunda başımı əydim.
Çırpıldım daşlara, qayaya dəydim,
Demirəm, əzizim, dalaş mənimlə.

Çəkilək xəlvətə, girək qol-qola,
Qəlbində qəlbimə ucalt bir qala.
Hamıdan xəbərsiz bir ocaq qala,
Alovlan, ocaqdan, alış mənimlə.

Qarşında dayanan sənin ovundur,
Ağlasam, üzülsəm məni ovundur.
Bizim sevgimizin yolu uzundur,
Yorulma yarıda, dağ aş mənimlə.

Dözürük həsrətə, gülüm, bir təhər,
Dualar edirik doğan hər səhər.
Sənə də, mənə də atılsa da şər,
Küsüb uzaq getmə, barış mənimlə.

Içdiyim bir and var, o da Tanrıdır,
Məşəl gərək olsa, gəl məni yandır.
Desələr, açdığım sevgi yalandır,
Inanma, yetişməz o qarğış mənimlə.

Sənin kirpiklərin ürəyimə ox,
Səni gözləyirəm bir eyvana çıx.
Oynamaq istəsən başqasıyla yox,
Gəl əyləş, oynayaq daş-daş mənimlə.

Mən səni ömrümə dayaq bilmişəm,
Başımın üstündə bayraq bilmişəm.
Zülmət gecələrdə çıraq bilmişəm,
Gülüm, yaşayacaq alqış mənimlə.

***1972***

## SÖYLƏ, BU DA...

Sənin üçün darıxmışam,
Darıxmağım da səadətmi.
Lal ağacam, quru daşam,
Daş da olmaq cəsarətdi.

Niyə belə darıxmışam?
Səbəbini bilir o da.
Zəng vurmayıb, düşüb axşam,
Gərək dönəm suya, oda.

Kimdən sorum? Necə sorum?
Zəng vurmağım... O da qorxu...
Fikirlərim tarım-tarım,
Həsrət qalıb mənə yuxu.

Yrəyimdə qovruluram,
Sorağına, gileyinə.
Düz keçirəm, dağ aşıram,
Yalvarıram diləyimə...

Deyirəm ki, doğaydı gün,
Sevinəydi ünvanın da.
Açılaydı düyün-düyün,
Baxışların baxışımda.

Yalvarıram tək Allaha,
Olsun əli saçlarında.
Neyçin? Nədən? sorma daha,
Yol üstədir saçlarım da.

Yol üstədir duyğularım,
Ağ dumanın içindədir.
Sakit-sakit gəlir yarım,
Bəlkə də bu əfsənədir?

Yəqin sən də darıxmısan,
Bizə düşən bu qismətdi.
Sevmək olmur, gülüm, asan,
Söylə, bu da... Ədalətdi?

***1972***

## NƏ SÖYLƏYİM?

Bəxtimə calandı sevgi budağı,
Bu eşqə payızmı, yazmı söyləyim?
Qarışdı gözümün qarası, ağı,
Bu eşqə payızmı, yazmı söyləyim?

Küləklər əsəndə yarpağım düşür,
Doğulan hislərim qəlbimi deşir.
Özüm şir deyiləm, bürcüm olub şir,
Bu eşqə payızmı, yazmı söyləyim?

Zər atır mənimlə payız dərvişi,
Yetişib sonuna ömrün gərdişi...
Qəlbimdə sevginin odu, atəşi,
Bu eşqə payızmı, yazmı söyləyim?

Qırıla bilmirəm bu hisslərimdən,
Qırıla bilmirəm ey gözəl səndən.
Çox yaxşı bilirəm, biz deyilik tən,
Bu eşqə payızmı, yazmı söyləyim?

Yşüyür əllərim qar «döyüş»ündə,
Gülür uşaqlar da o tin, bu tində...
Gülür sevincim də bu qış günündə,
Bu eşqə payızmı, yazmı söyləyim?

Qəlbimi qış qarı soyuda bilmir,
O xanım danışır, nədəki, gülmür.
Gözləri yaşarır, əlləri silmir,
Bu eşqə payızmı, yazmı söyləyim?

Yadıma salıram ötən günləri,
Bağrıma basıram əlvan gülləri.
Hər şey ölüb gedib, bir ölü diri,
Bu eşqə payızmı, yazmı söyləyim?

Daşın da adı var daşlar içində,
Qəriblik yaşayır durna köçündə.
Varım da, yoxum da qışlar içimdə,
Bu eşqə payızmı, yazmı söyləyim?

***1972***

## MAŞININ SƏSİNƏ...

Sən ey dünyasından xəbərsiz xanım,
Göz üstə qovrulub dodağım-dilim.
Od üstə titrəyir bir əlcə canım,
Bu yükü qəlbimdən mən necə silim?

Bu yükü qəlbimdən ata bilmirəm,
Birinin yerində yüzü doğulur.
Əzizim sən düşün, mən də gəlirəm,
Dünyada başqa cür, başqa cür olmur.

Sənin gözlərinin parası ağdı,
Mənim ürəyimin parası qara.
Əllərin ovcumun içində sağdı,
Özüm də bilmirəm gedirəm hara...

Maşının səsinə qarışıb səsin,
Nağıldı, nəğmədi, sözdü bilmirəm!
Isidir maşını isti nəfəsin,
Qızılı nar deyil əl atam, dərəm!..

Dünya imtahana çəkibdir bizi,
Yrəkdə suallar doğulur, itir...
Içimdən boylanır bir eşqin izi,
Deyirəm bəlkə də bu əfsanədir.

Deyirəm bəlkə də heç nə bilmirsən,
Yollar çoxluğunda yollar azıram.
Xanım sürmək gəlir yalnız əlimdən,
Birdəki az, para şeir yazıram.

Bilirəm, bilirəm, çiçəksən çiçək,
Içində dünyanı ölçüb-biçirsən.
Sevgimin üstündə ulduz bitəcək,
Qaynar «günahımdan» gülüm, keçirsən.

Maşının səsinə qarışıb səsin,
Nağıldı, nəğmədi, sözdü bilmirəm!
Isidir maşını isti nəfəsin,
Qızılı nar deyil əl atam dərəm!..

***1972***

## ORADA GÖRMÜŞDÜM

Orada görmüşdüm ilk dəfə səni,
Orada hopmuşdun qəlbimə mənim.
Gizli böyümüşdü bir eşqin qəmi,
Gizli böyümüşdü həsrətin sənin.

Yeyirdim içimdə şirinliyini,
Sullar verirdim, cavab alırdım.
Seçmişdim qızlardan yüzdən birini,
Gözümün odunu oda salırdım.

Ötüşdü fəsillər, ötüşdü illər,
Beləcə böyüdün, böyüdüm mən də.
Yaşadı içimdə, yaşadı nələr...
Mən tapa bilmədim özümü səndə.

Tapa da bilməzdim... Bu günah deyil,
Boğurdum dünyamda hissimi titrək.
Yadıma düşdü ki, axı eh qəfil,
Yox ola bilərəm, yox olar ürək.

Məni başqasına bağladılar da,
Bağlana bilmədi əllərim ələ.
Mənimçin güldülər, ağladılar da,
Saxta çubuqlardan tutular şələ...

Ötüşən ötübdü, itən itibdi,
Danışa bilmirəm o günləri mən.
Gözümün içində adın bitibdi,
Məni tərəzidə çəkməlisən sən.

Yük edə bilmirəm daha bu qəmi,
Sən bunu bilməsən... Yoxsa yaradan...
Mənsizli günlərdə yad edib məni,
Kölgənlə baş-başa dayanacaqsan...

Orada görmüşdüm ilk dəfə səni,
Orada hopmuşdun qəlbimə mənim.
Gizli böyümüşdü bir eşqin qəmi,
Gizli böyümüşdü həsrətin sənin.

***1972***

## BU GÜN SƏNİ GÖRDÜM...

Bu gün səni gördüm yaz geyimində,
Ürəklər vururdu ilk bahar kimi.
Ayrılıq köç etdi daha qəlbimdən,
Görəsən haraya... Eh, hara kimi.

Qralı qış ötüşdü... Yaza çıxmışıq,
DaNa görüşlərin azı tükəndi.
Bizi qarşılayan bu ılıq işıq,
Sabah qızdıracaq böyük bir kəndi.

Bu gün səni gördüm, sözləri dən-dən,
Dünyan kədərimi apardı, getdi.
Məhəbbət evinin pəncərəsindən,
Qara pərdələri qopardı getdi.

Udacaq gecələr səni, məni də,
Qol-qola görəcək bizi işıqlar.
Seyrə çıxacağıq hələ gəmidə,
Həsədlə baxacaq kiçik uşaqlar.

Bu gün səni gördüm eləcə gözəl,
Yağmışdı üstünə göylərin nuru.
Görüşə bilmədim düyünləndi əl,
Ancaq durulmuşdu gözlər dumduru.

Insanlar çox idi, nə etməliydim?
Üzündən, gözündən öpdüm kənardan.
Bax, məni beləcə göynətməliydin,
Mənə söyləyirdin yəqin «alış, yan...»

Tutmadım əlindən dedim, görərlər,
Dedim ki, sıxılar mənim mələyim.
Bilsəydin qəlbimdən keçirdi nələr...
Bilsəydin... Bilsəydin... Gülüm, nə deyim...

Qaytardın özümə bu gün sən məni,
Məni aparmışdı qatı dumanlar.
Eh, bu gün təzədən kövrəltdim səni,
Itirdi adını köhnə gümanlar.

***1972***

## ƏLİM DƏYDİ ƏLİNƏ

Əlim əlinə dəydi,
Şimşəkmi vurdu məni?
Xatirələr göyərdi...
Unutmaq olmur səni.

Əlim əlimə dəydi,
Şəlalələr dil açdı.
Ağaclar başın əydi,
Gözündən axan yaşdı?

Bir balaca toxunuş,
Gör bir nələr yaratdı.
Soyuğunu atdı qış,
Eh, bəlkə bu muraddı.

Dilə gəldi bulaqlar,
Onlar da gözləyirmiş.
Əl çaldılar budaqlar,
Haradan doğdu bu gəliş?

Əlim dəydi əlinə,
Səfərdənmi qayıtdın?
Düşdüm sevgi selinə,
Qayaları oyatdım.

Danış görək, din görək,
Haraları gəzmisən?
Gəl bir qol-qola girək,
Mənsiz necə dözmüsən?

Alıb apardın məni,
Işıq gəldi gözümə.
Çəkdiyim faciəni,
Xanım, yazdım dözümə.

Əlinə dəydi əlim,
Baxışında boğuldum?
Yox oldu dərdim, qəmim,
Eh təzədən doğuldum...

***1972***

## QƏFƏSDƏ QUŞA DÖNÜRƏM

Görməyəndə gözlərini,
Qəfəsdə quşa dönürəm.
Itirəndə izlərini,
Qəfəsdə quşa dönürəm.

Ümid baxır, hissim azır,
Yaxşı ki, qələmim yazır.
Əl-ayağım qəbir qazır,
Qəfəsdə quşa dönürəm.

Susur səsin, itir dünyam,
Sanıram ki, dəli çayam.
Baxır daşım, baxır qayam,
Qəfəsdə quşa dönürəm.

Ağ mələklər gəlir, gedir,
Yazıq anam dua edir.
Həkimlərim dada yetir,
Qəfəsdə quşa dönürəm.

Yox olursan, yox oluram,
Göynəyir içimdə yaram.
Bilmirəm yağışam, qaram,
Qəfəsdə quşa dönürəm.

Kirpiyim döyür gözümü,
Deyə bilmirəm sözümü.
Yeyirəm özüm-özümü...
Qəfəsdə quşa dönürəm.

Sanıram səfər edirəm,
Səninlə qoşa gedirəm.
Quru daşam, quru yerəm,
Qəfəsdə quşa dönürəm.

Allahım çatır dadıma,
Nələr bağlanır adıma.
O xanım düşür yadıma...
Qəfəsdə quşa dönürəm.

***1972***

## DÜNYA BOYDA

Bir dünyamsan, sirli, şirin,
Bir dünyamsan dünya boyda.
Bitib gözlərimdə yerin,
Yuya bilmir dəli çay da.

Tonqal qalıb isinirəm,
Istəməyə əlin çatmır.
Çağırırsan diskinirəm,
Varlığımı qırır... Qırır...

Ürəyimin açarısan,
Açmağını gözləyirəm.
Sən sevgimin uçarısan,
Uçmağını gözləyirəm.

Səsin çatır, sözün çatmır,
Bu ləngimək kimdən qalıb?
Mən yatıram beyin yatmır,
Düz-dünyaya haray salıb.

Lalə, nərgiz, bənövşəsən,
Bahar sənsiz necə gələr?
Yazılmamış bir lövhəsən,
Yol gözləyir nələr... Nələr...

Gözüm yolda, kölnüm səsdə,
Gecəmizdən gün doğacaq.
Büküm-büküm, dəstə-dəstə,
Su yerinə gül axacaq.

Səsin getmir qulağımdan,
Çağırırlar eşitmirəm.
Sən ey Günəş, sən ey doğan,
Gəlmək sizdən, bəxşiş məndən.

Bir dünyamsan sirli, şirin,
Bir dünyamsan dünya boyda.
Bitib gözlərimdə yerin,
Yuya bilmir dəli çay da...

***1972***

## ÖZ-ÖZÜMLƏ

Oradayam çoxdu bilən,
Ünvanımı bilən yoxdu.
Mən səfərə çıxan gündən,
Aylar ötüb, ilin yoxdu.

Yoxlamışam sağı, solu,
Neyləyirdim mən bu yolu.
Ətrafımda insan dolu...
Kədərli var... Gülən yoxdu.

Bağrım yanır, getmə, dayan,
Yatmısansa, gülüm, oyan.
Qulağımda sızıldayan,
Çayların var, selin yoxdu.

Həyat məni qovurubdu,
Nəyim qalıb o da budu.
Külək göyə sovurubdu,
Ocağım var külüm yoxdu.

Nigaranam bir nəfərdən,
Nəğmə dolu ürəyindən.
Saçlarını hərdən-hərdən,
Sığallardım... telin yoxdu.

Çırpınıram harayında,
Yaz gəlibdir qış ayında...
Ürəyimin dolayında,
Hər şey var, yerin yoxdu.

Uzaqlarda qalmışam mən,
Uzaqlarda qalmısan sən.
Mənsiz ötən günlərindən,
Danışmağa dilin yoxdu.

Sirrim vardı, bilirdin sən,
Eşqim dərya, sevgim dən-dən.
Dən-dəyirman istədim mən...
Suyu vardı, pərin yoxdu.

***1972***

## ARXİVDƏ

Dünənki səninlə görüşümə mən,
Yazdığım bir topa şeir gətirdim.
Sənə yazılmışdı... Söylədin «əhsən»,
Qəlbimə ümüdlər əkdin, bitirdin.

Çap edib etməmək keçdi qəlbimdən,
Dedim öz-özümə bu hələ tezdir.
Tam məxfi qiriflər göründü dən-dən,
Arxivdə cəm etdim onları bir-bir.

Arxivdə cəm etdim yazdıqlarımı,
Dedim ki, gün gələr açılar buzu.
Cəm etdim yollarda azdıqlarımı,
Cəm etdim nə qədər payızı, yazı.

Qanadlı qayalar köçdü arxivə,
Yamaclar saraldı, dağlar saraldı.
Özünə yer tapdı dumanlı dərə,
Göydə buludlar da bəli, qaraldı.

Yağışlar arxivə yağdı, nə yağdı,
Yağdı ağappaq qar, nə bilim nələr...
Sevgi məktubları məni çağırdı,
Arxivdə bir əlcə yer istədilər.

Arxivə düşməzlər düşdü arxivə,
Arxiv dar olsa da ürək gen idi.
Xəbər yetişmişdi «tək gözlü» divə,
Bizim üstümüzə gəldi, nə gəldi.

Gəlib xatirələr, qrif aldılar,
Dəftərə yazmadım, yazdım beynimə.
Məktublar dedi ki, gəl bizi apar,
Dedim ki, yox olmaz, baxır ilinə.

Yazılı iltizam verdim dilimdən,
«Qrif» verənlərə... Yetişdi sonu.
Dedim ki, nə zaman dönüm geri mən,
Dedilər: - «Gələcək göstərər bunu».

***1972***

## MƏHƏBBƏTSİZ NƏ HƏYAT?

Sənsən arzum, muradım,
Məhəbbətsiz nə həyat?
Sənsən ocağım, odum,
Məhəbbətsiz nə həyat?

Aşiq çəkilsə dara,
Sevincim düşsə tora.
Taleyin gəlsə qara...
Məhəbbətsiz nə həyat?

Çaylar aparar məni,
Külək qoparar məni.
Anlamayır yar məni,
Məhəbbətsiz nə həyat?

Ağlayıram içimdə,
Yanılmışam seçimdə?
Yasa batıb köçümdə,
Məhəbbətsiz nə həyat?

Yazmaq olubdur peşəm,
Söylə nəyə yetmişəm?
Demə günah etmişəm,
Məhəbbətsiz nə həyat?

Xanım sənə yox desə,
Bir başqasın istəsə,
Onlar versə səs-səsə...
Məhəbbətsiz nə həyat?

Daşa dönüb gülməyim,
Axı necə deməyim?
Sənin istəmədiyin...
Məhəbbətsiz nə həyat?

Gözlərində gülür Yaz,
Qəmgin baxma, gülüm yaz...
Belə imtahan olmaz!
Məhəbbətsiz nə həyat?

***1972***

## SƏNƏ NECƏ GƏLİR?

Mənə elə gəlir sənsiz yoxam mən,
Sənə necə gəlir? Bilmirəm onu...
Səninlə zirvəsi uca dağam mən,
Bu şirin sevgimin görünmür sonu...

Görünmür ömrümün sonu da xanım,
Ömrün son nöqtəsi görünməz olur!
Nə qədər möhlət var, onun da xanım,
Qədrini bilməsən dünyan uçular!

Sən doğan Günəşsən, mən Yer kürəsi,
Asılıb qalmışam kirpiklərindən.
Qatacam səsimə bu doğma səsi,
Gözümün içinə «yox» da desən sən.

Nə bilim bəlkə də «hə» deyəcəskən,
Göylərdə ulduzlar sevinəcəkdir.
Bəlkə də yanımdan düz keçəcəksən,
Çoxları mənimlə mərcləşəcəkdir.

Səni sevməmişəm nə vaxtsa atım,
Bəlkə də qismətim həsrət olacaq?
Hələ ayrıdırsa sənlə soyadım,
Qalanıb qəlbimdə bir isti ocaq.

Gecə də gündüz də bu ocaq yanır,
Ocaqlar sönsə də o sönən deyil.
Özünü dünyada möhtəşəm sanır,
Deyirəm, əzizim, sən də eşit, bil.

Bilmirəm kiminlə olasısan sən,
Hər sevən sevilmir... Yaşayır ancaq...
Unutma, səninlə qalasıyam mən!
Ölsəm də bu ruhum baş qaldıracaq...

Mənə elə gəlir sənsiz yoxam mən,
Sənə necə gəlir? Bilmirəm onu...
Səninlə zirvəsi uca dağam mən,
Bu şirin sevgimin görünmür sonu...

***1972***

## İNANA BİLMİRƏM...

Qurd ilə üz-üzə dayanmısan sən,
Dişini üstünə ağarması var.
Qurddan az aralı dayanmışam mən,
Məndən çəkinməsə səni parçalar.

O işıqlı yolda qara tikandı,
O işıqlı yolu qaranlıq edər.
O məni duymadı, başqa cür andı...
Əgər imkan olsa, o, səni didər.

Çox zaman onunla yol da getmisən,
Bəlkə də o səni şirə oxşadıb.
Mən yaxşı bilirəm nələr etmisən...
O isə ilan tək qovrulub yatıb...

Sənə də sevgimi duyub hardasa,
Qaynar gözlərində ona od vurub.
O sənə rüfiqə mənə yardısa,
Bəs niyə yolunda tələlər qurub?

Inana bilmirəm sevə bilsin o,
Onun sinəsində ürək döyünür?
Inana bilmirəm təmiz gülsün o,
Onun gözlərinin içi görünür?

Qurdlara xas olur ağalıq hissi,
Imkanı olarsa hamını yiyər.
Onun işləri də, özü də nəsdi,
Nəsdən nəs doğular, nəsdən-nəs törəyər...

Qurd ilə üz-üzə dayanmısan sən,
Sığınıb Tanrıya dualarınla.
Bir az gec olsa da, oyanmısan sən,
Nədənsə susursan hay-hayanla.

Mənim dağ sevgilim, dağ məhəbbətim,
Sən yox, bax, o sənin yemin olacaq.
Mənim xoşbəxtliyim, ağ səadətim...
Dərd ona, xoşbəxtlik bizə qalacaq.

***1972***

## SƏADƏTİ QARALMASIN

Boşalt mənə ürəyini,
Kinin sənə yük olmasın.
Zora salma diləyini,
Səadəti qaralmasın...

Beyinki var, salma zora,
Bizə yolu o göstərir.
Yolu azsan ağla, zara,
Bir də xanım, elə səbir...

Uçub getsin ağrın, acın,
Bir lalən də bəsim olar.
Ağarmasın qara saçın,
Səsin dönüb səsim olar.

Ver əlini yansın əlim,
Alovundan göy titrəsin.
Doğra məni dilim-dilim,
Ildırımlar nərildəsin.

Yaşadarıq dağı, daşı,
Bəs edərik qaraya da.
Düz işləsin xanım başın,
Çatar gücün haraya da.

Demə hissim qalıb darda,
Könül evim ağlar qalar.
Bir balaca ağrını da,
Sözün yuyar, damar-damar.

Təbiətdən, bir də səndən,
Çox yazıram, neynim gözəl?
Çox sevirəm adını mən,
Axı mənə kimdir əzəl?

Boşalt mənə ürəyini,
Kinin sənə yük olmasın.
Salma zora diləyini,
Səadəti qaralmasın!..

***1972***

## ÜRƏYİMDƏ DİNCƏLİRƏM

Gündüzü var hər gecənin,
Işığını görürəm mən.
Cavabı var hər necənin,
Hər neceni mən bilirəm.

Bilirsənmi bu hikməti?
Tərəzi al, nə varsa çək.
Bu sevginin hekayəti,
Gülüm deyən, çox çəkəcək...

Nöqtə qoyaq dərdə, qəmə,
Xoşum gəlmir bu durumdan.
Gəl qoşulaq təbiətə,
Ağrı-acı çıxsın candan.

Nöqtə qoyma gülüşlərə,
Dəli demə öz adına.
Həqiqəti bilə-bilə,
Torba tikmə soyadına.

Bir sevginin yolu uzun,
Bir sevginin yolu qısa.
Yazın, xatirələr yazın,
Gündə-gündə, qısa-qısa.

Yazılmamış xatirələr,
Illər ötür, yaddan çıxır.
Yadındamı? Nələr... Nələr...
Sənə baxır, mənə baxır.

Sanıram ki, nağıldı bu,
Hər bir ömür tarixçədir.
Quruyardı bəli quyu,
Yazmasaydıq sətir... Sətir...

Sevgimizi ürəyimdə,
Bax beləcə hörürəm mən.
Çırpınanda ürəyim də,
Xatirəmdə dincəlirəm.

***1972***

## MƏN HAZIRAM

Bir səs gəlir - Dayan! Dayan...
Məhəbbətin boğur məni.
Yolun düşsə qayalıqdan,
Özünki bil, çağır məni.

Ün yetməsə, səs yetməsə,
Corabını elə məşəl.
Naçar qalma əsə-əsə,
Əllərindən tutacaq əl!

Dözə bilməz sevdiyin kəs,
Qayalıqda naçar qala.
Yaşayırsan demə əbəs,
Hər yarağın ola-ola.

Işığına tuş gələrdi,
Alışardı qəlbimdəki.
Qayaları toz edərdi,
Ürəyimdən qopan sevgi.

Sevgi ki, var bir dünyadı,
Odda yanmaz, suda batmaz.
Çoxlarına sevgi dadı,
Yüyürsə də gedib çatmaz.

Sevgi - Vətən, Vətən-sevgi,
Sevgi Vətən qalasıdır.
Qəlbimdəki, qəlbindəki,
Ilk sırada olasıdır.

Torpaq-sevgi, sevgi-torpaq,
Bir-birinə qaynağdılar.
Çıraq-sevgi, sevgi-çıraq,
Bu sözlərdə bir hikmət var.

Bir səs gəlir - Dayan-Dayan...
Məhəbbətin boğur məni.
Yolun düşsə qayalıqdan,
Özünki bil, çağır məni.

***1972***

## SEVGİ FƏSİLLƏRƏ BÖLÜNMÜR

Hərdən daşa dönür yazan əllərim,
Hərdən sözlərim də dönür, daş olur.
Daş olur yorğanım, daş olur yerim,
Sevgisiz ürəyim ölür, daş olur.

Sevgisiz yaşamaq olmur əzizim,
Sevgisiz hər şeyin rəngi qarışır.
Kolların içindən boylanır izim,
Dolayır, dolanır qarlı dağ aşır.

Əzizim sevginə alqış, min alqış,
Dönüb dağ çayına qəlbimdən axır.
Demə qapımızı yaxalayıb qış,
Yağsa da sevgimə isti qar yağar.

Insanı yaşadan gülüm sevgidi,
Sevgisiz insanın ömrü yetir tez.
Sual versəniz ki, bəs sevgi nədir?
Varmı ki, dünyada ondan da əziz?

Zəlzələ, uçurum hamsı yalandı,
Sənin ürəyində uçrum olmasın.
Dünyada çox şeyin yeri qalandı,
Insan sevgisindən yetim qalmasın!

Bəzən sevilmirsən sevirsən ancaq,
Bax burda fırlanır, başına dünya.
Kimsə də qəlbindən sevgi umacaq,
Bu sevgi bir yana, o da bir yana.

Ya yaşı yarıdan keçmiş qız olsun,
Ya... Ya... Çiçək olsun... Ya... Ya... Nə bilim.
Yaz olsun, qış olsun, lap payız olsun,
Sevgi fəsillərə bölünmür gülüm!

Əzizim sevginə alqış, min alqış,
Dönüb dağ çayına qəlbimdən axır.
Demə qapımızı yaxalayıb qış,
Yağsa da sevgimə isti qar yağar.

***1972***

## KÖLGƏLƏR

Bizimlə yanaşı gedər kölgələr...
Kölgəmiz əl-ələ yapışa bilmir.
Uzanır «N» qədər doğan hər səhər,
Kölgəmiz danışmır, kölgəmiz dinmir.

Kölgələr neyləsin daşıqsa əgər...
Kölgələrin gözü əlimizdədir.
Baş əysən kölgələr başını əyər,
Insanlar-kölgələr qoşa səhnədir.

Kölgələr aparır, gətirər bizi,
Görüş yerimizin yaşıllığında.
Kölgələr evlərə ötürər bizi,
Kölgələr yox olar bir anlığında.

Bəlkə bir mələkdir kölgələrimiz,
Bəlkə də kölgələr qara işıqdır.
Mələklərdə olur səssiz-səmirsiz,
Kölgələr bizlərə bir yaraşıqdır.

Yazıq kölgələri udur gecələr,
Elə ki, əllərim gəzir saçında.
Azır cığırları, azır gecələr,
Dolaşır, qarışır xanım saçında.

Günəşin gözündə əriməz olur,
Düşünə bilmirəm nədir - kölgələr?
Yoxsansa, kölgən də görünməz olur,
Günəş yox olanda itir kölgələr.

Gecə işıqları gətirən odur,
Qaranlıq, işıqsız bir yer gəzirik.
Gecə kölgələri azdırmaq olur,
Biz onun yerini yaxşı bilirik.

Sinəmin üstünə əyilir başın,
Deyirsən kölgəmiz görünməz olur?
Əriyir bir sözdən gözlərdə yaşın,
Gecələr, kölgələr sürünməz olur.

***1972***

## SƏN GÜLƏNDƏ

Sən güləndə gülürəm mən,
Kədərlənmə, qurban olum.
Tək sən yapış əllərimdən,
Gözünün içinə dolum...

Sən güləndə gülür dünyam,
Qayalardan gəlir səsim.
Deyirəm ki, getmə, dayan,
Sanki boğulur nəfəsim.

Daşlar dinir, dinmirəm mən,
Belə də görüşmək olar?
Utanıram niyə? nədən?
Nəyim itər? Nəyim qalar?

Hey cəsarət toplayıram,
Hey... Baxışlar tel-tel olur.
Heç bilmirəm yoxam, varam,
Gülür xanım, gözüm dolur.

Gülür xanım kinli-kinli,
Dözür... Dözür... Nə vaxtacan?
Ürəyimdə deyirəm ki,
Ona dayaq mən olacam.

Xanım gülür... Gülür... Gülür...
Mən içimdə ağlayıram.
O halımı yaxşı bilir,
O bilir ki, yara yaram.

Üzür məni baxışları,
Dilimdən bir söz istəyir.
Açılaydı dilim barı,
Gecə düşür, gün əriyir.

Gül, güldür ki, gülüm gülüm,
Hər gecənin bir sonu var.
Budaqlarda açan gülün,
Sorağını verir bahar...

***1972***

## MƏN XƏSTƏ OLARKƏN

Gözlər də gözlərə həsrət qaldılar,
Tez-tez görüşmələr dağ oldu bizə.
Qaynar baxışlara qar ələnirdi qar,
Kiçik yamaclarda dağ oldu bizə.

Həkimlər yığışır dərdimi bilir,
Dəqiq cihazlar da altı-beş vurur.
Xanım da yanıma bir dəfə gəlmir,
«Diaqnoz» qoyanlar nigaran qalır.

Qurudu baxışlar, uçdu körpülər,
Qurudu əlimə toxunan əl də.
Qurudu nə bilim, nə bilim nələr...
Qabar-qabar oldu ağız da, dil də.

Dərdimi heç kimə deyə bilmirəm,
Dərmanlar içirəm ovuc-ovuc mən.
Yeriyə bilmirəm, yeyə bilmirəm,
Kəsdirir üstümü qüssə, kədər, qəm.

Görüşlər balıqçı toruna düşdü,
Doğradılar onu iti bıçaqla.
Anlaya bilmirəm xanım nə işdi,
Mən deyə bilmirəm sən gəl açıqla.

Bilirəm bu yerlər uzaqdır sənə,
Bilirəm bu sirri aça bilməzsən.
Görəsən yazığın gəlir heç mənə,
Bilirəm içində bükülmüsən sən.

Mənə də aydındı, sənə də aydın,
Bu qubarın sonu çox az qalıbdır.
Gərək getməyərdim, gərək qalardım,
Ürək məni dağa, daşa salıbdır.

Dözməkdir sevginin dadı bəlkə də,
Tanrımız bunu da bizə çox bilib?
Sən bir işə bax ki, azad ölkədə,
Ağrılar ağrıya qənim kəsilib.

***1972***

## SƏN YADIMA DÜŞƏNDƏ

Qar basır izlərimi,
Sən yadıma düşəndə.
Döyürəm gözlərimi,
Sən yadıma düşəndə.

Sarılıram qələmə,
Oluram kəlmə-kəlmə.
Qoşuluram Kərəmə,
Sən yadıma düşəndə.

Xeyrim, şərim ələnir,
Qəm kədərə bələnir.
Xatirələr dillənir,
Sən yadıma düşəndə.

Bu qədər həsrət olmaz,
Ötüb gedir güllü yaz.
Qurudur məni ayaz,
Sən yadıma düşəndə.

Ölürəm vücud kimi,
Göynəyirəm ud kimi.
Doluram bulud kimi,
Sən yadıma düşəndə.

Nələr keçir başımdan,
Boğuluram ay aman.
Kəsir yolumu zaman,
Sən yadıma düşəndə.

Kölgən tutur əlimdən,
Dağ titrəyir selimdən.
Daş asılır dilimdən,
Sən yadıma düşəndə.

Unuduram özümü,
Kədər basır üzümü.
Kimə deyim sözümü?
Sən yadıma düşəndə?

***1972***

## QORXMADIQ

O, səni bəyənmirdi,
Sən mənimçin dağ idin.
Tanıyanlar dinmədi,
Saçımda daraq idin.

Içdim müqəddəs andı,
Geydim əyilməzliyi.
Mən səninlə qazandım,
Həyatda ölməzliyi.

Açıq, gizli vuruşurdum,
Dərsim oldu onlara?
Ürəyimdə qovuşdum,
Dayaq oldu yar-yara.

Dedilər dona-dona...
Pislik onlara qaldı.
Girdilər dondan-dona,
El bildi ki, yalandı.

Səni çox qorxutmuşdu,
Söz-söhbətlər nədənsə.
Ağ yalanlar sovuşdu,
Qoşa qaldıq səs-səsə.

Tərəzilər quruldu,
Çəkildik qram-qram.
Axan sular duruldu...
Çox şey yalanmış yalan.

Uzaq oldu adından,
Bəzəmələr, yozmalar.
Nələr çəkdik ay aman...
Üzə çıxdı qeyrət, ar.

Çoxları bəyənmədi,
Sən mənimçin dağ idin.
Tanıyanlar dinmədi,
Saçımda darağ idin.

***1972***

## SƏN QARŞIMA HARDAN ÇIXDIN?

Mən çəkəni çəksən gülüm...
Hardan çıxdın qarşıma sən?
Düyün düşüb ayım, ilim,
Hardan çıxdın qarşıma sən?

Düyün düşüb içimdə söz,
Bir səs mənə deyir ki, döz.
Köz bağlayıb, ürəyim köz,
Hardan çıxdın, qarşıma sən?

Yuxum ərşə çəkilibdir,
Göz yollara dikilibdir.
Eşqin dəni səpilipdir...
Hardan çıxdın qarşıma sən?

Yasdığımla danışıram,
Göydən yağan sulu qaram.
Içim olub param-param,
Hardan çıxdın qarşıma sən?

Dəyişmisən deyir çoxu,
Dərin olur sevgi oxu...
Dostlar mənə gülür axı...
Hardan çıxdın qarşıma sən?

Batmışam qəmə dizəcən,
Yuxumdasan səhərəcən.
Bu şərbəti alıb içən...
Hardan çıxdın yoluma sən?

Mən qalmışam sorağında,
Itib-batıb sorağın da.
Taleyimin bu çağında,
Hardan çıxdın qarşıma sən?

Mən başqa cür necə anım?
Ürək dözmür dərdə, xanım.
Uzaqlaşsan bir də, xanım...
Hardan çıxdın qarşıma sən?

***1972***

## BİR ŞƏRQİ ÇALIN

Deyirəm çalına bir xalq şərqisi,
Biz də qoşalaşaq zümzüməsində.
Götürə dünyanı başına səsi,
Cadular, dualar yana səsində.

Qırıla şeytanlar yollarımızda,
Qırıla şeytanlar daş geyimdə.
Ata örpəyini düzlərə yaz da,
Atam örpəyimi içimdən mən də.

Nəfislər quruya, qarğışlar susa,
Açıla eynimiz bahar sayağı.
Bir şərqi çalına ucadan-uca,
Yana şeytanların əli-ayağı.

Biz də sevgimizlə verib əl-ələ,
Sıldırım daşlara kəndir ataydıq.
Bütün ağrıları verəydik yelə,
Lalədən, nərgizdən dəstə tutaydıq.

Bir şərqi çalına uludan ulu,
Səslər sehirində tilsimi qıra.
Sevgi deyənlərin açıla yolu,
Yerini gündüzə bəxş edə qara.

Bir şərqi çalına verib baş-başa,
Unudaq dünyanın həsrətini biz.
Qarışa başımız gülüm daş-qaşa,
Qarışa şərqiyə bizim səsimiz.

Məhəbbət selinə dönəydi çaylar,
Evlərin qapısın silkələyəydi.
Hər daşın altında min bir cadu var,
Məkirli daşları təmizləyəydi.

Deyirəm çalına bir xalq şərqisi,
Biz də qoşalaşaq zümzüməsində.
Götürə dünyanı başına səsi,
Cadular, dualar yana səsində.

***1972***

## MƏHƏBBƏT SATILMIR

Hərəsi bir dərman yazır həkimlər,
Hərəsi bir ada mincür ad qoyur.
Üstünə qabarsan sızar həkimlər,
Nə şirin dili var, nə ovsunu var.

Əyər düyün düşsə qəfil, səs, nəfəs,
Onlar yoxa çıxar, onlar tapılmaz.
Deməsən bir damla dərman da verməz,
Gərək sevgin olsun insana bir az.

Birini barmaqla göstərir biri,
Nədən xəstələnib kükünə varmır.
Görünür əzizim, hər şeyin yerin,
Onlar ölçü-biçi nədir?.. Aparmır.

Xəstə var bilirsən ağır xəstədi,
Xəstə var sevgidən pozulub başı.
Xəstə var duyursan o yol üstədir,
Xəstə var ağırdı, ağırdı daşı.

Dərmanım da sənsən, əlacım da sən,
Məni həkimlərə salan sevgidi.
Bir axşam baş çəksən quşa dönərəm,
Həyatda insana qalan sevgidi.

Gəlməyin çətindir... Kim gələcək kim?
Zəng açıb dərdini demək də olmur.
Üzümə min nağıl danışır həkim,
Axı kəlmələri yemək də olmur.

Mən şübhə etmirəm tibb elminə,
Sığınır qayğıya, sığınır ürək.
Çoxları ağ əlcək geyir əlinə,
Çoxunun qulağın burasan gərək.

Burada ən ağır xəstə mənəm - tək,
Ruhun dərmanları tapılmır xanım.
Həkimdən uzaq ol... Yalvarır ürək,
Məhəbbət aptekdə satılmır xanım.
***1972***

## YAZIRAM SƏNƏ...

Şeirlə bir məktb yazıram sənə,
Demə ki, xəstənin vaxtı çox olur.
Yoxluğun ağrımdan ağırdı mənə,
Yazıram, sanıram qəmim yox olur.

Sevgilim bir məktub yazıram sənə,
Bir qonşu həmyaşım çatdıracaqdır.
Bir kəlmə söz söylə o desin mənə,
Yoxsa ki, ürəyim partlayacaqdır.

Sevgim həm bacımdı, həm qardaşımdı,
Sənsiz sevincim də torda çırpınır.
Kədər sinədaşım, qəm başdaşımdı,
Məzarım üstündən baxır, boylanır.

Yox, mən ölməmişəm, ölüyə tayam,
Bu dərdi içimdə necə gizlədim?
Elə bil üstümə uçubdur qaya,
Daşların altından boylanır əhdim.

Xəstələr yanımda vurur şeş-beşi,
Beynimdə daşların səsi boğuşur.
Sanıram dünyanın tükənir işi,
Qəzəb qığılcımı içimdə coşur.

Çevrilir başıma dünya kökündən,
Sevib ayrı düşüb gülmək olarmı?
Ürəyim ağarır içindən dən-dən,
Ağaran bir ürək cavan qalarmı?

Görünmür gözümə görən kiməm mən?
Bəlkə də göynəyəm, bəlkə də közəm?
Yanıma de necə gələ bilərsən?
Elə də, belə də mən gərək dözəm.

Demirəm dünyada tək mənəm sevən,
Ayrılıq hardasa, dərd olur mənə.
Gərək mən çəkəni sən də çəkirsən,
Onda aydın olar kimliyim sənə

***1972***

## BU GİZLİ SEVGİNİN...

Bu dünyaya sığışmayan gizli hislərim,
Bir balaca ürəyimə sığışıb nədən?
Çoxlarının görmədiyi rəngli izlərim,
Bir məhəbbət adasında yığışıb nədən?

Bir məhəbbət adasına sığarmı sevgi?
Bu dünyadır başdan-başa elə məhəbbət.
Mən möhkəməm sən ey xanım elə elə ki,
Hələ vaxt var, gizli qalsın səadətimiz.

Gizli qalan bir sevginin dolaylarında,
Sənin, mənim, gizli-gizli görüşlərim var.
Qəlbimizin gizli-gizli yağan qarında,
Qəlbimizin gizli-gizli gülüşləri var.

Vaxt gələcək açılacaq gizli düyünlər,
Söhbətlərin mərkəzində olacağıq biz.
Yol gözləyir hələ «yox»lar, hələ ki, «hə»lər,
Gizli-gizli bir ölçüdə vurur qəlbimiz.

Göynəyirəm bu sevgini ün etmək olmur,
Bəxt yoluna, qatar-qatar sıldırım düşür.
Çalışırıq buğdaları un etmək olmur,
Dəyirmanın su pərinə ildırım düşür.

Yaşayırıq bu dünyanı əqidəmizlə,
Sözbazların söhbətindən aralı, uzaq.
Ey əzizim bu sevginin sonunu izlə,
Qohumların evlərində olacaq qonaq.

Gizli-gizli yaşıyacaq bu sevgi yəqin,
Taleyimiz son sözünü deyənə qədər.
Ümüdüm var qırıq-qırıq, gümanım çin-çin,
Hələ bizi çox güdəcək bəli, bir nəfər...

Bu dünyaya sığışmayan gizli hislərim,
Bir balaca ürəyimə sığışıb nədən?
Çoxlarının görmədiyi rəngli izlərim,
Bir məhəbbət adasında yığışıb nədən?

***1972***

## BİR XATİRƏ GECƏSİ

Bir xatirə gecəsini anıram hərdən,
Bircə yolluq bu yuvadan getməyim qalır.
Yer tapmıram varlığıma qəmdən, qüssədən,
Ürəyimdə zəlzələlər hay-haray salır.

Bir xatirə gecəsini açıb, sökürəm,
Gör nə qədər bu gecə də sağlıq deyən var.
Bir cüt gözün işığında əriyirəm mən,
Görürəm ki, qoymur bizi gözdən uşaqlar...

Bir xatirə gecəsini vərəqləyirəm,
Bir insanın cazibəsi batır gözümə.
Qəlbim donur, Tanrımızdan söz diləyirəm,
Qələm məndən uzaq düşür, baxmır sözümə.

Bir xatirə gecəsində buza dönürəm,
Elə bil ki, süfrəmizə qar ələnir qar.
Bir məhəbbət caynağında yanıb sönürəm,
Bir məhəbbət ocağında köz qabar-qabar.

Birisini oynamağa dəvət edirəm,
O cüt gözdən ünvanıma əmrlər gəlir.
Bir anlığa bu süfrədən çıxıb gedirəm,
Gedişimdən o gözlər də bir az dincəlir.

Bir xatirə gecəsindən başlayan yolun,
Qəm baxışlı yolçusuna çevrilirəm mən.
Sanıram ki, kimsə deyir, vaxt keçib durun,
Sanıram ki, ağ mələklər tutur əlimdən.

Mən gedirəm, o getməyir... Xatirə itməz!
Ürəyimdən daş asılır bir göz görəsi.
Bu mənzilin sakinidir, uzağa getməz,
Ona yükdür bu dünyada bu Yer kürəsi...

Bir xatirə gecəsini anıram hərdən,
Bircə yolluq bu yuvadan getməyim qalır.
Yer tapmıram varlığıma qəmdən, qüssədən,
Ürəyimdə zəlzələlər hay-haray salır.

***1972***

## DANIŞA BİLMİRƏM

Partlayır ürəyim mənim ay aman,
Düz susur, nahaqqın söhbəti gedir.
Dilində yalan yox, sözündə böhtan,
Dumduru kəlmələr doğulur, itir...

O qız sonalayır bu söz-söhbəti,
Dinib danışmağı bir az ar bilir.
Bilir qarışmağın deyildir yeri,
Belə insanları qəlbi dar bilir.

Danışa bilmirəm, dinə bilirəm,
Sonra hər kəmlədən yapışan olar.
Ağlaya bilmirəm, gülə bilmirəm,
Onda mənim üçün qış olar bahar.

Deyən o, hökmran olmaq istəyir,
Ləkə yapışdırar təmiz adlara.
Onu da bilmir ki, özünə edir,
Gülsə də baxışı qaradır, qara.

O gülür... Özünü bəxtəvər sayır,
Uçrumun yetdiyin bilməyir ancaq.
Onu da bilin ki, həyatda çayır,
Düşdüyü torpağı qamarlayacaq.

Hə deyib doğurlar belələrini,
Doğan da yaramaz doğulub yəqin.
Tanımır bəlkə də onlar ərini,
Indi beləsilə otur, danış din.

Baxıram qəzəblər sovrulur qana,
Çoxunun içində qaynayır qazan.
Bir mənə baxırlar, bir də ki, ona...
Düşünmür... Dünyamı bax budur pozan!

Danışa bilmirəm, dinə bilmirəm,
Sonra hər kəlmədən yapışan olar.
Ağlaya bilmirəm, gülə bilmirəm,
Onda mənim üçün qış olar bahar.

***1972***

## DAĞLAR BİZİ GÖZLƏYƏCƏK

Dinib danışmırsan bilmirəm niyə?
Mənim ürəyimi gülüm, qırma sən.
Gecikmə, geciksən dönüb laləyə,
Bilirəm üstümə yüyürəcəksən.

O qara xalına yumub gözümü,
O itən illərə qayıdasıyam.
Bu yollar qırsa da mənim dizimi,
Səni də özümlə aparasıyam.

Axı belə olmaz, nəyin çatışmır,
Dünyada hamıdan gözəlsən gözəl.
Yovşan kötüyündə izlərim yatır,
Gəl gedək qol-qola, dur geyin, bəzən...

O qırçın dərələr yadıma düşüb,
Bir az pendir götür, bir az da çörək.
Mənim ürəyimi intizar deşib,
Bir az sərt olmuşuq, bir az da gülən.

Danışaq çobanla, inək sağanla,
Baxaq qayaların mamırlarına.
Danlasan da məni bax orda danla,
Bax orda qabarmaz yar öz yarına.

Ora yaxşıları, pisləri seçir,
Ürəyin təmizsə toxunan deyil.
Qəlbimdən nə qədər xatirə keçir,
Didir varlığı bax gör neçə il.

Səni yarım kimi göstərəcəm mən,
Deyəcəm a dağlar budur işığım.
Hər yan məst olacaq gözəlliyindən,
Kəsəcək yolları gül yağım-yağım.

Dinib danışmırsan bilmirəm niyə?
Mənim ürəyimi gülüm, qırma sən.
Gecikmə, geciksən dönüb laləyə,
Bilirəm üstümə yüyürəcəksən.

***1972***

## YUXULARDA

Elə gecələr olurki,
Deyirəm açmasın səhər.
Gözlərim elə dolurki,
Boğazımdan tutur qəhər.

Görməmisən beləsini?
Bu sevginin ölçüsüdür.
Bənzətmişəm nura səni,
Işıqları söndür-söndür...

Mələklər öz qanadında,
Gətiribmiş məni sizə?
Uçmamısan asimanda?
Dağdan-dağa üzə-üzə...

Eh, yuxular görmüşəm mən,
Danışmağa dilim gəlmir...
Görmüşəm ki, ölmüsən sən,
Bastırmağa əlim gəlmir.

Bir gecənin vüsalını,
Günəş verib işığında.
Bir həsrətin bir anını...
Ölək qalaq yar bağında.

Əlbə-yaxa olmuşuq da,
Calamışıq qana qanı.
O dağlarda qalmışıqda,
Uzaq olub bizdən hamı.

Saçlarını yolmusan da,
Daşlı yollar gəlmişəm mən.
Məni dağdan atmısan da,
Ölüb yenə dirilmişəm.

Ö gecə ki, mənimləsən,
Ruhlar olubdu bəxtiyar.
Yuxularda tir-tir əsən,
Onu bil ki, əhtə çatır.

***1972***

## ÜMİDİMİ QIRMAYACAM...

Hə qədər ki yaşayıram,
Ümüdümü qırmayacam.
Yüküm sevgi... Yaşayıram...
Ümüdümi qırmayacam...

Məni şimşək vuranacan,
Məni torpaq udanacan.
Hə qədər var canımda-can,
Ümüdümü qırmayacam....

Düyünləri sel açacaq...
Küləklər də dil açacaq.
Arzumuz da gül açacaq,
Ümüdümü qırmayacam....

Ürək sənsiz ağlayacaq,
Dərddən şələ bağlayacaq.
Tanrı məni saxlayacaq...
Ümüdümü qırmayacam....

Mən aşiqdən qaçsan belə,
Yer üzündən uçsan belə,
Qəm qusacam gülə-gülə,
Ümüdümü qırmayacam....

Tüstülənir hələ bacam...
Səni-səndən qoparacam.
Öz yanıma aparacam,
Ümüdümü qırmayacam....

Gəl əl-ələ verək gözəl,
Gəl doyunca gülək gözəl.
Eşqin qədrin bilək gözəl,
Ümüdümü qırmayacam....

Bu sevgidən ad çıxacaq,
Yamacları at çıxacaq.
Kül altından od çıxaraq,
Ümüdümü qırmayacam...

***1972***

## ALIŞACAQ KİRPİYİNDƏN

Bu günümü kimlər pozsa,
Tanrı onu bağışlamaz.
Kimi bir bənd şeir yazsa,
Onun üçün doğular yaz.

Daş atmayın bu günümə,
Daş yağışa dönəsidir?
Məlhəm olun siz könlümə,
Düzüm, dünyam güləsidir.

Bu gün nağıl olmuşam mən,
Sehirlənib məhəbbətim.
Ulduzlar danışır səndən,
Göydən enib səadətim.

Bir olubdur iki ürək,
Bir olubdur iki insan.
Dərələrə səs düşəcək,
Sevgimizin dalğasından.

Sevgin mənə yaz söylədi,
Mən yazmaqdan yorulmadım.
Şair etdi məni dərdin,
Dərinləşdim addım-addım.

Qanad verdi mənə eşqim,
Uçub qondum pəncərənə.
Alovlandı yenə eşqim,
Səni dedi dönə-dönə...

Çox sınadın gülüm məni,
Mən beləcə qalasıyam.
Gen dəryalar udsa səni,
Üzüb, üzüb tapasıyam.

Məhəbbətin adı birdi,
Ocağı sən, alovu mən.
Ürəyimin qəmi, dərdi,
Alışacaq kirpiyindən...

***1972***

## BİR GÜNƏŞƏ BƏRABƏRDİR

Sən bir çiçək, mən bir çiçək,
Sanıram ki, bizik gülən.
Əriyirəm ləçək-ləçək,
Əyər məni uzaq bilsən...

Yanıb qəlbim külə dönər,
Söndürməyə qalmaz güman.
Qayalar da dilə gələr,
Dərələri basar duman.

Güc verərsən göz yaşına,
Çağırarsan alo, alo...
Imkan olsa başdaşıma,
Yazarsan ki, sevirdi o.

Bu sözləri yandım dedim,
Belə günlər bizdən uzaq.
Bu yerlərdən hara gedim,
Dörd bir yanım çıraq-çıraq.

Sən yaraşıq, mən yaraşıq,
Güllər bizə boyun əydi.
Düz dünyanı tutub işıq,
Bu Tanrının diləyidi.

Qayalara yazırıq ad,
Ürəklərdən keçən budur.
Sən bir həyat, mən bir həyat,
Bir həyatın sonluğudur?

Yağır göydən gül dənizi,
Bu qismətdi, bu bir paydı.
Özün qoru Allah bizi,
Şahidimiz axan çaydı.

Mən deyirəm, xanım bil ki,
Bu atılan qoşa zərdi.
Bu işıqdan doğan sevgi,
Bir günəşə bərabərdi.

***1972***

## DEYİRSƏN Kİ, DEYİRƏM Kİ...

Deyirsənki sənə yadam?
Sevən etməz sözü iki.
Zalım deyil, xanım adam,
Mən dilənçi deyiləm ki....

Baxışından od tökülür,
Yanır gözüm alovundan.
Günəş çıxır dan sökülür,
Mənki o gecədən odam.

Mən demirəm, sən özün de,
Əl çəkim mən nurdan necə?
Gəl eləmə xanım giley
Yetişməyib hələ gecə.

Ulduzları qoşa doğan...
Xanım sənin fikrin nədir?
Üstümə yağışdır yağan?
Ayaqlarım əsir tir-tir.

Bir xanıma vurulmuşam,
Əyir məni dərdim, qəmim.
Sular kimi durulmuşam,
Lövbər salıb üzən gəmim.

Hə gecəm var, nə gündüzüm,
Bir sevginin yolçusuyam.
Söz deməyə gəlmir üzüm,
Deyən düzdə qalasıyam...

Belə sevgi olmaz xanım,
Üz göstərib, keçirsən yan.
Eşqim darda qalmaz xanım,
Dayan xanım, dayan, dayan...

Könül aldım, könül verdim,
Mavi göylər olub şahid.
Məni qurandan keçirdin,
Qırılmayıb hələ ümid.

***1972***

## SƏN ÖYRƏTDİN

Oğrun-oğrun izləməyi,
Xanım mənə sən öyrətdin.
Görüş verib gözləməyi,
Xanım mənə sən öyrətdin.

Heç bilməzdim görüş nədir?
Bu dünya bir əfsanədir.
Məhəbbətim tel-tel əsir,
Xanım mənə sən öyrətdin.

Həsrətə sirdaş olmağı,
Tək qalmağı, darıxmağı.
Əzab çəkib daş olmağı,
Xanım mənə sən öyrətdin.

Fikirlərə dalmağı da,
Intizarda qalmağı da.
Həzakətli olmağı da,
Xanım mənə sən öyrətdin.

Çiçəklərin solduğunu,
Buludların dolduğunu.
Günahın nə olduğunu,
Xanım mənə sən öyrətdin.

Arxan ilə sürünməyi,
Yalan-doğru öyrənməyi.
«Hə» deməyi, «yox» deməyi,
Xanım mənə sən öyrətdin.

Vuran, sancan hər sözü də,
Qəm, qüssəli, gül üzü də.
Gecəni də, gündüzü də,
Xanım mənə sən öyrətdin.

Gün doğmamış doğulmağı,
Sıxılmağı, boğulmağı.
Yaylıq edib çağırmağı,
Xanım mənə sən öyrətdin.

***1972***

## EŞİTMƏYİR, EŞİTMİRƏM

Ürəyimdən keçənləri,
Bölüşmədi bir yol... Niyə?
Ürəyindən keçənləri,
Danışmadı bilə-bilə...

Bilə-bilə bilməm dedi,
Bu sevməyin bir yoludur.
Hardan gəldi, hardan getdi?
Mənim sevgim odur, odur!

Hislərimə hay vermədi,
Düşündüm ki, «eşitməyir».
Bar gətirdim, bar dərmədi,
Dönüb olub dünyada sirr.

Külək qovur küləyimi,
Pəncərəni necə açdın?
Eşitsən də diləyimi,
Göz görəsi məndən qaçdı.

Bir sevginin dustağıyam,
Didir məni suallarım.
Həm şərqiyəm, həm ağıyam,
Eşitməyir mənim yarım...

Yox eşidir, zümzümədə,
Pillələrlə qalxır, enir.
Göz altından gülə-gülə,
Xalçaları bir-bir silir.

Odun, suyun arasında,
Çırpınıram gecə-gündüz.
Gözlərimin qarasında,
Daşa dönüb odlu bir üz.

Yay görünmür, atır oxu,
Daş olmuşam, ox əlindən.
Susub dili, «hə»si, «yox»u,
Bəlkə dinir, eşitmirəm?

***1972***

## ŞƏRQİ

Bir şərqi deyirəm əzizdən əziz,
Qoy onu dünyaya yaysın küləyim.
Bir şərqi deyirəm səssiz-səmirsiz,
Bir mən eşidirəm, bir də ürəyim.

Bir şərqi deyirəm odu məhəbbət,
Bir şərqi deyirəm sözləri dən-dən.
Əzizim dünyada budu məhəbbət,
Bir cavab gözləyir səndən və səndən.

Bir şərqi deyirəm... Deməyim? Hiyə?
Deyirəm... Deyirəm... Heç üzüm gülmür.
O xanım sevgimi verib küləyə,
Versə də yaranan yaşayır, ömür.

Sevgilər doğulur, sevgilər ölmür,
Ölməyə nə var ki... Bu dəhşət deyil.
Sevgisiz nə həyat, onsuz nə ömür?
Sevgisiz insanlar əlildir, əlil.

Bir şərqi çalınır yoxdur oxşarı,
Yazıb-yaradanı olmuşam özüm.
Əriyib qurtarır dağların qarı,
Əriyib qurtarmır dəyanət, dözüm...

Gözümün içində alışacaqdır,
Bunu mən demirəm hisslərim deyir.
Sevənlər nə vaxtsa barışacaqdır,
Hələ aramızda imtahan gedir.

Bir şərqi çalınır mənim içimdə,
Mənəm eşidəni, mənəm duyanı.
Günah etməmişəm mən bu seçimdə,
Bəli, mən seçmişəm dərəni, dağı.

Bir şərqi çalınır, içimdə mənim,
Bilmirəm ağıdır, layladır, nədir...
O şərqi, susacaq köçümlə mənim,
Hələ ölməmişəm, hələ yol gedir...

***1972***

## HƏ DEYİM Kİ...

Mən bir igid, sən bir mələk,
Bu məhəbbət itə bilməz.
Qopsa tufan, əssə külək,
Aramızdan ötə bilməz.

Eşit mənim sözlərimi,
Ürəyimdən qopan səsdi.
Ovlamışam gözlərini,
Uzaq getmə bəsdi, bəsdi...

Səadətə tor atmışam,
Tora düşüb mənimkidi.
Eh... Yatmışdın, oyatmışam,
Daha igid səninkidir.

Mən sevirəm, mən baharam,
Çiçəklərin gözü sənsən.
Zarafatla yoxdur aram,
Ürəyimin sözü sənsən.

Xanım sev ki, sevilləsən,
Dünyamızın budur dadı.
Bir yazı var: - Bilməlisən,
Çox heyif ki, ömür azdı.

Sadalama günləri sən,
Göz açmamış gecə düşür.
Yox bilmərik nə sən, nə mən,
Bəxtə düşən necə düşər.

Hə deyirəm düşün bir az,
Amma bil ki, qəlbimdəsən.
Düşünməkdən ziyan olmaz,
Incimərəm yox da desən.

Gəncliyini vermə yelə,
Demirəm ki, divanə ol.
Sən hər şeyi bilə-bilə,
Hə deyimki... Uğurlu yol...

***1972***

## QƏLBİMİN AÇARI

Məni istəsən də, istəməsən də,
Qoymaram ürəyin qırıla gözəl.
Sən ki, yaşayırsan mənim sinəmdə,
Qoymaram o sevgi sarala gözəl.

Gərək düşməyəydin ağıza, dilə,
Bir güman gəzirəm əl vermir mənə.
Mən kifir, sən gözəl olsanda belə,
Demirəm sən hara, mən hara gülüm.

Qoy mənim gümanım ahuzar olsun,
Qoy məni sevməsin, sevgim, var olsun.
Lap dünya başıma xanım dar olsun,
Qoymaram üstünü qar ala gözəl.

Işdi incisəm də, xanım küs demə,
Əgər göynəməsəm sənin tüstünə.
Çıxart xəncərini atıl üstümə,
Səni sevən kəsi yarala gözəl.

Yuxuma girirsən hər axşam mənim,
Yerini bilməyir deyəsən yerim.
Bilirəm qılıncın itidir sənin,
Yox, məni çəkdirmə o dara gözəl.

Mənim geydiyim yol geri dönmədi,
Axı nə edim ki, sevgim sönmədi.
Bircə ümüdim var, o da səndədi -
Gəlib ümidimi, apara gözəl.

Deyirsən düz dolan, yolunu azma,
Deyirsən sözümü tərsinə yozma.
Adıma şeir də, məktub da yazma,
Axı nə yazmışam qarala gözəl.

Görünür dağ yolu hələ öndədir,
Eh sənə nə var ki, hər şey məndədir.
Qəlbimin açarı yalnız səndədir,
Belə zülüm etməz yar-yara gülüm.

***1972***

## QURU SƏSİM...

Işıqlı bir məhəbbətin,
Yarı mənəm, yarı sənsən.
Uçub gəlmiş səadətin,
Yarı mənəm, yarı sənsən.

Ümidlər dağlara uçub,
Günəş daşlara nur saçıb.
Bağçamızda güllər açıb,
Ağ-gül mənəm, sarı sənsən.

Gözlərimə yaş gəlibdi,
Sular daşıb daş gəlibdi.
Payız gedib, qış gəlibdi?
Torpağı mən, qarı sənsən.

Gözəllər boğçalar bükür,
Göylərdən nəmər tökülür.
Güllərin barı çəkilir...
Arı mən, arı sənsən.

Küləklər saçımı yolub,
Baxışın canımı alıb.
Heyvamız da kövrək olub,
Yarpağı mən, barı sənsən.

Hər yan al-yaşıl geyib...
Budaqlarda nar da dəyib,
Ağaclar başın əyib,
Harı mənəm, narı sənsən.

Qaranquşlar gül qoxuyur,
Xanımsa xalı toxuyur.
Kimlərsə nəğmə oxuyur...
Sözləri mən, tarı sənsən.

Qoyub gedən geri gəlməz?
A lal qaya, a dil bilməz.
Quru səsəm, quru nəfəs,
Ürəyimin varı sənsən.

***1972***

## SAYIRAM GÜNLƏRİ

Tənha qalmağından qorxuram xanım,
Məni çox bir uzaq səfər gözləyir.
Mənimlə gedəcək harayım-hayım,
Sayacam günləri, sayacam bir-bir.

Göynəyir içimdə, göynəyir acı,
Sənsiz nə gələcək başıma mənim?
Gedirəm səfərə nə edim axı?
Ürəyim yanımda qalacaq sənin...

Tənha qalmağından qorxuram gözəl,
Qorxuram quzğunlar yolunu kəsə.
Qorxuram odunu itirə göz, əl,
Çox şey deyəcəkdim, demirəm nəsə...

Bəlkə də bu səfər sınaq olacaq,
Həsrət nə olduğun duyacam gülüm.
Sənin gözlərində sənlə qalacam,
Ötən hər günümü sayacam, gülüm.

Həyat başdan-başa özü də sirdir,
Hələr yaşamayıb hər qalma-qalda.
Birini uzaq bir yola göndərir,
Birini yaşadır gözləri yolda.

Desəm ki, getmirəm, getməsəm olmur?
Bunu bacarmaram, yol üstəyəm mən.
Sənin hər baxışın gözümə doldur,
Yəqin ki, dualar diləyəcəksən.

Yəqin ki, hər axşam danışacaqsan,
Başının üstündə sən Allahına.
Yəqin ki, qəlbində dağ aşacaqsan,
Mələklər girəcək gülüm qoluna.

Tənha qalmağından qorxuram xanım,
Məni çox bir uzaq səfər gözləyir.
Mənimlə gedəcək harayım-hayım,
Sayacam günləri, sayacam bir-bir...

***1972***

## TƏKİ BU DÜNYADA...

Mən səni çağırıb yazıram gözəl,
Sənsiz ilhamım da çevrilər daşa.
Desən canını ver, hazıram gözəl,
Təki bu dünyada verək baş-başa.

Sənsiz mənim üçün nə gündüz, gecə,
Dünya mənim üçün bircə rəngdədir.
Sənə ürək açım bilmirəm necə,
Adını çəkəndə əsirəm tir-tir.

Sənə qələmimlə heykəl yonuram,
Meydanı işıqdan, çöhrəsi nurdan.
Səni bu dünyanın şahı sanıram,
De aşıq bircə an, doyarmı yardan?

Eh daha nə deyim, bilirsən özün,
Yaxanı yaxamdan çəkmə uzağa.
Əgər sən olmasan quruyar sözüm,
Çəkilər qar basmış uzaq bir dağa.

Xanım soruşma ki, nə qalıb daha?
Bu dünya mənimçün bir əfsanədi.
Yolum səninlədir mənim sabaha,
Soruşma saydığım nağıldı, nədi?

Səsimə səs verib ləpələnməsən,
Bir saman çöpünə ümidim qalar.
Uzaqdan-uzağa cilvələnməsən,
Şeytan aramızda bir tonqal qalar?..

Şeytan neyləsin ki, biz, biz olmasaq,
O da bu həyatda girəvə gəzir.
Əgər bu dünyada körpü salmasaq,
Daha bu taleyin qiyməti nədir?

Mən səni çağırıb yazıram gözəl,
Sənsiz ilhamımda çevrilər daşa.
Desən canını ver, hazıram gözəl,
Təki bu dünyada verək baş-başa.

***1972***

## DÜNYAYA YENİDƏN GƏLƏCƏKSİNİZ

Yuxuda gördüm ki, açır lalələr,
Gördüm ki, düzlərə çağırır bizi.
Gördüm üstümüzə qaçır lalələr,
Tutub, sığallasın əllərimizi.

Lalələr çəmənə bəzəkdir, bəzək,
Dünyanı seyr edən gözləri də var.
Gəl gedək əzizim, qoşulaq gəzək,
Getməsək... İnciyən, küsəndi onlar.

Sevirəm bağrında qara xalını,
Sevirəm qızıla dönmüş düzləri.
Gəlin ey lalələr alan canımı,
Gəlin bir yaşayaq ağ gündüzləri.

Gəlirik, lalələr yollara baxın,
Gəlirik əl-ələ, gəlirik yüyrək.
Gəlirik yatmayın, yollara çıxın,
Sez ey təbiətə atılan fişəng.

Biz sevdik, siz sevdiz, sevindi nələr...
Deyirsiz ömrünüz bir az az olur?
Yox fikir çəkməyin siz ey lalələr,
Adınız adlarla yanaşı qalır.

Hə qədər, nə qədər işıqlısız siz,
Işığın ömürü işıq qədərdi.
Dünyadan da çoxdur sizin ömrünüz,
Sizin gözünüzdə bu nə kədərdi?

Hər bahar dönəndə dönəsisiz siz,
Köçüb gedəsiyik biz bu dünyadan.
Hə qədər xatirə bölüşəcəksiz,
Bizim adımızla ağardıqca dan.

Insanın ömrü var, bircə qarışdı,
Bu dünya durduqca duracaqsınız.
Yenə sizi gördüm bağrım alışdı,
Bahara toy-düyün quracaqsınız.

***1972***

## XATİRƏLƏR TOPLUSUNDA

Bir xatirə toplusunu gəl vərəqləyək,
Gör neçə yol görmüşük, ayrılmışıq biz.
Gəl səni də, gəl məni də bir yol dinləyək,
Xatirələr danışacaq, əriyəcək buz.

Xatirələr düşünürəm ürəyimdə mən,
Eh, sənin də demədiyin günlərin dən-dən.
Məni xatirənin yarısı etsən...
Sənin xatirənin yarısı da mən.

Gəl xatirə toplusunla dincələk bir az,
Tərəzinin gözlərində çəkək günləri.
Sən bizimlə söhbət edən hər qayıdan yaz,
Düzüm sənin ayağına vəhşi gülləri.

Xatirələr toplusunda top-top oynayaq,
Bir nöqtədən bir nöqtəyə çatan kimi.
Səndən, məndən uzaq düşmüş anları sayaq,
Bir gecənin sübh üzündə yatana kimi.

Hə etmişik xırdalayaq köçsün yaddaşa,
Yaddan çıxan yada qalar?... Ya da heç kimə.
Istəyirsən ələməyək gəl dönək daşa...
Heç bilmirəm mən özüm də nə deyirəm nə...

Gəl xatirə toplusunu qaldıraq içək,
Görək kimə nə vermişik, bizə nə qalıb.
Bir oyuncaq qatarını sökən uşaq tək.
Gəl sökülək, baxaq görək yüzə nə qalıb?

Duymamışdım xatirənin əzizliyini,
Sən heç demə xatirələr canlı kitabmış.
Gəl qoxuyaq o günlərin gül-çiçəyini,
Görən onlar bizdən gizli niyə yatıbmış?

Ərimişik alovların caynağında biz,
Xatirələr içimizdə yığın-yığındı.
Bizi gendən seyr eləsin əməllərimiz,
Gülüm, bizim günlərimiz naxış-naxışdı.

***1972***

## SÖZÜM VAR

Sənə deyiləsi gülüm, sözüm var,
Izin ver səninlə danışa bilim.
Qoy bizi dinləsin o qədim çinar,
Sinəmdə od tutub alışa bilim.

Sözümü astaca deyəcəyəm mən,
Başqa yolum yoxdur axı nə edək?
Yox, sənin qarşında öləcəyəm mən,
Çoxları adıma dəli deyəcək.

Sözüm var, çəkisi qayadan ağır,
Sözüm var, bəlkə də dəryadan dərin.
Elə bil göylərdən iri qar yağır,
Təbiət gözümə doldurur mənim.

Sözüm var, kükrəyən selə bənzəyir,
Geciksən dünyamı qoparacaqdır.
Bəlkə də, bəlkə də külə bənzəyir,
Küləklər sovurub aparacaqdır.

Bəlkə də qəlbində dəfn edəcəksən,
Gizlicə didəcək səni sözlərim.
Hə bilim bəlkə də nə deyəcəksən,
Orbitdən çıxacaq mənim gözlərim.

Sözüm var, çarmıxa çəkib qəlbimi,
Qara qüvvələrim tutub dilindən?
Söndürə bilmirəm alovu, kini,
Söndürə bilmirəm vulkanları mən.

Burdaca deyərəm sözümü sənə,
Eşidib car çəkər yanın-yörəcən.
Söz desəm, mələklər daş atar mənə,
Alovlu gedərsən burdan evəcən.

Sənə deyiləsi gülüm, sözüm var,
Izin ver səninlə danışa bilim.
Qoy bizi dinləsin o qədim çinar,
Sinəmdə od tutub alışa bilim.

***1972***

## BİLƏN BİLƏCƏK

Mənim xoşladığım o geyimdə sən,
Uzadıb əlini kəsmisən yolu.
Gözlərim önündə heykəlləşmisən,
Hə sağı görürəm, nə də ki, solu.

Ötən günlərimə məlhəm olursan,
Sənin əl verməyin yaşadır məni.
Bir şair qəlbinə ilham olursan,
De necə sevməyim, sevməyim səni.

Beləmi sevilir görəsən hamı?
Sonu görünməyən məhəbbət budur?
Allahım göndərir mənə ilhamı,
Allahım özü də qoruyasıdır.

Açıb ürəyimin qapılarını,
Hopmusan qanıma zərrə-zərrə sən.
Əridib dağların zirvə qarını,
Elə bil Günəşdən qopup gəlmisən.

Yağır yağış kimi ağ baxışların,
Maqnit dalğaların titrədir məni.
Bir dəstə gülüsən mənə baharın,
Bağrıma basıram əzizim səni.

Bu sevgi çoxuna olmayır qismət,
Bu sevgi bizimdir əzizim, bizim.
Vardırmı dünyada cəhənnəm, cənnət?
Hə var bu dünyada vardır əzizim.

Məni qınamısan sevən, sevilən,
Dünyada hər işə şahididir bu yol.
Bilməyən bilməyir... Biləcək bilən,
Burada bitə bilməz nə tikan, nə kol.

Mənim xoşladığım o geyimdə sən,
Uzadıb əlini kəsmisən yolu.
Gözlərim önündə heykəlləşmisən,
Hə sağı görürəm, nə də ki, solu.

***1972***

## KİM DEYİR Kİ?

Bir məhəbbət yaşayardı hər bir sözündə,
Bir məhəbbət parçasıydı o cığır, o iz.
Ulduzların altındadır evlərimiz də,
Planetlər arasında qalmamışıq biz!

Güc alardıq sevgimizin budaqlarından,
Güc verərdik sevgimizin köklərinə biz.
Su içərdin səadətin bulaqlarından,
Qayalara söykənərdi məhəbbətimiz.

Al günəşin şəfəqinə işıq deyərdik,
Yağışların nəğməsinə şərqilərimiz.
Hər yetimin arxasınca dua dilərdik,
Eh... Dualar dilimizdə yol gəlmişik biz.

Eşqimizin gecəsində azanda hərdən,
Hişanımız acaqların gövdəsi olub.
Arxamızca daş atardı iblislər şərdən,
Sanardıq ki, səadəti ialanlar çalıb.

Söz edirsən qanmazların sözlərini sən,
Ürəyimi parçalayır qara gümanlar.
Deşməyirsən belələrin gözlərini sən,
Şirin nağıl danışardı bizi duyanlar.

Bu tilsimlər mənə çatmır, səni əridir,
Yem oluruq dəstə-dəstə qarışqalara.
Dağ dayaqlı bir insana inamın itir,
Gecə qara, gündüz qara, ümid də qara.

Heyif sənin inamına min kərə heyif,
Düşündüyün heç ölçüyə-biçiyə sığmır.
Yox deyəsən budaqları küləklər əyib,
Güc çatmayır qayalara ağırdı, ağır.

Bir məhəbbət yaşayardı hər bir sözündə,
Bir məhəbbət parçasıydı o cığır, o iz.
Ulduzların altındadır evlərimiz də,
Planetlər arasında qalmamışıq biz!

***1972***

## SEVƏHLƏRƏ BU DA AZDIR

Həqiqətin gözlərinə,
Xoşlayıram düz baxmağı.
Sən «yox» dedin gülüm mənə,
Ürək evim yanır axı...

Ürəyimdə şimşək bitib:
Bir gözəlin kəlməsindən,
Məni adda adam itib,
Adamların cərgəsində.

Qalmaqala inanmıram,
Hissim məni çəkir dara.
Köz basmısan, ağlar yaram,
Eh... Olmuşam para-para.

Bəlkə məni qara basır,
Bəlkə heç «yox« deməmisən,
Əllər məni gora basır,
Axı gözəl, ölməmişəm.

Ölüm... Yoxsa bir də sorum?
Belə yuxu görər sevən...
Dizə kimi yağıb qarım,
Bir yumruğa dönmüşəm mən.

Yox bu gecə, gecə deyil,
Səhəri diri açmışam.
Bu qəfil «yox» necə deyil...
Gərək gedib yandıram şam.

Bəlkə «yox»u şeytan deyib,
Hecə bilim, hardan bilim?
Bəlkə dünya məni əyib?
Uçurumlara gedir yolum?

Bircə əlac yazmağadır,
Oxumağa qalır güman.
Sevənlərə bu da azdır,
Çək yükünü indi duman!

***1972***

## GÖRÜŞÜM OLACAQ

Görüşüm olacaq bu gün səninlə,
Əllərim əllərdən yapışacaqdır.
Məhəbbət eşqinə sən məni dinlə,
Axı bu ürəyim oddur, ocaqdır...

Kitablara sızmış məqamlar bir-bir,
Bir daha, bir daha vərəqlənəcək.
Görüşsüz məhəbbət bir əfsanədir,
Yox, yox ürəyində doğub bitəcək...

Ağ gün gətirəcək mələklər bizə,
Bir toy libasında geyindirəcək.
Mənim elçilərim gələcək sizə?
Çətindir bu sözü öncədən demək...

Görüşdür sevginin dadı, qaymağı,
Görüşdür qəlbimi qəlbə bağlayan.
Görüşdür doğulan eşqin dayağı,
Görüşdür ocaqda gözü saxlayan.

Açılar görüşdə bağlı nə varsa,
Çəkilər gözlərdən duman, çən gülüm.
Səni də, məni də mələk aparsa,
Verəcək həyatı bizə tən gülüm.

Görüşə çıxacaq duyğularımız,
Çıxacaq bu gündən sabaha qədər.
Əriyib gedəcək soyuq qarımız,
Əriyib gedəcək bir ovuc kədər.

Əriyib gedəcək, bəlkə də yox, yox,
Soyuq qar yağacaq qarlı günlərə.
Yox gülüm, görüşə sən silaha çıx,
«Yox« söz əvəzinz məni güllələ.

Görüşüm olacaq bu gün səninlə,
Əllərim əllərdən yapışacaqdır.
Məhəbbət eşqinə gəl məni dinlə,
Axı bu ürəyim oddur, ocaqdır...

***1972***

## MƏNİM AĞ YUXUM...

Döyərək qapımı öz əlinlə sən,
Mənə ağ yataqda nə diləyirdin?
Bəyaz bir sumkanı asıb çiynindən,
Bəyaz bir gecəni vərəqləyirdin.

Mən də danışardım ağ sevgimizdən,
Ağappaq yuxunun dərinliyində.
Qorxurdum ayılam yox olasan sən,
Bir səhər mehinin sərinliyində.

Aylı bir gecənin ağ qanadları,
Tutmuşdu qolumdan... Ağ nələr... Nələr...
Yağmışdı göylərin ağappaq qarı,
Uçurdu... Uçurdu ağ kəpənəklər.

Qızaran üfüqlər ağ don geyirdi,
Ağaran sabaha az qalırdı, az.
Mələklər ağappaq şərqi deyirdi,
Deyirdi... Deyirdi şair durma yaz.

Tanrımı göndərdi yanıma səni?
Omu xəbər verdi ağ sabahımdan?
Sanki möcüzələr udmuşdu məni,
Evin dörd yanında şam yanırdı şam.

Yuxuda Allaha yalvarırdım ki,
Bu ağ möcüzəni çin eləsin çin.
Ağ bir gələcəyə gedirdim sanki,
Ağ qara bürünmüş dünyam isinsin.

Ağ qara baxırdıq, ağ körpülərdən,
Qara kölgələr də ağappaq idi.
Dünyanın rəngi də olmuşdu dən-dən,
Deyirdim bəlkə də bu ağ səhnədi!..

Döyərək qapımı öz əlinlə sən,
Mənə ağ yataqda nə diləyirdin?
Bəyaz bir sumkanı asıb çiynindən,
Bəyaz bir gecəni vərəqləyirdin...

***1972***

## GÜNDƏLİK YAZAQ...

Davalar etmişəm yolunda sənin,
Məhəbbət davası, sevgi davası.
Sözlərim olubdur dayağım mənim,
Istəyim olubdur qışın sobası.

Davalar etmişəm, qan çıxıb dizə,
Yox, yox ürəyimdə vuruşmuşam mən.
Demişəm o xanım məni sezərsə...
Söz de bircə kəlmə nə durmusan sən?

Əlimə, qoluma zor atmamışam,
Döyən, düyülənin məntiq olubdur.
Ay olub, il olub mən yatmamışam,
Əsəb xəstəliyi nişan alıbdır.

Mən deyən olarsa keçər əsəb də,
Mən deyən olmasa, mən, mən deyiləm.
Hələ yaşayıram qulağı səsdə,
Iynə işığına gələn deyiləm.

Çox olub üstünə ox atanların,
Onlara tuş gələn sinəm olubdur.
Düzlərdə çiçəyin, dağlarda qarın,
Şirin öpüşlərin mənim olubdur.

Məni kimlərəsə, tay eləyiblər,
Yox, yox... Bir nöqtədə vurub qəlbimiz.
Bizi dağ çayında yuyub səriblər,
Yaşıl çəmən kimi göyərmişik biz.

Ürəyim bir dağdır, qayaları sən,
Elə qayalar da susan olubdur...
Ümüdə bənzəyən bir işığa mən...
Içimdə bir odun közü qalıbdır.

Gülüm böhtanlardan qorxan olmusan,
Tanrı, bu gözələ xətər gəlməsin.
Dərdini içində boğan olmusan,
Boğar varlığımı boğulan səsin.

***1972***

## SƏSİM

Olur... Dəyişsə də bu səsim hərdən,
Səslər bolluğunda tanınmağı var.
Lap elə dönsəm də uzaq səfərdən,
Telefon səsindən o duyar, tanar...

Bəlkə də səsimin rəngini bilir,
Hopub ürəyinə əvvəli sonu.
Bəlkə də səsimdə ruhu dincəlir,
Bəlkə də həyəcan bürüyür onu.

Yox, onu çaşdırmaz dağ yoxuşları,
Ocaqlar içində o bir ocaqdı.
Yağsa da üstünə səs yağışları,
Sevdiyi o səsi tanıyacaqdı.

O səsi özünə sehirləyibdi,
O səsi eşitmir, o səsi görür.
O səsə o qədər salam veribdi,
Qab-qaşıq yuyanda bax o səs gəlir.

Onun döyüntüsü doğmadır ona,
Onun işığında bir qəlb rəqs edər.
Uzaqda olsa da o yana-yana,
Onu bircə sözüm söndürə bilər.

Səslər çoxluğunda yaşayır bir səs,
Onun küləyi də, mehi də məlum.
Bu səsə nəfəs ver, əzizim nəfəs,
Mən də bu dünyanın sakini olum.

Gözləyir o səsi yatana kimi,
Gözləyir o səsin möcüzəsini.
O səsi səsinə çatana kimi,
Bəlkə də unudur doğma səsini.

Olur... Dəyişsə də bu səsim hərdən,
Səslər bolluğunda tanınmağı var.
Lap elə dönsəm də uzaq səfərdən,
Telefon səsindən o duyar, tanar.

***1972***

## ZƏNG

Sənə zəng edirəm həftədə bir gün,
Bəzən də zənglərin sayı çox olur.
Sənə zəng edirəm, dəli, didərgin,
Sənə zəng edirəm, dərdim yox olur.

Yox olur, qəlbimdə nigarançılıq,
Yox olur üstümə yağan yağışlar.
Bəlkə də demirəm sözümü açaq,
Deyirəm zənglərim yəqin bağışlar.

Bəzən də qorxuram zəng vurmağımdan,
Deyirəm suala tutarlar səni.
Qorxuram kiminsə bərk qorxmağından,
Tək qoymaz mələklər səni və məni.

Bağışla əzizim axı nə edim,
Telefona yaxın qoymurlar səni.
Qaldırsa dəstəyi ona nə deyim,
Çırpır divarlara intizar məni.

Əlini əlimdə ovur isidir,
Hə yaxşı zənglər var yoxsa ölərdik.
Zənglər ürəklərin döyünməsidir,
Yoxsa cəhənnəmdə nağıl deyərdik.

Zəngi kəşf edənlər, eşq olsun sizə,
Yoxsa ağ işıqlar yanıb sönərdi.
Göyərçin gələrdi yəqin ki, bizə,
Onda da ürəyimiz niyə dönərdi?

Məktublar daşayan göyərçin hanı?
Indi telefona deyirik sözü.
Hecə yaşayıram indi hər anı,
Bircə Allah biri, birdə ki, özüm.

Sənə zəng edirəm həftədə bir gün,
Bəzən də zənglərin sayı çox olur.
Sənə zəng edirəm dəli, didərgin,
Sənə zəng edirəm dərdim yox olur.

***1972***

## İSTƏDİLƏR

Salmaq istədilər səni gözümdən,
Almaq istədilər əlimdən nuru.
Xanım, dağ çəkdilər sənə gözündən,
Yaşadıq illəri yenə dum-duru.

Mənim də ürəyim qovruldu yandı,
Sanki duzladılar qanlı yaramı.
Çoxları sevgimə dedi gümandı,
Fəqət duymadılar duyduqlarımı.

Hərə bir söz dedi, əridi daşlar,
Qisaslı baxışlar bizi çalmadı.
Daş kimi tikildi, söküldü başlar,
O iri dişlərdən əsər qalmadı.

Qəlbi qaralara nə deyim görən,
Gen dursun sevgimin işıqlarından.
Bizim dalımızca it kimi hürən,
Deyirəm ən böyük nadandır, nadan.

Bunu sən də duydun, mən də anladım,
Balığı dəryaya buraxdıq gülüm.
Ləkə götürmədi ləkəsiz adın,
Ay kimi buluddan boylandı könlüm.

Kiminin qəlbində zəlzələ qopdu,
Haraya çatmadı dil bilən itlər.
Kiminin gözünə qaranlıq hopdu,
Hə işıq gördülər, nə gün gördülər.

Salmaq istədilər səni gözümdən,
Gözdən düşə-düşə bu canavarlar.
Almaq istədilər məni özümdən,
Bağlandı tayba-tay açıq qapılar.

Salmaq istədilər səni gözümdən,
Almaq istədilər əlimdən nuru,
Xanım dağ çəkdilər sənə gözündən,
Yaşadıq illəri yenə dum-duru.

***1972***

## AYIN SƏKKİZ GÜNÜ

Ayın səkkiz günü görmürəm səni,
Ayın səkkiz günü səkkiz il olur.
Yollar üfüqlərə aparır məni,
Eh, tapa bilməyirəm buludlar dolur.

Üstümə bir yağış yağmaq istəyir,
Söndürsün qəlbimdə üsyankarlığı.
Şeytanlar pusquda boğmaq istəyir,
Əiriyir, durulur ürəyin yağı.

Qəlbimə min cürə fikirlər gəlir,
Yox, yox qısqanmıram səni heç kimə.
Vüsalım gözünün yaşını silir,
Həsrətim içimdə dönür heykələ.

Həsrətin min cürə oyunu varmış,
Gah quzuya dönür, gah da pələngə.
Sən demə sevənin gülü solarmış,
Toxumaq olmazmış onu çələngə.

Demirəm ki, səni divlər aparır,
Qaranlıq dünyanın qaranlığına.
Sən yoxsan, ağ qoçum şivən qoparır,
Çırpır buynuzunu toranlığıma.

Ağ qoç, qara qoçla çıxır döyüşə,
Baxıram ağ qoçun buynuzundayam.
Bircə gün qalıbdır, gülüm, görüşə,
Sanki uzaqda yox lap yanındayam.

Ovudanım olur bax o mələklər,
Mənə su verirlər əridib qarı.
Sizə yalvarıram, ey ağ mələklər,
Onu küləklərdən qoruyun barı.

Ayın səkkiz günü görmürəm səni,
Ayın səkkiz günü səkkiz il olur.
Yollar üfüqlərə aparır məni,
Eh, tapa bilmirəm buludlar dolur.

***1972***

## HƏR DÜŞƏN GECƏNİN...

Giley-güzarlısan həmişə ondan,
Deyirsən tez gedir, gec qayıdır o.
Bacarır çıxmağı yüz min oyundan,
Deyirsən söz batmır, sal qayadır o.

Deyirsən ümid də qalmayır ona,
Üzünün, gözünün yeri dəyişir.
Deyirsən düz söhbət çatmayır ona,
Əyri ola-ola düzlə çəkişir.

Suala tuturam sənin xətrinə,
Xanım, sözlərindən od-alov yağır.
Deyirsən - «Od vurur sənsiz o mənə,
Sən gəldin özünü aparır ağır».

Sən gəldin dəyişir tamam əhvalı,
Tanıya bilmirsən heç odurmu bu?
Dəyişir görkəmi, dəyişir halı,
Demə sənciyəzmiş onun ovsunu.

Bəlkə də şeytandan qabaq doğulub,
Şeytanlar o kəsə tor ata bilmir.
Bəlkə də torpağından daşından yoğrulub,
Gecəni sübhədək eh, yata bilmir.

Taleyin əlindən çıxmayır başım,
Səni bu bəlaya niyə tuş etdi?
Yəqin ki, əzizim ağırmış daşım,
Mən bahar çağırdım, osa qış etdi.

Dedin əgər getsən onu da apar,
Qoy yesin içini məndən uzaqda.
Dedin, aparmasan qar yağacaq qar,
Mən də donasıyam qarda, sızaqda.

Bircə istəyim var, o da düyünlü,
Tutub yaxasını ağlayar zar-zar.
Danışma ey xanım, ağrıdı, ünlü,
Hər düşən gecənin bir sabahı var...

***1972***

## YOX, ƏZİZİM...

Belə getsə bu məhəbbət,
Dünyasını dəyişəcək.
Belə getsə bu səadət,
Bezərək itkin düşəcək.

Səni mən yandıracaq,
Bu sevgimiz gizli qalsa.
Bəlkə bizdən yan duracaq,
Utancaqlıq qovulmasa.

Borclu borcludan utanar,
Seviriksə bu borc deyil.
Vallah bizi ellər qınar,
Illər üstə hey gəlir il.

Belə getsə su da, gün də,
Sevgiyə işıq tutacaq?
Lalələrin gözlərində,
Yaşdan heykəl qoyulacaq...

Belə getsə ürəklərdə,
Zəlzələlər kükrəyəcək.
Qəm karvanı pərdə-pərdə,
Bəmdən-zilə yüksələcək.

Belə getsə... Belə getsə...
Ov ovlacoq kədərə biz.
Belə getsə... Belə getsə...
Daş olacaq hədərə biz.

Açılmasa bu ürəklər,
Daş olacaq sevgimiz də.
Gülür bizə eh... Küləklər...
Işıq vardır sevgimizdə?

Hə etməli? kim olmalı?
Sevgi verin acam... Acam...
Yoz, əzizim bir mənalı,
Bu sevgidən doymayacam!..

***1972***

## BİRİ SƏNSƏN, BİRİ MƏN

Bir almanın iki üzü,
Biri sənsən, biri mən.
Sevənlərin iki gözü,
Biri sənsən, biri mən.

Qüssə-qəmi yarın, yarın!
Bağrım olub tarım-tarım.
Bir-birinə qismət yarın,
Biri sənsən, biri mən.

Ildırımlar şivən salıb,
Başım üstün bulud alıb.
Iki sual bağlı qalıb,
Biri sənsən, biri mən.

Aç qəlbini qurban olum...
Tərsə düşüb sağım, solum.
Ürəklərə gedən yolun,
Biri sənsən, biri mən.

Sevgim dərin, eşqim dərin,
Iki dürün, iki zərin.
Bir taleyin, iki ömrün,
Biri sənsən, biri mən.

Əgər iki ulduz küssə,
Bulud gəlsə, külək əssə.
Göydən iki damla düşsə,
Biri sənsən, biri mən.

Qızıl-qızıla qarışsa,
Yer kül olsa, göy alışsa.
Göyərçinlər qoşalaşsa,
Biri sənsən, biri mən.

Səadət gəlib aparsa,
Sevinc, sevinci taparsa.
Gözü yola qalan varsa,
Biri sənsən, bir mən.

***1972***

## ÜN EDƏ BİLMİRƏM

Ün edə bilmirəm qəmimi Allah,
Sevmək başdan-başa tikanlı yolmuş.
Tufanlar batırıb gəmimi Allah,
Dalğınclar əlimdən bir təhər olmuş...

Dünyaya sığmayan nə bilim nələr,
Bir əlcə ürəyə sığarmış demə.
Biir fəsil olarmış demə fəsillər,
Göylərdən qar, yağış yağarmış demə.

Insan özü boyda qaya olarmış,
Küləklər çırpılıb dönərmiş geri.
Bir gün açan güllər bir gün solramış,
Quru budaqlarda qalarmış yeri.

Görünməz olarmış Günəş də, Ay da,
Görünməz olarmış yaşıl yamaclar.
Sən demə səssizcə axarmış çay da,
Sən demə batarmış yasa ağaclar.

Sən demə təbiət sevəni sevir,
Ürək dustağına dönərsə sevgi.
Mənim sevdiyimi heç o da bilmir,
Eh... Gizli məhəbbət fəlakətdi ki...

Süpürgə dəyməyən küncdə, tavanda,
Gəlib hörümçəklər tor toxuyarmsış.
Həmişə çırta-çırt yanan sobanda,
Alov əvəzinə kül oxuyarmış.

Gözümü yandırır baxışı onun,
Baxanda sanıram ildırım çaxır.
Isladır saçımı yağışı onun,
Mənimçin danışmaq ağırdır, ağır.

Ün edə bilmirəm qəmimi Allah,
Sevmək başdan-başa tikanlı yolmuş.
Tufanlar batırıb gəmimi Allah,
Dalğınclar əlimdən bir təhər olmuş...

***1972***

## QISQANC OLMUŞAM

Daşa çırpıb məni fikir,
Yaman qısqanc olmuram mən...
Mən demirəm, çoxu deyir,
Yaman qısqanc olmuram mən...

Itibdir ağzımın dadı,
Mən nə edim, qanımdadı.
Gərək çəkilməsin adın,
Yaman qısqanc olmuram mən...

Sənə zənglər gələn zaman,
Pəncərəmi döyür hicran.
Başım üstün alır duman...
Yaman qısqanc olmuram mən...

Belə bilməzdim özümü,
Hər vaxt gözlərdim dözümü.
Erkən deyirəm sözümü,
Yaman qısqanc olmuram mən...

Hərdən küsüb barışanda,
Içimdə qoç dalaşanda,
Kimsə səndən danışanda,
Yaman qısqanc olmuram mən...

Biri məni tərifləyir,
Səni un kimi əliyir...
Elə söhbətlər eyləyir,
Yaman qısqanc olmuram mən...

Eh, onunla gələndə sən,
Ürəyimi böləndə sən.
Yerli-yersiz güləndə sən,
Yaman qısqanc olmuram mən...

Mənim üçün düşən yazsan,
Kim deyir ki, soyuq buzsan?
Bilirəm ki, günahsızsan...
Yaman qısqanc olmuram mən...

***1972***

## NƏ BİLİM, BƏLKƏ DƏ...

Itirib gəzirəm özümü hərdən,
Elə bil itirsən gözümdə sən də.
Hərdən düşünürəm: - Bəlkə yoxam mən?
Əriyib getmişəm işıq selində...

Yox, yox bu dünyada hələ varam mən,
Hələ çox düyünlər açılasıdır.
Sənə yalvarıram getmə gözümdən,
Hələ çox gümanlar uçulasıdır.

Rənglər çoxluğunda yoxa çıxırsan,
Rənglər çoxluğunda qarışıram mən...
Baxırsan, bilmirəm hardan baxırsan,
Bəlkə də ruhların yoldaşısan sən?

Sən yoldaş olmazsan ruhlara mənsiz,
Duymuşam taleyin qismətini mən.
Otur komanızda səssiz-səmirsiz,
Xanım-qoruyacam ismətini mən.

Yuxular, xəyallar döyür qapımı,
Hissimin, duyğumun sonu görünmür.
Sanıram bəlkə də mələkdir hamı,
Birini görürəm, onu görünmür...

Bəlkə mələklərdir bizi qoruyan,
Hə bilim, sən düşün, bəlkə də yardı.
Səni, məni qədər olmayıb duyan.
Yoxsa sevgimiz də qəmə batardı.

Məhəbbət özü də yuxudu bəlkə,
Alıb qanadına uçurdur bizi.
Kimsə var... Kölgədi, bir qara kölgə...
Kimsə tikir bizi, uçurur bizi...

Hə bilim? sevgimiz nəçidir, nədir?
Hakimdir... Sonsuzdur onu bilirəm.
Dünya dediyimiz bir fəsanədir...
Sevgilim, yox getmə, durub gəlirəm...

***1972***

## BULANACAM, DURULACAM

Dartılmışam sim kimi mən,
Bir az çəksən qırılacam.
Kim deyir ki, kim kimi mən,
Bulanacam, durulacam?

Kim deyir ki, quru tacam,
Məskən salıb canım da kin?
Kim deyir ki, oyuncağam,
Oyuncaqdır mənim sevgim?

Ağ edə bilmirəm ağı,
Qara məni nişan alıb.
Cadugar deyilsən axı...
Kimlər məni dərdə salıb?

Üfüqdən o yanda vüsal,
Üfüqdən bu yanda ümid.
Qəm notunu çal aşıq, çal,
Qoy yaşasın qoşa ümid.

Dəymə-düşər olubdu o,
Xanım belə olmalıdı?
Götür-qoyda qalıbdı o,
Hər kəs payın almalıdı.

Mən çox deyib, çox yazıram,
Yetmir kəlmələrim ona.
Bəlkə də mən yol azıram,
Görə-görə, qana-qana.

Qorxuram ki, ötə qatar,
Yolda qala gözlərimiz.
Onda mənim sonum çatar,
Daşa dəyər sözlərimiz.

Dartılmışam sim kimi mən,
Bir az çəksən qırılacam.
Kim deyir ki, kim kimi mən,
Bulanacam, durulacam?

***1972***

## BƏLKƏ DƏ... BƏLKƏ DƏ...

Məhəbbət deyilmiş bəlkə də sevgi,
Bəlkə də şişirdən mən olmuşam mən,
Bəzənir, daranır kölgədə sevgi,
Mənsə od alıram işıq selindən.

Axı belə olmaz, belə yaramaz,
Sevməsə nə edə bilərəm görən?
Kövrək olmalısan əzizim bir az,
Tanrıya xoş getməz üz çevirsən sən.

Yəqin aldadıbmış məni gözlərim,
Axı gözlərimlə düşmən deyiləm?!..
Alışıb yanardı sənin gözlərin,
Alışıb yanardım mən birəm-birəm...

Kimə satılmısan? Kimi satmısan?
Əzizim, bəlkə də yanılıram mən.
Onu bilirəm ki, dərin yatmısan,
Qarışıb balınca saçların dən-dən.

Mənim ünvanıma söz deməlisən,
Ya elə, ya belə, qərar sənindi.
Oradan, buradan eşidirəm mən,
Hələ də bilmirəm, fikrin nədi.

Səni bu yuxudan oyatmaq çətin,
Dəli bir küləyə ehtiyacım var.
Mən çəkə bilmirəm, dostlar siz çəkin,
Məni nə gözləyir? - Ya qış, ya bahar?...

Çinar kölgəsində vədə vermisən,
Bizim çinar boyda şahidimiz var.
Bu gün məhəbbətsiz dolanıram mən?
Düşün nə demişdin?.. Sönər işıqlar...

Məhəbbət deyilmiş bəlkə də sevgi,
Bəlkə də şişirdən mən olmuşam mən,
Bəzənir, daranır kölgədə sevgi,
Mənsə od alıram işıq selindən.

***1972***

## SEVGİ YOLU

Ha çalışdım oxumağa,
Ürəyini oxumadım.
Saldın məni daşa-dağa,
Mən bir çiçək qoxumadım.

Gözü gülər, gözü yaşar.
Hara baxdım sən ordasan,
Pişvazına çıxıb bahar,
Sən basılmaz bir ordusan.

Apardı intizar məni,
Küçənizdə qanad çaldım.
Pəncərədə gördüm səni,
Küçənizdə bitdi adım.

Dedim keçər bu sızıltım,
Dərin xəyallara daldım.
Şərqi dedim eh sözaltı,
Gülüm sənsə anlamadın.

Bağrım başı ocaq oldu,
Dediyini bildinmi sən?
Eh... Ürəyim yarpaq oldu,
Əsdi sənin küləyindən.

Daş istədin, daş qopardım,
Ulduz dedin, ulduz verdim.
Mərc elədik... Mən apardım,
Tüğyan etdi sənin dərdin.

Uddum səni biləsən ki,
Qayalardan dayağın var.

Gərək gülüm, güləsən ki...
Mən olmayım quru divar.

Sıxdım səni öz bağrıma,
Çöhrəmiz qızardı, soldu.
Daha keçib sən ağlama,
Yollarımız uzun oldu...

***1972***

## MƏN O QIZIN AŞİQİYƏM

O qız mənə uzaqsa da...
Mən o qızın aşiqiyəm.
Ovulsa da, qovrulsa da...
Mən o qızın aşiqiyəm.

O, nəğməmdi, nağılımdı,
O, gül açmış gül bağımdı.
Lalə gözlü baharmıdı...
Mən o qızın aşiqiyəm.

Gülüm məni sevməsə də,
Ağlamasa, gülməsə də.
Öz qədrini bilməsə də...
Mən o qızı aşiqiyəm.

Vallah mənə agah olub,
Sevgim məyər günah olub?
Bəs nə üçün rəngim solub?..
Mən o qızın aşiqiyəm.

Gecə-gündüz sayın, sayın...
Başqasından danışmayın.
Bu dünyada odur payım...
Mən o qızın aşiqiyəm.

Çək sınağa, sına məni,
Salma, gülüm qana məni.
Dönük çıxsam qına məni...
Mən o qızı aşiqiyəm.

Sən varsansa, mən də varam,
Yar demişəm, yara yaram.
Ey gül üzlüm, ciyərparam...
Mən o qızı aşiqiyəm.

Bircəsisən sən aləmin,
Həğməsisən şəlalənin.
Ey insanlar şərqi deyin...
Mən o qızı aşiqiyəm.

***1972***

## ÜMİD

Qorxurdun bir yerdə görərlər bizi,
Qorxurdun taleyin acı üzündən...
Tez-tez dəyişərdin cığırı, izi,
Bəlkə də içində qovrulurdun sən.

Sənin budağından su içmişəm mən,
Ağaclar Allaha əl qaldırıbdır.
Gülüm, nə olub ki, tir-tir əsirsən?
Görəsən gözlərin niyə dolubdur?

Səni bu görüşə mən çağırmışam,
Qəlbimi qırmağa gücün çatırmı?
Sən elə bilirdin soyuq bir daşam,
Daşlara baş qoyub sevgim yatarmı.

Sevgi tarixi vərəqləyərdik,
Çox günə gücümüz çatmazdı bizim.

Hərdən də baş-başa hey dərdləşərdik,
Külək də əsərdi həzindən həzin.

Görünməz olsa da bizim səadət,
Gözlər danışardı, gözlər dolardı.
Bizi görüşlərə səsləyən niyyət,
Yenə də, yenə də bağlı qalardı.

O sözü deməyə biz utanardıq,
O sözü deməyə gəlsək də sən, mən.
Heç lazım olmayan mövzu tapardıq,
Bir də baxardıq ki, yoxuq mən və sən...

Əzizim, şirindi sevginin dadı,
O bizə yaxındı, bax bizik uzaq...
Göyərib içimdə birinin adı,
Göyərib, nə vaxtsa gül də açacaq...

Hiyə qəlbimizi aça bilmirdik?
Hiyə dolaşırdı sözün axarı?
Sən demə olarmış söz cilik-cilik,
Sən demə sevərmiş belə yar-yarı.

***1972***

## SÜKUT... HARAY...

Evdən-evə, işdən-işə,
Zəng vurmağım çox çətindi.
Sevdiyimi bilə-bilə,
Hecə deyim? Hecə indi?..

Çox düşünüb, danışmışam,
Düyün düşüb, kəlməm, sözüm.
O nöqtəni tapmamışam,
Tavanlarda qalıb gözüm.

Telefonu Allah, aman,
Kim alacaq? Mən bilmirəm...
Bu sükutdan, bu haraydan,
Hə qalacaq? Mən bilmirəm...

Sənə tərəf boylanmağım,
Hərdən olur mənə yasaq.
Bu dünyada doğulmağım,
Bir ölümə tay olacaq.

Eh bəlkə də ayağında,
Daşa dönmüş cığıram mən.
Sən gözəlin sorağında,
Yollarına yağıram mən.

Yox desən də varsan, varam,
Mən bir payız, sən bir bahar.
Taleyində tufan, qaram,
Atsan məni dünyam donar.

Bir də, bir də bax gözümə,
Bəlkə gözlər tutuşacaq.
At məni ocaq közünə...
Sevgin çırt-çırt alışacaq.

Eyib etməz yandır məni,
Uzaqlaşma alovumdan.
Vur dizinə sındır məni,
Qoy göynəsin xanım yaram...

***1972***

## BAX BELƏ...

Qorxursan mənimlə yol getməyindən...
Qəlbini boşaltmaq çətindir sənə?
Bir az yavaş yeri, bir az danış, din,
Bir ılıq məhəbbət hopsun qəlbimə.

Özüm də bilmirəm doğdu heç hardan,
Eşqin ürəyimdə tufan qopardır?
Hər gün düşünürəm qışdan, bahardan,
Eh... Bu yollar məni hara aparır...

Bilsəm ki, qəlbində nələr od salıb,
Götür-qoy edərdim kəlmələrimi.
Bilsəm ki, qəlbinə qəlbim od salıb,
Sökərdim qəlbimi illərdən bəri...

Qoymaram göyərə söz puçur-puçur,
Qoymaram cənginə ala sel səni.
Burda ev yıxılır, burda ev uçur?
Taleylə oynayan sanma sən məni.

Mənim sözlərimi dağa salma sən,
Onlar ürəyimin içindən doğub.
Mən səni özümə halal bilmişəm,
Eh, mənim qəlbimdə nələr yoğrulub.

Kar olan, kor olan gənclik köç edib?..
Deyirsən: «Bilmirəm ölçüb-biçməyi».
Ürəyim eşqini sənə iç edib,
Özüsə öyrənib əzab çəkməyi.

Çəkirəm çəkəcəm nə qədər varım,
Mənə bu dünyada baxmaq qalacaq.

Duz tök qoy alışsın, göynəsin yaram,
Ya da gözlərimdən uzaq ol uzaq.

Əl vuran deyiləm sənə əzizim,
Içimdə doğulub öləsisən sən.
Adınla torpağa hopacaq izim,
Bax belə, həsrətli yol gedirəm mən...

***1972***

## OLAN OLACAQ

Ötən taleyinin çox anlarını,
Sökürsən-tikirsən içində gülüm.
Ömrün burum-burum dolaylarını,
Hara aparırsan köçündə gülüm?

Hara aparırsan baxışları sən,
Qarşına məkirli bir insan çıxar.
Saçımız ağarar... Ağappaq, dən-dən,
Yolları sel basar, yağışlar yağar.

Ömür çaylar kimi geri qayıtmır,
Axır axarıyla, axır yaz, payız.
Baxırsan sevgimiz xanım boy atmır,
Doğulan suallar qalır cavabsız.

Ürəkdə istəklər qoşalaşırlar,
Ağla qara qoçun gedir döyüşü.
Həsrət də, vüsal da qucaqlaşırlar,
Başlanır bu yerdə sevgi yürüşü.

Qorxursan dünyanın qışqırmasından,
Qorxursan ürəyin partlaya bilər...
Qorxursan taleyin ağlamasından,
Qorxursan ayıra bizi küləklər...

Yox, bizi küləklər qopara bilməz,
Sarı yarpaqlar onda canda-can.
Bizi əzrail də apara bilməz,
Bizi qoruyacaq büsbütün cahan.

Tale yazanlardan qaçmaq çətindir,
O deyən olacaq üzmə özünü.
Ötüşür ömürdən saatlar bir-bir,
Çıxart ürəyindən qorxu sözünü.

Mən də tərəzidə, gözündə daşlar,
Qalmışam od ilə su arasında...
Didir varlığım qaynar baxışlar,
Sevən gözlərimin düz qarasında.

***1972***

## MƏNSƏ QIŞQIRIRAM...

Mən səni sevmişəm əvəzində sən,
Soyuq bir zindana salmısan məni.
Hə yara dönürsən, nə yar bilirsən,
Mənsə qışqırıram: - Sevirəm səni...

Sənin gözlərinlə baxmışam ərzə,
Tutub ünvanını yollar getmişəm.
Tale od istəyib, dönmüşəm közə,
Yeri də düşəndə tüstüləmişəm.

Bir əli dünyadan, bir əli səndən,
Yapışıb gözündə işıq gəzmişəm.
Sanmışam ağarıb saçlarım dən-dən,
Mən nə usanmışam, nə də bezmişəm.

Şeytanlar tor qurub, girəvə gəzib,
Tanrı uçurumlardan keçirib məni.
Tanrı yumruğuyla qayalar əzib,
Qəlbim şimşəklərdən qoruyub səni.

Çaylar köpüklənib, körpün olmuşam,
Sellər qucaqlayıb nə qədər məni.
Dinib danışmayan körpən olmuşam,
Çəkmisən üstümə ağ örpəyini.

Bəs indi nə olub, nə olub sənə?
Tanınmaz olmusan baxışlarınla.
Qorxuram çox şeyi gətirim dilə...
Qorxuram əzizim, sən özün anla...

Heç bilə bilmirəm bu nə səhnədi?
Dünyanın leysanı, qarımı yağdı?
Taleyin ipləri dolaşıb nədi?
Eh səni bilmirəm, məndən uzaqdı.

Mən səni sevmişəm, əvəzində sən,
Soyuq bir zindana salmısan məni.
Hə yara dönürsən, nə yar bilirsən,
Mənsə qışqırıram: - Sevirəm səni...

***1972***

## BAŞ ÇƏKSƏYDİN

Unutmusan nədir adım?
Olmaz, olmaz belə xanım.
Bircə günə sağalardım,
Baş çəksəydin mənə xanım.

Axtarmıram sübut, dəlil,
Eh, bəlkə də mənəm səfil.

Belə sevgi, belə nisgil,
Yaraşmayır sənə xanım.

Vermişəm ömrümü bada,
Qalamısan məni oda.
Belə getsə bu dünyada,
Çevriləcəm külə xanım.

Göynəyirəm için-için,
Həyi qoyum, nəyi içim?
Bu dünyadan köçmək üçün,
Gərək ruhum ölə xanım.

Əl çəkmişəm, yağ yandırır...
Fələk mən sağ yandırır.
Hiyə ahım dağ yandırır?
Gərək çoxu bilə xanım...

Qayalara dəyib doğrum,
Bülbültək çırpınır bağrım.
Hə baxırsan oğrun-oğrun?
Gərək şeytan gülə xanım?..

Deyirəm ki, gəl dərdləşək,
Dərdimizi gəl bölüşək.
Ürəkli ol, gəl birəşək!
Qalır ildən-ilə xanım...

Unutmusan nədir adım?
Olmaz, olmaz belə xanım.
Bircə günə sağalardım,
Baş çəksəydin mənə xanım.

***1972***

## YANAR SEVGİ

Həsrət, hicran alışanda,
Diləyimdə yanır sevgi.
Gündüz-gündüz qarışanda,
Ürəyimdə yanar sevgi.

Məni uzaq biləndə sən,
Saçlarının tüstüsündən.
Əllərinin istisindən,
Ürəyimdə yanar sevgi.

Sərt küləkdən, sel səsindən,
Laylaların naləsindən.
Sifətinin laləsindən,
Ürəyimdə yanar sevgi.

Səni kimsə çağıranda,
Yalan-palan «yoğuranda«.
Dodaqların ağaranda,
Ürəyimdə yanar sevgi.

Şıltaqlığı qəm döyəndə,
Baxışların kükrəyəndə.
Barmaqların titrəyəndə,
Ürəyimdə yanar sevgi.

Dağ oynadan harayında,
O məhəbbət sarayında.
Görüşlərdən qayıdanda,
Ürəyimdə yanar sevgi.

Şeytanımız diriləndə,
Aramızda hiss öləndə.

Telefon da kəsiləndə...
Ürəyimdə yanar sevgi.

Həsrət, hicran alışanda,
Diləyimdə yanır sevgi.
Gündüz-gündüz qarışanda,
Ürəyimdə yanar sevgi.

***1972***

## QALIR ÜMİD

Eşqin qəlbimə sızıbsa,
Düzüm-düzüm qalır ümid.
Yazını Tanrı yazıbsa,
Canım, gözüm, qalır ümid...

Al ovsarı karvanı çək,
Tükənməyib sevgi, istək.
Məhəbbətin nurun içək,
Budur sözüm, qalır ümid.

Çalanacaq illər-ilə,
Şərqi deyəcək şəlalə.
Boylanacaq nərgiz, lalə,
Dağım, düzüm, qalır ümid.

Olma qaya, qaya gəlmir,
Görüşlərim saya gəlmir.
Tor qururam, tora gəlmir,
Onum... Yüzüm... Qalır ümid.

Mən bir mələr bulaq səsi,
Mən əzablar nişanəsi.
Ağ günlərin işarəsi,
Gərək dözüm, qalır ümid.

Gələn gəlib, gedən gedib?
Kim deyir ki, hər şey bilib?
Aramızda sevinc itib?
Hələ bizim qalır ümid.

Səadətimin yolusan,
Həm yağışsan, həm dolusan.
Bir xatirə toplususan,
Adım, izim, qalır ümid.

Eşqin qəlbimə sızıbsa,
Düzüm-düzüm qalır ümid.
Yazını Tanrı yazıbsa,
Canım, gözüm, qalır ümid...

***1972***

## GÜLÜM, MƏNDƏN İNCİMƏ

Səni sevmişəm deyə,
Gülüm, məndən incimə.
Hiyə sevmədin... Niyə?
Gülüm, məndən incimə.

Bir vurardı qəlbimiz,
Şahə qalxırdı dəniz.
İndi kim olmuşuq biz?
Gülüm, məndən incimə.

Səni gəzdim nə tapdım?
Gör məni kimə satdın...
Demə sularda batdım...
Gülüm, məndən incimə.

Sevmişdim, sevirəm mən,
Dönmək! - Gəlməz əlimdən.
Başqa sual vermə sən,
Gülüm, məndən incimə.

Arzular talan oldu,
Demişdin yalan oldu.
Çiçəklər solan oldu,
Gülüm, məndən incimə.

Qəm karvanı yükümdü,
Qəlbim büküm-bükümdü.
Dedin hököm hökümdü,
Gülüm, məndən incimə.

O sənə yaxın oldu,
Səadət ağım oldu.
Quruyan bağım oldu,
Gülüm, məndən incimə.

Eh! nə deyim... Günahdı,
Yoxdu eşqinin adı.
Minib gedirəm atı,
Gülüm, məndən incimə.

***1972***

## BAĞIŞLAYA BİLMƏDİM

Ürək açdım... Özümü,
Bağışlaya bilmirəm.
Dözdüm... Dözdüm... «Dözümü».
Bağışlaya bilmirəm.

Gülüb etdiklərimi,
Sənin bildiklərini.

Mənə dediklərini,
Bağışlaya bilmirəm.

Dünyamın qarışmasın,
Könlümün alışmasın.
Dilin dolaşmasın,
Bağışlaya bilmirəm.

Sualların lil olmasın,
Hifrətin göl olmasın.
Ocağın kül olmasın,
Bağışlaya bilmirəm.

Söz qoşardın sözümə,
Toz elədin gözümə.
Ağ baxardın üzümə...
Bağışlaya bilmirəm.

Çox uzatdın sınağı,
Mənə çəkirsən dağı.
Yoxdu ürəyin yağı...
Bağışlaya bilmirəm.

Bayram etdin möhnəti,
Kəsdin sözü-söhbəti.
Şübhəli məhəbbəti,
Bağışlaya bilmirəm.

Dərviş elədin məni,
Sökdün-tikdin qəmimi.
Həyə göz yumsam, səni,
Bağışlaya bilmirəm.

***1972***

## GƏRƏK BOĞULAYDI

Bircə mən bilirdim sənə sevgimi,
Bircə mən bilirəm nədir günahım.
Eh, nahaq gətirdim dilə sevgimi,
Gərək boğulaydı içimdə ahım...

Boğaydı əzrail bu «səadəti»,
Doğulan, boğulan körpələr kimi.
Sular aparaydı bu məhəbbəti,
Sellərə tuş gələn körpülər kimi.

Bunu sən bilirdin, bir də mən xanım,
Qorxurdum bu fikrin yayılmasından.
Bilirəm deməzsən kiməsə xanım,
Qorxurdum kiminsə ayrılmasından.

Onlardan ayrıldı, harda duydu o?
Qorxuram dünyanı oynatmasından.
Canavar donunda vəhşi atdı o,
Bu işıqlı dünya bezərdi ondan.

Qorxuram mən olsam, bir sən, bir də o,
Hecə bölüşərik səni bilmirəm.
Bu gün mənim üçün böyük sirdi o,
Eh nələr gözləyir məni bilmirəm.

Mən hardan biləydim onun içini,
Mən hardan biləydim qurdlar yemidir.
Yox, yox tanımıram belə nəçini,
O, ömürdən əsən bir dəli yeldir.

Səsini içinə çəkib dinmədin,
O isə gözümdə sanki ovundu.

Eşqin zirvəsindən xanım enmədim,
Əylən sən oldun, «gülən» mən oldum.

Bircə mən bilirdim sənə sevgimi,
Bircə mən bilirəm nədir günahım.
Eh, nahaq gətirdim dilə sevgimi,
Gərək boğulaydı içimdə ahım.

***1972***

## GERİYƏ BAXIRAM

O sən gələn yol üstündə durardım,
Gəlişindən alışardı gözlərim.
Salamını ürəyimə salardım,
Çəkdiyimi hardan bilir gözəlim...

Bilirdin ki, gözləyirəm yolunu,
Görkəmindən silinmirdi sadəlik.
Sevgimizin görünmürdü eh, sonu,
Qələmimdə göyərirdi gündəlik.

Odlu-odlu baxışından yazardım,
Kəlmələrim vərəqləri bəzərdi.
Gülüşünü sevgi kimi yazardım,
Susardın sən... Səssizlikdən bezərdim.

Qayğılarım kükrəyərdi, daşardı,
Sən özünü bilməzliyə vurardın.
Aramızda gizli tellər yaşardı,
Bilim deyə öz-özümü apardım.

Qəmli-qəmli boylanardım, baxardım,
İşığını azaldardı bir çırağ.
Baxışlarım çaylar kimi axardı,
Qarşısına qaya çıxsın, ya da dağ.

Mən nə deyim bu qismətə, yazıya,
Talelərə fəlsəfələr sığardı.
Bir işarə göndərərdim boz aya,
Sifətimdən boz yağışlar yağardı.

Saydıqlarım ürəyini sıxmasın,
Gəl baş vuraq xatirələr çayına.
Sən bu gün də, gülüm mənə doğmasan,
Doğma olmaq qismət olmur hamıya.

O sən gələn yol üstündə durardım,
Gəlişindən alışardı gözlərim.
Salamını ürəyimə salardım...
Çəkdiyimi hardan bilir gözəlim?..

***1972***

## MƏN VƏ SƏN

Dəmir qanadlıdır mənim hislərim,
Poladı əridər baxışlarım da.
Ağarır, qızarır görünür yerin,
Məhəbbət dağının naxışlarında.

Lalənin bağrında qara bir xalam,
Sevgin tikan kimi qəlbimi didir.
Bu gün su çiləyib ardımca xalam,
Daşına əl çəksəm əriyəcəkdir.

Üfüqdən boylanan Günəşsən, Aysan,
Bir işıq yolunun yolçusuyam mən.
Mən daş bir cığıram, mən dəli çayam,
Eh, necə göz baxır köpüklərindən.

Yaşıla bürünmüş dərəyəm, dağam,
Qoynuna basıbdır bir bahar məni.
Sən qaranlıq gecə, mən bir çırağam,
Dönüb əjdahaya udacam səni.

Bürünüb dumana uçub gəlmişəm,
Qorxuram caynağlı küləklərindən...
Hə bilim, bəlkə də gülüm ölmüşəm,
Silirsən, öpürsən baş daşımı sən.

Yox, səni qoymaram öpəsən daşı,
Yox, səni qoymaram ağı deyəsən.
Hopacaq gözünə gözünün yaşı,
Hələ harasıdır ağlayasan sən.

Sənin gəncliyinin qaynar çağıdır,
Ağlaya bilməzsən kövrəlsəm də mən.
O nurlu qocalar deyən ağıdır,
Şərqilər öpəcək sənin əlindən.

Yaşıla bürünmüş dərəyəm, dağam,
Qoynuna basıbdır bir bahar məni.
Sən qaranlıq gecə, mən bir çırağam,
Dönüb əjdahaya udacam səni.

***1972***

## SƏN OL

Bu dağları aşım deyə,
Arzumun qanadı sən ol.
Bircə sorma xanım niyə?!
Könlümün inadı sən ol.

Yerdən-göydən sevgi yağır,
Məhəbbət qayadan baxır.
Hara getsən məni çağır,
Şad günümün şadı sən ol.

Hələ kövrək bir «dəliyik»,
Xanım qaya kölgəsiyik.
Bir qazanın tikəsiyik,
Duzu mənəm, dadı sən ol.

Bu dünyamdan qəmi silin,
Bağrım olub dilim-dilim.
Bizə düşmən kəsilənin,
Daşı mənəm, yadı sən ol.

Dünyaya səs salasıyıq,
Babək, Higar balasıyıq.
Hurdan nişan qalasıyıq,
Gözəlliyin adı sən ol.

Şeytan, məndən uzaq dayan,
Bir köpüklü dəli çayam.
Ocağımın pıçıldayan,
Səsi mənəm, odu sən ol.

Selə-seləm, qara-qaram,
Sənin üçün yaşayıram.
Daşdan soyad daşıyıram,
Sevginin soyadı sən ol.

Hə gəzirik, düz gəzirik,
Üfüqlərdə göz gəzirik...
Yeni-yeni söz gəzirik,
Hadı mənəm, bıdı sən ol...

***1972***

## GÖRÜŞƏ BİLMİRƏM

Görüşə bilmirəm... Sevirəm ancaq,
Qəribə olsada yaşantıdır bu.
Bu sevgi mənimlə qoşa qalacaq,
«Soyuq bulaq» kimi təmiz, dum-duru.

«Soyuq bulaq» kimi nəğməliyəm mən,
«Soyuq bulaq» kimi gözüm yoldadır.
Əgər sən olmasan ölməliyəm mən,
Bilsəydin ürəyim eh... Nə haldadır.

Görüşsəm aləmə səs düşəcək səs,
Əzab gətirəcəm əzab üstünə.
İçimdə alışıb yanacaq bir kəs,
Buludlar qaçacaq mənim tüstümə.

Çoban ocağı tək alışacam ki,
Hardasa istimi duya biləsən.
Hə qədər ömrüm var çalışacam ki,
Kədərdən uzaqda deyib güləsən.

Görüşə bilmirəm, görüşsəm əgər,
O ağzıgöyçəklər mövzu tapacaq.
Hələr yaşanacaq, kim bilir nələr...
Məhəbbət özünü dağdan atacaq?..

Baş-başa dəyəcək, daşlar-daşlara,
Çəkəcək bizləri hərə bir cürə.
Qardaş, çəkiləcək bu sevgi dara,
Şayiələr gəzəcək bəli, boş yerə.

ÖləRəm bu eşqə ləkə yaxılsa,
Qoymaram əzizim, narahat olma.

Görüşə çıxmaram, dünya dağılsa...
Hər sözü söz edib qəlbinə salma.

Görüşə bilmirəm... Sevirəm ancaq,
Qəribə olsada yaşantıdır bu.
Bu sevgi mənimlə qoşa qalacaq,
«Soyuq bulaq» kimi təmiz, dum-duru.

***1972***

## SƏN OLMASAYDIN

Məni zirvələrə səsləyir adın,
Sənsiz bu həyatda nə ötüşərdi.
Əgər bu dünyada sən olmasaydın,
Qələm də əlimdə düyün düşərdi.

Sanma ki, acizəm, cılızam, nəyəm,
Yox, yox ovsununun caynağındayam.
Tumurcuq oxşayan həzin küləyəm,
Döşənib önündə axaram, çayam.

Məni ağac kimi qurd-quş yeyərdi,
Ağıllı sözlərin sirdaşım olub.
İllərin qamçısı mənə dəyərdi...
Sən hara, kölgən də yoldaşım olub.

İldırım üstümə qılınc çəkərdi,
Qarğış əllərini uzadırdı qış.
Biri yoğurardı, biri əkərdi,
Məni yandırardı söz qarış-qarış.

Sən mənim gözümün nurusan xanım,
Sənsiz itirərdi dadını dünya.

Odunu sevgidən alır ilhamım,
Sənə də, mənə də hayandı dünya.

Bir dünya qurmuşuq ipi ipəkdən,
Tufanlar qopsa da qırılan deyil.
Ələnib xəlbirdə sevgimiz dən-dən,
Canım bu yollarda yorulan deyil.

Əgər çıxmasaydın qarşıma mənim,
Ləpirlər içində itərdi ləpir.
Şair eləmisən gözəlim məni,
(Şairlər hər şeyin dadını bilir).

Məni zirvələrə səsləyir adın,
Sənsiz bu həyatda nə ötüşərdi?
Əgər bu dünyada sən olmasaydın,
Qələm də əlimdə düyün düşərdi.

***1972***

## SUSURSAN

Qəlbimi ağrıdır onun sözləri,
Susmağı dinməkdən tutursan üstün.
Susursan, daş olur sanki gözlərin,
Susursan, kor edir «kor»ları tüstün.

Susursan, boğursan hirsini xanım,
Bəlkə də bu sənin böyüklüyündü.
Partlayış yaşayır mənim hər anım,
Ürəyimin başı düyün-düyündü.

Arı pətəyinə daş atır özü,
İnsan ürəyinə barıd doldurur.
Silir hər cığırı, silir hər izi,
Yolların tozunu göyə qaldırır.

Şeytanlar içində cəmləşir onun,
Allah kəlamından çəpər çəkərsən.
Astarı üzündən qalındır, qalın,
Yaxşı düşünürəm nələr çəkirsən.

O gərgin anların çatacaq sonu,
Yox, belə yaşamaz zaman özü də.
Görən nə rəngdədir damarda qanı,
Dünya qaranlıqdır onun gözündə.

Onunla danışıb dinməyə dəyməz,
Dəymişin bir yana, kalın tökəcək.
İnsan əyməyəni qəbir də əyməz,
Susmağın bir zaman onu sökəcək.

Sanki od püskürür sənin susmağın,
Sevgiyə paxıllıq edir içində.
Rəngi dəyişməyir qaranın, ağın,
Tutacaq yerini hər şey köçündə.

Qəlibimi ağrıdır onun sözləri,
Susmağı dinməkdən tutursan üstün.
Susursan, daş olur sanki gözlərin,
Susursan, kor edir «kor«ları tüstün.

***1972***

## BİLMİRƏM, NİYƏ?..

Görüşə çağırdım o xanımı mən,
Bir səhər dedi ki, gələ bilmirəm.
Sandım ki, saçlarım ağardı dən-dən,
Hələr baş verirdi? Bilə bilmirəm...

Dedim: - Gözləyəcəm səni o yerdə,
Dedi: - Görüşümüz yəqin ki, birdə...

Ayağım altında titrədi Yer də,
Danışa bilmirəm, dinə bilmirəm.

Bəlkə yer axtarır bu gördüklərim,
Bəlkə başqasına verilib yerim?
Yox, o mənə qalsa gərək gül dərim,
Çıxmışam zirvəyə enə bilmirəm.

Bəlkə də bu ömrün son bir qışıdı,
Daha açan güllər məzar daşıdı...
Görəcəm bir anda nələr yaşadı,
Hanı o gülüşlər? Gülə bilmirəm...

Elə bilərəm ki, yüngülüm ağır,
Gözüm qərib baxır, qəribə baxır.
Başıma dünyanın daşları yağır,
Ölmək istəyirəm ölə bilmirəm.

Sanıram dünyanın məhvəri çökür,
Tale tikdiyini yenidən sökür.
Buludlar üstümə acığın tökür,
Gör-gör göynəyirəm, sönə bilmirəm.

Sevgidən əynimə paltar geyərdim,
O gələn yollarda qar kürəyərdim.
Oddan danışardım, oddan deyərdim,
Susmusan, nə olub dinə bilmirəm...

Yox sındıra bilməz məni, külək, qar...
Elə bilirəm ki, kar olmuşam, kar.
Omu günahkardı, mənimi günahkar,
Gözümün yaşını silə bilmirəm.

## KÖZÜN, SÖZÜN...

O qız yenə yada düşüb,
Vərəqlənir xatirələr.
Ay ötüşüb, il ötüşüb,
Yaşamışıq nələr... Nələr...

O qız tutub əllərimdən,
Xatirələr bizi sayıb.
Saç ağarıb olub dən-dən,
Xatirələr qocalmayıb.

O qız düşüb yenə yada,
Məgər yaddan çıxandı o?
Həsrətimi uda-uda,
Bizə sarı baxandı o?

İki qəlbin döyündüsü,
İki qəlbin ocağı bir.
İki qəlbin göyüntüsü,
İki qəlbin çırağı bir.

Ah çəkrəm içim yanır,
Tüstü çıxır saçlarımdan.
Yəqin o da məni anır,
Qızaranda o qızıl dan.

Kim bilməsə mən bilirəm,
O ürəkdə nələr yatır.
Görmək üçün yol gəlirəm,
Sanıram ki, Günəş batır.

Nə qədər ki sağdır insan,
Onu didir xatirələr.

Baxırsan ki, yoxdur insan,
Uçub gedir xatirələr...

Xatirələr didir məni,
Yolda qalıb yəqin gözün?
Görməsəm də xanım səni,
Didir məni közün, sözün...

***1972***

## SEVDİRƏ BİLMİRƏM...

Sevidirə bilmirəm özümü sənə,
Üstümə qar yağır, kədərli, kövrək.
Tanrı pay göndərib sevgini mənə,
Közərir, qaralır sinəmdə ürək.

Sevdirə bilmirəm... Sevdirmək olmur,
Yəqin gözlərimin odu azdı, az.
Qəlbim bulud kimi, boşalır, dolur,
Məndən uzaq düşüb çiçəkli bir yaz.

Sevdirə bilmirəm, sevən bir kəsi,
Yuxular mənimlə çıxır vuruşa.
Göynəyir içimdə onun ney səsi,
Sanki çırpılıram qayaya, daşa.

Sevdirə bilmirəm özümü ona,
Bəlkə də nə bilim? Səs-səda gəlmir.
Taleyim bir yana, ümid bir yana,
Bağlanmış qapılar, üzümə gülmür.

Sevdirə bilmirəm harayımı mən,
Səssizlik beynimdə doğulur, itir.
Yapışa bilmirəm qaynar əlindən,
Cəsarət gəlincə görüş də bitir.

İşığın içirəm, nurun içirəm,
Köksümün qoynunda ocaq alışmır.
Eh, onun yolunda candan keçirəm,
Tüstümüz qarışır, istək qarışmır.

Gedirəm bu yolu qəmli, nigaran,
Odum dil-dil olur, odum soyumur.
Göynəyir, qovrulur içimdə yaram,
Sanıram o mənə oyuncaq qurur.

Sevdirə bilmirəm özümü sənə,
Üstümə qar yağır, kədərli, kövrək.
Tanrı pay göndərib dözümü mənə,
Közərir, qaralır sinəmdə ürək.

***1972***

## SƏNİ, MƏNİ...

Nigaran qalmışıq xeyli zamandı,
Nə dinə bilirik, nə də görüşə.
Sanıram dörd yanım çəndi, dumandı,
Həsrət qoşunları çıxıb yürüşə.

Higaran qalmışıq görə-görə göz,
Bilmirik ki, kimin qarğışı kəsib.
Ürəyim deyir ki, döz, ağrıya döz,
Deyir ki, vüsal da olacaq nəsib.

Nigaran qalmışıq yanaşı, qoşa,
Nə bunu bilən var, nə də anlayan.
Qorxu yumaq kimi dönərmiş daşa,
Deyərmiş: - Bax belə, indi alış, yan.

Sevdirə bilmirəm özümü sənə,
Çiçəyi çırtalaya ümidlərimin.

Qəlbini kökündən açmırsan mənə,
Dəli bir çay olur kədərim, qəmim.

Bəlkə də, sevirsən ürəyində sən,
Bəlkə də axırsan lal sular kimi.
Bəlkə də sevgini anlamıram mən,
Donmuşam gözündə sular kimi.

Çəkirik çox şeyi içimizdə biz,
İç edə bilmirik sevgimizi də.
Dualar edirik səssiz-səmirsiz,
Dualar qoruyur ikimizi də.

Omu sevgimizə hücumlar qurub?
Daşlayır Günəşi şər ədasıyla?
Qara buludlar da pusquda durub,
At üstü əsgəri, piyadasıyla.

Higaran qalmışıq... Niyə? Nə üçün?
Çürük iddihamlar çəkmir əlini...
Sən hissə qapılma, gələcək o gün,
Tapacaq o sevgi səni və məni.

***1972***

## DEYƏ BİLMƏZDİM

Unuda bilmirəm baxışlarımı,
Unuda bilsəydim nə qəm, nə möhnət.
Üstümə tökərdin işıqlarını,
Yox olub dilimdə qüvvət, cəsarət.

Sevirəm deməyə «çatmırdı» gücüm,
Yaşıl sabahlardan danışardın hey.
Çox da ki, çox da ki, şir idi bürcüm,
Özümdən özümə edirəm giley.

Unuda bilmirəm ötən günləri,
Sən necə əizizim, nə düşünürsən?
Əlimi dalayan qızıl gülləri...
Bəlkə unutmusan xanım bu gün sən.

Unuda bilmirəm dediklərini,
Yazırdım, yozurdum mən ürəyimdə.
Suala tuturdum mələklərini,
Suala tuturdun hey məni sən də.

Dalğın gözlərimiz hey danışardı,
Ayrılıb gedərdik səssiz-səmirsiz.
Ayrıla-ayrıla biz alışardıq,
Ayrılıb gedərdi mələklər və biz.

Ayrılıb gedirdin qovuşmaq üçün,
O küçə deyərdi: «Qayıdın, gəlin»!
Yuxular görərdin çiçəyi çin-çin,
Birimiz bəy idi, birimiz gəlin?

Ayrılıb gedərdik o küçədə biz,
O küçə bu dərdə necə dözürdü?
Eh yazıq qəlbimiz, yazıq könlümüz,
Sevgi dənizində tənha üzürdü.

Qayıdıb gələrdin o küçəyə sən,
Gözlərin gülərdi, özün gülməzdin.
«Sevirəm» sözünü gözləyənə mən,
«Sevirəm» sözünü deyə bilməzdim.

***1972***

## İLK BAXIŞ, İLK AN

Unuda bilmirəm o anı gözəl,
İnsan gözəlliyi unuda bilməz!
Elə ki, sən baxdın, hər şeydən əzəl,
O qaynar baxışlar ölçüyə gəlməz.

Baxışlar od tökdü ildırım kimi...
Xanım, aramızda dünyamı qopdu?
Yükü məhəbbətdən bu iki gəmi,
Sahilə yan alıb durdu, ha durdu...

İndi o baxışı tapa bilmirəm,
İtərmiş gözlərin kiprik döyməsi.
Eh sənə nə var ki... Yata bilmirəm,
Göynədir gözümü gözünün səsi.

Şəkilə dönərmiş insan baxışı,
Şəkilə dönərmiş canlı nə varsa.
Şəkilə dönərmiş gözün alqşı,
Ürək bir kəlmədən düşərmiş yasa.

O an hardan gəldi, hardan yox oldu?
Bəlkə oğurlayıb onu dağ, dərə?
O anın içindən anlar doğuldu,
O isə ruh olub uçdu göylərə.

Uçubsa qayıdar, qayıdar gələr...
Ümidlə yanaşı yaşayıram mən.
İldırım meydanı olar küçələr,
Bilirəm bir zaman deyəcək səndən.

O gözlər üstümə od, alov tökür,
Gəzirəm o anı, yox olub o an.

O gözlər dan kimi qəlbimə sökür,
Mən onu gəzirəm, hanı? Ay aman...

Bu gün ölməmişəm yaşayıram mən,
Ancaq o ilk anın duyulmur dadı.
O anı bircə an yaşaya bilsəm...
İtibdir... Görəsən o an hardadı?
***1972***

## DOLAŞSA DA DÜNYAM...

Mənə elə gəlir yuxu görmüşəm...
Külək gətirmişdi, külək apardı?
Adıma bir adı elə hörmüşəm,
O ad yarım olub, yenə də yardı.

İnana bilmirəm acı sözünə,
Küskün anlarıma acığım tutur.
Dünyanın çovğunu dolub gözümə,
İçimdə dünyanın kədəri yatır.

O atıb, unudub... məni yarıda,
İnana bilmirəm özüm-özümə.
O şirin söhbətlər qalıb harada?
İşıq yandırıram yenə dözümə.

Qara fikirləri boğum deyə mən,
İtirəm gecəinin qaranlığında.
Onu ürəyimə sıxıb deyə mən,
Azıram dumanın toranlığında.

Deyirəm çəkinir kimdənsə bəlkə,
Bəlkə də çəkinmir addımlarında.
Sürünür gözümdə bir qara kölgə,
Sürünür mərd-mətin addımlarım da.

Yox, yox o baxışlar aldatmaz məni,
Həsə açılmayan bir düyün qalıb.
Anlaya bilmirəm bu fəlsəfəni,
Onu şeytanların toruna salıb.

Axı neyləmişəm şeytanlara mən?
Daşa basmamışam, gərək basaydım...
Gəlirəm, gedirəm görən hara mən?
Görünür çox şeyi yerimdə saydım...

Yox, bu yuxu deyil, bu ağ yalandı!
Həyatda müqəddəs səni bilmişəm.
Deməyin içimdə nə qalmaqaldı,
Dolaşsa da dünyam səni sevmişəm!..

***1972***

## BİRCƏ SƏNİ

Xəstə var ki, ölə bilmir,
Gecə qatıb gözlərinə.
Xəstələr var bir an gülmür,
Ağrı hopub sözlərinə.

Xəstələr var çarpayısı,
Bir məhəbbət dünyasıdır.
Xəstələr var yox çarəsi,
Xatirəsi qalasıdır.

Xəstə var ki, bir balaca,
Kökdən düşüb kaman kimi.
Düşüb özündən ayrıca,
Ötüb-keçən güman kimi.

Xəstə də var, keşik çəkir,
Ona sevdiyi xanımı.
Xəstə də var, sökür-tikir,
İlə bənzər bir anını.

Xəstə var ki, düşür ruhdan,
Çata bilmir günü-günə.
Kömək etmir iynə, dərman,
Qalır Allah ümidinə.

Xəstə də var mənim kimi,
Bir xəyala dönür yarı.
Didir onu qəlbindəki,
Sevdiyinin intizarı.

Başqasını görmür gözü,
Gözəl, insan kor olarmış...
Yan keçərmiş həkim sözü,
Dərmanlar da eh yalanmış...

Yar xəstəsi ağır olar,
Üzər həsrət, üzər kədər.
Sözü, səsi ağır olar,
Bir Himalay dağı qədər...

***1972***

## SƏN BİR OVUC

Sən bir ovuc işıqsan,
Gözümü darda qoyma!
Dünyaya yaraşıqsan,
Gözümü, darda qoyma!

Özünü görməyirsən?
Ola bilməz, bilirsən...
Bunu bilə-bilə sən,
Gözümü, darda qoyma!

«Parada» gedən gəmi...
Rəngli fişənglər kimi,
Atıl, seyr edim səni,
Gözümü, darda qoyma!

Tonqalsan, Novruz günü,
Bir dəstə Novruz gülü...
Tanrının işıq əli,
Gözümü, darda qoyma!

Göz ölüb dirilərmiş,
Köz küldə közərərmiş.
Göz ocaqda gülərmiş?..
Gözümü darda qoyma!

Bilirəm, deyil asan,
İldırım qanadlısan.
Bir fişəngli atlısan,
Gözümü darda qoyma!

Dan yerin izləyirik,
Günəşi gözləyirik.
Dik bax gözlərimə, dik,
Darda qoyma gözümü!

Sən bir ovuc işıqsan,
Gözümü darda qoyma!
Dünyaya yaraşıqsan,
Gözümü, darda qoyma!

***1972***

## BAYRAM GÜNLƏRİNDƏ

Sən məndən də mənə əziz olmusan,
Hər əziz bayramda görüşmüşük biz.
Qəlbimin içində bir iz olmusan,
Çırpınır dərdindən göyərən dəniz.

Bayram günlərində birləşir yollar,
Bayram günlərində ayrılırıq biz.
Ayrılıb gedirəm dünyası lal, kar,
Ayrılıb gedirsən səssiz-səmirsiz.

Gedirəm ağaran ağ yollarla mən,
Ağaran yolların sonu görünmür.
Bayramlar tutsa da mənim əlimdən,
Biri görünsə də, biri görünmür.

Sayıram günləri ürəyimdə mən,
Bitirsən gözümdə gözümdən uzaq.
Həsrətdən ağarar saçlarım dən-dən,
Asılır saçımdan sırsıra-sızaq.

Axı bayramlarda niyyət edirəm,
(Bu gündə Tanrı da eşidən olur).
Hardan başlamışam, hara gedirəm?
Şəklim səninlə yanaşı qalır.

Dönür xatirəyə qoşa şəkillər,
Dönür xatirəyə bayram günləri.
Dönür xatirəyə nə bilim nələr,
Görünür hər şeyin, hər şeyin yeri.

Bayram günlərində qovuşuruq biz,
Bayramdan bayrama çatana kimi.

Bayram günlərində uçan qəlbimiz,
Uçur dəli külək yatana kimi.

Bayram günlərində yox olur həsrət,
Bəlkə də yenidən doğulmaq üçün.
Bir parça daş olur gözlərdə nifrət,
Ağrılı günlərdə ovulmaq üçün...
***1972***

## SON QOYMALISAN

Sənin mənə qarşı inamın azdır,
Səhvin var əzizim, bu belə deyil.
Üzdüyün ağ sular hələ dəyazdır,
Qarşıda dəryalar durur onu bil.

Əgər qismətinə yazılıbdısa,
Çovğun da, sızaq da, dolu da olar.
Mənim məhəbbətim sənə azdısa.
Yox, bu belə deyil, dünyam qaralar...

Mənim ürəyimdən nələr keçdiyin,
Başımın üstündə ulduz da bilir.
Şeytanlar qəlbində yurd salıb sənin?
Güman ürəyini dağıdır, didir?

Çəkinə-çəkinə sevməkmi olar?
Elə bil izləyir kölgələr bizi...
Bir eşqi bu qədər çəkməkmi olar?
Qırılar ipləri, dözməz tərəzi...

Bilirəm çox şeyi ölçüb-biçirsən,
Xanım, mənim sevgim sığmır ölçüyə.

Bəlkə də dünyadan hərdən köçürsən,
Özünə suallar vermirsən, niyə?

Yadında saxla ki, sevən bir kəsin,
Gözünə görünmür uçurum, zəlzələ.
Boğulur içimdə nəfəsim, səsim,
Suallar içində qalmışıq hələ.

Xanım, intizara son qoymalısan,
Şeytanlar, gümanlar qırılmalıdır.
Onu da bilirəm deyildir asan,
Hə bilim bəlkə də ömür yarıdır...

Sənin mənə qarşı inamın azdır,
Səhfin var əzizim, bu belə deyil.
Üzdüyün ağ sular hələ dayazdır,
Qarşıda dəryalar durur onu bil...

***1972***

## O GƏLMƏDİ GÖRÜŞƏ

Payız gəldi o gəlmədi görüşə,
Bu sevginin taleyini duymuşdum.
Külək əsdi, könlüm düşdü təşvişə,
Ürəyimdə saydığımı saymışdım.

Gözlər də dikilib qaldı saatda,
Hisslərim get dedi, qəlbim dur dedi.
Sən demə ölərmiş xanım həyatda,
Bəlkə gəlməməyin bir bəhanədi?

Gözlədim, dedim ki, gecikir... Gələr,
Ağaclar dumanda görünməz oldu.
Dəydi bir-birinə sənsiz küçələr,
Səbir kasası da təlaşla dolar.

Gözlədim ümidim ölənə kimi,
Yox, bircə nöqtəlik işıq qalırdı.
Gözlədim özümə gələnə kimi,
Bilmədim heç məni kimlər apardı.

Mən getdim, xəyalım getmədi xanım,
Yağmışdı üstünə çayların daşı.
Ağırlar içində bitmədi xanım?
Qurudu gözümdə gözümün yaşı.

Zəng vurdum susmuşdu telefonunuz,
Düşündüm bəlkə də çıxıb sıradan.
Aldı canyağına varlığımı buz,
Düyünə düşmüşdüm sevgi sarıdan.

Yürüyə-yürüyə görüəşə çıxdım,
Boylana-boylana qayıtdım geri.
Sandım ki, dünyadan köç etdi bəxdim,
Qaraldı, bozardı bir ocaq yeri.

Payız gəldi, o gəlmədi görüşə,
Bu sevginin taleyini duymuşdum.
Külək əsdi könül düşdü təşvişə,
Ürəyimdə saydığımı saymışdım.

***1972***

## QAYĞILAR

Qayğı göstərməyə ha cəhd edirəm,
Sənsə qayğılardan qaçırsan uzaq.
Ehtiyat güdürəm, məqam güdürəm,
Sönür ürəyimdə alışan çıraq.

Deyirsən: - Yük etmə özünə bunu,
Deyirəm, eləsə bəs sevgi nədir?
Bax beləcə bitir hər şeyin sonu,
Qayğılar qayğıdır ya əfsanədir?

Qayğısız yaşamaq olarmı xanım?
Qayğılar insanın şah damarıdır.
Sən necə bilirsən sevgimi danım?
Içim də qayğılar karvanı yatır...

Hamı bu həyatda qayğıya möhtac,
Qayğısız bir ömür uçrum kimidir.
Qayğısız yaşamır dərə, dağ, yamac.
Tanrı qayğısıyla daşı kiridir.

Susuza su vermək, aclara çörək,
Məgər bu dünyada deyilmi qayğı?
Hər şeyin qədrini biləsən gərək,
Deyiləm, deyilsən sevgiyə yağı.

Qayğımı rədd edib, könlümü qırma,
Hə vaxtsa, hardasa olar gərəyin.
Mənim bu tikdiyim evi uçurma,
Dağa, daşa çırpar məni küləyim.

Çiçək də, qayğıdır, söz də qayğıdır,
Üstümə gözünün yaşını tökmə.
Qayğılar əzizim elə qayğıdır,
Yaxanı onlardan kənara çəkmə.

Qayğı göstərməyə ha cəhd edirəm,
Sənsə qayğılardan qaçırsan uzaq.
Ehtiyat güdürəm, məqam güdürəm,
Sönür ürəyimdə alışan çıraq...

***1972***

## SAYDIM... SAYDIM...

Bu gün səni gördüm... Duydum,
Xatirələr köz qaladı.
Xatirələr... Saydım... Saydım...
Ürəyimdə alovlandı.

Məhəbbətin közü qopdu,
Sən yanmadın, tək mən yandım.
Fikirimə nələr hopdu,
Sən duymadın, bunu xanım.

Səcdə qıldıq ilk günlərə,
Günlər bir-bir vərəqləndi.
Mən hər şeyi görə-görə,
Dilim, ağzım möhürləndi.

Eh, nə bili, o sən... Bu mən,
Məni həsrət, hicran içdi.
Düşünmədin ürəyimdən
Qabar-qabar nələr keçdi...

Hər şey ötüb, getdi artıq,
Həfəs ala bilirəmki?
Sözlərimdə qırıq-qırıq,
Ağlayıram, gülürəmki?

Gözlərimin içindəsən,
Əzab çəkməyə dəyərmi?
Bağrı qara bir lalə mən,
Boylanıram diri-diri...

Xatirələr gözlərimdə,
Yol gedirlər addım-addım.

Güc qalmayıb dizlərimdə,
Birgə gilə qalıb addım.

Bir gün səni gördüm... Duydum,
Xatirələr köz qaladı.
Xatirələr... Sandım... Sandım...
Ürəyimdə alovlandı.

***1972***

## AXI MƏN BELƏ DEMİRDİM

Xatirəmə çevrilmisən,
Axı belə deməmişdim.
Kaman kimi gərilmisən,
Axı belə deməmişdim.

Bıçaq vursan qanım çıxmaz,
Canım çıxsa, canın çıxmaz.
Daha o bulaqlar axmaz...
Axı belə deməmişdim.

Itirmisən haqqı, dini,
Sulara vermisən dəni.
Zaman udub səni, məni,
Axı belə deməmişdim.

Göy qurşağı damar-damar,
Gözlərindən damcı damar.
Apar, o sevgini apar,
Axı belə deməmişdim.

Aramızda söz olmadı,
Ocaq çatdıq köz olmadı.
Ömrlər dayaz olmadı,
Axı belə deməmişdim.

Oğurlandı sevincimiz,
Oğurlandı söz incimiz.
Qurban getdik biz ikimiz,
Axı belə deməmişdim.

Yaz çağırdıq, qış göründü,
Yolumuzda daş göründü.
Yağı zəhər aş göründü,
Axı belə deməmişdim.

Hə çoxmuş dünyanın yası,
Yoxmuş sevginin qaydası...
Indən belə nə faydası,
Axı belə deməmişdim.

***1972***

## GÜMANIM ALLAHA QALIB

Göynəyirəm için-için,
Gümanım Allaha qalıb.
Istəyimə çatmaq üçün,
Gümanım Allah qalıb.

Bu dünyada qalmaq üçün,
Arzu-kamı almaq üçün.
Öz sevgimə çatmaq üçün,
Gümanım Allaha qalıb.

Soruşmursan axı niyə?
Sığışmıram yerə, göyə...
Gözlərimi döyə-döyə,
Gümanım Allaha qalıb.

Bir gur ocaq çatım deyə,
Sığışmıram çərçivəyə.

Ümidimə çatım deyə,
Gümanım Allaha qalıb.

Sevgim daşa dəyib nədir?
Ürək evim əsir tir-tir...
Uzaqlardan bir səs gəlir...
Gümanım Allaha qalıb.

Məhəbbətim uçur-uçur,
Xanım məndən niyə qaçır?
Arzularım puçur-puçur,
Gümanım Allaha qalıb.

Yollardan qayalar baxır,
Dolu yağıb, sellər axır...
Məhəbbətim daşdan çıxır,
Gümanım Allaha qalıb.

Hə demirsən, yox demirsən,
Heç bilmirəm sən nə sirsən?
Görən hara tələsirsən?
Gümanım Allaha qalıb...
Gümanım Allaha qalıb...

***1972***

## BİRCƏ MƏN BİLİRƏM

Sənə yaraşmıram, sən bir mələksən,
(Gözəllər gözəlin qisməti olur?!)
Bircə mən bilirəm nəçisən, nəsən,
Bəs niyə gözəllik əkiz doğulmur?

Doğulur, Tanrımız hökm eyləyəndə,
Doğulur Tanrımız qismət yazanda.

Doğulur Allahın öz ələyində,
Bəzən bahar düşür ömrün yazında.

Bəlkə də yaşamaq qanunnudur bu,
Pis-pisə rast gəlsə məhv olub gedər.
Doldur piyaləni ardımca at su,
Yoxsa bu dünyanın axırı bitər.

Biz bu məhəbbətin oxşarıyıqsa,
Tarazlıq axtarıb tapacaq bizi.
Əzizim, qoy deyim sözümü qısa,
Xoşbəxtlik qoynuna qatacaq bizi.

Zər qoşa atılır bax biz də zərik,
Bizi ağ sularda gəzdirir qayıq.
Bircə ona demə nəçiyik, nəyik.
Bir böyük sevginin qanadlarıyıq.

Uğura gedən yol dözümdən keçir,
Şeytan əməlidir olmaq səbirsiz.
Yeri! Yolumuzu Tanrımız seçir,
Dünyada yoldaşıq mələklərə biz.

Gedirik taleyin yollarını biz,
Gedirik bir qırıq sevincimiz var.
Qırıb şeytanların qollarını biz...
(Şeytanlı yollara qar yağacaq qar)

Sənə yaraşmıram, sən bir mələksən,
(Gözəllər gözəlin qisməti olur?!)
Bircə mən bilirəm nəçisən, nəsən,
Bəs niyə gözəllik əkiz doğulmur?

***1972***

## O...

Gözlərinin didəsindən,
Həyatıma atılan o...
Dağ oyadan bir səsimdən,
Varlığıma qatıldı o...

Bir məhəbbət dastanından,
Xəbər tutdu xəbərçilər.
Sənin, mənim bostanımdan,
Baş qaldırdı nələr... Nələr...

Söz tapmağa eh, nə var ki...
Daş başları, daş da əzməz.
Yalan desən dil yanar ki,
Həqiqəti balta kəsməz.

Igid olan namərd olmaz,
Hamərd olmaq bir ləkədir.
Sevirsənsə kəsməz ayaz,
Demə ömür bir tikədi...

Gözlərinin didəsindən,
Həyatıma atıldı o...
Dağ oyadan bir səsimdən,
Varlığıma qatıldı o...

Sevdim onu... Sevdi məni?
Məhəbbətdən uzaq olduq.
Sevdim onu... Sevdi məni?
Bu dünyada yazıq olduq.

Sevmək deyilmiş məhəbbət,
Sevgi hisdir, sönə bilər?

Baxıb deyirdi səadət: -
«Bu məhəbbət ölə bilər»...

Yox, sevgini kəşf elədim,
Məhəbbətmi onun sonu?
Hamıya sevgi dilədim...
Məhəbbət eləsin onu.

Gözlərinin didəsindən,
Həyatıma atıldı o...
Dağ oyadan bir səsimdən,
Varlığıma qatıldı o...

***1972***

## BİR QIZIL XATİRƏ

Bir qızıl xatirə verdilər sənə,
Dedin ki, ünsiyyət yarada bilər.
Götürdün... Olsa da bu qurma səhnə,
Dedin ürəyində... Köməyə gələr.

Bir qızıl xatirə... Baxdın, ha baxdın,
Bir söz söyləmədin onu verənə.
Toppuş əllərinlə boynuna taxdın,
Qızıl ortalığı çəkdin yerinə.

Bu yalnız kiçik bir qızıl olsa da,
Yerdən ağır oldu, göylərdən uca.
Ürəydən ürəyə bir yol salsa da,
O bir tapmacaydı, qızıl tapmağa.

Qızıl bir xatirə... Hardasa bir gün,
Qızıldan körpülər salmalıydı o.
Qızıl bir xatirə... Hardasa hər gün,
Közərən bir ocaq olmalıydı o.

Bir qızıl xatirə... Görən nə oldu?
Sevgi tonqalına çevrilə bildi?
O qızıl xatirə bir səhnə oldu,
Ocaq qalandısa bəs kim isindi?

Ürəkdən gəlməyən sevgi belədir,
Hardasa ümidlər qırılmalıdı.
Sevgisiz qızıllar qırılır, itir,
Sevgi ürəklərdə yurd salmalıdı.

Sevgini qızılla, pulla alanlar,
Balaca yel əsdi töküləsidir.
Eşidin səsimi, siz ey adamlar,
Bax belə səhnələr söküləsidir.

Bir qızıl xatirə verdilər sənə,
Dedin ki, ünsiyyət yarada bilər.
Götürdün... Olsa da bu qurma səhnə,
Dedin ürəyində... Köməyə gələr.

***1972***

## NƏ DEYİM?.. NƏ DEYİM?..

Aramızda salamları kəsmədin,
Quru-quru bu salama nə deyim?
Sevən olub sevgi üstə əsmədin,
Daşa dönmüş bu halına nə deyim?

Xanım məni sınaqlara çəkirsən,
Xanım məni uşaq kimi bilirsən.
Sən içində xısın-xısın gülürsən,
Çiçəklənən dağ koluna nə deyim?

Yazıq ürək hələ gözlə deyirsə,
Tale mənim qollarımı əyirsə...

Dolu mənim istəyimi döyürsə,
Məni döyən bu doluna nə deyim?

Düz sözümü əyri kimi yozursan,
Eşq yolunda hər ağrıya hazırsan?
Əgər sənə ürək sözün yazırsa,
Sağ əlimə, sağ qoluma nə deyim?

Sevinmirsən sevincimə heç nədən,
Sevgimizə səd çəkirsən güllədən.
Çınqılları varlığımı titrədən,
Sizə gedən daş yoluma nə deyim?

Anam məni ilmə-ilmə sökəcək,
Anam mənim boğazıma çökəcək.
Yeri gəlsə ağac alıb döyəcək,
Xanım söylə mən anama nə deyim?

Ümid üstən tufan əsib bilmirəm,
Həzər kəsib, inad kəsib bilmirəm.
O görüşdən bu günədək gülmürəm,
Danışmırsan... Sağ-soluma nə deyim?

Bu eşq mənim saçlarımı yolacaq,
Külə dönüb əriyəcək od-ocaq.
Belə getsə gülüm çətin olacaq,
Bəsdir daha, gəl sınama?... Hə deyim?

***1972***

## DAŞ YONAN DEYİLƏM

Daş yonan deyiləm, şairəm gülüm,
Həyatda söz yazmaq gəlir əlimdən.
Sadə cümlələrdir torpağım, gilim,
Mürəkkəb cümlələr qurmalıyam mən.

Bir ev tikməliyəm söhbətdən-sözdən,
Içində bir damla isinə bilək.
Mənim başım çıxmır ipəkdən, bezdən,
Sən söylə, sən söylə axı nə edək?

Bir sevgi heykəli baxır qəlbimdən,
Sadə cümlələrim olub mürəkkəb.
Donub daş olmusan bu dünyada sən?
Qoymusan yollarda məni tənha, tək...

Sözlərdən bir heykəl yonmuşam sənə,
Daş heykəllər uçar, söz heykəli yox.
Səssiz heykəl kimi baxırsan mənə,
Sevirəm deməyə sanki dilin yox.

Sevirəm deməyim sənə həyatda?
Əgər sevirəmsə bəs nə deyim mən?
Yaman qarışıbdır bu gün həyat da.
Bir cürət toplayıb dinməlisən sən.

Əyri otursaq da gəl düz danışaq,
Mənmiyəm, sənmisən günahkar görən?
Əl-ələ yapışıb gəl o dağı aşaq,
Bunu mən deyirəm, gülüm sənə mən.

Başının altına daş qoyub gözəl,
O kimi gözləyir gözəl həyatda.
Sinəmə bir heykəl baş qoyub gözəl,
Qəribə görünür tale, həyat da.

Daş yonan deyiləm, şairəm gülüm,
Həyatda söz yazmaq gəlir əlimdən,
Sadə cümlələrdir torpağım, gilim,
Mürəkkəb cümlələr qurmalıyam mən.

***1972***

## QANIM QARALDI XANIM

Bu gün görmədim səni,
Qanım qaraldı xanım.
Duymadım nəfəsini,
Qanım qaraldı xanım.

Məndən xəbər bilmədin,
Dedin gözləməz yəqin.
Eh, görüşə gəlmədin,
Qanım qaraldı xanım.

Qoydun məni küçədə,
Dilə gəldi küçə də.
Hə gəzirsən burda, nə?
Qanım qaraldı xanım.

Gəlmədi xəbərin də,
Doğrandım kündə-kündə.
Taqət qalmadı məndə,
Qanım qaraldı xanım.

Zəng vurdum ünvanlara,
Sədləri yara-yara.
Qismət olmadı yara,
Qanım qaraldı xanım.

Çox fikirə düşdüm yar,
Verə bilmədim qərar.
Söndü gözümdə bahar,
Qanım qaraldı xanım.

Günəş endi göylərdən,
Saçım ağardı dən-dən...

Hağıl olub itdin sən,
Qanım qaraldı xanım.

Əlimdə soldu güllər,
Ürəyim dedi gələr...
Hələr çəkmədim, nələr...
Qanım qaraldı xanım.
***1972***

## AYIRA BİLMİRƏM

Şeytanlar qəlbinə elə girib ki,
Ayıra bilmirəm səni fikirdən.
Sayıram bir... İki... Yenə bir... İki...
Dərin dəryalarda qərq olmusan sən?

Axı sən olmazdın belə qayğılı,
Acı baxışların hardan doğulur?
Bilirəm mənimlə bağlıdı, bağlı,
Mən duya bilmədim bu necə olur?

Fırlanır başıma göydə ulduzlar,
Fırlanır başıma Günəş də, Yer də.
Sanıram qış gəlib itibdi bahar,
Görən nə gəzirsən sən bu səfərdə.

Deyirəm deməyim özümə qalır,
O qaynar baxışdan uzaq düşmüsən.
Bir qarış məzartək dünyam yarılır,
Var ikən elə bil yox olmusan sən.

Deyirəm yox bir gün öləcəyim var,
Boğazdan yapışır qara qəhərim.
Hələ bu həyatda görəcəyim var,
O biri dünyadan yoxdur xəbərim.

Yamanca olmusan qaraqabaq sən,
Yamanca soyuyub əlin, ürəyin.
Əzizim, aç söylə niyə beləsən,
Etmisən bağrımı sən dilim-dilim.

Tufanla qardaşam, küləklə həm yaş,
Elə bil gül, çiçək görməmişəm mən.
Heç fərqi qalmayıb, insan ol ya daş,
Sanki yer üzünə gəlməmişəm mən.

Şeytanlar qəlbinə elə girib ki,
Ayıra bilmirəm səni fikirdən.
Sayıram bir... İki... Yenə bir... İki...
Dərin dəryalarda qərq olmusan sən?

***1972***

## GÜNAH

Günah səndə deyil, məndədi günah,
Səni hər görəndə lal oldum neyçin?
Hiyə səsləmədin məni ay Allah,
Müqəddəs sevgidən danışmaq üçün.

Açardım qəlbimi bircə sözlə mən,
Bilərdim nə edib, etməməliyəm.
Deyərdim özümə, - Bir az gözlə sən...
Gör indi kimlərlə yol getməməliyəm...

Bu sözdən danışmaq kişi işidir,
Bu qədər o dözdü... Qız gözləməz ki...
Bu günah deyilsə onda bəs nədir?
Sevirəm sözünü qız söyləməz ki...

Gec çatdı dünyanın qanunu mənə,
Qalmışam baharla qış arasında.

Insanlar, qaytarsın o kəsi mənə?
Qalmışam qismətin qasırğasında.

Indi yol gəzirəm, yol axtarıram,
O qızın qəlbinə necə girim mən?
Indi sərinləşib, soyuyub aram,
Indi tək qalmışam, indi birəm mən.

Tökülür üstümə şimşəyin odu,
Yapışıb yaxamdan dağların seli.
Yaşayır qəlbimdə o qızın adı,
Yaşayır əlimdə o qızın əli.

Bəlkə də danışsam qayıdar, gələr,
Onu bacarmıram, cəsarət qaçır.
Baxıram yoluna onun hər səhər,
Başımın içində raketlər uçur.

Mən kimi göndərim, mən kimə deyim,
Deməzmi bəs o bəy özü hardadır?
Qorxuram tərsinə fırlana səyim...
O hardan bilir ki, gözüm yoldadır...

***1972***

## BAĞLAMA ÖZÜNƏ, BAĞLAMA MƏNİ

Səni qəmli gördüm, dünam qarışdı,
Bağlama özünə bağlama məni.
Bizim taleyimiz dolaş-dolaşdı,
Bağlama özünə, bağlama məni.

Yadında qalıbmı bax o möcüzə...
Bəzi ağaclar da oxşarmış bizə.

Yadıma düşəndə dönürəm közə,
Bağlama özünə, bağlama məni.

Bəzən bu dünyadan uçub gedirsən,
Müqəddəs sevgini tel-tel edirsən.
Daşları ağaran çay oluram mən,
Bağlama özünə, bağlama məni,.

Qorxuram həsrətdən sarıla güllər,
Dünyada bir sevgi mələr, nə mələr...
Bəzən dizələrimdə çatılır əllər,
Bağlama özünə, bağlama məni.

Yuxular görürəm rəngləri qara,
Gedirəm, bilmirəm gedirəm hara.
Sağalmır əzizim vurduğun yara,
Bağlama özünə, bağlama məni.

Həyin var, eh mənə qalmayacaqsan...
Şirin bir xatirə olmayacaqsan?
Sevgi kamanını çalmayacaqsan?
Bağlama özünə, bağlama məni.

Ayrılıq dünyada ən ağır andır,
Mənim yazdıqlarım hələ gümandır.
Əgər sınacamsa, gecikmə, sındır,
Bağlma özünə, bağlama məni.

Hərdən elə olur, boğulur səsim,
Hərdən elə olur donur nəfəsim.
Verdiyim salamı de necə kəsim?
Bağlama özünə, bağlama məni.

***1972***

## AĞ HEYKƏLƏ DÖNƏRİK BİZ

Mən bir dünya, sən bir dünya,
Istəyincə yaşa gülüm.
Hə gül mənə, nə də qına,
Könül dönər daşa gülüm.

Düşər yolum dərələrə,
Qayalara baş qoyaram.
Məcnun doğularmış bir də,
Mən də ona bəli, tayam.

Sözə baxmır qəlbim gözəl,
Gözəlliyin günahkardı...
Ha deyirəm ürək «düzəl»,
Aramızda qalmalaqdı.

Çəkir məni dara ürək,
Dediyindən dönmür geri.
Doğmayaydı anam gərək,
Heyləyərdi mən nəfəri.

Sevməsən də məni xanım,
Insan kimi yadda saxla.
Gərək olsa bir gün adım,
Aç qəlbini, yoxla, yoxla...

Sevirsənsə tut qolumdan,
Qoy aparım dağa səni.
Yapış «dağdağa» kolundan,
Yoxsa kəsər nəzər məni.

Onda ruhum təzələnər,
Bir adsıza tay olmaram.

Xatirələr səni didər,
Saçlarına dolanaram.

Görərsənki nədir torpaq,
Çəçmənləri gülər, gülüm.
Sənli günlər vərəq-vərəq,
Ağ heykələ dönər gülüm.

***1972***

## MƏHƏBBƏT İÇİNDƏ «MƏHƏBBƏT»

Sənin ürəyinin arzusu başqa,
Mənim ürəyimin odu möcüzə.
Acı su bambaşqa, şirin su başqa,
Çox şeyin dünyada adı möcüzə.

Sənin də kimliyin bir möcüzədir,
Hə sevə bilirsən, nə də ayrıla.
Səni için didir, ürəyin didir,
Gərək bu dünyada dönə yar-yara.

Birini sevirsən, o səni sevmir,
Hə bilim, bəlkə də bu bir günahdır.
Biri yol qayıdır, biri yol gedir,
Qaranlıq məqamlar gülüm yamandır.

Açmağın dərd olur, qçmağın bəla,
Məhəbbət içində «məhəbbət» yaşar.
Ağa ağ deməsən, qaraya qara,
Ömür gün əriyər, doğan gün batar.

Hə edim? Dünyada qandığım budu,
Yoldaşam dağımla, bir də düzümlə.

Yığışan a dostlar, qalayın odu,
Isinmək istəyir qəlbim sizinlə.

Mənə yol göstərin, azıb qalmışam,
Haradan haraya getməliyəm mən?
Gəlib toxunsanız görərsiz daşam,
Qaldırın qoy baxım dağ zirvəsindən.

O xanım eşqini buzlara verib?
Bəlkə, buzlar üstə qalan mənəm, mən?!
Allah örpəyini üstümə sərib,
Çətin ki, yollardan gülüm, dönəm mən.

Dərdim çox ağırdır, ağırdan ağır,
Ay Allah səbir ver daşıya bilim.
Hərdən yuxularda sən məni çağır,
Dua et, bir təhər yaşıya bilim...

***1972***

## PAYIZ GƏLİB DEYİRƏM

Ürəyimə çöküb duman, sızıb sis,
Az qalıram duram gələm evinə.
Əhd bağladıq biz səninlə tər-təmiz.
Bir zəng gəlmir... Qəlbim evi sevinə.

Bir zəng gəlmir... Telefonu kəsiblər?
Bir bu hissim tapır məni özündə.
Otaq boyu fırlanıram sərbə-sər,
Düyün düşür dodağımda sözüm də.

Payız gəlib, qubar qopub çiynimə,
Payız kimi buludlarım dolubdu.

Küləkləri geyinmişəm əynimə,
Məhəbbətim niyə belə soyuqdu?

Hiyə mənə zəng eləmir?... Bir azdan,
Evimizə yığışacaq kimim var.
Hiyə mənə zəng eləmir, ay aman,
Görüb bizi, bizi güdən uşaqlar.

Yağış yağır ev içində üstümə,
Elə bil ki, bu dünyadan köçürəm.
Alışıram xanım çıxmır tüstümə,
Bir şüşəni bir qurtuma içirəm.

Bizə düşmür onun hər vaxt gülməyi,
Tutasıdır yaxamızdan böyüklər.
Bir zəng vurmur, başa salım hər şeyi,
Qurumasın sinəmizdə ürəklər.

Bəlkə kimsə evlərinə gəlibdir?
Yox, zəng vursam bütün aləm qarışar.
Bəlkə bizi görüş vaxtı görüblər? -
Yox, yox onda qohum-qardaş dalaşar.

Zəng çalınır, qaldırıram.... Kimsən sən?
Söyləyir ki, səhv yığmışam, bağışla.
Bir əlac var, durum çıxım mən evdən,
Sirdaş olum məni döyən yağışla.

***1972***

## YOL GEDİRƏM

Mən naşıyam nə bilirəm,
O, qız onu üstün tutdu?...
Gözlərimi birəm-birəm,
Gözəl yandın tüstün tutdu.

Hədən oldu, niyə oldu,
Bəlkə mənə belə gəlir.
Yox deyəsən dolan doldu,
Artıq yarım dilə gəlir.

Yəqin yoxmuş cəsarətim,
Külək imiş ağ gülüşlər.
Hanı mənim məhəbbətim,
Harda qaldı o görüşlər.

Gəl bir otur, vərəqləyək,
Kimə yandın, kimə yandım?
Eh bəlkə də sən bilərək,
Işığımda daldalandın.

Ona, mənə nələr açdın,
Sevgidirmi bu əzizim?
Gahdan  ondan məndən qaçdın,
Günahımız nədir bizim?

Gör ömrümə nələr yazdın,
Sonluğunu bilə-bilə.
Gülə-gülə qəbir qazdın,
Heyif... Heyif... O illərə.

Bir əlində iki sevgi...
Oyuncaqmış həyat sənə.
Mən demirəm, özün de ki,
Dağ çəkmisən gülüm mənə.

Xanım təki xoşbəxt yaşa,
Əzabına dözərəm mən.
Dönmə yaşa, dönmə daşa,
(Sənə baxıb yol gedirəm...)

***1972***

## BİR ZAMAN TAPARSAN

Eh, sənə nə var ki, sevdiyim xanım,
Araz aşığından, Kür topuğundan.
Sən gedə bilməzsən o yolu canım,
Mənim kədərimdən, mənim ahımdan.

Yox, yox qarğımaram gedirsənsə get,
Yarğanlar, uçrumlar gözləyir səni.
Sən bilən yaxşıdır, bildiyini et,
Amma əziz saxla xatirələri.

Sevginin odunda işıq gəzmişik,
Sevginin odunda bitib arzular.
Dünyanın ən nadir incisi bizik,
Bəlkə də sevgidən yaranıb bahar!

Yarğanlar, uçrumlar səni qucanda,
Şirin xatirələr yetər səsinə.
Bir əlcə çörəyi gəzmə acanda,
Mənim mələklərim çatrırar sənə.

Mənim mələklərim tutar əlindən,
Onlar qucar səni gözlərdə qayğı.
Bir anda ağ qara dönən telindən,
Qara fırçasıyla üfürər ağı.

Tanıya üz tutub sevmişəm səni,
Tanrı yaşadacaq səni, məni də.
Tanrıdan heç zaman üzmə əlini,
Donsan buzlaqlarda, itsən dənizdə.

Yadında saxla ki, istək yox olmur,
Dolanır başında, gəzir qanında.

Yadında saxla ki, sevən çox olmur,
Çox olmur dünyada ən şirin an da.

Yadında saxla ki, hələ mən varam,
Bir əlim Tanrıda, biri də səndə.
Sənə yar demişəm, yenə də yaram,
Bir zaman taparsan özünü məndə...

***1972***

## QAR ƏLƏNİR

Məni yiyən baxışlara,
Əlçim-əlçim qar ələnir.
Ürəyimdə naxışlara,
Əlçim-əlçim qar ələnir...

Karvanını çəkib getdin,
Heç bilirsən sən nə etdin?
Könüldən yox gözdən itdin,
Əlçim-əlçim qar ələnir...

Hə bir cığır, nə iz qalıb,
Ürəyimdə bir köz qalıb.
Həyat məni dərdə salıb...
Əlçim-əlçim qar ələnir...

Yumruğ boyda daşa tayam,
Daşı üzdə qalan çayam.
Bu dünyaya acı payam...
Əlçim-əlçim qar ələnir...

Həzər kəsib sevgimizi,
Qorumadı tanrı bizi?
Yox, yazıram söz əvəzi,
Əlçim-əlçim qar ələnir...

Ümidlərim puçur-puçur,
Dəli olub uçur, uçur.
Ayağımdan torpaq qaçır,
Əlçim-əlçim qar ələnir...

Qəm eləmə, var gələcək!
Bilirəm ki, gün gələcək?...
Həyat bizi tən böləcək...
Əlçim-əlçim qar ələnir...

Sıxır səni fikirlərin,
Dəryaların olub dərin.
Cənnətimi olacaq yerin?
Əlçim-əlçim qar ələnir...

***1972***

## TİKANLAR SƏPİLİR

Salmaq istəyirlər səni gözümdən,
Adına nəğmələr qoşurlar sənin.
Ölçülür-biçilir, bezim özümdən,
Tikanlar səpilir yoluma mənim.

Məhəbbət davası başlayıb nədir?
Məni sevsələr də, səni sevirəm.
Sənə söz yazmışam mən bircə sətir,
Sevgi dövlət deyil çevriliş edəm.

Tikilən ömrünün kimdir memarı?
Torpağı mənəmsə, sənsən gili də.
Əgər qısqanmasa gülüm yar-yarı,
Hamı öndə gedər, biz də geridə.

Sən mənim gözümdə dağ əzəmətli,
Biz şimşək olmuşuq, qoşa çaxmışıq.
Mən yerə vurmaram gülüm zəhməti,
Axı alovlardan, oddan çıxmışıq.

Təmiz söz, məhəbbət miqyasa gəlməz,
Dünyada bu eşqin başqadır yeri.
Mən yaxşı bilirəm qaya ələnməz,
Sevgimiz qayadar, yoxsa ki, dili...

Ucuzluq yaraşmır nə mənə, sənə,
Şamın işığını nur etməliyik.
Hər nağıl deyənə gərməsək sinə,
Sevgi səhnəsindən biz getməliyik.

Məhəbbət gülləyə, oxa baxmayır,
Hər ömrün özünün görəcəyi var.
Qara fikirləri özündən ayır,
Sənin bir işıqlı gələcəyin var.

Salmaq istəyirlər səni gözümdən,
Adına nəğmələr qoşurlar sənin.
Ölçülür-biçilir, bezim özümdən,
Tikanlar səpilir yoluma mənim.

***1972***

## MÖHTACAM

Bir istəyim ürəyimdə çat verib,
Can yandıran sənətkara möhtacam.
Soyuq düşüb, eh... Deyəsən qış girib,
Indən belə bir barara möhtacam.

Insan oğlu həqiqəti gec duyur,
Hiss etmir ki, yavaş-yavaş soyuyur.

Bəzən olur xumar-xumar uyuyur,
Eh, kim bilir, gülüm, hara möhtacam?

Könül evim başdan-başa bir yara,
Loğmansansa uzaq durma, gəl sara.
Dönük sıxıb bu dünyada yar-yara,
Məni duyan əziz yara möhtacam.

Yar yarından gərək uzaq düşməsin,
Dirəyimdir, dərmanımdır yar səsi.
Tufan qopub necə alım nəfəsi,
Harın-narın yağan qara möhtacam.

Hal qalmayıb, kimdən edim mən giley,
Bir sızıltı qoparıbdır darda ney.
Günəş seli pəncərəmi döyür hey,
Göz görsə də qardaş, nura möhtacam.

Məni kimi bu dünyada dolan yox,
Göynəyirəm fəryadıma qalan yox.
Eh... Muğamı pərdə-pərdə çalan yox,
Simi qırıq, sınıq tara möhtacam.

Eh, nə qədər ayrılığa dözmüşəm,
Mən dalınca daban-daban gəzmişəm.
Balıq olub dəryalardan bezmişəm?
Tor atan yox, suda tora möhtacam.

O həsrətin caynağında qalmışam,
Gözlərindən zəhər yağan bir daşam.
Ocaq sönüb, kül çevirən olmuşam,
Gül altında yatan qora möhtacam.

***1972***

## SON ZAMANLAR

Son zamanlar telefonu qaldırmırsan,
Deyirsən ki, ələ salır naməlumlar.
Eh, yaşamaq bizim üçün olmur asan,
Gönü qalın o kəslərə ar olsun, ar...

Zəng vurdular götür dinlə, danışmasın,
O kəslərdə danışmağa qeyrət hanı?
Bu kafirlər nə eləsin? Alışmasın?
O kəslərin diri-diri çıxır canı.

Deyirsən ki, nə danışır, nə dinir o,
Zəhər edir şən gününü bilə-bilə.
Əməlindən nə çəkinir, nə dönür o,
Boğur məni ürəyində gülə-gülə.

Hardan doğdu, kimdən doğdu, niyə doğdu?
Bu zənglərin arxasında nə dayanır?
Bulud gəldi, külək qopdu, yağış yağdı,
Duyursanmı, məhəbbətim parlanır?

Fikir etmə, məni sənə çox bilir o,
Bu yolların yolçusuna nömrəsidir...
Telefonu qaldır söylə alo... Alo..
Bircə kəlmə acı söz de, o bəsidir.

Kimə deyim, kimlə bölüm bu dərdi mən?
Eşqimizə daş atanlar azalmayır.
Bu ağrıya dözməliyəm, dözməlisən!
Yoxsa sevgi yollarını basar çayır.

Kül olmasın qəlbimizdə yanan ocaq,
Satma gülüm, sevgimizi bir nadana.

Bax bu sevgi yolumuza nur saçacaq,
Bilirsənmi nə edirsən qana-qana?

Son zamanlar telefonu qaldırmırsan,
Deyirsən ki, ələ salır naməlumlar.
Eh, yaşamaq bizim üçün olmur asan,
Gönü qalın o kəslərə ar olsun, ar...

***1972***

## ŞEİRLƏR YAZIRAM

Şeirlər yazıram adına sənin,
Əridə bilmirəm daş ürəyini.
Məktublar üstümə qayıdır mənim,
Atır Yer üzünə qış öyrəpi.

Qar heykəl yonuram sənə oxşasın,
Oxşada bilmirəm heç bircə qırıq.
Bu işıqlı qara qarışır başım,
Bir də görürəm ki, düşüb qaranlıq.

Hissim buludlara qoşulub, gedir,
Sevgilim buludlar arasındadır?
Ümidlər doğulur, ümidlər itir,
Xanım ürəyimin parçasındadır.

Mənə elə gəlir o göydən baxır,
Göndərir qar selin üstümə mənim.
Üstümə göylərdən məktublar yağır,
Hə edim? Oxuya bilmirəm birin...

Mən isə yazıram odlu, alovlu,
Verirəm küləklər çatdırsın ona.
Baxıram, açılmır qəlbimin donu,
Ya məni alqışla, ya məni qına.

Sevib sevilənlər bilməlidir ki,
Sevginin qaşıda, yazı da olur.
Sevib-sevilənlər bilməlidir ki,
Hardansa yaş gəlir gözlər də dolur.

Yağır qar dənəsi iridən-iri,
Sığnacaq tapmıram qoynunda sənin.
Görünür gecənin, gündüzün yeri,
Qarışır kalıma dəymişim mənim.

Şeirlər yazıram adınla bağlı,
Sevgi şəkər dadır, sevgi bal dadır.
Şeirlər yazıram sabah soraqlı,
Məni də özüylə aparasıdır.

***1972***

## UNUT... UNUT...

Sən məndən də dözümlüsən,
Döz ağrıya, döz çətinə.
Gəl söz eləmə sözümü sən,
Yem olmayaq yol ötənə.

Biz laylalar laylasıyıq,
Fərq eləməz bizdən bəzən.
Dağda qonaq qalasıyıq,
Demirəm ki, hər gün, bəzən...

Itər-batar giley-güzar,
Buludlardan don biçərsən.
O dağlara da səsin sızar,
Qayanı da güldürərsən.

Danışarıq ordan-burdan,
Cəm edərik çobanları.
Bax elə ki, qızardı dan,
Vərəqlərsən çinarları.

Qəm dediyin sona yetər,
Sevgililər batmaz yasa.
Daş üstündə lalə bitər,
Allah özü imzalasa.

Dayaq olub tanrı bizə,
Ərizəmizə o qol çəkib.
Çatasıyıq biz gündüzə,
Addım-addım, tikə-tikə.

Pay alnan ömür ki, var,
O, qismətindən qaça bilməz.
Qara, qonur ağ ayılar,
Qanad açıb uça bilməz.

Yaylıq bağla sən belinə,
Işıqların selini tut.
Çıxaq yola gülə-gülə,
Ağrıları gülüm unut...

***1972***

## XANIM

Onu xanım çağırmışam,
Söyləmə ki, bu söz nədir?
Kim deyir ki, yanılmışam?
Bu qəlbimin tələbidir!..

Eh, bu sözün işığında,
Ovunuram, dincəlirəm.
Mən bu sözü çağıranda,
O dünyadan yol gəlirəm.

Söyləsəniz nə addır o...
Yox, deməyin, yanar bağrım...
Sevirəmsə xanımdır o,
Məhəbbəti çil-çırağım.

O eşqimin göylərinə,
Səpələnmiş ulduzumu?
Çağırmışam onu belə,
Mənim üçün yanan odu.

Mən «gülüm«də çağırmışam,
Çağırmışam «gözəl», «pəri»...
Xanım dedim, əridi şam,
Əridi o diri-diri.

Coşur canda hissdə, qan da,
«Xanım» mənə bir dünyadır.
Onu xanım çağıranda,
Söz də çatır, səs də çatır.

O xanımlar xanımıdı,
Taleyimin əzəlidi.
Sən çağırdın bağrım yandı...
O gözəllər gözəlidi.

Duyğularım, nəfəsim də,
Bu kəlmədən qidalanır.
Şərqim, ağım, gur səsim də,
Nuru o xanımdan alır.

***1972***

## ÖZÜMƏ HARDASA...

Hecə var deyirəm bəli, düzünü,
Həyatda uzaqsan əsəbdən. kindən.
Hərdən görmək olmur vallah üzünü,
Özümə hardasa yer gəzirəm mən...

Ağrıdır, kövrəldir sənsizlik məni,
Sənsiz özünü də tanımır adam.
Əlimlə, saçımda gəzirəm səni,
Sənsiz yaddaşımdan silinir adım.

Kimə nə etmişəm anlamaq olmur,
Kimin toyuğuna daş atmışam mən.
Əzizim ürəyim səninlə vurur,
Hər şeyi məndən də yaxşı bilirsən.

Çəkilir gözümün işığı, nuru,
Tutur göy üzünü qara buludlar.
Deyirsən, özünü əsəbdən qoru,
Eh... Bizi izləyən əjdahalar var.

Çəkmək istəyirlər ipi ortadan,
Hardansa zəng edib demirlər: - Alo.
Yerində qəzəbdən quruyur adam,
Insan cildində şeytandır o... O...

Görən niyə demir adını o kəs,
Dabbağda gönünə bələdəm onun.
Ondan soraq verir bircə kəlmə səs,
O bilir, danışsa sökərəm onu.

Sıxmasın qəlbini dedi-qodular,
Onlar da dünyanın qara rəngidi.

Məni şeytanlardan uzağa apar,
Bu bizim sevginin polad zəngidi.

Hecə var deyirəm bəli, düzünü,
Həyatda uzaqsan əsəbdən, kindən.
Hərdən görmək olmur vallah üzünü,
Özümə hardasa yer gəzirəm mən...
***1972***

## SƏHƏR-SƏHƏR

Demişdin gələcəksən,
Gəlmədin səhər-səhər.
Demişdim güləcəm mən,
Gülmədim səhər-səhər.

Ürək mənlə bölüşdü,
Dedi: saxta görüşdü.
Əlimdən əsdi, düşdü,
Kəlbətin səhər-səhər.

Yanıb sönəcəyimi,
Hələr edəcəyimi.
Ruhun öləcəyini,
Bilmədim səhər-səhər.

Səhər gecəyə döndü...
Heynim necəyə döndü...
Aymı, Günəşmi söndü?
Hə edim səhər-səhər?

Evdən çıxdım astaca,
Günəş nəfəs alınca.
Hürdü xanım dalımca,
Öz itim səhər-səhər.

Gülüm, mənəm bəxti yaş,
Eyvanı yaş, taxtı yaş.
Gözlərimdən baxdı yaş,
Silmədim səhər-səhər.

Sizin tərəf qardımı?
Mən edərdim yardımı.
Deyəcəkdim ardını,
Söhbətin səhər-səhər.

Daşa döndü gümanım,
Dondu damarda qanım.
Gərək öləydim xanım,
Ölmədim səhər-səhər.

***1972***

## RUHUMDA QALACAQSAN

Sən o sənliyindən çıxmısan gözəl,
Əridə bilməyir baxışın məni.
Başqa bir dünyaydın əzizim, əzəl,
Göylərə çəkibdi alqışın məni.

Sənə yaraşmayır heç bu görkəmin,
Sən belə durumda çox duracaqsan?
Dərin dəryalarda batacaq gəmim,
Xanım, sahillərdə tək qalacaqsan?..

De sənə nə oldu? Kimdi günahkar?..
Bəlkə dolaylarda çaşıb qalmısan?
Səsinmi batıbdı, ya olmuşam kar?
Hiyə sevgimizi tora salmısan?

Sən belə deyildin bəs nədən oldu?
Bəlkə qarğış kəsib əzizim, səni?

O qaynar baxışlar de niyə soldu?
Bəlkə də günahkar bilirsən məni?

Yəqin ki, xoşuna gəlməmişəm mən,
De üstün olanın varmı həyatda.
Hələ yol gedirəm ölməmişəm mən,
Elədi, belədi... Gözəl, həyat da.

Səni sevmədim ki, qoşulum dərdə,
Səni sevmədim ki, bir gün ayrılaq.
O zaman gözümdə gül bitən yerdə,
Bu gün yuva salıb daş qalaq-qalaq.

Hə sənə, nə mənə yaraşmır bu ad,
Gəl silək ürəkdən kədəri, kini.
Bizi uşaq kimi gözləyir murad,
Biz, biz olmalıyıq dünənki kimi.

Səni sevəyimin sonu görünmür,
Rəngin dəyişməsi sevməmək deyil.
Əbədi verilmir insana ömür,
Ruhum yaşayacaq yüz il... Milyon il...

***1972***

## ŞEYTAN ALDADIR SƏNİ

Bilirsən sevmək nədir?
Sevmək birləşmək deyil!
Birləşmək fəlsəfədir,
Heç bu da sevmək deyil!

Sevgi qəlbin yanğısı,
Ürəyin fəryadıdır.

Nizaminin duyğusu,
Şirinin fəradıdır.

Çarpışasan gərək sən,
Gəlib bir olmaq üçün.
Dərəsən, dərilləsən,
Ürəkdə qalmaq üçün.

Əzizim birləşməyin,
Sevgidən keçir yolu.
Mənə dəli deməyin,
Yağar göylərdən dolu.

Məcnun dəli olmayıb.
Məcnun da birləşməyib...
O gül kimi solmayıb,
O yaşayır ölməyib...

Sevginin əvvəli var,
Sonu varmı? Bilmirəm...
Sevgim sənindir, apar,
Qar yağır birəm-birəm.

Günləri salma yada,
Sən közərən ocaqsan.
Birləşmək olmasa da,
Sevgilim olacaqsan...

Bilsəydin nə deyirəm,
Qəhər boğmazdı məni.
Qar yağır birəm-birəm,
Şeytan aldadır səni,
Şeytan aldadır səni...

***1972***

## QALACAQ DÜNYADA

Səni də, məni də torpaq udacaq,
Allahın hökmüdür unutmayaq biz.
Gülüm, əhdimizə gəl sadiq qalaq,
Qalacaq dünyada məhəbbətimiz.

Bizim sevgimiz də olacaq örnək,
Nəsildər-nəsilə ötürəcəkdir.
Çoxları açacaq, vərəqləyəcək,
Bizdən bir qığılcım püskürəcəkdir.

Leylinin Məcnunun dastanı kimi,
Əllər gəzəsidir məhəbbətimiz.
Bəlkə də kimini boğacaq qəmi,
Ruhlar dünyasında olasıyıq biz.

Hə şalaq deyəcək, bizə nə sillə,
Allahın adıyla olub qəlbimiz.
Yetişib Allaha biz pill-pillə,
Bu qoca dünyada iz qoyacaq, iz.

Kimlərsə həyatdan bir gün köçəndə,
Qaya da olsalar ağlayacaqlar.
Günaha batanlar, günah içində,
O bir tək Allaha yalvaracaqlar.

Səni kövrəltməsin mənim sözlərim,
Biz hələ qıvrağıq, biz hələ sağıq.
Qoy adam yeyənlər döysün gözlərin,
Hə yığıb aparır... Saat... Çıq-çırıq...

Əzrail küçədə, evlərdə gəzir,
Gözünə sataşdın, aparasıdır.

Insanlar, kasıba payların nəzir,
Yoxsa ki, sevginiz don atasıdır.

Səni də, məni də torpaq udacaq,
Allahın hökmüdür, unutmayaq biz.
Gülüm, əhdimizə gəl sadiq qalaq,
Qalacaq dünyada məhəbbətimiz.

***1972***

## DU... DU...

Zəng vurdum əlimdə dəstək titrədi,
Zəng vurdum dəstəyi götürdü, qoydu.
Bir də zəng elədim çox qəribədi,
Telefon əlimdə qışqırdı... Du... Du...

Bəlkə səhf yığmışam dedim nömrəni,
Düz-dünya gözümdə itirdi rəngin.
Xəyallar yanına apardı məni,
Yenə də yığanda əlim ləngidi.

Təsəlli topladım bir az özümdə,
Götür qoy elədim ağı, qaranı.
Səbrimə dözmədi mənim, dözüm də,
Yenə barmaqlarım yağdı oranı.

Götürən olmadı bir də telefonu,
Çatdıra bilmədim sözümü ona.
Yetişdi sevincin əvvəli, sonu,
Vurnuxdum otaqda o yan bu yana.

Şad xəbər içimdə alışdı-yandı.
Hə bir su tapdı, nə söndürdülər.
Dırnaqdan saçıma nə var oyandı,
Hə bir ağladılar, nə də güldülər.

Azdım, suallara cavab tapmadım,
Tufanlar içimdə baş qaldırdılar.
Çıxmışdı yadımdan öz doğma adım,
Başımın üstündə gəzdi buludlar.

Görən nə olmuşdu bu ad günündə?
Bəlkə düz etmirdim əzizim bunu.
Bəlkə istəmirdin bu şad günündə...
Sorğunun, sualın bitməzdi sonu...

Zəng vurdum, əlimdə dəstək titrədi,
Zəng vurdum dəstəyi götürdü, qoydu.
Bir də zəng elədim... çox qəribədi,
Telefon əlimdə qışqırdı... Du... Du...

***1972***

## DOMİNO XƏSTƏSI

Bir xəstə soruşdu: - Nədən yazırsan?
Bu qədər düşünmək yaramaz sənə.
Yenə də soruşdu: - Adam, ay adam...
Axı girməyirdi o ürəyimə...

Bilirdim dolanı boşaldım gərək,
Bilmirdi nə qədər yazsam qurtarmaz.
Bilmirdi çırpınır evində ürək,
Onu da bilmirdi, az yazırdım az...

Görmürdü eşqimin o, rənglərini,
Bəlkə də söz-söhbət gəzirdi adam.
Görmürdü içimdə əngillikləri,
Pozurdu qaydamı, qoymurdu yazam.

Kimsə udmağa, ya uduzmağa,
«Domino» əlindən düşmürdü yerə.
Girərdi «döyüşə» o lövğa-lovğa,
Sanki onun idi bu dağ, o dərə...

«Domino» olmuşdu onun sevgisi,
Daşlar düz gələndə çiçəklənərdi.
Dünyanı başına alardı səsi,
Işi tərs gələndə milçəklənərdi.

Çığallıq edərdi uduzanda o,
Ikinin yerinə biri qoyardı.
Mən şeir yazırdım pul yığanda o,
Qələm yorulardı, qələm doyardı?

Günləri beləcə vurardıq başa,
Kimisi qələmlə, kimisi daşla.
Hərdən də deyirdi mənə: - Bağışla,
Tükdə yaraşmırdı başında başa.

Bir xəstə soruşdu: - Nədən yazırsan?
Bu qədər düşünmək yaramaz sənə.
Yenə də soruşdu: - Adam, ay adam...
Axı girməyirdi o ürəyimə...

***1972***

## MƏNİM GÖZLƏRİMDƏ

Mənə belə gəlir, bəlkə belədir,
Mənim hisslərimə soyuq olmusan.
Məhəbbət sənin üçün bir əyləncədir?
Bəlkə kimlərisə yada salmısan?

Inana bilmirəm, inanıram da,
Şeytan çıxa bilər sənin qarşına.
Əzizim, unutma, saxla yadında,
Ürəkdə vuranım çıxıb qarşıma.

Inana bilmirəm bu durğunluğa,
Yenidən çəkəsən, çəkiləsən sən...
Çevril yollara bax bircə anlığa.
Gör bir kim olmuşam, kim olmusan sən?

Döymüşəm qapını... Su istəmirəm,
Üörək istəmirəm... Eşqin bəsimdi.
Sən Əsli deyilsən, mən də ki, Kərəm,
Sevgimiz bəs kimə möhtacdır indi?

Bəlkə fırladırlar səni səhnədə,
Qalmısan boğmalar arasında sən.
Uçular, sökülər bil ki, səhnə də,
Hələ ki, doğmalar arasındasan.

Sənin gözlərində nəçiyəm, nəyəm?
Kimə oxşadırsan, əzizim, məni.
Yox, mən bir atımlıq barıd deyiləm,
Sevirəm, sevəcək ruhum da səni.

Mən nə danışıram, bu nə xəyaldı?
Hazıram çəkməyə hər əzabı mən.
Olanlar, keçənlər arxada qaldı,
Mərhəmət gözləmə, əzizim, məndən.

Günahım günaha qarışıb, nədir?
Elə bil olmuşuq kisəmə möhtac.
Sənin gözlərində sevgi səhnədir...
Mənim gözlərimdə işıq ehtiyac...

***1972***

## QAYIT, QAYIDA BİLSƏN

Bilirəm o anlar dönməyəcəkdir,
Bilirəm o anlar daha uzaqdır.
Ürəyimin odu sönməyəcəkdir,
Hə qədər məhəbbət mənə dayaqdır.

Quş olub uçuram ilkin günlərə,
Bəlkə də mələklər aparır məni?
Alışıb yanıram göz görə-görə,
Görə bilməyirəm közərən səni.

Səni mən sevmişəm, mən göyərtmişəm,
Kimsə bu ruzuma tor ata bilməz.
Səni naləm kəsər-demirəm, desəm,
Taleyin baharı üzünə gülməz.

Xanım diz çökürəm... Sevmirsən sevmə,
Mənim saf eşqimi ancaq unutma,
Sanma ki, günləri vermişəm yelə,
Sanma ki, deyəcəm: - Bir də qayıtma.

Axı məhəbbətim açmazdı çiçək,
Axı bu dünyada sən olmasaydın.
Sən ey sözü şəkər, baxışı ipək,
Niyə rəqəmləri tərsinə saydın?

Belə deməmişdik axı əzizim,
Bəlkə boz dumanlar azdırır məni.
Niyə belə oldu sonumuz bizim?
Niyə qamarlayıb fikirlər səni?

İnana bilmirəm uzaqlaşırsan,
İnana bilmirəm itəcəyinə.

Onu bilirəm ki, dağlar aşırsan,
Bu yollar yetəcək gələcəyinə.

Qayıt ömrümə sən, qayıda bilsən,
Qayıt qatar çəkməz xatirələrlə.
Qayıt varlığıma gülsən, çiçəksən,
Qayıt, yollardadır gözlərim hələ...

***1972***

## NİYƏ?.. NİYƏ?..

O gözümdə dağ laləsi,
Yola bilməz onu külək.
O sevgimin şəlaləsi,
Nəğməsindən doymur ürək.

Bir ev tapdım çırağında,
Arzularım oldu dən-dən.
Onu, o gün sorağında,
Ucalığa səslədim mən.

İki ürək arasında,
Xəyalımda körpü saldım.
Bir məhəbbət dəryasında,
Bir o qaldı, bir mən qaldım.

Xatirələr pəncəsində,
O qayığı döydü sular.
Dözümlülər cərgəsində,
Gülürəm mən, gülür bahar.

Heykəl yonmuşam sevgiyə,
Ürəyimin qabarıyla.
Yonasıyam hər vaxt... Niyə?..
Çün tükənmir nəğmə, layla...

Tükənməyir məhəbbətin,
Şirin-şirin sualları.
Tükənməyir səadətin,
Qədim, təzə nağılları.

Tükənməyən yar işığı,
Boylanacaq üfüqlərdən.
Həm günümüz, həm ayımız.
Doğulacaq səndən, məndən.

Heykəl yonmuşam sevgiyə,
Ürəyimin qabarıyla.
Yonasıyam hər vaxt... Niyə?
Çün tükənmir nəğmə, layla.

***1972***

## YALNIZ

Dünya sirlərinə tərəzi qurdum,
Açdığım da oldu, açmadığım da.
Dağa, daşa çırpıb özümü yordum,
Hislərim göynədi, yandı bağrımda.

Dumanlı sirlərin biri sən oldun,
Riyazi düsturlar bezdi əlimdən.
Büründüm sevgimə eh... Sirli qaldın...
Döydüm çəkicimi zindanlara mən.

Aradım qəlbinə gedən yolları,
Hərəsi bir yana apardı məni.
Əridi əlimdə dağların qarı,
Əridə bilmədim həyatda səni.

Hər insan, özünə sığınacaq tapır,
Mən isə içirəm ürək yağımı.

Hər daşın altında bir qanun yatır,
Bəs niyə tapmıram axtardığımı?

Bəlkə də tapmışam, az qalıb sona,
Təki əllərimdən düşüb sınmasın.
Bəlkə də tapmışam alışa, yana,
Mənə külü qalar, yox, yox yanmasın.

Sevgi toxumunu səpdin qəlbimə,
Göyərib gül açdı dərmədin onu.
Bu sevgi əzizim yük oldu mənə,
Günəş də isidir açılmır donu.

Bəlkə axtardığım bu işimi elə,
Bir seviləndə, biri sevilmir.
Olub başdan-başa dünya fəlsəfə,
Bilmirsən ölməyin, qalmağın nədir?

Yox, deyən tapmışam bu qanunu mən,
Bilirsən dünyanın qiyməti nədir?
Gülüm, sevməsən də özün bilərsən,
İnsanı yaşadan yalnız sevgidir.

***1972***

## BİLMİRƏM DEDİM

Görüşə çağırdım, bilmirəm dedin,
Telefon əlimdə közərdi, nədən?
Düzü bu sözünü zarafat bildim,
İnana bilmirdim bu kəlmənə, mən

Danışdıq, güldük də istəyimizcə,
Yandı qəlbimizdə büllur bir çıraq.

Gəlmədin görüşə qısıldım küncə,
İndi kimə deyim sönübdür ocaq.

O çıraq nə idi, bu ocaq nədi?
Hə idi o sevinc, nədi bu kədər?
O bilirəm ki, bu bir güllədi,
Tutub bir yazığı, susub bir nəfər.

Bilmirəm söylədin, nə oldu xanım?
Yüklədin üstümə qəmi, möhnəti.
O gündən sancmışdı mənim dalağım,
Aldatdın, aldandım bu bir səhnədi...

Gəlmədin görüşə dünyam uçuldu,
Yapışdı əlimdən öz qara kölgəm!
Bilmədim dünyada bu yol nə yoldu,
Hamı qşoşa gedir, mən isə təkəm.

Yadında saxla ki, ürəyim təkdi,
Bunu çaşdım dedim Allah deyiləm.
Dörd yanım çəməndi, rəng-rəng çiçəkdi,
Mənsə qayalara dəyən küləyəm.

Qoy olsun təkliyə öyrənəsiyəm,
Qoy olsun bu dünya dözən dünyadı.
Get hara getsən də mən gələsiyəm,
İçimdə bir dünya qalmaqaldadı.

İstəyə çatıbdır hər sevən məgər?
Deyirsən onların birisi olum?
Köçsə də dünyadan şahlar, ərənlər,
Qoy mən bu dünyanın dirisi olum.

***1972***

## BAYRAM GÜNLƏRİNDƏ

Sən məndən də mənə əziz olmusan,
Hər əziz bayramda görüşmüşük biz.
Qəlbimin içində bir iz olmusan,
Çırpınır dərdindən göyərən dəniz.

Bayram günlərində birləşir yollar,
Bayram günlərində ayrılırıq biz.
Ayrılıb gedirəm dünyası lal, kar,
Ayrılıb gedirsən səssiz-səmirsiz.

Gedirəm ağaran ağ yollarla mən,
Ağaran yolların sonu görünmür.
Bayramlar tutsa da mənim əlimdən,
Biri görünsə də, biri görünmür.

Sayıram günləri ürəyimdə mən,
Bitirsən gözümdə gözümdən uzaq.
Həsrətdən ağarar saçlarım dən-dən,
Asılır saçımdan sırsıra-sızaq.

Axı bayramlarda niyyət edirəm,
(Bu gündə Tanrı da eşidən olur).
Hardan başlamışam, hara gedirəm,
Şəklim səninlə yanaşı qalır.

Dönür xatirəyə qoşa şəkillər,
Döünr xatirəyə bayram günləri.
Dönür xatirəyə nə bilim nələr,
Görünür hər şeyin, hər şeyin yeri.

Bayram günlərində qovuşuruq biz,
Bayramdan bayrama çatana kimi.

Bayram günlərində uçan qəlbimiz,
Uçur dəli külək yatana kimi.

Bayram günlərində yox olur həsrət,
Bəlkə də yenidən doğulmaq üçün.
Bir parça daş olur gözlərdə nifrət,
Ağrılı günlərdə ovulmaq üçün...

***1972***

## ŞAİRƏM MƏN

Çoxu məndən soruşur ki,
Hiyə belə fikirliyəm?
Didir məni qəlbimdəki,
O bilmir ki, şairəm mən?

Demirəm ki, dahiyəm mən,
Demirəm ki, Füzuliyəm.
Demirəm ki, Hadiyəm mən,
Demirəm ki, Həsimiyəm.

Demirəm ki, Bəxtiyaram,
Məmməd Araz nəfəsliyəm.
Deyirəm ki, mən də varam,
Bir tüfəngin lüləsiyəm.

Deyirəm ki, hə, şairəm,
Bir məhəbbət ovçusuyam.
Şir bürcündən baxan şirəm,
O sevginin acısıyam.

Könlüm doymaz, gözüm doymaz,
Bir xanımın baxışından.
Sözü olmaz, səsi olmaz,
Üfüqlərdən közərər dan.

O yazdırdı şeiri mənə,
Gördüyümü oldum yazar.
Gördüklərim bilə-bilə,
Ürəyimə hopar, sızar.

O söylədi: - Şairəm mən,
Şərqi dedi, oldum şair?..
Bax beləcə yol gedirəm,
Mənim sevgim fəlsəfədir.

Şairəm mən sözü güllə,
Məhəbbəti ulduzlu göy.
Mən, yazıram, gilə-gilə,
Yalvarıram, etmə giley...

***1972***

# MÜNDƏRİCAT

SƏN YAŞIMI SORUŞURSAN...............................................3
HƏLƏ DEMƏDIKLƏRIM.....................................................4
ÇISKINLI GECƏDƏ DÜŞÜNDÜKLƏRIM............................5
SƏNSIZ KEÇƏN BIR GÜNÜM.............................................6
DUZ SƏPDIN GECƏMƏ .....................................................7
SƏNDƏN AYRI GECƏLƏR ..................................................8
SƏN MƏNƏ BU AXŞAM.....................................................9
DİDİR MƏNİ GECƏLƏR ....................................................10
GECƏYARI ........................................................................12
GECƏLƏR YAŞAMIRAM....................................................13
GEDIRSƏN .........................................................................14
BILMIRƏM .........................................................................15
AYRILDIQ DÜNYADA .......................................................16
DARIXMIŞAM SƏNIN ÜÇÜN ............................................17
NƏ ŞIRIN ZƏNG IDI ...........................................................18
GÜNAHKARAM, GÜNAHKARAM ....................................19
MƏNIM NƏ GÜNAHIM......................................................20
BILIRƏM ............................................................................21
NƏ YAXŞI KI... ..................................................................22
«O» DA... «O» DA... ...........................................................23
GÖRÜŞƏ BILMIRIK...........................................................24
SƏNIN GÖZƏLLIYIN .........................................................25
SEVGISIZ YAŞAMAQ OLMUR .........................................26
INCIMIŞƏM .......................................................................27
DINƏN DEYILƏM ..............................................................28
DAĞ ÇƏKƏCƏM .................................................................29
SƏNIN ÜÇÜN YAŞAYIRAM .............................................30
GÖZLƏRIMDƏN UZAQ DÜŞMƏ .......................................31
SEVMIŞƏM ........................................................................32
SAXTA BIR INSANI SEVƏN DEYILƏM............................33
SƏN MƏNI BIR DAHA.......................................................34
AĞ ÇIÇƏYIM......................................................................35
MƏN VƏ SƏN......................................................................36
GÖZƏL OLUR ....................................................................37
TELEFONUN NƏ GÜNAHI ................................................37

SƏN GÜLƏNDƏ ....................38
MƏN SƏNI SEVIRƏM ....................39
ILAHI QIZ....................40
BƏDNƏZƏRDƏN UZAQ OL ....................41
BU GÖZƏL ÖZÜ DƏ....................42
DÜNYAMIN YAŞIL ƏLI....................43
NƏ BILIM BƏLKƏ DƏ... ....................44
GƏLDIK SAHILƏ ....................45
DEYIRSƏN SƏNINÇÜN ÇƏTIN OLACAQ ....................46
IŞIĞI - MƏHƏBBƏT, MƏHƏBBƏTI - NUR....................47
CAVABSIZ ŞEİRLƏR....................48
ŞEIR YAZMAYACAM SƏNƏ BIR DAHA ....................49
HARDAN BILƏSƏN?.. ....................50
YERLƏ GÖY ARASINDA....................51
MƏN QORXAQ DEYILƏM....................52
SEVGI NƏĞMƏSI....................53
BIR AZDAN ....................54
DANIŞ, ƏZIZIM DANIŞ....................55
ŞILTAQ QIZ ....................56
SEVGIMIN SAÇI DƏN-DƏN ....................57
AYRILDIQ ....................58
TÜRK GÖZƏLI, TÜRK QIZI ....................59
NƏ YAXŞI KI, SEVMIŞƏM....................60
SƏNSIZ HƏYAT DARDI MƏNƏ ....................61
YAR YARA YAR DEYIB....................62
SEVGI SƏPDIK QOBUSTANA....................63
SƏHƏR NURU ....................64
OĞRUN BAXIŞLAR ....................65
MƏN SƏNI GÖRMƏYƏNDƏ....................66
QORXURAM ....................67
ÖMRƏ BƏRABƏR AN ....................68
BIRCƏ SAAT....................69
MƏN BILMƏZDIM....................70
DƏYIŞƏ BILMIRIK ....................71
SƏNSIZ GÜNLƏRIM....................72
AĞ YAĞIŞ ....................72
IŞIĞI ALLAHDAN, DUASI SIZDƏN ....................73

TANIYIRAM....74
NÖQTƏ...NÖQTƏ....75
BU SEVGI....76
PARALEL YAŞANTILAR....77
BILIRƏM... BILIRƏM....78
YAĞIŞ....79
VƏDƏ VERDIK....80
SƏNDƏN XƏBƏRSIZ....81
BIR PAYIZ GÜNÜNDƏ....81
XƏYALA DALARKƏN....82
SEVDALI ANLAR....83
BEZMƏK OLMUR....84
HEYF KI, GECIKDIN.......85
BAĞRI LALƏLI GÜNLƏR....86
NƏ FAYDA....87
HƏR ŞEYI BILIRSƏN....88
BU SEVGI GÖYƏRMƏZ....89
NƏ BILIM....90
NIŞANƏ....91
ÇALINMIŞ BIR ÜRƏK....92
NAĞILA DÖNMÜŞÜK....93
SAHIL QAYASI....94
SEVIRDI DƏ, SEVMIRDI DƏ....95
NECƏ DEYIM ÜNVANINI....96
ONA....97
ŞƏRIKLI MƏHƏBBƏT....97
GÖZƏL....99
SƏN MƏNI GƏZIRSƏN....100
SƏNI HƏR GÖRƏNDƏ....101
SANIRAM KI, DÜNƏNDI BU....102
DÜŞÜB....103
VURULMUŞAM....104
DƏYMƏZ....105
BOZ DUMAN....106
QƏLBIMDƏ DƏFN EDIN.......107
SƏHƏR OVÇUSU....108
SƏNIN YOXLUĞUN....109

DƏRIN OLUR.....................................................................110
SƏNƏ ZƏNG VURURAM.......................................................111
IKIMIZ ..............................................................................112
QARŞIMA ÇIXAYDIN .........................................................113
SƏN DÖNƏN DEYILSƏN.....................................................114
SKRIPKA, GÖYNƏMƏ.........................................................115
SƏNSIZLIYI GÖRƏ-GÖRƏ..................................................116
SEVƏNLƏR GÜNÜ..............................................................117
YOLUM SIZƏ DÜŞƏNDƏ ...................................................118
HƏSRƏTIN SONU YETSƏ ..................................................120
YAŞAYA BILMƏZSƏN ... ...................................................121
«MOBIL» TELEFONLAR.....................................................122
DAŞ OLUB ÜRƏKLƏR... .....................................................123
TƏSƏLLI GƏZIRƏM ...........................................................124
ÖMRÜN TƏNHALIĞI...........................................................125
DƏRMƏK ISTƏYIRƏM.........................................................126
SƏN INDI UZAQSAN...........................................................127
EH, SƏNƏ NƏ VAR KI... ......................................................128
ÖZÜM DƏ BILMIRƏM .........................................................128
SEVƏN ÜRƏK.......................................................................130
HƏR BAHAR GƏLƏNDƏ ....................................................131
BARMAQLARIM SAÇLARINA DƏYMƏMIŞ..................132
HANI? ...................................................................................133
UNUDA BILMIRƏM BELƏ BIR ÖMRY ..........................134
EY QIZIL LALƏLƏR ..........................................................135
BIR BAYRAM PAYI ............................................................136
YRƏKDƏN SEVƏNLƏR .....................................................138
QƏLBIMDƏ OCAQ ..............................................................139
QOY SƏNI SIXMASIN.........................................................140
SƏN MƏNIM QƏLBIMDƏ...................................................142
QARA YARAŞMIR SƏNƏ ...................................................143
SEVGIM PUÇUR-PUÇUR ....................................................144
BAĞRIMA SIXACAM ..........................................................146
HISSLƏRIMI OYADAN QIZ................................................147
BIR QIZIL QUŞ OLUB.........................................................148
ÖZÜMÜ YOLUNDA ............................................................150
HEYKƏL QOYACAM ..........................................................151

UNUDA BILMIRƏM ....................................................152
GƏL BÖLÜŞƏK... ....................................................154
ÇƏPƏR ÇƏKƏRDIM ....................................................155
KƏDƏRLI OLANDA SƏN....................................................156
ON IKI SAAT ....................................................158
MEŞƏDƏ ....................................................159
MƏNIM GÖZLƏRIMDƏ ....................................................160
SU PƏRISI ....................................................162
MÜNƏCCIM OLSAYDIM... ....................................................163
BIRI SƏNƏ QARA DEDI ....................................................164
GETMƏK ISTƏMIRƏM....................................................166
SƏNƏ ZƏNG VURMAYANDA ....................................................167
GÖRÜŞ VERDIN, GECIKMƏ ....................................................168
SƏN MƏNIM GÖZYMDƏ... ....................................................170
XƏYALDA SƏYAHƏT ....................................................171
DOĞUM GÜNÜN ....................................................172
SEVGILILƏR ....................................................174
SƏNI XATIRLAYANDA ....................................................175
AXTARIR GÖZYM SƏNI ....................................................176
SƏNI SEVƏN GÜNDƏN... ....................................................178
ÜRƏYIMDƏ ....................................................179
BIZIM GÖRÜŞ YERIMIZ....................................................180
KÖNLÜMÜN ƏN DƏRIN... ....................................................182
GÜLLÜ YAZ IDIN... ....................................................183
MƏNI GÖRÜR, SƏNI GÖRMÜR ....................................................184
ŞEIRLƏR....................................................186
GƏL YAPIŞ ....................................................187
GÜNLƏRIM ....................................................188
BƏS NƏ EDIM MƏN?....................................................190
SEVMƏK BIR ƏFSANƏDI?....................................................191
YOL GEDIRIK ....................................................192
TƏLƏSIK ADDIMLAR... ....................................................194
SƏN MƏNIM GÖZÜMÜN MÖCÜZƏSISƏN ....................................................195
IÇIMDƏ ....................................................196
YAŞAYIRAM ....................................................198
TOXUNARDIM ƏLLƏRINƏ ....................................................199
KORDIOQRAMA ....................................................200

MƏNIMKISƏN ..................................................................202
HƏR SƏHƏR YOLUNU... ..................................................203
YAPIŞACAM ...................................................................204
VURĞUNUYAM ..............................................................206
EL-OBA DANIŞIR............................................................207
KAMERALAR ..................................................................208
ÜMIDIM VAR TƏK ALLAHA...........................................210
AD GÜNÜ KEÇIRDI........................................................211
MƏNIM SƏADƏTIM ......................................................212
IKI ÖMÜR .......................................................................214
SƏNSIZ QONAQ OLDUM... ..........................................215
MƏNIMLƏ ......................................................................216
SÖYLƏ, BU DA... ...........................................................218
NƏ SÖYLƏYIM? .............................................................219
MAŞININ SƏSINƏ... .......................................................220
ORADA GÖRMÜŞDÜM ..................................................222
BU GÜN SƏNI GÖRDÜM... ...........................................233
ƏLIM DƏYDI ƏLINƏ .....................................................224
QƏFƏSDƏ QUŞA DÖNÜRƏM .......................................226
DÜNYA BOYDA .............................................................227
ÖZ-ÖZÜMLƏ ..................................................................228
ARXIVDƏ .......................................................................230
MƏHƏBBƏTSIZ NƏ HƏYAT?........................................231
SƏNƏ NECƏ GƏLIR? ....................................................232
INANA BILMIRƏM... .....................................................234
SƏADƏTI QARALMASIN...............................................235
ÜRƏYIMDƏ DINCƏLIRƏM ..........................................236
MƏN HAZIRAM .............................................................238
SEVGI FƏSILLƏRƏ BÖLÜNMÜR .................................239
KÖLGƏLƏR......................................................................240
SƏN GÜLƏNDƏ .............................................................242
MƏN XƏSTƏ OLARKƏN ..............................................243
SƏN YADIMA DÜŞƏNDƏ ............................................244
QORXMADIQ..................................................................246
SƏN QARŞIMA HARDAN ÇIXDIN? .............................247
BIR ŞƏRQI ÇALIN ..........................................................248
MƏHƏBBƏT SATILMIR..................................................250

YAZIRAM SƏNƏ... ........................................................251
BU GIZLI SEVGININ... ...................................................252
BIR XATIRƏ GECƏSI ....................................................254
DANIŞA BILMIRƏM .......................................................255
DAĞLAR BIZI GÖZLƏYƏCƏK .....................................256
YUXULARDA ...................................................................258
ÜMIDIMI QIRMAYACAM...............................................259
ALIŞACAQ KIRPIYINDƏN ............................................260
BIR GÜNƏŞƏ BƏRABƏRDIR .........................................262
DEYIRSƏN KI, DEYIRƏM KI... .....................................263
SƏN ÖYRƏTDIN ..............................................................264
EŞITMƏYIR, EŞITMIRƏM...............................................266
ŞƏRQI ................................................................................267
HƏ DEYIM KI.....................................................................268
QƏLBIMIN AÇARI ..........................................................270
QURU SƏSIM... ...............................................................271
SAYIRAM GÜNLƏRI .......................................................272
TƏKI BU DÜNYADA... ....................................................274
DÜNYAYA YENIDƏN GƏLƏCƏKSINIZ .......................275
XATIRƏLƏR TOPLUSUNDA ..........................................276
SÖZÜM VAR ....................................................................278
BILƏN BILƏCƏK .............................................................279
KIM DEYIR KI? ...............................................................280
SEVƏHLƏRƏ BU DA AZDIR .........................................282
GÖRÜŞÜM OLACAQ........................................................283
MƏNIM AĞ YUXUM... ....................................................284
GÜNDƏLIK YAZAQ... .....................................................286
SƏSIM ...............................................................................287
ZƏNG ................................................................................288
ISTƏDILƏR .......................................................................290
AYIN SƏKKIZ GÜNÜ ......................................................291
HƏR DÜŞƏN GECƏNIN... ..............................................292
YOX, ƏZIZIM... ................................................................294
BIRI SƏNSƏN, BIRI MƏN ..............................................295
ÜN EDƏ BILMIRƏM ........................................................296
QISQANC OLMUŞAM .....................................................298
NƏ BILIM, BƏLKƏ DƏ... ................................................299

BULANACAM, DURULACAM ....................................300
BƏLKƏ DƏ... BƏLKƏ DƏ... ..............................................301
SEVGI YOLU .......................................................................303
MƏN O QIZIN AŞIQIYƏM ..............................................304
ÜMID....................................................................................305
SÜKUT... HARAY... ...........................................................306
BAX BELƏ... .......................................................................308
OLAN OLACAQ...................................................................309
MƏNSƏ QIŞQIRIRAM... ....................................................310
BAŞ ÇƏKSƏYDIN ...............................................................311
YANAR SEVGI ...................................................................313
QALIR ÜMID .......................................................................314
GÜLÜM, MƏNDƏN İNCİMƏ ..........................................315
BAĞIŞLAYA BİLMƏDİM..................................................316
GƏRƏK BOĞULAYDI .......................................................318
GERİYƏ BAXIRAM ..........................................................319
MƏN VƏ SƏN .....................................................................320
SƏN OL ...............................................................................321
GÖRÜŞƏ BİLMİRƏM .......................................................323
SƏN OLMASAYDIN ..........................................................324
SUSURSAN .........................................................................325
BİLMİRƏM, NİYƏ?.. ........................................................326
KÖZÜN, SÖZÜN... ............................................................328
SEVDİRƏ BİLMİRƏM... ...................................................329
SƏNİ, MƏNİ... ....................................................................330
DEYƏ BİLMƏZDİM..........................................................331
İLK BAXIŞ, İLK AN ..........................................................333
DOLAŞSA DA DÜNYAM... ..............................................334
BİRCƏ SƏNİ .......................................................................335
SƏN BİR OVUC .................................................................336
BAYRAM GÜNLƏRİNDƏ ...............................................338
SON QOYMALISAN ..........................................................339
O GƏLMƏDI GÖRÜŞƏ .....................................................340
QAYĞILAR .........................................................................341
SAYDIM... SAYDIM..........................................................343
AXI MƏN BELƏ DEMIRDIM............................................344
GÜMANIM ALLAHA QALIB ...........................................345

BIRCƏ MƏN BILIRƏM ....................................................346
O... ...........................................................................................348
BIR QIZIL XATIRƏ ..........................................................349
NƏ DEYIM?.. NƏ DEYIM?..................................................350
DAŞ YONAN DEYILƏM ....................................................351
QANIM QARALDI XANIM ..............................................353
AYIRA BILMIRƏM ............................................................354
GÜNAH ..................................................................................355
BAĞLAMA ÖZÜNƏ, BAĞLAMA MƏNI...........................356
AĞ HEYKƏLƏ DÖNƏRIK BIZ ..........................................358
MƏHƏBBƏT IÇINDƏ «MƏHƏBBƏT» ..............................359
PAYIZ GƏLIB DEYIRƏM...................................................360
YOL GEDIRƏM ..................................................................361
BİR ZAMAN TAPARSAN ..................................................363
QAR ƏLƏNIR ......................................................................364
TIKANLAR SƏPILIR ..........................................................365
MÖHTACAM ........................................................................366
SON ZAMANLAR ..............................................................368
ŞEIRLƏR YAZIRAM ..........................................................369
UNUT... UNUT.......................................................................370
XANIM ..................................................................................371
ÖZÜMƏ HARDASA... ........................................................373
SƏHƏR-SƏHƏR ..................................................................374
RUHUMDA QALACAQSAN ............................................375
ŞEYTAN ALDADIR SƏNI ..................................................376
QALACAQ DÜNYADA ......................................................378
DU... DU... ............................................................................379
DOMINO XƏSTƏSI ............................................................380
MƏNIM GÖZLƏRIMDƏ ....................................................381
QAYIT, QAYIDA BİLSƏN..................................................383
NİYƏ?.. NİYƏ?.. ..................................................................384
YALNIZ ................................................................................385
BİLMİRƏM DEDİM............................................................386
BAYRAM GÜNLƏRİNDƏ ..................................................388
ŞAİRƏM MƏN ....................................................................389

ŞAHMƏMMƏD

# SEÇİLMİŞ ƏSƏRLƏR
# Beş cilddə

Cild III

Yğılmağa verilmişdir: 29.03.09
Çapa imzalanmışdır: 29.05.09
Format 84x105, 1/16,
Ş.ç.v. 25, tiraj 1000

"MBM" mətbəəsində çap olunumuşdur.